TARİXİ METAROMAN

# CANLANMA

## Taleh Şahsuvarlı

**Müəllifin icazəsi olmadan mətbəədə çap etmək və ya internetdə yayınlamaq qəti qadağandır.**

**MÜƏLLIF HÜQUQLARINI QORUYUR!**



***Taleh Novruz oğlu Şahsuvarlı*** *10 mart 1977-ci ildə Bərdə rayonunun Qazıqırdualı kəndində anadan olub. Bakı Dövlət Universitetin tarix fakültəsinin və Yasamal rayonundakı 20 saylı orta məktəbin nəzdində təşkil olunmuş Respublika Tarix Litseyini ekstern yolla bitirib. Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsində ali təhsil alıb. 1995-ci ildən jurnalistika sahəsində çalışır. Azərbaycanda ilk müstəqil tələbə qəzetinin naşiri, mətbuat tarixində ən gənc qəzet baş redaktoru olub. "Seçki mübarizəsi" adlı elmi monoqrafiyanın müəllifidir. Azərbaycanın tanınmış siyasi analitiki və liberal düşüncənin əsas müdafiəçilərindən biridir. 2002-ci ildən "Pragma" İctimai Siyasət Mərkəzinin direktorudur.* ***"Canlanma"*** *müəllifin ilk bədii əsəri və Azərbaycanda ilk tarixi metaromandır.*

# “T”OVLAMA

Küy kəndində o ara hər kəs özünü vacıb adam sayırdı, Barses. Gör nə aləm idisə, ayrı çağ  darvazası döyülməyən, duralğada sözü kəsilən, məclisdə sifarişi yaddan çıxarılan Cıbı bələdiyyə sədrinin, sahə müvəkkilinin, hakim və müxalif yönlü siyasi fəalların görüm-baxımından sevincəyə düşmüşdü. Danışanda sözünü kəsmir, hələ desən, cibinə xərclik basırdılar; el şənliklərində qabaqca Cıbının havasının çalınması üçün ya sifarişlər geriyə saxlanır, ya da onun özünü irəli çağırıb oynadır, əlinə şabaş verirdilər. Dədəsi Cıbı olduğuna görə ələ salınan, cırnadılan əlaçı gədəsinin ayağına bahalı çəkmə alıb geyindirmiş, əlinə bir qom gül vermişdilər, yanına gözəl-göyçək qız qoşmuş, şenliyin girəcəyində, üzərinə “Küy kəndinin dünyada özünəməxsus yeri vardır” yazılmış dəmir lövhəni saxlayan dirəyin qənşərində durğuzmuşdular.

Hər iki əlaçı şagird lövhəyə yazılanları azı yüz dəfə gözdən keçirmişdi. İndi oğlan qıza gözlədikləri qonağın ölkəsi, o ölkənin baş kəndi barədə danışır, böyüyəndə Belarusa gedəcəyini, Minsk şəhərini doyunca gəzəcəyini söyləyirdi. Yaxşı oxuyan və kənddən qırağa çıxmamış o oğlan uşağı öz xəyallarından danışdıqca rövnəqlənirdi. Onun düşdüyü xam xəyallar gəzməkdən, görməkdən savayı, həm də gözdən-könüldən uzaq bir kənddə fərqlənmək cəhdi idi və həmin arzunu əlində gül saxlayan qıza danışmaq aradakı açılıb-ağardılmamış sevgidən irəli gəlirdi.

Əlaçı oğlan özündən iki sinif aşağıda oxuyan qızdan xoşlanırdı, onu sevdiyinə inanırdı. Qəlbindəkilərə inansa da, özünə güvənmirdi, hələ “Cıbının oğlu” kimi qəbul edildiyi, adını çox adamın bilmədiyi kənddə sevdiyi qıza ürəyini açmaqdan,

dilə-dişə düşməkdən çəkinirdi. Cıbının oğlu hələ uşağıydı, ağlı çox şeyi kəssə də, hələ kor idi. Qızı qısqandırdığını, yaranan qısqanclığın öz əleyhinə işlədiyini görmürdü. O danışdıqca qız bədbinləşir, sevə biləcəyi oğlanın ölkədən çıxmağından, gedib urusa-murusa, xaxola-maxola ilişməyindən əndişələnirdi. Əldə saxlaya bilməmək, unudulmaq qorxusu kənddə adına söz çıxmağın fəsadlarından çəkincəkliyə qarışıb ərgənləşmə çağında qızın duyğularına zərbə vururdu. Gülün yarpaqlarını oynadan qızın üzü qızarıb-bozarırdı, rəng verib, rəng alırdı, başını qaldırıb ona baxan olsaydı, ürəyini üzündə görərdi, açıqdan-açığa hər şeyi başa düşər və sevməsə də, sevmək ərəfəsində olduğu adamı həmişə gözünün qabağında görmək arzusundan doğan "səni heç hara qoymayacam" nidasını eşidərdi. Di gəl, Cıbının oğlu gözünü yerə zilləyərək danışırdı. Onlar «Ququ» Əhlimanın "011"-nin kənddə məmə yeyəndən, pəpə deyənə qədər hamının qulağında qalmış siqnalını eşidərək göz-gözə gələndə gec idi, qızın rəngi üzünə gəlmişdi, başa düşüləsi bir şey qalmamışdı.

Yüngülvarı fınxırdıb "Ququ" Əhliman arabasını saxladı. Balam, ondan çıxmaz iş, yanında heç kim yoxuydu. "Heç kim yoxuydu" deyəndə maşından Elmidar da düşdü, zira bir yerə onunla gəlmiş "Ququ" Əhliman qoşa sayılmazdı.

Elmidar "özəl"lərdən hansındansa hüquqşünas diplomu almış, rayon gənclər və idman idarəsində işə düzəlmişdi. Hər il fevral ayında keçirilən Respublika Gənclər Forumuna bu sənə onu da göndərmişdilər. Forumda ölkə başçısının çıxışını əli gicgahında aramla dinləyərkən başı iri planda efirə verilmişdi. Elmidar iri planda efirə gedən başını başlara qoşmaq xəyalına düşmüş, yerişini dəyişmiş, pencəksiz gəzməyi özünə ayıb bilmiş, rəhbərin rəsmini yaxasına sancmış, "Zəngimcell"inə Ulu Öndərin səsini yazdırmışdı. Di gəl, bunlar azıydı, çox azıydı və Elmidarın "Ququ" Əhlimana yoldaş olmasına hələ xeyli varıydı.

"Ququ" Əhliman alverçi Çimnazın əriydi. Babalı deyənlərin boynuna, danışırdılar ki, qızlığında Çimnaz kənd

dükanında işləyirmiş; bir gün mağazanın müdiri döşünə əl salıb, o da zavmağın əlini dişləyərək qaçıb. Alışverişdə əli olan Çimnaz daha dükanda işləməmişdi, büllur qab-qacaq alverinə başlamış, Cəlilabad bazarından mal daşımaqla rayonun ən yaxşı alverçisinə çevrilmişdi. "Ququ" Əhliman onu uşaqlıqdan sevirmiş, əsgərliyini çəkib gələndən sonra qıza elçi göndərmiş, dədəsinin razılığını alaraq adla deyilən düyün eləmişdi. "Ququ" Əhlimanla Çimnazın düyünü ona görə adla deyilirdi ki, kənddə ilk videoçəkiliş məhz onların məclisində aparılmışdı. O gündən gəncəli videoçəkənlə əsgər yoldaşı olan Əhlimanın adı dillərə düşmüşdü. Kənd bir qırağa, rayonun sayılıb-seçilən adamları, vəzifə, mənsəb sahibləri xeyir iş edəndə əsgər yoldaşını video çəkməyə çağırması üçün ona ağız açmışdılar. Sözlərini yerə salmamışdı. Həm pul-para qazanmış, həm məclislərdə havayı yeyib-içmiş, həm də "iş aşıran" adam imici qazanmışdı. Sonradan-sonraya hər gədə-güdə əlinə bir kamera alıb məclis çəkəndə "Ququ" Əhlimanlıq iş qalmamışdı, iş qalmasa da, salam-kəlam qalmışdı. Onun sanlı sanılmasının əsasında və arxasında sözünə qonu elədiyi adamlar dayanırdı. "Ququ" Əhliman Cıbıdan-mıbıdan danışmazdı. Ağzına aldığı ən balaca adamın adı Əmək və əhalinin sosial müdafiəsi nazirliyinin yerli şöbəsində divara müdir kimi asılardı. Ondan aşağı adamlar dilinə gəlməzdi. İcra başçısının, polis rəisinin, prokurorun, hərbi komissarın yerində olub-olmadığını, kimi danladığını, kimi qınadığnı rayonda hamıdan yaxşı məhz o bilərdi. Nərdini-dominosunu kəndin bələdiyyə sədri, icra nümayəndəsi, sahə müvəkili ilə oynayardı, onlarsız Mosunun yeməkxanasına ayaq basıb bir şiş lüləkabab yeməz, yüz qram araq içməzdi, əsla. "Ququ" Əhliman anadangəlmə vergiliydi və o vergisinin sayəsində rayonun "iri buynuzluları"nın süfrəsində yeri vardı. Valideyn və övlad haqqında ondan yaxşı, ondan yanıqlı, ondan şirin sağlıq demək hər oğulun işi deyildi. Elə hər oğulun işi olmadığına görə də, məclis olmuşdu ki, dediyi sağlıqdan sonra rayonun ən vəzifəli

adamlarından biri- bu barədə danışanda "Ququ" Əhliman həmişə "adını çəkməyəcəm" deyərdi- masanın başındaca zar-zar ağlamış, sükan arxasına keçib maşınını düz "İmamzada"ya sürmüş, dizin-dizin sürünərək dədəsinin başdaşını qucaqlamış, "Quran" oxumağa gələn mollaya cibindən dollar çıxardıb vermişdi. Vəzifəli adamları nədənsə həmişə bir kirvəngə ağır çəkən elin gözündə yaxşı adamıydı "Ququ" Əhliman. Danası oğurlanan, cibindən bir çəkimlik nəşə çıxan, oğlunu əsgərlikdə yaxşı yerə saldırmağa çalışan, müəllimə qızına iş soraqlayan kənd sakinləri, lazım gələndə, - lazımın da ayağı kənddən kəsilmirdi - onu deyib gələrdilər. İnsafən, məzənnəni qaldırmazdı "Ququ". O işin qabağında ona bir çolpa, yaxud hinduşka qonaqlığı verərdilər, verməzdilər öz işləriydi; əgər verərdilərsə, o qonaqlıqda kəndin icra nümayəndəsi, bələdiyyə sədri, sahə müvəkkili yuxarı başda əyləşərdi. Respublika Gənclər Forumunda rəhbəri dinləyən, özü də əli gicgahında dinləyən yerdə efirə gedəndən sonra layiq idi ki, o "dairə"yə Elmidar da düşəydi; o "dairə"yə düşə bilmək, Sədrəddinin dükanının qabağındakı duralğada "Əhlimangil filankəsin qapısında yeyib-içirlər" deyiləndə "gil"in içində saman çöpü olmaq naminə Elmidar "Ququ"nun "011"-ni hər gün yumağa razıydı. Lakin Elmidara hələ "balağıdar" deyirdi Əhliman, "Ququgil"ə çevrilmək üçün genəlməli, gen-bol olmalıydı. O günlər uzaqda deyildi, yaxındaydı, lap yaxındaydı; ömründə ilk dəfə olsa belə, "Ququ" Əhlimanın qırmızı "011"- nə minmişdisə, deməli, gün gələcək onunla eyni masa arxasında da əyləşəcəkdi. Elmidara ümid verən varıydı. İcra başçısının sol əli- icra başçısı solaxay idi- "qlavar"ları- kənd icra nümayəndəsini, bələdiyyə sədrini, sahə müvəkkilini, seçki komissiyası sədrini, o cümlədən Elmidarı öz yanına çağırıb "öz adamımızdır" dediyi Milli Məclis üzvlüyünə namizəd Baxış Əliyevə seçkilərdə kömək olmağı, "Azadlıq" blokunun adayı Azin Kürəçinin burnunu ovmağı qarşılarına vəzifə qoyanda, lazım gələrsə, o kürəçidi, kirəçidi-nədi, onun üzünə dirənməyi şəxsən Elmidara həvalə

edəndə qonaqlıq boyun olmuşdu. Əgər işin öhdəsindən uğurla gəlsələr, icra başçısının sol əlinin Əlişin çaylağında verəcəyi qonaqlıqda "Ququ" Əhliman"gil" olacaqdı Elmidar. Mərdimazar olmasa, bağ çəpəri neynər, Elmidarın kürkündə gəzməyə çıxan bir birə vardı. Birə Elmidarı qaşındıra bildikcə qaşındırırdı. Qaşındırırdı ona görə ki, Belarusdan Küy kəndinə müşahidəçilər gəlirdilər, yoldaydılar. Ürəyinə dammışdı ki, gələn qonaqlara açılacaq masada yer kəm olacaq ona.

"Ququ" Əhliman maşından düşmədi. Elmidar Körpülü- ölkədə inşa edilən körpülərin şərəfinə, o, özünü belə adlandırırdı- arabadan yerə endi, maşından düşməyən Əhliman onun sürücüsünə oxşadı. Yerə enən Elmidar Körpülü biləyinə baxıb başını buladı. Çox keçməmiş Küy kəndinin müəllimləri gəldi. Elmidar Körpülü bir də biləyinə baxıb gələcək vəd edən vəzifəli gənclərə xas ədayla onları danladı. Dalınca Həzi sınıq-salxaq "04"-nü yolun qırağında saxladı. Onun maşınından kənd poliklinakasında həkim işləyən iki gəlin, onlardan birinin eyni yerdə xadiməlik edən qayınanası və Belarusdan gələcək qonaqların xəbəri çıxandan "el ağsaqqalı" cərgəsində əzizlənən "Qozqur" Kərim düşdü.

"Kənd yolundan, igid namından bəllidir"- deyiblər, adından məlum olduğu kimi, "Qozqur" Kərim qozqurmağı, gopa basmağı sevərdi. Gopsuz yaşaya bilmirdi, dilinə çay-çörək dəyməsə dözərdi, yalan gəlməsə dəli olardı. Qapıda işləyəndə yerdən ilan çıxardı, Kərim kişi qorxub-eləməzdi, diri-diri boğazlayar, ilanın başını əzərdi. Gecə çişi və o biri işi gələndə çölə çıxsa, pəyənin qabağında ağzından od püskürən əjdahalar görərdi. Özünü yanğınsöndürən zənn edər, alovun üzərinə bir vedrə su əmdərər, vedrəni başına keçirib yabayla əjdahanı öldürərdi. Məhlənin ayağında zibillik vardı, öldürdüyü ilanların, əjdahaların hamısını ora qolazlayardı, yabalığını gəlib arvadına danışardı. Arvadı səhər yuxudan duranda gedib zibilləyə baxar, gözünə bir şey dəyməzdi. Öldürdüyü ilanların yoxa çıxmasında Kərim kişinin gümanı bircə

yerə gedirdi. Günaşırı gözünə görünüb ona eşq elan edən yekədöş haldan quşqulanırdı. Onun cəsurluğuna, qorxmazlığına dəyər verən yek varlıq o hal idi. O halda cəsurluğunu başqalarının görməsinə könlü razı olmayan da elə o hal idi. Yaxşı ki, son günlərdə hal dəyişmişdi. Gec də olsa xəyalları gerçəkləşmişdi Kərim kişinin. Şenlikdə "əsas oğlan" hesab edilməkdəydi.

"Əsas oğlan" bir sürə Belarusda yaşamış, Belarusun indiki lideri Lukoşenkonun sədr olduğu kolxozda işləmişdi. Onun Lukoşenko ilə bağlı nə qədər anıları vardı. Kir-pasaq əlinə baxmayıb Lukoşenkonun ona salam verməsi, iclasda adını çəkib öyməsi, anasına söyməsi, döşünə medal asması, şuma basması qəbilindən olan anıların hərəsini danışmağa uzun bir qış gecəsi gərəkiydi. Kərim kişi o anılara yalan calamazdı. Bunu bilirdilər. Bunu bilən kənd başbilənləri ayrı çağ cavanların məzələndiyi "Qozqur" Kərimi qəfildən el ağsaqqalı elan edərək, qonaq-qara qabağına çıxardırdılar. Öldüyü yerdə onu ölməyə kəndin icra nümayəndəsi qoymamışdı. Gələn müşahidəçilərin başçısını Kərim kişi ilə eyni maşında əyləşdirəcəkdilər. O da Lukoşenkodan gen-bol danışacaqdı. Qonaqlara seçki komissiyası sədrinin qapısında süfrə açılacaqdı. Çox adamın olması münasib sayılmamışdı. Müşahidəçilərdən biri canısulu qadın, biri cavan oğlan olmalıydı. Canısulu xalanı «Ququ» Əhliman almışdı boynuna, oğlana Elmidar qulaq asacaqdı. Elmidar qonağa gərəyincə qulluq eləməyə Sevayla Cevanı behləmişdi.

Sevanın əsl adı Sevgiladə, Cevanınkı Cəvahir idi. Onları əzizləyərək elə çağırırdılar. Ceva böyük idi Sevadan, ona prodüsserlik edirdi. Lap körpəliyindən Sevanın elmdən zəhləsi gedərdi, o, anadangəlmə çal-çağır əhliydi. Belə oxumaqla arası yoxdu, elə oxumaqla arası vardı. "Səma" kanalında düzənlənən "Ulduzların cəngi" yarışmasına sənəd vermiş, seçim mərhələsində elənərək kəndə dönmüşdü. Üzüqoylu kəndə qayıdandan bəri Mosunun yeməkxanasında oxuyur, elin gözündə bir kirvəngə ağır gələn adamların xudmani məclislərini yola

verirdi. Seva yarışmada ələnib Bakıdan rayona qayıdanda dəmir yolu vağzalında Respublika Gənclər Forumundan dönən Elmidarla qarşılaşmışdı. Bir kupeyə düşmüşdülər. Biləcərini keçəndə Seva məhrəmləşmiş, ayağını ayağının üzərinə aşırmış, himiylə, cimiylə "gəl-gəl" demişdi. Forumda gənclərin üzərinə qoyulan vəzifələri yada salaraq Elmidar ona xor baxmamışdı. Vaqondan başlanan məhrəmlik günbəgün sevgiyə çevrilmişdi, kəndin qırağındakı çəkillikdə öpüşməyəcən uzanmışdı. Öpüşməkdən o yana keçə bilməmişdilər, "qız uşağıyam" deyib Seva bədənində irəliləməyə qoymamışdı Emişi, vaqondakı him-ciminə məhəl qoymayan həmkəndlisinə özünü bakirə qələmə verməyi bacarmışdı. Gənc müğənninin danışığında dörd əsas sözdən biri "şou-biznes", "səhnə" və "paxıllıq"la yanaşı "namus" olmuşdu. Seva evdə duz çuvalına dönmüş bacısını Belarusdan gələcək müşahidəçi oğlana sırımaq xəyalına düşdüyündən razılıq vermişdi bu işə, yoxsa Elmidarın sözünə məhəl qoymazdı.

Kəndin girəcəyinə xeyli adam yığılmışdı. Qonaqlar indicə gəlməliydilər. Hamı səbirsizliklə yola baxırdı. Uzaqdan bir maşın göründü. Maşına baxıb nırç elədilər: "yox əşi, bu olmaz!" Arabanın belində, yalan olmasın, bir "Kamaz"ın yükü vardı. Yük daşımaqdan hay-hayı gedib, vay-vayı qalmış "Moskviç" adamların yanında dayandı. İçindən sürücüylə yanaşı, kəkilini pırpızlamış bir gədə də düşdü. Dar cins şalvar geyinmişdi, üzərinə "free and fair" yazılmış köynəyini şalvarına salmamışdı. Müsafiri maşına mindirənlər onun Küy kəndində "ekzad pol" işinə baxacağını demişdilər. Başqa bir şey deməmişdilər. Darşalvar gədə "hay" deyib yığışanların üzünə baxdı. Ona cavab verdilər: Hay, hay... Pıçhapıç düşdü. Kənddə özünə yaxşı ev hördürən, evinə bahalı "pol" döşədənlər varıydı. Görən, kimiydi "ekzad pol" sifariş edən? Nəmənə zadıydı "ekZAD pol"? Hamı çönüb dülgər Səmiyə baxdı. Dülgər Səmi "ekzad" o zaddır ki, gərək onu pazlayasan"- deyərək həmkarının ağzını aradı:

- Heylə döyül, qağa?

Qağa dil bilmirdi. Ha elədi, bir şey andıra, qandıra bilmədi. Axırda rusca bildiyi yeganə sözü dedi: "YAŞİK..."

- Ə, özüm ölüm, o heç bilmir ekzad pol nədir!.. Onu qağandan yaxşı döşəyəmməz ingilis-mingilis - dülgər Səmi döşünə döydü- o, dülgər döyül, mənim yanımda yeşik düzəldəndir...

Elə o hində maşından "fokus" Yaşar düşdü. Maşından düşər-düşməz müsafirə sarı yüyürən Yaşarı belə görən olmamışdı bineyi-qədimdən. Seçki komissiyası sədrinin üzündəki ifadədən bu polun, o poldan olmadığını oxudu hamı. Yaşar dülgər Səmiyə him elədi. Dülgər Səmi darşalvar gədənin gəldiyi "Moskviç"dən diyircəkli çemodanı sürüyüb yerə saldı. Çemodanı ehmalca aparıb Yaşarın maşınında yerbəyer elədi. "Baxarıq bu çemodan Küy kəndində necə diyirlənəcək"- geri döndü. Yaşar darşalvar gədənin amerikan olduğunu, Belarusdan qonaqların gəlməyəcəyini və Avropa Şurasının Küy kəndinə səsvermə günü xüsusi müşahidəçilər göndərəcəyini dedi, qonağı yanına salıb evlərinə apardı.

***

Məxmər müəllimə havalı gəldi. Əyninə geydiyi narıncı köynəyin yuxarıdan iki düyməsini bağlamamışdı, narıncı yubkası darıydı, o qədər darıydı ki, ona baxanda gen dünyada adam sıxılırdı əməlli-başlı. Seçki komissiyası sədrinin o irəli mərmərlənmiş hovuzunun qırağında ayağını ayağının qabağına qoyub dayanmışdı. Yaşarın qızları pəncərədən Məxməri güldürən darşalvar gədəyə baxıb "bir-birinə yaraşırlar" deyirdilər. "Fokus" Yaşar gözünü ağardıb onları pəncərədən yığışdırdı, qonaqların yanına gəldi.

İcra nümayəndəsi, bələdiyyə sədri, mülki geyimdəki sahə müvəkkili və Elmidar süfrənin başında dayanmışdılar. Əhliman ingilis dili müəlliməsi, Amerikadan gələn müsafirə dilmanclıq edəcək Məxmər müəlliməyə him elədi:

- Sən canın uzun eləmə, deginən yanını yerə qoysun!

Darşalvar gədə ac olmadığını söyləyib Məxmər müəllimə ilə birgə Küy kəndini gəzməyə yollandı. “Ququ” Əhliman ona həmən bir ayama yapışdırdı: “səy”... Onlar hırıldaya-hırıldaya darvazadan çıxanda “Ququ“ Əhlimanın sözüylə hamı bir ağızdan razılaşdı: “səyin biri səy...” İcra nümayəndəsi seçki komissiyasının sədrindən soruşdu:

- Yaşik, sən bilərsən, onun əynindəki kişi şalvarıdır?

Sahə müvəkkili səhərdən acıydı, doğrusu, onun qarnının ac olmayan gününü görən heç olmamışdı. Özü dərhal süfrəyə əyləşdi, Elmidarı səy gədənin dalınca göndərdi: “birdən qıza əl uzadar, izlə, gör neynirlər, hara gedirlər...” Elmidarın qanı qaraldı. Pisikdi. Səy gədəni güdməyə yollandı. Bir papiros alışdırıb səy gədənin hara cəhənnəm olduğunu öyrənmək fikriylə Sədrəddinin dükanına sarı addımladı. Dükanın qabağında Cıbıdan savayı kimsə yoxuydu, o da dəmiydi. Ayamasına qarışdıraraq hind filmindən əzbərlədiyi mahnını zümzümə edirdi: “Cıbı, Cıbı, cıbbbii... zubi, zubi, zubbii...” Elmidarı görəndə “cıbbi” deməyi ar bildi özünə. Mahnının sözlərini dəyişdi: “zubi, zubi, zubbii... bobi, bobi, bobbi...” Guya elə əvvəldən belə oxuyurmuş...

Mahnını kəsib yaxınlaşan Elmidara bircə sual verdi. Cıbının o bircə sualı Elmidarın ölülərini qəbirdən çıxardıb seçici siyahısına saldı:

- Balam, sən nəyunuz «Ququ» Əhlimangilnən vurmursan?

***

O gecə şahidi olduğu olayı Elmidar dərhal sahə müvəkkilinə xəbər verdi. Gördüklərini birər-birər danışan Elmidara sahə müvəkkili “gecdir, cum evinizə” dedi və ona başa saldı ki, ağzından söz qaçırmasın. Elmidar evlərinə yollandı. O, doqqazlarından yorğun-arğın içəri girəndə, bayaq dayandığı yerə, lap dəqiqi, Məxmərin dədə evinin çəpərini əvəz edən kolluğun arasını yararaq sahmana saldığı gizli müşahidə səngərinə sahə

müvəkkili gəlib soxdu özünü. Əvvəlcə Mübariz kişinin məhləsini dinşədi. Müşahidə səngərinin yaxınlığındakı daxaldan şəhvani səslər gəlirdi. Qarğı daxalın hay-hayı gedib, vay-vayı qalmışdi, nə qapısı vardı, nə pəncərəsi. Açıq qapıdan düşən ay işiği daxalın içini aydınladırdı. Yun çırpmağa və ya buna bənzər ev işləri görməyə qoyulmuş paslı çarpayının başından Məxmərin narıncı köynəyi, narıncı yubkası, narıncı lifçiyi sallanırdı.

Onlar həvəsdən düşüb müşahidə səngərinin qabağından evə gedəndə, Məxmərdən gələn xoş qoxu aləmi bürüdü. Sahə müvəkkili qoxunu burnuna çəkərək bayaqdan bəri qurdaladığı qabağını sonuncu dəfə sıxıb ofuldadı. Əhlimana SMS yazdı: "Ququ, özüm ölüm, səy elə biziymişik..."

Səhər yeməkdən sonra Məxmər süfrəni yığışdıran anasına göz elədi: "bir hovur əl saxla!" Gözü qızının boynundakı qaradan su içməyən arvad yanını yerə qoydu. Məxmər anasından Riçardı soruşdu.

- Mama, deyirəm, bu Riçard yaxşı oğlandır, hay?

- Nə bilim vallah, belə baxanda- arvad oğlana qıyğacı bir nəzər saldı, adını eşidən Riçardın dişləri ağardı- pis gədə deyil, gənə məni qınama, elə bil bir az səydir!

- Səy niyə olur, az?

- Nə bilim ay bala, üzünə baxanda dişlərini ağardır, gənə məni qınama.

- Dodağına gülüş qonub, gülüşünə vurulmuşam, vurulmuşam...

- Bıy, başıma xeyir! Məxmər, gənə məni qınama, ciddi deyərsən ha birdən, İmamzada haqqı, ömür boyu üzünə baxmaram!

- Lap ciddi deyirəm, biz Riçardla evlənmək qərarına gəlmişik. Dədəmə xəbər elə!

Arvad inanmadı. Nə gözlərinə, nə qulaqlarına. Ərşadın üzünə baxdı. Dil bilməsə də, onun üzü gülür, gözləri Məxmərin sözünü deyirdi. Arvad bu yerdə gərək üzünü cıraydı, saçını

yolaydı, cignə çəkəydi, ancaq heç birini eləmədi. Qonşuların eşidəcəyindən, haya gəlib məsələdən xəbərdar olacağından, vurğun vurmuş vurulmuş qızının adına söz çıxacağından qorxdu. Səbrini bassa da, yanını yerə basa bilmədi, əriylə gənəşməyə durdu.

Mübariz kişinin nahara kabab çəkmək fikri vardı, quzunun boğazına yenicə bıçaq cəkmişdi. Qan başına vurdu:

- Özüm ölüm, şaqqalayaram o qızı dı, ingilisi də!!!

- Əl saxla hələ kişi, qardaşını, bacını çağır, gənəş, gör nə deyirlər- arvad kişinin gerçəkləyəcəyindən qorxdu.

Ağsaqqallar və ağbirçəklər gəldilər. Əyri əyləşdilər, düz danışdılar. Hər üzünü fikirləşdilər. Elçi gələn olmayandan, şirinçay içilməyəndən, buyruq buyrulmayandan, oxumuş qız olduğuna görə savadsız qızlara veriləndən iki "paşka" çox başlıq parası alınmayandan, parça biçilməyəndən, xına yaxılmayandan, zifaf gecəsini yengə pusmayandan, üçgünlük keçirilməyəndən sonra qızı uzağa vermək hamısına ağır gəldi. Hamının adından maması Qızılgül çağırıb Məxmərə çox öyüd verdi, danladı, kar olmadı. Qız elə bil kar oldu. Məxmərə gözü düşən oğlanların, qəlbindən onu qohumuna-qardaşına adaxlamaq keçən arvadların adlarını bir-bir sadaladı, qulağına girmədi. Qızılgül mamasının pıçıldadıqlarını Məxmər bir qulağından alıb, o biri qulağından çıxardanda, anası qapıdan bir hinduşkanın ayağını kəndirləyib Molla Qədimin doqqazına yüyürdü. Çaldığı qələm daşı üyüdən Molla Qədim "ildırım eşqinə qarşı" dua yazdı; əlini salıb, ayıb olmasın, ayıb yerindən çəkdiyi qılı qurd yağına bulaşdırdı. Dua limonlu suya salınmalı, limonlu suyu qız içməliydi. Dua qızı qızmağa qoymayacaq, Molla Qədimin qurd yağına bulaşdırılmış qılı da kimin pencəyinin cibinə basılsa, o adam xədim olacaqdı.

Evə gələndə baldızı Qızılgülü pərişan gördü:

- Aaz, ürəyini qısma, gör onların başına nə oyun açıram, bildirçinin bəyliyi darı sovrulanacandır, qurd yağını köynəyinə

çəkim, Ərşad da qulağının dibini görsün Məxmərin üzünün əvəzinə, indicə Molla Qədimgildən gəlirəm.

- Onu oyana elə sən İmamzada, gəl qızı verək!

- Yüz il qalaaaa!!!

Baldızı Qızılgül Məxmərin bakirə olmadığını, dünən gecə gönü suya verdiyini danışdı. Qız anasının ürəyi keçdi. Özünə gələndə bircə kəlmə dedi: "qancığı verək, başımızdan rədd olsun..."

Ağsaqqalar bir də yığışdılar. Mübariz kişinin oğlu Ümidi yada saldılar. Ümid Kanadada yaşayırdı. İnişil gedib Kanadaya sığınmışdı. Bəlkə elə Məxməri ABŞ-a gəlin köçürməkləri yaxşıdır? Mübariz kişinin balaları niyə ayrı düşsünlər bir-birindən? ABŞ-la Kanadanın arası budur-buradır...

***

Küy kəndinə seçki günü çoxlu müşahidəçilər, sosioloqlar gəldi. Sosioloqlar çıxış sorğusu zamanı səs verən sakinlərdən heç zad öyrənə bilmədilər. "Kimə səs verdin" sualına seçicilərin ancaq bir cavabı vardı:

- Quu... Quu.. Quu.. Quu...

Axşam düz səslərin sayılması anında xəbər yayıldı ki, səsvermə yeşiyini əkişdiriblər. Komissiya sədri Yaşar yeşiyin yoxa çıxmasını vecinə almadı. Müşahidəçilərin bəzilərinin də başa düşəcəyi dildə komissiya üzvlərinə yüksək səslə dedi:

- **Yaşik YA!**

# CƏRGƏ

Quşbaşı qar yağırdı. Quşa dönmüşdüm. Qurtulurdum artıq. "Qumbara" kafesində oturmuşduq. Baş leytenant Qubalı, baş leytenant Quliyev, gizir Qubadov, gizir Qurbanov və gizir Qunduzovla birgə ordudan tərxis olunmağım haqqında müdafiə

nazirinin verdiyi əmri yuyurduq. Gecə bölüyə cavabdeh qalmış gizir Qulamov günortadan evə getmişdi. Bölük komandiri, kapitan Quluncovun hərbi hissədə işi vardı, avtomatların qundağını rənglədirdi. Müftə yeməyi əldən buraxmazdı, özünü yetirəcək, divardakı yarıçılpaq estrada ulduzlarına baxa-baxa Natadan danışacaqdı. Rusiyada hərbi məktəbdə oxuduğu illərdə məşuqəsi Nata ilə yaşadığı intim həyatın bütün detallarını bilirdik, min dəfə eşitmişdik, minbirinci gecənin nağılına qulaq asmağa həvəsim olmadığından, yubanmağı ürəyimcəydi. Həm də ona görə ürəyimcəydi ki, onun Natayla macəralarını gizirlərin içində danışması baş leytenant Qubalının NATO zabiti şərəfinə xələl gətirirdi. Natadan söz düşəndə Qubalı göz-qaşını oynadacaq, stolda zabit-gizir ayrıseçkiliyi yaranacaqdı. Hərçənd bizim bölükdəki gizirlərdən biri, lap dəqiqi, Qurbanov hərbi hissədəki yeganə qadın zabitlə evlənmişdi. Söz-sözə gələndə "mən evdə zabit... əstəğfürullah" deyərək arxasını yerə vermirdi. Baxmayaraq ki, gizir Qurbanovun qonşuluğunda yaşayan hərbi qulluqçular leytenant xanımın gecələr verdiyi "farağat" komandasından səksəkəyə düşmüşdülər. Zabitənin o komandanı kimə, yoxsa nəyə verməsi hərbi hissədə əsas lağlağı mövzularındanıydı. Gecələr yalnız farağat komandasının verilib, "azad" komandasının verilməməsi də məsxərəyə qoyulardı. Bayağı lağlağılar, məsxərələr eşitməyəcəkdim daha. İki həftədir yolunu gözlədiyim göyçək əmr hərbi hissəyə günortaya yaxın yetişmişdi. Vaxt itirmədən təhvil-təslimə başlamış, axşamacan qaiməni əksər rəislərə imzalatmışdım. Kazarmada kürkümü çıxardıb gün nöbvətçisinə vermiş, günlüyümü qonşu bölükdəki ehtiyyatdan çağırılmış leytenanta, toqqamı dembellərdən birinə bağışlamışdım. Çəkməmi və formamı gizir Qurbanov istəmişdi.

Əlimə pul gələcəyini bildiyindən hərbi şəhərcikdəki kafenin Qubadlıdan qaçqın düşmüş sahibi "Quşbaz" Niyaz qulağı bizdə ola-ola oğluna göstəriş verir, masaya bir ucdan quzu əti, qutab, kotlet, salat, spirtli və spirtsiz içkilər göndərirdi. Gizir

Qurbanov, adəti üzrə, ilk qədəhdən keflənmişdi. Qunduzov arağı çappa stəkanla içsə də, üzündə sərxoşluq əlaməti gözə dəymirdi. Can qardaş- ləzgi idi- fal-fal doğranaraq üstünə nar sıxılmış soğana əl uzadana göz ağardır, Niyazın tərifləyə-tərifləyə masaya yolladığı soyutma tikələri, kotletləri içəri ötürürdü. Baş leytenant Qubalı hər qədəhin dalınca siqaret alışdırır, bir-iki qullab vuraraq quyruğunu qaldırıb belinin tirinə qoyur, bizi tüstüyə verirdi. Quliyev tez-tez xəyala dalırdı. Həmişə bəxtindən gileylənən və özündən şübhəli olan gənc zabit canımı qurtarmağıma qibtə edir, mənə bəxtəvərçilik verirdi. Gizir olmasına baxmayaraq, hörmətinə görə kiçik zabitlərlə bir tutulan Qubadov hissəyə gəldiyim ilk günləri xatırlayır, tabor komandirinin tapşırığıyla cavabdehlik prosesini, günün nizam qaydalarını öyrənmək üçün onunla növbədə qaldığım gün məni xamlayaraq cərgəyə qoyduğunu, bölüklə birgə otuzdurub-qaldırdığını danışır, gülürdük. Ertəsi gün əhvalat bütün tabora yayılmışdı, tabor komandiri, mayor Aranlının da qulağına çatmışdı, zabitlə məzələnmək gizir Qubadova baha başa gəlmişdi, cavabdeh saxlanıb evə buraxılmamışdı. Həmin gün tabor komandiri öz yanına çağıraraq boyumu yerdən çıxartmış, yaxşı zabit olacağımı təxmin etməklə qoltuğumu qarpızlandırmışdı. Yola-yolağaya bələd olanda mən özüm də Qubadovdan acığımı çıxmışdım, giziri qarovulda normadan artıq yatmağa qoymamış, əlinə nizamnamə verib şəxsi heyətə oxutmuşdum. Yalanın, kələyin norma olduğu o mühitdə dürüstlüyünü xeyli dərəcədə qoruyub saxladığından yoldaşlığımız tutmuşdu.

Hə, Fateh Mirzə, - gizir Qubadov sağlıq dedi:

- Cərgədə heç kimin yeri boş qalmır, amma dolmur da.... Zarafat edirəm, - o, yerində qurcalanıb ciddiləşdi- biz orduya təkcə canımızı yox, həm də adımızı qoyub gedirik. Bəzilərinin gözündə sən orduya leytenant gəlib, leytenant getdin; mənim nəzərimdə kişi kimi gəlib, kişi kimi gedənlərdən oldun"- sözünün

o biri ucu tağım komandirini, rütbə üçün sinov gedən baş leytenant Qubalını tuturdu.

Qədəhlərimizi boşaltdıq. Niyaz dayı ortalığa öz hesabından təzə araq qoydu, bizə qoşularaq sağlığıma badə qaldırdı.

"Ay bləd, bölük kef edir, heç gör rota komandirini gözləyən varmı?"- arxası qapıya oturmuşdum, içəri girən kapitan Quluncovun üzünü görmədim, səsini eşitdim:

- Bləd, gedən tağım komandiri nə slujbada quyruq ələ verdi, nə də drujbada, görək təzə tağım komandiri kollektivə necə girəcək? Deyəsən, qayınanası çox istəyir, yeməyin üstünə gəlib çıxıb..."

Yerimə gələn tağım komandirini görmək, kadr yoxsa ehtiyyatdan çağırılmış zabit olduğunu bilmək marağıyla dala baxdım. Ay bləd, qurudum qaldım. Kor-kor, gör-gör, qarşımda Azin Kürəçi durmuşdu.

Bizim tanış çıxmağımız, qonşu kəndlərdən olmağımız, hətta paralel siniflərdə oxumağımız maraqlı təsadüf sayılaraq stolda çox danışıldı. Təzə tağım komandiri kollektivə girəndə süfrədə liderliyi ələ alaraq kapitan Quluncovun quluncunu əlüstü sındırdı.

Biz kafedən çıxanda artıq gec idi. Şəhərcikdə məskunlaşan qaçqın taksi sürücüləri NBM-in qabağında müştəri gözləməyib evlərinə dağılmışdılar. Cib telefonuna zəng edərək Adışirin dayını çağırdım. Adışirin dayı ilə sözüm-söhbətim tuturdu, o olan yerdə başqasının maşınına minməzdim. Maşına dörd nəfər oturduq. Kapitan Quluncov tabor üzrə cavabdeh qaldığından bizimlə getmədi, bizimlə gedən digər hərbi qulluqçular yaxınlıqdakı qəsəbədə düşdülər. Fürsəti fövtə vermədim:

- Qağa, sən hara, buralar hara?

Başına gələnləri uzatmadı. Parlament seçkilərində "Azadlıq" blokunun 94 saylı Bərdə seçki dairəsindən deputatlığa namizədi olmuş, səsvermədə qalib gəlmişdi. İqtidar, türkün sözü,

onun əlinə deputat mandatı əvəzinə çağırış vərəqəsi vermişdi. İstehza etməyə haqqı vardı, əlbəttə. İqtidarın başını ağrıdan jurnalistləri, siyasətçiləri, QHT fəallarını orduya yollaması birinci hal deyildi. Özü də onların çoxunu ön cəbhəyə, səngərə salırdılar, adətən. Görünür, Azini arxa cəbhəyə, paytaxtın yaxınlığında yerləşən hərbi hissəyə göndərməklə iqtidar öz rəqiblərinin reytinqini qaldırmaq, cəfakeş və qəhrəman obrazlarını yaratmaq istəməmiş, əksinə, ordunun "cəzaçəkmə müəssisəsi" olmadığını sərgiləməyə cəhd göstərmişdi.

Azini tapdım. Birlikdə tabor komandirinin tərbiyəvi işlər üzrə müavini, mayor Nadir Hüseynovun yanına getdik. Hərbi hissə komandirinin cərgədə "zampolit Quseynov" çağırdığı bu zabit ağıllı, güclü və insansevər adamıydı. Onun sağlığına içəndə həmişə rus yazıçısı Anton Çexovdan sitat gətirərdim: "insansevərlik istedaddır!" Gətirdiyim sitatı belə izah edərdim ki, talant insana uğur qazanmağa, insansevərlik cəmiyyətə faydalı olmağa kömək edir. Mayor Hüseynov faydalı adam idi. Çox kasıbın balasını qorumuşdu, umacaqsız-filansız düzü əyrinin ayağına verməmişdi. Qurdalasan, onun yolunda ölümə gedən, heç olmazsa, bir əsgər çıxardı cərgədən. Mənə də çox köməyi dəymişdi. Aradakı yaş, rütbə, mövqe fərqini qırağa qoyub dostlaşmışdıq. Hərdən evinə aparar, qonaqlıq verərdi. Özü içməsə də, daim soyuducuda meyvə arağı saxlayardı. Mənim meyvə arağından vuraraq bala-bala sərxoş olmağımı seyr edər, yüzü adlayıb fəlsəfədən, ədəbiyyatdan, sivil dünyadan danışmağıma ləzzətlə qulaq asar, söhbət Azərbaycandan düşəndə başını bulayardı. O, başını bulayaraq yalana və yenilgiyə etiraz edirdi. Yalana və yenilgiyə nifrət etmək bizim ortaq cəhətimiziydi. Mayor Hüseynov Qarabağ uğrunda döyüşmüş, yaralanmış, qar altında qalmış, ölümdən təsadüfən xilas edilmişdi. Hərbi sahədə təhsil almasa da, yenilgini içinə sindirmədiyindən ordudan getməmişdi. Orduda qalmasına peşman deyildi, peşman olmasa da, məmnun da sayılmazdı, səbirsizliklə istefaya çıxacağı günü gözləyirdi.

Mayor Hüseynovun kazarmadakı otağının açarı çox zaman məndə olardı. Hərbi hissədə gecələyəndə otaqdakı stulları yan-yana düzər, üstünə uzanıb gözümün çimirini alardım. İçəri tək girəndə heç zaman qapını döyməz, hərbi subardinasiya qaydalarına ancaq yanımda adam olanda əməl edərdim. Ənənəni ilk dəfə pozub qapını taqqıldatmadan açdım, "gələn mənə çox yaxın adamdır" mesajını verdim.

Tabor komandirinin müavini zabitlərin konspektlərini yoxlayırdı. Məni mülki geyimdə birinci dəfə görməsə də, məzələnməyə ipucu tapmaq niyyəti ilə üst-başımı xeyli süzdü:

- Bəs qalstuk niyə vurmamısan, Fateh Mirzə?

- Mənə qalstuk hədiyyə edəcəyinizi eşitdim, qəsdən taxmadım ki, fikrinizi dəyişməyəsiniz!

- Məndən olsa heç qalstuk taxmarsan, şair hara, qalstuk hara?! Sənə dəbilqə düşür, bəlkə onda başını salamat aparasan gora...

- Qoy o dəbilqə Azin Kürəçiyə qalsın, təki onun başına bir iş gəlməsin burada.

"Zampolit" sərraf adamıydı, quşu qanadından, adamı gözündən tanıyardı, bir yana baxanda, Azini ona tərifləməyim, yerli-yataqlı təqdim etməyim artığıydı, Kürəçi orduda baş çıxaracaq, barmaqla göstərilən zabitlərdən olacaqdı. Buna şəkk eləmirdim, sadəcə, ürəyim durmurdu. Uşaqlıq dostumun orduya mümkün qədər tez uyğunlaşmasını arzulayırdım. Mayor Hüseynovla dostlaşarsa, özünü hərbi hissədə tənha, adamlardan uzaq hiss etməyəcəyini düşünürdüm. O acını mən yaşamışdım. İnsanın bütün keyfiyyətlərinin heçə sayılıb, sadəcə, saya gələn, sıraya düzülən, cərgəyə qoyulan varlığa dönüşünün nə qədər çətin olduğunu bilirdim. Ürəyimə dammışdı ki, mayor Hüseynovun qulluq etdiyi tabora təsadüfən salmayıblar Azini. Əgər başına bir iş gəlməsini istəmirdilərsə, onu professional şəkildə xətadan-bəladan qoruyacaq zabit məhz mayor Hüseynov idi; ortaya ayrı niyyət çıxsa, tabor komandirinin müavinini Azinin

gözünə qatacaq, belə demək mümkündürsə, qurunun oduna yandıracaqdılar. Təmizliyi, peşəkarlığı və ötkəmliyi ona qarşı çoxlarında, o cümlədən üst düzeydəki zabitlərdə bəzən qıcıq yaradırdı. Bunu yaxşı başa düşən mayor Hüseynov siyirməsindən "tağım komandirləri ilə fərdi söhbət dəftəri"ni çıxartdı, mənə uzadaraq son tapşırığını verdi: "yoldaş zabitlə bağlı qeydlər apar!" Fərdi söhbət dəftərinin belə tez yada düşməsi o demək idi ki, mayor Hüseynova Azin Kürəçi haqqında hələ söz deyilməyib, deyilərsə, onda işini ehtiyyatlı tutan zabit başını aşağı salmayacaq.

Mayor məzuniyyətdə, yaxud hospitalda olanda vəzifəsini daxili əmrlə mən icra edərdim, işinin incəliklərini mənimsəmişdim. Dəftəri alaraq Azin Kürəciylə "dərin məzmun"lu fərdi söhbət apardım, ona düşmən tapdağı altında qalmış Qarabağdan, əsir düşmüş qız-gəlinlərdən, silahlı qüvvələrin səbirsizliklə Ali Baş Komandanın döyüş əmrini gözlədiyindən, ordu quruculuğunun günbəgün genişləndiyindən danışdım, yeni tağım komandirini içdiyi hərbi anda sadiq zabit kimi xarakterizə etdim. Andıra qalaydı onun içdiyi and...

Azin Kürəçi rütbə almamışdan qabaq and yerinə BDU-nun hərbi hazırlıq kafedrasının müəllimləri ilə sərin NZS pivəsi içmişdi. Üstündə pivə almağa qara quruş olmadığından yataqxanaya gəlmiş, məndən borc istəmişdi. Onun hərbi and əvəzinə bir balon pivə içməsini gözümlə gördüyümdən söhbətin o hissəsini xüsusi pafosla yazdım və dəftəri əvvəlcə Azinə, sonra mayor Hüseynova verdim. İmzalama mərasimi bitəndə mayor Hüseynov Azinə xırdalamağa başladı:

- Yoldaş leytenant, mən o adama dəstək verərəm ki, verilən tapşırığı icra eləyəndə çətinliklərlə qarşılaşsın. O adamı himayə edərəm ki, zəif, aciz, sadəlövh olsun, başına qapaz vurub, çörəyini əlindən almasınlar. O adamın hörmətini saxlayaram ki, vicdanlı və mərd olsun. Mən sənə hörmətlə yanaşacağımı hiss edirəm. Sənə dəstək vermək mənim vəzifə borcumdur. Sən zəif adam deyilsən, qazılsa, sənə elə gen quyu qazılacaq ki, məni,

yaxud tabor komandiri Aranlını da içinə yumalaya bilsinlər. Dünyanın istənilən ölkəsinin ordusunda iki cür nizam var. Bu nizamın birini yazılmış qanunlar yaradır, digərini yazılmamış. Qorxaqlar yazılmış qanunlara tabe olur, səfehlər yazılmamışlara. Ruslar haqlı deyirlər, nizamnamə doqma deyil. Bir zabitin ordunun yazılmamış qanunlarına, o cümlədən insaniyyətə məhəl qoymayıb, dünyaya nizamnamə tələblərindən baxması ona şərəf qazandırmaz. Nizamnamənin tələblərini kobudcasına pozmaq da baha başa gəlir. Sənə dörd maddə söyləyəcəm, onlar bütün yazılmış və yazılmamış hərbi qanunlardan səni qoruyacaq: Həqiqəti gör, amma danışma! Nə qabaqda get, nə arxaya qal! Cərgəyə gecikmə! İlk zərbəni sən vurma!

Otağının açarını əlimdən alıb Azinə verdi. Yeni tağım komandirinə günorta fasiləsi zamanı orada dincələ, gecə hərbi hissədə qalası olsa, stulların üstündə yata biləcəyini söylədi. Otaqdan çıxanda mayor Hüseynovun maddələrini Azinə izah elədim:

- Burada vurulmaqdan qorxmaq yolverilməzdir. Əl qaldırmağa meylli olanlar özlərindən zəif olanları təpə-qapaz edirlər. Əgər elə bir parabeyinlə münaqişədən qaça bilməsən, onu özünün güclü olduğun müstəviyə çək. Əzələsinə arxayın olanlar hüquqlarına güvənənlərin qabağından yeyirlər. Qorxduqları adamı şantaj eləməkdən çəkinmirlər, yeri gələndə. Düzülüşlərə gecikmədin, cərgəyə vaxtlı-vaxtında durdun, üzərinə diqqət cəmləmədinsə, başını salamat qurtaracaqsan buradan...

Kazarmanın qabağında ayrıldıq. Azin əşya anbarından uniforma almağa getdi, mən ştaba təhvil-təslim qaiməsinə axırıncı qolları çəkdirməyə girdim. İncəvara, lazım olan adamların hamısını yerində tapdım, qaiməni imzalatdım, sonuncu qol dalınca hərbi hissə komandirinin yanına qalxdım. Komandir mülki həyatımda mənə uğurlar dilədi:

- Deyirlər, yerinə gələn tağım komandiri qohumundur...

- Xeyr, yoldaş polkovnik,- komandir əslində polkovnik-leytenant olsa da, hərbi hissənin zabit və gizirləri rütbəsini bir pillə qaldırmaqla ona kompliment deyərdilər- qohumum deyil, qonşu kənddəndir, çoxdan tanıyıram, savadlı və mübariz oğlandır.

- Deyirsən yəni müxalifətin adamıdır?- komandir üzgörə məndən söz alırdı.

- Mən biləni, o heç bir siyasi partiyanın üzvü deyil, hərbi xidmətə gələnə qədər QHT sədri olub. Sadəcə, "Azadlıq" bloku cəmiyyətdə tanınan və hörmət bəslənən demokratik fikirli gənc kimi son parlament seçkilərində onun namizədliyini dəstəkləyib.

- Sən yerlinə ordunun siyasətdən kənarda durduğunu izah edərsən. Onun mülki həyatındakı siyasi baxışlarının mənə dəxli yoxdur, hərbi hissə komandiri olaraq mən ondan yaxşı xidmət tələb edəcəm. Görüm vaxt tapsam, çağırıb özünə də deyərəm.

Komandir köhnə qurduydu. Daim quyruğu paçasında gəzir və məhz qurnazlığı sayəsində paytaxtın həndəvərində yerləşən hərbi hissəyə illərdir komandirlik edirdi. Barmağımı dişlədim, dişinin altında nə isə vardı onun, görəsən, nə idi komandiri quyruqda qoyan? Cavabı çox gözləyəsi olmadım. O, masasının üzərindəki qəzeti mənə itələdi:

- Yazılanlar düzdür???

Qəzetdəki kiçik məqaləni o qədər hövsələsiz oxudum ki, nəşrin adına da fikir vermədim. Məqalədə yazılırdı: "Azin Kürəçi universitetdə "boz kardinal"ın oğlu ilə birgə təhsil alıb. O zaman tələbə yoldaşının evinə get-gəl edib və atasının hörmətini qazanıb. Görünür, onu müxalifət liderinə çevirmək istəyir iqtidar. Kürəçini hərbi xidmətə yollamaqda məqsəd odur ki, orduda olmaması gələcəkdə ona irad tutulmasın. Əgər hökumət onu cəzalandırmaq istəsəydi, ön cəbhəyə göndərərdi. Göndərməyibsə, deməli, onu qoruyan məmur var."

İnformasiya başdan-ayağa yalanıydı, Azin Kürəçinin tələbə yoldaşları arasında nəinki "boz kardinal"in oğlu, heç hansısa icra

başçısının qızı da yoxuydu. Zəhləm getmiş komandiri dolamaq, yazılan dezinformasiyaya inandırmaq, qarşıdakı ilyarımda Azinin xırda-para məsələlərdə "günah keçisi" elan edilməsinə yol verməmək qərarına gəldim:

- Yoldaş polkovnik, Sizə bir söz deyəcəm, amma çox xahiş edirəm, bunu məndən eşitməmiş olasınız- komandirin çuğullara güvəndiyini bilirdim.

- Narahat olma, ikimiz də cayıl oğlanıq!

- Bilirsiniz, yoldaş polkovnik, yerlim olduğuna görə düz çıxmır deməyim...

- De, de! Yerlin guya çox bilir qədrini...

- Bilirsiniz, yoldaş polkovnik, Azin Kürəçi "boz kardinal"ın adamı olmaqdan əlavə, həm də general Quzanlınskinin qızını sevir. Ailələr yaxınlarda quda olacaqlar.

- Dogrudan?- Müdafiə Nazirliyinin yüksək çinli qulluqçusunun adını eşidən polkovnik qulaqlarını şəklədi.

- Amma çox xahiş edirəm...

- Bir daş altda, bir daş üstdə!- sözümü kəsdi.

Mən artıq mülki vətəndaş idim, hərbi hissəyə birdəfəlik "əlvida" deyirdim. Azin xidmətə sabahdan başlayacaqdı. Belə günü qeyd eləməyə dəyərdi. Özümüzü "Qumbara" kafesinə verdik. "Quşbaz" Niyazın yanından lül dəm çıxanda tabor komandiri İlkin Aranlı ilə qabaqlaşdıq.

Mayor Aranlı öz sahəsi üzrə bilikli kadr idi. Hərbi taktikanı dərindən bilir, toplanışlarda həmişə yüksək bal yığaraq hissənin üzünü ağardırdı. Mülkidən gələn zabitlərdən ağılla yararlanar, taborun səviyyəsini qaldırardı. Dediyinə görə, istənilən qərarı verəndə gözünün qabağına şərəf məhkəməsi gəlirdi. Avtomil xidmət rəisi kimi yaltaq, üzlü və çoxüzlü "çiynində paqon gəzdirənlər"in quyruğunu bulaya-bulaya şərəf məhkəmələrinin keçirildiyi kluba girməsini, söz alıb ona moizə oxumasını özünə sığışdırmırdı. Özünü başqa tabor komandirlərinə tay tutmaz, tabeçiliyindəki zabit-gizirlərin

boğazına "Quşbaz" Niyazın kafesində şərik olmaz, mobil telefonunu həftədə bir kərə dəyişməzdi. Aranlının "Siemens" markalı telefonu o qədər köhnəlmişdi ki, birdən zəng çalardı, birdən yox. Həmişə nasaz olan "Jiquli"sini hərbi şəhərcikdəki evinin qabağında saxlayar, məhz maşınını düzəltdirmək ümidi ilə oynadığı "Ailə sevinci" lotereyasına pul düşməməsini Allahın əlinin pis yerdə olmasına bağlayardı. Bizi görəndə lopa bığları tərpəndi, mənə göz vurub Azinə xox gəldi:

- Qudurasan qurbağa, mən bunu kepka dalınca göndərmişəm, bu da gəlib mülki vətəndaşla "ətirlənir" Niyazın xosmasında...

- Qoy içsin, sabahdan kefi istəyəndə ətirlənə bilməyəcək-araq içməyə "ətirlənmək" deyən Aranlıya öz jarqonu ilə cavab verdim.

- Qusmağı da var ha, içməyin... Əşi, əsas məsələ "ətir"lənmək deyil, hərdən yola vermək olar belə şeyləri- Azinə öz "qızıl maddə"sini başa saldı:

-Mənə heç vaxt kəf gəlmə!

***

Hərbi xidmətdən qayıtdığım iki ay idi. Yuxudan oyansam da, yatağımdan qalxmamışdım. Arabir zəngləşdiyim Azinə mesaj yazdım: "Altda bizim canımız çıxır, dözürük; evyıxanlığa, əliəyriliyə fürsət gəzirik; hamımız xoflanırıq ilgəhdən; jandarmalar kəlləmizi qoparır; lal, maymaq, nadan oluruq; ölürük paxıllıqdan, ruhumuz sevinmir, şərə tapınırıq; utanmır üzümüz, vəhşiləşirik; yaltaqlanırıq zalımlara..." Çox keçməmiş cavab gəldi: *"Hacı Zeynalabdin Tağıyev qəsəbəsində patrul rəisiyəm. Qaydaları pozan hərbi qulluqçuların qarşısını kəsəsiyəm. Düzünü bilmək istəyirsənsə, məni qaydaların pozulması yox, yazılması narahat edir..."* Yataqda uzanmağa səbrim çatmadı, əynimi geyinib Tağıyev qəsəbəsinə, leytenant Kürəçinin patrul xidmətində olduğu parka getdim.

Azin öz köhnə hərbi mundirində gəzməyi xoşlayan yaşlı rus proporşiki söhbətə çəkmiş, çənəsinin altına salıb nostalji hisslərini oyatmışdı. O, ağzının suyunu sıçrada-sıçrada keçirdiyi gözəl günlərdən danışırdı. Həftəsonları düzənlənən rəqs axşamlarından, qadınlarla macəralarından, o zamankı qayda-qanundan, səliqə-sahmandan, proporşiklərin gül kimi yaşamasından ağız dolusu dəm vururdu. Parkdan azca aralıda təzə tikilən villaların hündür hasarlara alınmasını anlamırdı, başa düşmürdü heç cür.

Patrul rəisi qoca proporşiki haqsız saymır, ona qıy verirdi. Azərbaycanda insanların özlərini gizləmək, qapatmaq meyllərinin getdikcə gücləndiyindən, adamların yad baxışlardan qorxduğundan, sərbəst yaşaya, sərbəst gəzə, sərbəst əylənə bilmədiyindən təngə gəldiyini deyir, restoranlarda müştərilərin kabinetdə yeyib-içməsinə, oturuşunu, yeyişini, gülüşünü, lap elə öpüşünü başqalarından gizlətməsinə qarşı çıxır, həmsöhbətini qızışdırırdı. "Düz deyir dyadya Qubin, "birdən görərlər, pis baxarlar" əndişəsi imkan vermir camaat xoş gün görə. Elə deyilmi, Fateh?- verdiyi sualı ürəkdən təsdiqləyib onu sabiq proporşikdən araladım.

Hacı Zeynalabdin Tağıyev qəsəbəsində əvvəllər rus hərbçiləri yaşayıb. Cavanlıqlarının parlaq keçdiyi dodaqlarındakı boyadan bilinən tək-tük babulyalardan və gödək, seyrək taxtalarla çəpərlənmiş xudmani evlərdən özgə qəsəbədə rus izləri qalmayıb. Heykəllər adamlardan çoxdur parkda. Vladimir İliç Leninin ağacların arasındakı büstünə süpürgə çəkən olmayıb. Lenindən o tərəfdəki abidə 20 yanvar şəhidlərinə qoyulub, yan-yörəsinə çiçəklər əkilib. Dörd addım aralıda qəsəbəyə adı verilmiş neft milyonçusu Hacı Zeynalabdin Tağıyevə daş yonulub. Başqa bir heykəl yerli camaatın Ulu Öndərə sevgisini əks etdirir. Sevgi qarşılıqsız deyil: "Hacı Zeynalabdin Tağıyev qəsəbəsinin dünyada özünəməxsus yeri vardır!"

Patrulların nahar fasiləsi çatmışdı. Parkdan çıxmağı təklif etdim. Bazarın tinindəki Nuh əyyamından qalma qəlyanaltının pəncərəsində bir şüşəni üzərinə "Xaş" yazılmış karton kağız əvəz edirdi. Qəsəbənin ən təmiz iaşə obyektinin yay bərkidilmiş qapısından ehtiyyatlı olduq. Stol və stullar qırıqdı, qənd qablarına atılmış konfetlərin kağızında əl qalınlıqda kir vardı. Piştaxtanın küncündəki göstərməyən, ancaq səsi çıxan köhnə sovet televizoruna "radio" demək daha düzüydü. Protez dişli xidmətçi ağlına verəndə qablamasını dəsmala büküb cibinə qoyur, ürəyi istəyəndə cibindən çıxardıb ağzına salırdı; deyəsən, qəlyanaltının sahibi də elə özüydü. Daimi müştərisi ilə qabaq-qabağa çay içirdi. Söhbətlərindən belə çıxırdı ki, müştəri cavanlıqda hərbçi olub, ətrafdakı hissələrin birində proporşiklik edib. Proporşik qabaqkı komandirlərin şəxsi heyətə etdiyi zülmlərdən, "kombriq"dən, "kombat"dan, "zampolit"dən it kimi qorxmağın vacibliyindən və evinə daşıdığı kartof taylarından, dondurulmuş balıq yeşiklərindən, yağ qutularından danışırdı. Hövsələm bir tikə oldu:

- Kim bilir, bəlkə bizim bu proporşik elə bayaqkı rusla eyni hərbi hissədə xidmət eləyib. Rus xatirələrində əyləncəni yaşadır, azərbaycanlı zülmü. Bayaq çənəsini qızışdırdığın komandirlərdən eşitdiyi təriflərlə, verilən ödüllərlə öyünür, gözümüzün qabağındakı yiyəsi olduğu söyüşlər, aldığı cəzalarla. Sarı halal qazancı ilə təşkil olunan rəqs gecələrində əylənəndə, qara oğurluğunun üstünün açılmasından qorxaraq yuxusunu qarışdırırmış. Onların ikisi də eyni məbləğdə məvacib alıblar. Nədən parkda hava alan gözü tox, vicdanlı və səmərəli yaşayıb, hüyüşdə boğulan tamahkarlıq, oğurluq və ziyanvericilik etməkdən özünü saxlaya bilməyib?

- Ay geridəqalmış,- səmimi münasibətdə olduğu adamlara həmişə belə xitab edərdi, - bizim xalq əsrlər boyu əsarətdə yaşayıb, özünü vətəninin sahibi hiss etməyib çox zaman. Sahibkar özünə ziyan vurmur, nökər isə ağadan oğurlamağa çalışır. Vərdişini tərgidə bilmir nökərlər...

-Axı, məsəl var, ağanın malı gedər, nökərin canı?

- Nökərin canına dua oxuyanda demirlər ha...

- Ya nökərin canı, ya əsgərin canı, kimdir bizə dua oxuyan!- o biri patrullar da dilləndi.

Əsgərlərdən biri Alqayıt Abışov, digəri Əli Ələsgərov idi. Alqayıt millətçiydi, laçınlıydı, məcburi köçkün düşərək "Qurtuluş" şəhərciyində məskunlaşmış xalasının qızını sevirdi, əsgərliyini çəkib evlənəcəkdi. Əli dindarıydı. Ən böyük arzusu bir səhər yuxudan oyananda başının üstündə baş leytenant Qubalını görməməkdi. Hərbi təhsilini Türkiyədə almış Qubalı "əsgərin Allahı komandiridir" deyə-deyə Ələsgərovun gününü göy əskiyə bükmüşdü. Gənc tağım komandiri istəsə şalbana tutmağa da irad tapardı, anda qala, Ələsgərov tağımın dirəklərindən deyildi.

Xaş qazanı qızdı. Dırnaqlar dişə gəldi. Ələsgərov "bismillah" deyərək əlini çörəyə uzadanda azyaşlı oğlunun başını tumarlaya-tumarlaya içəri yeni müştəri girdi. Oğlan çox sevimliydi, ağıllı cocuğa bənzəyirdi. Atanın saçı dağınıq, sifəti tüklü, geyimi nimdaşdı, əziyyət çəkən və içən adam olması dərhal sezilirdi. Qablamadiş kişi onların qabağına bir qab yemək və "çubuş" qoydu. Ata-bala çörəklərini bir kasa xaşa batırıb yeyirdilər. Ata araqdan az-az süzür, stəkanı balasının burnuna vuraraq gələcəyimizin sağlığına içirdi. İçdikcə itə dönürdü- çubuş coşur, zingildəyir, hürür, hürə-hürə köpək olurdu. Oğlunu gözləyən it həyatı sərxoş köpəyi hönkürtdü:

- Mən başıma haranın daşını salım, dərsə göndərə bilmədim küçüyü, yekəlib mənim tayım olacaq...

O bir kasa xaş və "çubuş" ata ilə balanın ilk birgə qazancı idi. Yemək  Azinin boğazında qaldı:

- Kimin vecinədir bu uşaqlar? Bir yandan valideynlərin güzəranı, bir yandan təhsil sisteminin yarıtmazlığı onları erkən yaşlarından əməyə sövq edir. Döyülürlər, söyülürlər, ac qalırlar, pis yola düşürlər, öz uşaqlıqlarını yaşamadıqlarından psixopata

çevrilirlər. Dinəndə hamı özünə onunla bəraət qazandırır ki, keçdiyimiz paza balalarımızın xatirinə dözürük...

- Sən niyə qələbəni qoruya bilmədin, Azin Kürəçi?- bilmədən aşırtdığım sarımsaqla birgə hirsimi deputatlığa namizəd olmuş patrul rəisinin üstünə tökdüm- rayona hərbi komissarlıqda qeydiyyata düşməyə gedəndə təhsil aldığımız orta məktəbə uğradım. Ana dili və ədəbiyyat müəlliməmlə görüşmək istəyirdim. Dərs dediyi sinfin qapısını döydüm. Şagirdlər seyrək idi, birindən savayı, hamısı oğlanıydı. Müəllimə dərsə davamiyyətdən şikayətləndi. “Oğlanlar dana saxlayırlar,- başa saldı- rayondakı topdansatış mərkəzlərində hamballıq edirlər, qızlar ərə gediblər. Sovet hakimiyyəti illərində Azərbaycanda formalaşan məktəb ənənələri məhv olur. Kimin ağzı nəydi o zamanlar şagird qızı ərə versin? Bəlkə, ölkənin hansısa dağ rayonunda hərdən erkən nigaha rast gəlmək olardı, Bərdədə əsla! Problemin kökünü başa düşməyənlər günahı müstəqillikdə görürlər. İşə bax, gərdişə bax, Azin, tənəffüslərdə mənə “Azadlıq” qəzetini oxutduran müəllimə, tutalım, Cəfər Cabbarlının “Od gəlini” pyesini keçməyə qız şagird tapmır. Hansısa nadürüst Urusetdən beş-on manatla gəlib qapısına inək bağladığı, altına maşın qoyduğu kimi, yatağına bir məktəbli qız salır; hər gün o qızın ruhunu, gələcəyini zorlayır, ondan arvad düzəldir. İstismar olunan bədənlərindən, zorlanmış ruhlarından doğulan uşaqları o arvadlar nə cür tərbiyə edəcək, azad fərd, ləyaqətli vətəndaş böyüdəcəklər?

- Orta əsrlərə dönürük. Orta əsrlərin əlamətləri getdikcə çoxalır Azərbaycanda- hasarlar, təhkimçilik, din...

***

“N” saylı hərbi hissəyə məxsus qapalı şəhərcikdəki evlərin çoxuna qaçqınlar yığışıb. Qışının soyuğu sərt, yayının istisi kəskin olan Kül qəsəbəsində yerləşən şəhərcikdə hərbiçilər yüngülvari sivilləşib, sivillər azacıq hərbiləşib. Qəsəbənin kəsməyən küləyi

saatları qabağına qatıb qovur, adamları hızlandırır, sözləri tələsdirir elə bil. Saatlar, adamlar, sözlər yeyinləşir. Əqrəblər itələşir, addımlar itiləşir, adamlar itidilləşirlər. Müddətli hərbi qulluqçular, müvəqqəti məcburi köçkünlər, köçəri zabit-gizirlər özlərini daimi sakin saymırlar burada. Əsgərlər, gizirlər və zabitlər qaçqın qızların ürəyini qıraraq tərk edirlər şəhərciyi. Hərbiçilər ürəklərini qırıblar, işğal altındakı torpaqları geri qaytaracaq qəhrəmanlar sevmək romantikasından məhrum ediblər qaçqın qızları. Ürəklərində qubarlayan yurd sevgisi bir əsgərin, bir gizirin, bir zabitin həsrətinə qarışıb, dalınca ağlayanda, göz yaşı kimi şəhərciyin yayda tozanaq, qışda palçıq olan qumsal torpağına töküb. Hərbçilər çirkli çəkmələriylə o torpaqları ayaqlayaraq qaçqın qızların göz yaşlarının cücərməsinə imkan verməyiblər. Uniformalar və rütbələr öz cazibəsini itirib köçkün qızların nəzərində. "Vətən" və "igid" anlayışlarının hərəsi gözlərində bir damla yaşa dönüb, yanaqlarına diyirlənib, yerə düşərək şoranlaşıb, şitləşib. Əsgərə inanmaq, gizirə üz vermək, zabitlə görüşmək yasağa çevrilib o şəhərcikdə. Qəhrəmanlığa inamını itirmiş ərgən qızlar gözünü Rusiyaya hamballığa, göy satmağa gedən qohum oğlanlara dikiblər. Örkənin gəlib doğanaqdan keçəcəyi, onlara elçi göndərəcəyi, toy çaldıracağı günü gözləyirlər. Sevgiyə yadırğayıblar tamam. Sevgiyə yadırğamış o qızların biri də göyərçin qanadlarının üzərində yaşayan Şərafət idi. Şərafətin göyərçin qanadlarının üzərində yaşamasını təkcə leytenant Qaytaranov duymuşdu. Ondan savayı heç kim fərqinə varmamışdı qızın göyərçin qanadlarının üzərində yaşadığını. Quşlara quşu qonanlar binanın zirzəmisinə baxmışdılar, Şərafətə bənd olanlar eyvana boylanmışdılar. Quşları quşqulandırmayan, qurалları qurcalandırmayan bir sevgi yaşanırdı hərbi şəhərcikdə...

Qulac-qulac saçları, qap-qara gözləri, şirin və cingiltili səsi, cazibədar ayaqları vardı. İlıq havalarda qırmızı idman forması geyinər, qardaşının təzəcə ayaq açan oğlunu şəhərcikdə

gəzdirərdi. Şəhərcikdəki məktəbdə coğrafiya dərsi deyirdi. Qaçqın idilər. Tabor komandirinin maddi-texniki təchizat üzrə müavini kapitan Qusarlının qonşuluğunda yaşayırdılar.

Ha fikirləşdi, onunla başqa cür ünsiyyət qurmağa yol tapmadı. Əlacsız qalıb kapitan Qusarlının ağzını aradı. Ondan münasib yolla qızın nömrəsini tapmağı xahiş etdi. Axşam kapitan Qusarlı zəng edərək arvadından aldığı nömrəni ona verdi. O gecə Şərafətə ilk mesajını yazdı leytenant Qaytaranov...

Hər gün ona bir neçə ismarıc yazır, axşamlar evə gələndə internetə girir, web-mesaj yollayırdı. Bir gün gələn zəng telefonunun ekranına Şərafətin adını yazdı. Şərafət yazdığı gözəl SMS-lərə görə zabitə təşəkkür etdi və kimliyi ilə maraqlandı. Demədi. "Yazdıqlarım gerçəkdən xoşuna gəlibsə, görüşək, məni lap yaxından tanı"- gənc zabit vurulduğu qızı qəhvə içməyə dəvət etdi.

Şərafət o saat tanıdı leytenantı. Mesajların Qaytaranovdan gəldiyinə inanacan iki fincan qəhvə içdi. Zabitdən adlarına xələl gətirəcək hərəkətlərə yol verməməyi xahiş etdi. "Lazım olsa, özüm xəbər edərəm"- deyə hərdənbir görüşməyə razılıq verdi.

Həftədə bir dəfə ancaq görüşürdülər. Görüşəndə "Vətən" kinoteatrına gedir, bir-birinə sarılır, öpüşürdülər. Bir gün evə dəvət etdi. Şərafət nəm-nüm eləsə də, Qaytaranovun təklifini yerə salmadı: "lazım olsa, gələrəm..."

Bazar günü idi. Verilən "farağat" komandasına yuxudan dik atıldım. Televizorda "Cərgə" hərbi-vətənpərvərlik proqramı gedirdi. Hərbi çəkməsinin quncundan çılpaq ayaqları görsənən qısa yubkalı jurnalist "Pafos" quşunu gözündən vuran əsgərlərimizi tərifləyirdi. O qızdan yaman kəsirdim. Əlimə keçsə, hərbi xidmətdə onun ucbatından başıma gələn oyunların heyfini çıxardım. Oxay, leytenant Qaytaranovun bu dörd otaqlı mənzilində nə çıxardım o heyflərin üstünə...

Axşam möhkəm içmişdik, evə qayıda bilməmiş, yıxılıb Qaytaranovgildə yatmışdım. Məni sürüyüb yataqdan yerə saldı.

“Dur, cəhənnəmə ol, qonağım gələcək”- eşitmişdim ki, qonaq qonağı istəməz, ev yiyəsi heç birini, paxmel olduğumdan atalar sözünün niyə yarıyacan düz çıxdığını başa düşmədim.

Tör-tökünük mənzilə baxanda yır-yığışdan canımı yaxşı qurtardığıma sevindim. Başım uğuldaya-uğuldaya əkildim. Liftin qabağında qarşıma çıxan qulac saçlı qızı görəndə ayıldım. Hə, Barses- öz-özümə dedim- bax, bu qulac saçlı qız leytenant Qaytaranovun mənzilini yaxşıca silib-süpürəcək, yatağının ağlarını dəyişəcək, hamama keçib yuyunacaq, üzündəki kosmetikanı silərək otağa qayıdacaq. Divanda yanaşı oturacaqlar. Leytenant Qaytaranov qızın əllərindən tutacaq, saçlarını oxşayacaq. Onu özünə sıxaraq dodaqlarından öpəcək. Çox öpüşəcəklər. Saatlarla bir-birlərinin ciyərlərindən nəfəs alacaqlar və qucaqlaşıb yatacaqlar...

Leytenant Qaytaranovu tərxis olunandan sonra gördüm birdə. Gözaydınlığı verdim. Ordudan sağ-salamat qayıtmasını qeyd eləmək bəhanəsiylə gedib “İnqilab” küçəsindəki “Tonqal” restoranında oturduq. Təbrik və təşəkkür sağlıqlarını deməyə qoymadı. “Məni çox istəyirsənsə, bu hekayəni qələmə al”-dedi:

- “Bu günə gəlib çıxmağımda ən böyük rol Şərafətin olub. Cazibəsinə salmaqla, özünü sevdirməklə ruhumu azad saxlayıb, qəlbimi sıxılmağa qoymayıb. Gözlərini xəyalımda canlandırmaqla qapalı mühitin nizamlarından, qorxularından, harizmalarından qorunmuşam. Əlindən gəlir yazmaq, qaçqın qızın sevgisini əbədiləşdir!”- hərbi xidmətdən qayıdanlar öz məhəbbətlərini əfsanələşdirməyə meylli olurlar, onun da həmin mərəzə tutulmağından şübhələndim, gümanım havada qaldı:

- Səhər düzülüşü yenicə yekunlaşmışdı. SMS gəldi. Şərafət vacib işi olduğunu yazırdı. Nəyin bahasına olursa-olsun, günorta onunla görüşməyimi xahiş edirdi. Zampolitin yardımıyla hərbi hissə komandirindən icazə alıb evə getdim. Onu gözləməyə başladım. Qapını açıq qoyduğumdan birbaşa içəri girdi.

Problemini soruşdum. "Ərə getmək istəyirəm!"- cavabı məni güldürdü:

- Tapdım! Axşam sənə elçi gəlmişdilər. Valideynlərin deyirlər ki, "istədiyin oğlanın adamları tezliklə qapıya gəlməsə, səni verəcəyik!.."

- Mən sənə bəhanə deməyə gəlməmişəm!

- Bəs nəyə gəlmisən, xeyir-dua almağa? Qoy çırağı gətirim, səni başına fırlayım...

- Gətir!– zarafat elədi və lütlənərək yatağa uzandı.

Bakirə deyildi...

Səhər onu qaçırmaq istəyən vardı. Əgər kömək etsəm, Şərafət ərə gedəcək, xoşbəxt olacaqdı. Məndən başqa kimsəyə öz sirrini etibar etmir, ürək qızdırmırdı. Onu ginekoloqa apardım, həkimlər əməliyyatla bakirəliyini bərpa etdilər. Evlərinə yola salanda mənə qızlığını itirməsindən danışdı.

Dörd ay əsirlikdə qalıbmış, bakirəliyini də on dörd yaşında başına gələn o faciə zamanı itiribmiş. Zifaf gecəsini çox sakit xatırlayırdı artıq:

- Bizim kəndimiz Ermənistanla sərhəddə idi. Ermənilər ilk hücumu bizim kəndə eləmişdilər. Vəziyyət ağır olduğundan çoxları canını götürüb qaçmışdı kənddən, biz də çıxmışdıq, qonşu kənddə, dayımgildə olurduq. Həmin gün evimizi yığışdırmağa gəlmişdim. Kəndə hücum edən düşmən əsgərləri məni tutdular. Əllərimi və ayaqlarımı bağlayıb Ermənistana apardılar. Çuvalı hərbi hissənin həyətində BTR-dən yerə atdılar. Dillərini bilməsəm də, başa düşürdüm ki, quduzlar məni zorlamaq istəyirlər, lakin qənimətin ilk sahibini müəyyənləşdirə bilmirlər. Onlardan biri hirslə qolumdan tutaraq məni özünə tərəf dartdı, aparıb qaranlıq zirzəmiyə saldı, ağzımı qıfıllayaraq getdi. İki gün ac qaldım orada. Qapı açılanda aclıqdan və qorxudan gözüm tor görürdü. Kimsə üzümə baxıb gülümsünürdü. Həminkiydi. Küncə sıxıldım. Çəkməsinin ucuyla ayağa qaldıraraq məni özüylə apardı. Gecə yarısı bir kənd evinə çatdıq. İtələyib tövləyə saldı. Üstümə atılıb

zorladı. Sübhəcən dincəlmədi. Camaat yuxudan oyananda valideynlərini çağırdı.

Dörd ay həmən tövlədə yatdım. Axşamacan qabaqlarında qul işləyirdim. Döyməsələr də, hər gün söyür, danlayırdılar. Yeməyi onlarla birlikdə yeyirdim. Yavaş-yavaş ermənicə öyrəndim. Armenin qardaşının əsir düşdüyündən, məni evlərinə onunla dəyişməyə gətirdiyindən xəbər tutdum.

Məni Armenin qardaşı ilə yox, başqa əsirlə dəyişdilər. Qırmızı xaç dalımca gələndə Armen qəhərlənmişdi. Qardaşının sağ olmadığını bilirmiş. Qulaqlara qurğuşun, döyüş yoldaşları qardaşının meyitini çıxarda bilməyiblərmiş güllənin altından. Armen valideynlərinə qardaşının öldüyünü yox, əsir düşdüyünü söyləyib, əsiri isə evlərinə ümid yaratmaq xatirinə gətirib. O, valideynlərində yaratdığı ümidi zorlayaraq qardaşının qısasını alırdı. Mən isə onu xilaskar sayır, sevirdim.

- Sevirdin?- bayaqdan nəfəsini içinə çəkərək qızı dinləyən zabit özünü saxlaya bilmədi.

- Bəli, sevirdim! Məni əsgərlərin kütləvi şəkildə zorlamasından, döyməsindən, ac və hamilə qalmaqdan qurtarmış Armendən çox razıydım. Həm də sənə oxşayırdı...

Leytenant Qaytaranovla sevişəndə Şərafət erməni hərbiçisini düşünürmüş, sən demə...”- Azin kağıza çıxartdığım hekayəsini oxuyub özümə qaytardı və dalğınlaşdı:

- Əladır, özüm ölüm, “Quşbaz” Niyazın saxladığı göyərçinlərin quğultusu gəldi qulağıma.

- Xoşuna gəldisə, apar mayor Huseynov da oxusun...

- Hospitaldadır!..

***

Gecə Əli zəng vurdu. Dembellərin sabah tərxis olunacağını və evlərinə yola düşməzdən öncə avtovağzala yaxın bir yerdə ziyafət təşkil edəcəklərini bildirdi. Bölükdən leytenant Kürəçini və

gizir Qubadovu dəvət etmişdilər, sağ olsunlar, məni də unutmamış, öz aralarında görmək istəmişdilər.

Tərxis olunan əsgərlərdən kimisi çoxdan həsrətini çəkdiyi mülki paltar geymiş, kimisi də hərbi formasının qırağına ağ zehlər tikmişdi. Özlərini yoldan keçən qızlara göstərir, göz-qaş edirdilər. Hərbi hissədə daim üst-başı kirli gəzən əsgər Cabbarov formasını hamıdan çox ağ parça ilə bəzəmiş, qabaq dişlərini mırıq qoyan DŞK-nın lüləsini gözə soxaraq dayanacaqda özünə qumral saçlı civi tutmuşdu. Deyilənə görə, elə gözəli Cabbarov xəyalına hətta postda kəfləmə atanda da gətirə bilməzmiş.

Əsgər Cabbarovun dərd-başı qaravula çıxmaq idi. Hər dəfə növbədən qayıdanda üzü gülərdi. Vətənin keşiyində ayıq-sayıq dura-dura "O şimdi asger" şarkısını oxuyan türk pop ulduzu Tuğba Əkinçiylə canı istədiyini edərdi. Hər posta gedəndə qumqumasını ağzınacan su ilə doldurar, sabun götürərdi. Gizir Qubadov itin sözünü deyərdi əsgərə. İndi Cabbarovla gizir Qubadov qabaqda yanaşı gedir, münasib kafe axtarırdılar. Azin hələ gəlib çıxmamışdı, yoldaydı. Mən Əliylə söhbət edirdim. Əli Azinin ona göstərdiyi qayğıdan danışırdı:

- Günorta idi. Qüsl alaraq kluba namaz qılmağa getdim. Ulu Öndərin guşəsində namaza başladım. Birinci rükətdə əsgər Cabbarov xəbər gətirdi:

- Bölük komandiri cərgəni düzüb, səni sıraya çağırır!

Namazdan qalxmadım. Bir azdan kapitan Quluncov özünü yetirdi, var gücü ilə dümbəyimə təpik vurdu:

- Bləd, sən bura əsgərliyə gəlmisən, ya mollalığa?

Aparıb məni cərgəyə qoydu. Əsgərlər hadisəni nahar fasiləsindən kazarmaya qayıdan leytenant Kürəçiyə danışdılar.

Söhbətin arxasını bölüyün mirzəsi Səlimov- yeri gəlmişkən, o, bölük komandirinin çuğulu idi- davam etdirdi:

- Mən tağım komandirlərinin konspektlərini yazırdım. Onların söhbətini axıracan eşitdim. Leytenant Kürəçi bölük komandirinə dedi ki, insanların inancını təhqir etmək olmaz.

Əsgər ibadət etməlidir, etməli deyil? Bu, tamam ayrı söhbətin mövzusudur. Azərbaycanda "alternativ hərbi xidmət haqqında" qanun qəbul olunmalı, dindarlar döyüş hazırlığına cəlb edilməməlidirlər. Madam belə qanunumuz yoxdur, o zaman komandir özü dindar əsgərlə dil tapmalıdır, ona nə zaman Allaha, nə zaman vətənə xidmət edəcəyini başa salmalıdır. Məndən olsa, sən Ələsgərovu çağırıb üzr istəyərsən, iş böyüsə, başın ağrıyar, qurumsaqlara yem olarsan... "

"Leytenant Kürəçi kapitan Quluncova nətəhər qulaqburması vermişdisə, məni çağırıb üzr istədi"- Ələsgərov kafirdən daha çox zırrama olan bölük komandirinin üzr istəməsinə hələ də inana bilmirdi. O qədər yaxşı adamın ürəyində Allah xofu olmamasına təəssüf edirdi. Heyrət içində mənə bir əhvalat danışdı:

- Bir gün poliqona getmişdik. Gecə idi. Zabit-gizirlər içmişdilər. Leytenant Kürəçi də keflənmişdi. Kənara çəkilib sevdiyi qıza mesaj yazırdı. Mesajını yazıb qurtardı, məni yanına çağırdı: "bilirsən, şərab içməməklə hansı həzzdən məhrum olmusan? İnsan şərab içəndə Tanrını özündə tapır, dağıdır, qoruyur, yaradır... Bax, mən indi yer üzünə çox gözəl mesajlar göndərdim..." Etiraz eləmək, öz dəlillərimi söyləmək istədim. İmkan vermədi. Mənim hərbi hissədə ən çox nəyə nifrət etdiyimlə maraqlandı. Cərgədən gileyləndim.

- Sən məndən yaxşı bilərsən, əsgərlər daha nələrə nifrət edirlər?- komandir məndən soruşdu.

- Məlum, səhərin gözü açılmamış "qalx" komandası verilməsi çoxlarının yuxusuna haram qatır.

Cavabımla razılaşdığını başı ilə təsdiqləyərək:

- Səncə, niyə insanlar hərbi mühitdə yalançı, riyakar, kələkbaz olurlar?

- Mənə elə gəlir ki, əsas səbəb insanların hərbi mühitdə öz iradəsinə sahib olmaması, komandalarla idarə edilməsidir. Hər şeyi komandanlıq həll edir, sistem yuxarıdan aşağı idarə olunur...

“Düz deyirsən, yuxarıdan aşağı idarə olunan sistemlər cəza prinsipinə istinad edir. Cəzalanmaq qorxusu həmişə kütləvi yalan yaradır”- deyə leytenant Kürəçi hərbi nizamla biz dindarların ən böyük dəlillərindən olan ilahi düzəni müqayisə etdi:

- Bu dünyada hər şeydən şübhələnmək lazımdır. Allahın varlığına da, yoxluğuna da. Allahın varlığına inanıb bir həqiqətlə yaşamaq olar, inanmayıb başqa gerçəklərlə. Özün çox gözəl bilirsən, baş leytenant Quliyev mənəvi böhran keçirir. Hərbi mühit günbəgün onun mənliyini sındırır, arzularını puça çıxardır. Quliyevin fərqlənməyə, sevilməyə, dəyərləndirilməyə, dəstəklənməyə ehtiyacı var. Belə zamanda sən ona din təbliğ edirsən, guya ona cənnətin yolunu göstərirsən. Baş leytenant Quliyevin durumuna bir də mənim gözümlə bax. Quliyev dindar olmamışdan öncə, gündə dörd dəfə hərbi hissədə düzülüşə çıxırdı, indi beş vaxt da Allahın cərgəsinə durur. Hərbi nizam onu “düşünmə, dinlə, əməl elə” qurağı ilə yaşadır, azadlığa can atmasını əngəlləyir, qulluq tələb edir. Eyni şeyləri inandırdığın din də borc bilir ona. Azmı görmüsən kapitan Quluncovun sırada görmədiyi əsgərə necə qəzəbləndiyini, hikkəylə üstünə cumduğunu, qubbağa salmaq eşqiylə raport dalınca raport yazdığını? Niyə belə edir kapitan Quluncov? Kapitan Quluncov sırada olmayan, cərgəyə durmayan adamlardan qorxur. Aqressiv davranışı ilə, əslində, özünü müdafiə edir, öz qorxaqlığını pərdələyir.

- Bəs sən necə düşünürsən?– Əlidən soruşdum.

- Mən dünyanı Allahsız təsəvvür etmədiyimdən onun dedikləri haqda heç düşünmədim, doğrusu. Bircə ona təəssüflənirəm ki, belə yaxşı adama- əlini gələn zabitə sarı uzatdı- cənnətdə yer olmayacaq.

- Ay yoldaş leytenant, gəl çıx da, bayaqdan qurdun qulağını burub uladırıq. Tərs kimi rəngi də bozdur ulatdığımız qurdun, bu dəqiqə Alqayıt bizi aparıb Altay dağlarına çıxardacaq - Azinə səsləndim.

Heç şübhəsiz, yoldaş leytenant söhbətinin üstünə çıxan adamlara “qurd de, qulağını bur” deyildiyini bilirdi:

- Qulağı burulan qurd olmaqdandırsa, qurbanlıq qoyun olmaq yaxşıdır!..

- Harası yaxşıdır ey, bizim kənddə qəssab İbişin başını hara gəldi tutaraq üzdüyü biçarə heyvanlarla, Məkkədə kəsilən quzu arasında fərq qoymur qurban olduğum. Yenə birini cənnətin, birini cəhənnəmin odunda qızartsaydı, kabablarının tamında fərq olardı, heç olmasa.

Ofisant kababları gətirdi. Ələsgərovdan başqa hamıya araq süzdü. Köhnə tağım komandirləri olaraq məclisi mən açdım və təkilf gözləmədən tamadalığı öz boynuma götürdüm. Açılışdan sonra ilk sözü Azinə verdim. Azin möhtəşəm sağlıq dedi:

- Hə, ay geridəqalmışlar... Demək, gedirsiniz... Düzü, həyatının ən çılğın dövründə gənclərin zorla orduya aparılmasını mən düzgün saymıram. Məcburi hərbi qulluğu “vətənə xidmət” adlandıraraq öyənləri riyakar hesab edirəm. İnsan özünə, toplumuna, vətəninə və dünyasına xidmət etməlidir, mən razı. Bu xidmət insanın ən yaxşı bacardığı şəkildə, sahədə və əlbəttə, könüllü olmalıdır. Mən kütləvi yalana qoşulub Sizi vətən qarşısındakı müqəddəs borcunuzdan çıxmağınız münasibəti ilə təbrik etmirəm, onun borcdan çox, töycü, biyar olduğunu hər biriniz gözəl başa düşürsünüz. Qulluq etdiyiniz dönəmdə çox haqsızlıqla, qəddarlıqla, şərəfsizliklə qarşılaşmış, hərbi qaydalardan cana doymuş, azadlığınızı sıxışdıran nizam-intizamdan tədirgin olmusunuz. İçinizdə vətənə qarşı etiraz yaranıb, “vətən belə olmamalıdır”, “vətən mənə belə yanaşmamalıdır” nidaları qopub. Mən sizə vətənə etirazınızı qorumağı, inkişaf etdirməyi, onu böyük üsyana çevirməyinizi arzu edirəm. Gəlin içək vətənə etirazımızın sağlığına!

***

Avtobusla Ayna Sultanova heykəlinin yanına gəldik. Oradan parkın içindəki “Büllur” kafesinə- zarafatla “Hayd Park” adlandırdığımız məkana getmək, çay içmək istəyirdik. Yolu qabağımızca adlayan gülməşəkərlərə laqeyd qala bilmədim, həm onlara, həm də Azinə sataşdım:

- Bəriki əsl millət vəkilinə layiq gözəldir...

- O birisi də lap ilham pərisidir- dostum atmacamı cavabsız qoymadı.

Sən canın, işə bax, Azin, deyirəm bu fani dünyada... Sözüm ağzımda qaldı. Yolun o tayında dayanan “Lexus” siqnal verdi. Qızlar arabanın sürücüsünə əl elədilər. Azin, görürsən, deyirəm bu fani dünyada... Dalını gətirə bilmədim. Sürücü başını pəncərədən çıxardaraq ilham pərisinə qışqırdı: “Aazz, harda qalmısan, gəl çıx da bəə...” Deyirəm bu fani dünyada... Yox ey, nə yerlibazlıq, deyirəm bu fani dünyada... “Büllur” kafesinin özünəməxsus yeri vardır!

Zeytun ağacının altında oturduq. Əlimi yelləyib çay sifariş etdim. Bayaqkı qonaqlıqda Azin Kürəçi bir söz qaçırmışdı ağzından, işğal altındakı torpaqları geri qaytarmağın yolunu cihadda görən Ələsgərova Dağlıq Qarabağı xaosun xilas edəcəyini söyləmişdi. O söhbəti təzədən açdım. Mənim “Lexus və Zeytun ağacı”nı oxuyub-oxumadığımla maraqlandı. Başımı buladım. Adını çəkdiyi kitabı mütləq tapıb oxumağımı məsləhət gördü:

- Kitabın yazarı “New York Times” qəzetinin müxbiri Tomas Freydməndir. Müəllif Yaponiyaya ezam olunur, orada “Lexus” avtomobil zavoduna baş çəkir. Zavodda işləyən adamların və robotların cəminin dörd yüzü keçmədiyini, fəhlələrin yalnızca keyfiyyətə göz qoyduğunu görür. Müxbirin gözünün qabağına vaxtilə yaşadığı Beyrutda və Qüdsdə insanların zeytun ağacının üstündə qırğına çıxmaları gəlir... Bəli, “Lexus”un Azərbaycanın və Ermənistanın birgə dövlət büdcəsindən daha çox sərmayayə sahib olduğu çağda biz zeytun ağacının davasını döyürük. Bu savaş Qarabağın kimin olmasını,

kimdə olmasını və kimə qismət olacağını hərləmədən hər iki xalqın inkişafına böyük zərbə vurur. Tomas Freydmən "Lexus və Zeytun ağacı" kitabında iddia edir ki, kürəselləşmə soyuq savaşın yerinə keçmiş yeni sistemdir. Çox pakizə, bəs nədən Azərbaycan və Ermənistan o sistemə daxil ola bilmir? Çünkü Qarabağ münaqişəsinin timsalında "Soyuq Savaş" bitməyib. Olduqca strateji region sayılan Qafqazda etnik qarşıdurmalar yaratmaqla Rusiya kürəselləşməyə dirəniş göstərir. Quzey qonşumuz suyu yenidən öz bostanına axıtmaq iddiasıyla dəhnənin başında türklərlə erməniləri bir-birinə qırdırır. Topxanadakı cır armud ağacının altında kimin yatması Qərbin vecinə deyil, onlara vacib olan barışa nail olmaq və Rusiyanın əlinin dalını Qafqazda yerə qoymaqdır. Dünyanın indiki düzəni və o düzəndəki mövcud tarazlıqlar elədir ki, nə Qərb Rusiyanın dirənişini qıra bilir, nə də Rusiya Qərbi bölgədən geri itələməyi bacarır. Deməli, bölgəyə yeni düzən lazımdır, düzən isə xaosdan yaranır. Cəmiyyəti xaosa daha tez yuvarlanan, sabitliyə daha erkən son qoyan, toplum olaraq təlatümlərdən birinci keçən, indiki miskin halından uzaqlaşmağa canında təpər tapan xalqın olacaq Qarabağ. Ay geridə qalmış, düzdür, zeytun xeyirli ağacdır, fəqət bu ağaca kimin sahib olduğunu birdəfəlik bildirən razılaşma yoxdursa, o zaman başqalarını onun altından qovmağa və ya məhv etməyə zərurət yaranır. Uzağa getmə, ermənilər bizi həm Ermənistandan, həm də Qarabağdan qaçaq salıb, biz də qisas duyğusu ilə alışıb yanır, onları qabağımıza qatıb qovmağı arzulayırıq. Bax, bu məqamda zeytun ağacları bizi dünyadan geri qoyur, de-kürəselləşdirir, "Lexus" isə adamları eşşəkdən düşürüb arabaya otuzdurur, tərkinə iki gözəl qız mindirir, kefə aparır.

- Sənin dediklərini bayaq başını "Lexus"un pəncərəsindən çıxardıb qızlara acıqlanan eloğlumuz eşitsə, qeyzə gəlib yerə düşər və yaxandan yapışıb soruşar:

- Əgər sabitlik olmasaydı, mən bu "Lexus"u necə sürərdim? İki göyçək qızı yanıma alıb restoranlarda kef edə bilərdimmi?

- "Lexus" sürmək imtiyaz və şans deyil, haqqdır!

- Axı onun da haqqıdır!

- Ədalətli rəqabətin mövcud olduğu ortamda insanlar öz bacarığı və zəhməti ilə pul qazanırlar. Gəl köməkləşək, mənim yaxamdan tutan o eloğlumuzun kürəyini yerə vuraq, sinəsinə çöküb altındakı arabanın hansı pulla aldığını soruşaq. Məlum olacaq ki, onun valideynləri, yaxın qohumları, bəlkə elə şəxsən özü ölkəni çapıb-talayan məmurlardan biridir, yaxud o məmurlardan hansınınsa qəbilə-tayfa münasibətləri zəminində himayə etdiyi adamdır. Həmin iş adamı, ədalətli rəqabət mühitində, sərbəst bazarda böyük biznesmen olmaq nədir, heç kiçik ticarət idarə edə bilməz. "Lexus" o iqtisadi sistemin məhsulu və markasıdır ki, orada iki əsas suala vicdanlı cavab tapılıb. Dövlət ondan "mən neyləyim" sualına cavab soruşan vətəndaşa tam sərbəstlik verir, get, bacardığın işin qulpundan yapış, pul qazan! "Necə edim" sualı ortaya çıxanda isə şərtləri açıqlayır: "başqalarının həyatına, azadlığına və mülkiyyətinə təhlükə törətmə, bildiyini elə!"

- Məgər onlar da öz bildiyini etmirlər?

- Onlar quldurdurlar! O quldur mənim yaxamdan tutmaqla, əngimə yumruq ilişdirməklə deyir ki, sən sakit otur, sabitlik pozulmasın, mən ölkəni talayım, "Lexus"da gəzim, qəsrlərdə yaşayım; sən dilini dinməz yerinə qoy, mən gözəl qızlarla əylənim. Çünkü talan bitsə, ölkədə sərbəst piyasa yaransa, sənin də "Lexus"un olsa, o qızlar da "Lexus" sürsə, onda məni niyə əzizləsinlər ki? Qulağın məndə olsun, təkrar etməyəcəm, "Lexus" Azərbaycanda iki iş görür, bir tərəfdə rejimi möhkəmlədir, sabitliyi bərkidir, o biri tərəfdə xaosu şiddətləndirir. Başa düş, hər düzənsizlik bir düzən yaratdığı kimi, hər düzən də bir düzənsizlik yaradır.

- Hanı axı o düzənsizlik, qağa? Məgər görmürsən avtoritarizm getdikcə möhkəmlənir?..

- Fikir ver, addımbaşı Azərbaycanda tükürpədən skandallar baş verir. Nazirlər həbs edilir, icra başçıları döyülür, polis rəisləri

güllələnir, deputatlar rayondan qovulur, insanlar lokal aksiyalar keçirərək öz haqlarını tələb edirlər. Sabitlik təbii şəkildə öz xaosunu yaradır, buna mane olmaq mümkün deyil.

- Xaos Dağlıq Qarabağın aqibətinə necə təsir göstərəcək?

- Çində qanadlarını yelləyən bir kəpənək, ABŞ-da fırtınaya səbəb olursa, küləyin ağacdan qoparıb yerə saldığı portağal da gün gələcək Azərbaycanda və Ermənistanda məxməri inqilab yaradacaq, hər iki ölkəni demokratikləşdirəcək. Almaniya Fransa ilə orta əsrlərdə yüz illərlə müharibə aparmışdı, hətta ötən yüzildə Hitler fransızların torpaqlarını tutmuşdu. Yüzillərin düşmənçiliyinə demokratiyanın inkişafı son qoydu, onları etnik qarşudurmadan uzaqlaşdırıb, ortaq dəyərləri və maraqları müdafiə etməyə sürüklədi. Baltikyanı ölkələr məhz inteqrasiya və qarşılıqlı əməkdaşlıq sayəsində Avropa Birliyi ailəsində yerlərini möhkəmlədirlər.

- Xaos nəzəriyyəsindəki "Kəpənək effekti"nə inansaq, belə çıxır ki, ATƏT-in vasitəçiliyi ilə aparılan danışıqları uğurlu sonluqla bitməyə qoymayan əsgər Cabbarovun postda kəfləmə atmasıymış...

***

Hərbi hissədə Əzrayılı it yerinə qoyan yoxuydu, əksinə, Cəbrayılın adı gələndə əsgərləri titrətmə tutar, gizirlərin dodağı uçuqlayar, zabitlərin dili-ağızı quruyardı. Soyadı Əmrullayev, ləqəbi "Kobra", rütbəsi polkovnik idi Cəbrayılın. "Kobra"nın kəsdiyi başa sorğu-sual olmazdı, qabağına çıxanı haupvaxta göndərərdi. Yoxladığı qaravulun rəisi naryaddan çıxarılar, naryaddan çıxarılan zabitin paqonu rütbəyə həsrət qalardı. Deyilənə görə, hərbi hissəyə nə vaxtsa təlim görmüş it veriblərmiş, "Kobra" o köpəyə də həbs elan edibmiş.

Polkovnik Əmrullayev təkcə cəza vermirdi, həm də mükafat və rütbə paylayırdı. Təqvimin hər ayına az qala iki dəfə düşən bayram günlərində hərbi hissəyə gəlir, komandanlığın salam və

təbriklərini şəxsi heyətə çatdırır, döyüş və humanitar hazırlıqda fərqlənənləri ödülləndirirdi. Nədənsə, ödüllənənlər həp eyni adamlar, həmin adamlar aşağılara zülm, yuxarılara yaltaqlıq edənlər olardı. Onların ümumi cəhəti hərbidə "qoyan"ın hörmət qazanmasına inam idi. Avtomobil xidmət rəisi onun ləqəbini də "qoymaq" feliylə əlaqələndirirdi. Guya, Qarabağ müharibəsi zamanı Cəbrayıl Əmrullayev qoburasında əqrəb gəzdirir, onu əsir tutduğu ermənilərin canına buraxırmış. İddia edirdi ki, qobura tər-təmiz türk sözüdür və "qoy bura"- əlini dalına atardı- deməkdir. Avtomobil xidmət rəisi qələt edirdi. Polkovnik ilana oxşayırdı. Şəxsi heyət o ilanabənzər varlıqdan qorxurdu və o qorxu pərəstişə çevrilmişdi. "Kobra"dan qorxmayan, qorxusu pərəstişə çevrilməyən tək-tük adamlardan biri mayor Aranlıydı. Azin Kürəçi məzuniyyətdə olanda mayor Aranlı "Kobra"nın dişinə keçmiş, işi şərəf məhkəməsinəcən uzanmışdı.

"Kobra"nın mayor Aranlıyla ləj düşməsinə səbəb Azinin məzuniyyətə buraxılması olmuşdu. Azin hər iki qoluna saat taxardı. "Kobra" ondan sağ qolundakı saatı açmağı tələb etmiş, sözü yerə düşmüşdü. "Kobra" leytenanta həbs vermiş, tabor komandiri zabitini haupvaxta yollamamışdı. Qaravula göndərmiş, naryaddan qayıdanda məzuniyyətə çıxartmışdı. "Kobra" bir qırağa yazmışdı mayor Aranlının hərəkətini.

Avtomobil xidmət rəisi dalını bulaya-bulaya klubun qabağına çatdı, siqaret yandıraraq o yan-bu yana var gəl elədi, yarıyacan çəkdiyi papirosu yerə atdı, içəri keçdi. İçəridə mayor Aranlının məhkəməsi qurulmuşdu.

- Yoldaş zabitlər,- polkovnik Əmrullayev mətləbə gendən gəldi- indi o illər deyil ki, hərə əlinə bir avtomat ala, hərbi forma geyinə, özünə rütbə verə. Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışı ölkəmizdə ordu quruculuğunu genişləndirdi. Onun layiqli varisi, cənab Ali Baş Komandanın əmrinə müntəzir silahlı qüvvələrimiz gündən-günə güclənir. Şəxsi heyətə göstərilən böyük qayğı və diqqət bizdən- hər bir zabitdən yüksək fiziki

hazırlıq tələb edir. Sizi yoxlayan zaman mayor Aranlı "alətə" komandasını yerinə yetirmədi. Ona mayor rütbəsi çoxdur. Aranlı aşağı vəzifəyə keçirilməlidir!

Tabor komandiri kürsüyə çıxdı və paqonlarını tribunaya qoydu:

- Mənə ağıl, təsəlli, baş sağlığı verməyin! Mən rütbəmə də, vəzifəmə də bir dəqiqəlik sükut elan edirəm! Bu zalda mənə cəza verməyə mənəvi haqqı olan adam yoxdur!

Zala nəzər saldı. Mayor Aranlıya əmr verəndə əlini qoyduğu yeri "Kobra"nın üzə vurmağa ürək eləyən olmadı. Susdular. Susmayan bircə quyruğunu bulaya-bulaya kluba girən avtomobil xidmət rəisi oldu:

- Yoldaş zabitlər, mənim təklifim var, mayor Aranlının rütbəsinə dəyməyək, onu düşmənin üstünə göndərək.

Orta məktəbdə sinif yoldaşım olmuş Anar Gədəbəydə xidmət eləmişdi. Anar and içirdi ki, onların müdafiə etdiyi ərazidə keçilməz yal varmış. Yaldan bir yol keçən eşşək ikinci dəfə ora çatanda özünü dərəyə atar, intihar edərmiş. Mayor Aranlını eşşəkləri həyatdan küsdürən yala göndərmişdilər.

Aranlı orada əsgərlərə meşə qırmağı, kərpic kəsməyi qadağan eləmişdi, bədəninə yara-xora darışanları hospitala yollamış, yüngülvari azarlayanları gətizdirdiyi əlaclarla,- yeri gələndə, çatmayan dərmanları cibinin puluyla alaraq- sağaltmışdı. Ermənistan prezidenti Köçəryanın atəşkəs xəttinə baxış keçirməsinin sutkası tamam olmamış onun yalın o üzündəki postları güllə atmadan ələ keçirməsi xüsusi mükafata layiq görülmüşdü. Əməliyyat "Kəf" adlanırmış...

***

Ailəsi Laçın rayonunun Qarıqışlaq kəndindən qaçqın düşəndə Alqayıtın dörd yaşı təzəcə tamam olubmuş. Laçının adı gələndə gözlərinin qabağında heç nə canlanmasa da, böyüklərin söhbətindən kəndlərinin hər dağına, qayasına, kahasına,

yarğanına, dərəsinə bələd idi, bütün məhəllələri tanıyır, bütün evlərin yerini bilirdi. Onun öz yurduna bələdçiliyi fransız yazarlarının əsərlərini oxuya-oxuya Paris küçələrini tanımağa bənzəyirdi. Dayısı "Babalı" Muxtar elələrinin Qarıqışlaqdan danışmasına gülərdi. Ağ qayanın başından qartalların uçuşuna baxmayanı, barmağını Sona bulağında on sayanacan saxlamayanı, rəhmətlik İbiş müəllimin tut arağından yüz qram içməyəni, Göy düzdən bir xorum ot biçməyəni, şalvarını çırmalayıb çaydan keçməyəni, selin yaratdığı gölməçələrdən qızıl balıq tutmayanı, Şiralının kahasında yatmayanı, Nəcəfalıların bağında ayağına tikan batmayanı, örüşdə dürmək yeməyəni, təəccüblənəndə "dinmə, ədə" deməyəni Qarıqışlaqdan saymazdı. Alqayıtın yataqda elədiyi toy hara, Qarıqışlaqda iki gün davam edən el şənlikləri hara?

Azinin tərxis olunmasına dörd ay qalmışdı, mənim qonşuluqdan tutduğum maşınla Kürün qırağına toya gəlmişdik. Ortadan çıxmırdıq. Muxtar kişi "Dəsmalgötürdü" rəqsini mükəmməl ifa elədi. Oyunu Azinin xoşuna gəldiyindən kişini ortadan çıxmağa qoymadı. "Qaçaq Nəbi" havasını çaldırıb qollarını yana aça-aça onunla oynadı. Azin oynağan idi. Onun toyda, mağarda sümükləri yananacan rəqs eləməsini çox görmüşdüm. Amma heç harada belə qol qaldırmamışdı... Rəqsin tamamında kişi ondan dədəsinin qaçaq olub-olmadığını soruşdu. Azin başını buladı. "Ay bala,- yol göstərdi- get soyunu-kökünü araşdır, dədəndən-babandan hansısa qaçaq çıxacaq..."

Gecə toy qurtaranda bəylə şampan içdik və onu gərdəyə yola saldıq. Gərdək qışda mal-qaraya verməyə ot-ələf yığılan damda qurulmuşdu. Ailənin yaşadığı iki otaqlı daxalda Alqayıtın Rusiyadan gəlmiş qardaş-bacısı yatacağından evlənənlərin qismətinə "göydələn" düşmüşdü. Bəy ağac budaqlarından təzə düzəldilmiş nərdivanla eşqin mehrabına qalxdı. Nərdivanın qıraqlarına qırmızı lent bağlanmışdı.

Alqayıtın qohumu "Babalı" Muxtargildə qaldıq. Muxtar dayı yaddaşını qurdalayıb bizə Laçından, Qarıqışlaqdan, yaxşı vaxtlarından, indiki gün-güzəranından danışdı, o irəli qırılan çomağını göstərdi.

Qarıqışlağın alma-armud bağlarından birinə "Göy düz" deyərmişlər, qoruqçusu "Babalı" Muxtar imiş. O çomağın qorxusundan uşaq-muşaq hərlənə bilməzmiş "Göy düz"ə. O günlərdən söz düşəndə cavanlar "ay Muxtar dayı, kənddə olsaydıq, qoyardınmı bağdan alma yığaq" soruşar, köhnə qoruqçu dirsəyini göstərərmiş. Ta bu yaxınlara qədər. Çomaq qırılan günün səhəri yenə sorğu-suala tutublar, Muxtar dayı kövrəlib: "niyə qoymazdım, ay bala, qoyardım, göylük eləməzdim, yediyinizdən yeyərdiniz, yemədiyinizi cibinizə, qoynunuza yığıb aparardınız..."

Kürün ilan mələşənində cavan həmkəndlilərinin illərcə qəlbini qıran Muxtar dayının qoruduğu, bəlkə də Muxtar dayını qoruyan hiss yoxa çıxmışdı. "Deyərəm, dilimdən tutar, kəndə qayıdanda bağın altını-üstünə çevirər cüvəllağılar"- özünə həmişə belə haqq qazandıran qoruqçunun geriyə dönməyə, əslində irəliyə- "Göy düz"ə addımlamağa əsası qalmamışdı. Həsrət qoruqçuluğa üstün gəlmişdi. Fikirləşmişdi ki, bəlkə qıymazlığıdır onu ev-eşiyinə həsrət saxlayan? Bəlkə cavanların "Göy düz"də yeyəcəyi almaların, armudların savabı uzadacaq ömrünü Qarıqışlaq qayıdana qədər?! Çayın qırağındakı, məktəbin böyründəki, xəstəxananın dalındakı, poçtun qabağındakı bağda bitən almalar söhbət edə-edə Muxtar dayının da eyninə düşmüşdü. "Böyük oğlum Urusetdən ismarıc yollayıb, and içir, burada "Göy düz"ün almasından bir dişdəm aldım, dadını o saat tanıdım..."- Muxtar dayının ağzı sulandı:

- "Göy düz"ün almaları o saat tanınar, bala, ətrindən, dadından-tamından doymaq olmur. Bu dünyanın heç harasında təbiət Qarıqışlaqda olduğu qədər gözəl deyil. Sənin məndə andın yoxdur, balalarımın ölmüşü, bütün gözəlliklərini o kənddə

cəmləyib təbiət. Qarıqışlaqda daimi gurultu var. Çayın şır-şırı qulağına nəğmə oxuyur adamın. “Ağ qaya” əzəmətidir o kəndin. Ucu-bucağı bəlli olmayan meşəsi, xınalı, kəkotulu, qantəpərli dağları, bum-buz bulaqları, günün-günorta çağı qalın geyinməyəni yorğan-döşəyə salan yaylaqları var. İndi qulağı səsdə qalmışıq Kürün qırağında...

“Bura yataqdır. Burada çox, amma çox şey dəyişib öz yatağından çıxandan”– filosofluq eləməyimə imkan vermədi Azin. Yuxu gözündən tökülürdü:

- Sakit dur, yataq, gecdir...

# BASDIRMA BARBEKÜ

Təkcə adı sakitiydi okeanın. Çılğın, ehtiraslı, gözəliydi. Azadıydı, çox azadıydı. Uzaqdan yelli gələn dalğaları çöməldiyim qayaya şapılldayır, heysiz-heysiz geri qayıdaraq xışıldayırdı. Xışıldadıqca xısınlaşmaq istəyirdim Sakit okeanla. Ona deyiləsi çox sözüm-sovum vardı, hər nə qədər çox olsa da, açıb-ağarda bilmirdim ürəyimdən keçənləri. Qorxurdum, çox qorxurdum, o boyda okeanın qabağında kiçik düşməkdən, balaca görünməkdən çəkinirdim öz dərd-sərimlə. Gülərdi adama. Ləpələri atılıb adamdan soruşardı: “ay başıbatmış, sən nə haydasan, mən hayandan-hayanayam?”

Okeanın təkcə adı sakitiydi. Qızanda qabağına durmaq olmazdı. Böyüyüydü, ən böyüyüydü. Mənim də gözlərimi böyütmüşdü, ürəyimi açmışdı, içimdəki havanı dəyişmişdi. Heç bilmirəm o anda ovuclanan suya dönüb okeana qarışmaq, böyümək, çoxalmaq, genişlənmək istəyirdim, yoxsa sahilindəki hələ üzünü görmədiyim bir sıldırım qayalıqda çoxdan, lap çoxdan tikilmiş fənər qülləsinin keşikçisi olmaq? Gecələr gəmilərin yoluna işıq tutmaq, gündüzlər okeana qarmaq sallayaraq siyənək tutub yemək, ömür boyu o fənər qülləsinin yaxınlığında yerləşən

meşəlikdə tikilmiş taxta komada yaşamaq nəyə deyəsən dəyərdi. Nəyə desən, Azin, nəyə desən..

Azin Kürəçi yanındakı Meksika ləhcəsində danışan amerikan yeniyetmələrdən birini tovlayaraq tilovunu əlindən almışdı, balıq tuturdu. Gözünü tilovun döyəcinə zilləmiş, xəyala dalmışdı. Kirimişcə arxadan yaxınlaşaraq keçmiş zabitə komanda verdim: "faragat!" Dik atıldı. Başını bulayaraq "dinc dur, balıqları hürkütmə"- dedi. Döyəc dartındı. Azin tilovu yığdı. Bir suyumu bizim külmələrə bənzəyən əl boyda yaşımtıl, dombagözlü balıq düşmüşdü tilova. Tilovunu verməklə qonaqsevərlik göstərən mulat balığı görəndə sevincindən yerə-göyə sığmadı. Əslində, tutulan balığa görə Sakit okeana təşəkkür etməliydi, lakin Azini təriflədi: "Sən çox mahir balıqçısan!" Sanki o dombagöz dünyanın ən hiyləgər, ən bic balığıymış, Yer üzünün bütün balıqçıları əlləşib-vuruşub onu tuta bilmirlərmiş, təkcə Azin bacarıbmış onu qarmağa salmağı.

Çox mahir balıqçı ilə Sakit okeanı seyr edirdik. Dalğalar bizi qabağına qatıb gah xatirələrin başlanğıc yerinəcən, gah da xəyallarımızın sınırınacan qovurdu. Okeanın getdikcə tutqunlaşan maviliyi, günəşin anbaan öləziyən parıltısı Bərdədən "Qapandar" Nəsibin qızları Gümüşlə, Xeyransanı gətirib saldı yadıma. Bizim vaxtımızda məktəbin ən gözəl qızlarıydılar, hər ikisinin gözləri mavi, mas-maviydi. "Qapandar" Nəsibin böyük qızı Gümüş sarışındı, kiçiyi Xeyransa bekaraca qarabəniz. Böyüyünü Azin gözaltı eləmişdi, kiçiyini də mən istədiyimdən hərdən "bacanaq" xitabını qullanmaqla o qızların üstündə gedən davada bir-birimizə mənəvi dəstək verərdik. Üstündən iyirmi sənə keçmiş Sakit okeanın sahilində yadıma düşdü o xitab, illərin sayı yüngülcə üşütdü məni, yanağıma okeandan su sıçratdı elə bil.

- Bacanaq, - xitabım Azini öncə çaşdırsa da, sonra onu da iyirmi il əvvələ apardı- axı nə demişdim, bax, elə bu dilini dinməz yerinə qoyan okeanın sahilində, meşəlikdə, fənər qülləsinin lap

yaxınlığında adama bir otaqlı taxta koma tikəydik, gecələr sirənlə gəmilərin yoluna işıq tutaydıq, gündüzlər okeandan siyənək tutub bişirə, yeyə-yeyə çox yox ha, hərəyə bircə parç qırmızı çaxır içəydik öz su pərilərimizin sağlığına.

Azin dinmədi. Onun yaşıla çalan gözlərindən heç nə başa düşmədim. Sakit idimi, okean idimi o anda, anışdırammadım. Bir az nostalji vardı, bir az xəyal. Bir az qırğınlıq vardı, bir az iddia. Bir az kədər vardı, bir az mutluluq. Bir az dinclik vardı, bir az narahatlıq. Ən çox, amma ən çox sevgi vardı gözlərində. O sevgini uşaqlıqdan, onun "Qapandar" Nəsibin qızını sevdiyi zamanlardan, bizim sinfin qabagına gəlib Gümüşə baxdığı günlərdən bəri həp görmüşdüm gözlərində. Təbiətə baxanda, adamlarla söhbət edəndə, ölkənin gələcəyindən danışanda gözlərindən əskik olmazdı o sevgi. Okeanın şahə qalxmış dalğasına baxdı: "böyük işlər bizi gözləyir, ay geridə qalmış". Mən dalğanın arxasına, okeanın o tayına, üfüqlərin indi qaranlıq olduğu yerə boylandım...

***

Qayalıqdan yuxarı çıxdıq. Sakit Okeanın sahilində, yam-yaşıl çəmənlikdə San Diaqo Vətəndaş Diplomatiyası Şurası Azərbaycandan gələn heyətin şərəfinə piknik təşkil eləmişdi. Elə ilk görüşdəncə "intermilli nənə" adlandırdığım Kəs DeStefano hər şeyi yaxşı düşünmüşdü. ABŞ-a, Kaliforniya ştatına, Meksika ilə sərhəddəki San Diaqo şəhərinə ömründə ilk dəfə, özü də Azərbaycandan gələn adamları ovsunlamaq, onlarda ölkə haqqında müsbət rəy yaratmaq üçün Sakit okeanın sahilində, göy çəmənlikdə, açıq havada piknik düzənləməkdən daha yaxşı nə olar? Şuranın proqram koordinatoru, əslən meksikalı olan Henriki Meza (ona "qardaş" sözünü Azərbaycanın bütün ləhcələrində öyrədəcəkdik) adımızı yaxamıza yapışdırdı. Acmışdıq. Səbirsizliklə afrika mənşəli amerikan- onlara zənci demək olmaz- xalanın "qazanaçdı" eləməsini gözləyirdik. Gənclər və İdman

Nazirliyinin şöbə rəisi Ziya müəllim əlində qazanaçdıya hazır pul tutmuşdu, hərdən mənə göstərərək mədəsinin sivrildiyinə işarə edirdi. Aclıq Sumqayıtdan olan QHT nümayəndəsi Akifin vecinə deyildi bircə. O, şəkilçəkənlə dolanırdı. Aparatını "Project Harmony" beynəlxalq təşkilatının ABŞ gənclərinin ictimai fəaliyyətini öyrənmək məqsədi ilə seçdiyi heyət "Kübar" otelində bir araya gələndən işə salmışdı, orada çəkdiklərini qoyuram Azərbaycanda, Henriki qardaşın minibusuna doluşub hava limanından piknikə gələnəcən çaq-çaq çaqqıldatmışdı.

Yaxşı ki, qaygıkeş Kəs tanışlığı və dil-ağızı tez kəsərək piknik iştirakçılarını yeməyə səslədi. Qazanlara cumduq. Qızardılmış toyuq, sousda və soussuz balıq, yüngül salatlar, cürbəcür buterbrodlar vardı menyüdə. Koka-kola, mineral su və pivə içmək olardı. Meyli çəkən təamlardan boşqaba yığıb hərə bir tərəfə çəkildi. Mən, Azin, Ziya müəllim və ABŞ səfirliyinin məsul əməkdaşı Elşad boşqabları balıq və toyuq qızartması ilə təpələtmə doldurduq, tərcüməçi Məxmər xanımı əhatəyə alıb okeanın havasını tərifləyə-tərifləyə toqqanın altını bərkitdik. Məxmər xanım yerlimiydi, parlament seçkilərində Bərdənin Küy kəndinə exit-poll keçirməyə gələn amerikanla evlənmiş, San Diaqoya gəlin köçmüşdü.

Xanım Kəs qazanı taqqıldatdı. Danışıq, səs-küy kəsildi. Onun başına komalandıq. "İntermilli nənə"miz əlində tutduğu pivə butulkasını yuxarı qaldıraraq rəsmən "xoşgəldin" elədi. Qabağa hökumətimizin nümayəndəsi Ziya müəllim çıxdı. Ziya müəllim gənclərə yaratdığı gözəl fürsətlər üçün Azərbaycan və ABŞ hökumətlərinə, "Project Harmony" beynəlxalq təşkilatına və başda Kəs olmaqla San Diaqo Vətəndaş Diplomatiyası Şurasında hər kəsə təşəkkür etdi. Azərbaycan hökuməti proqrama dəstək verməsə də, "gənclərə ABŞ-ı görmək fürsəti yaratdığına görə" Ziya müəllimdən müftə təşəkkür almasının üstünü vurmadıq. Belə yerlərdə hər sözün başına ip salmayasan, gərək.

Kəs DeStefano yanımıza gəlib bizdən üzr istədi. İcma Əlaqələri Proqramının qaydalarına görə, iştirakçılar ABŞ-da evlərdə

qalırlar. Amerikan ailələri xarici qonaqları könüllü şəkildə öz evlərində saxlamağı vətənpərvərlik hesab edir, onların bütün xərcini və əziyyətini dövlətdən qarşılıq ummadan özləri çəkirlər. Ev yiyələrinin hamısı gəlmişdi, bizimkindən başqa; qalacağımız evin dul və tənha sahibəsi işdə olduğundan- verilən məlumata görə o, ordudan istefaya çıxmış zabitə idi və özəl təhlükəsizlik xidmətində işləyirdi- dörd saatlığa Elşadın düşdüyü evə gedəsiydik.

Elşadın ev sahibləri varlı-karlı adamlarıydılar. San Diaqonun ən bahalı rayonunda yaşayırdılar. Cənab Markus büllur qablar istehsal edən şirkətin səhmdarıydı. İki arvad almışdı, hərəsindən iki uşağı vardı. O, xanım Katalinanın ilk əri deyildi. Xanım Katalina cənab Markusla nigaha yanıbalalı gəlmişdi. Milyonlarla dollar qiyməti, hovuzu, çəmənliyi olan evləri sadə, geniş və yaraşıqlıydı. Həyətləri hasarsızydı. Süni, lazımsız əşya yoxdu otaqlarda. Biri "Lexus" olmaqla, qarajda dörd maşınları vardı. Heç nəyə təhkim və möhtac deyildilər dünyada.

Tanışlığımızı bərkitmək naminə onlara suvenir bağışladıq. Mən üzərində Azərbaycanın tarixi abidələri olan dörd ədəd taxta stəkan altlığı verdim, Azin xalçacıq hədiyyə etdi. Xanım Katalina stəkan altlıqlarını tərifləyə bildikcə təriflədi. Sanki bütün ömürləri boyu o stəkan altlığının olmamasından əziyyət çəkiblərmiş. Cənab Markus xalçacığı çox öydü. Eni-uzunu cəmi 44 kvadrat santimetr olan o xalçacıq 4 il ömrünü uzadasıydı guya. Azərbaycandan, doğma ailələrimizdən danışdıq. İngiliscə az-çox qırıldadırdım, arabir ağzım divara dirənəndə Azinlə Elşad dadıma çatırdı. Elşad qılığına girmişdi ev yiyələrinin, arvada hər "mama" deyəndə, ağzından çullu dovşanlar qaçır, evdə o yana-bu yana tullanırdılar. Dörd saatın necə keçdiyini bilmədik, qapı döyüldü. Cənab Markus qapını açaraq bizim qalacağımız evin dul və tənha sahibəsini- Fiona Darrini təntənəylə içəri dəvət etdi. Hər ikimiz "mama" deyib kandara yüyürdük. Elşad iştahımızdan keçənlərdən hələ uçaqdaykən xəbər tutduğundan replika atdı: "çirkin qadın yox, az araq olur..."

Fiona bizi Portağal küçəsində yerləşən dördgözlü evinə gətirdi. Ümumi otaqda televizor, musiqi mərkəzi, nahar stolu, divan və kreslo vardı. Odalardan birini bizə ayırmışdı. Tualet və hamamdan onunla birgə istifadə edəcəkdik. Balaca gözə kompüter qoyulmuşdu, elə ilk gündən bilgisayarın nasaz olduğunu bəhanə edərək bizim ora girməyimizə razılıq vermədi. Fionanın dediyini səmimi qarşıladıq, hətta bilgisayarına yeni proqram yaza biləcəyimizi söylədik. Nədənsə razı olmadı. İlk gecəni çox gözəl keçirdik. Gec olmasına baxmayaraq, ev sahibəsi həyətdə gözəl stol açdı, bizi çolpaya və xüsusi reseptlə limon, şəkər, spirtdən düzəltdiyi kokteylə qonaq elədi. Yaxşıca kefləndik. Nə qədər keflənsək də, hər sözümüzün başında və axırında ona "mama" deməyi unutmadıq.

"Mama" alaqaranlıqda oyandı. Qırmızı xalat geyindi, guya üçgünlüyün səhəri düşdüyü evin gözünə girmək istəyən təzə gəlin idi, arvadlanıb çay dəmlədi, südlü aş bişirdi, suxarı qızartdı. Azərbaycandan, ABŞ-dan, demokratiyadan və kürəsəlləşmədən söz açdıq. Fiona insan haqlarına inanmır, kürəsəlləşməyə etiraz edir, respublikaçıları sevmir, demokratlara güvənmirdi. Anadan əmdiyimiz süd burnumuzdan gəldi, dünyada Fionanı razı salan olay tapammadıq. Süfrəni koməkli yığışdırdıq. Ev sahibəsi bizi Vətəndaş Diplomatiyası Şurasının "Cənub Dairəsi" otelində yerləşən ofisinə apardı. Günortaya qədər təlimat dinlədik. Nahar fasiləsində Henriki qardaşın minibusuna doluşub meksika mətbəxinə getdik. Qarnımızı doyurub axşamacan San Diaqonun görməli yerlərini gəzdik. Gecə Fiona həyətdə yenə qəşəng qonaqlıq verdi. Elə dünənki qaydada bişirdiyi çolpayla dörd şüşə qırmızı çaxır boşaltdıq. Çaxırın keyfiyyətinə söz ola bilməzdi, bizi tutdu. Boşlayana qədər hər sözün başında və axırında ona "mama" deməyi unutmadıq.

Cümə gününü də eyni minvalla yola verib, şənbəyə yetişdik. Səhər yeməyindən- menyüdə yenə çay, südlü aş, qızardılmış suxarı vardı- sonra Fiona evdarlıq elədi. Biz şkafdan

vərəqləməyə kitab seçdik və ondan soyuducudan pivə götürməyə icazə istədik. Əslində, icazəyə ehtiyac olmamalıydı. Fiona bizə soyuducunun ağzını tam ərklə açmağa ixtiyar verməliydi. Digər ailələr müsafirlərini soyuducunun yanına aparıb özlərini ac qoymamağı tapşırsalar da, Fiona bizi mətbəxlə yerli-dibli tanış etməmişdi. Əgər mətbəxlə tanışlıq qəsdən unudulmamışdısa, pivələri soyuducudan özümüz götürməyə təklif almalıydıq. "Elə bilin öz evinizdəsiniz"- gözlədiyimiz söz ev sahibəsinin ağzından çıxmadı, özünü o yerə qoymadı, soyuducudan iki şüşə pivə çıxartdı və bakal gətirdi. Kor-peşman kitabları qaytarıb yerinə qoyduq, pivələri və bakalları götürüb həyətə çıxdıq. Mısmırığımızı sallayıb limon ağacının altında, göy çəmənlikdə oturduq, axşam diskoteyka gedərək eynimizi açmaq keçdi könlümüzdən...

Pişiyin könlü samanlığaydı, it də vurub ora saldı. Restoranda nahar zamanı o, adətən, şənbə axşamları diskotekaya getdiyindən, rəqs edərək yorğunluğunu canından qovduğundan dəm vuranda çiçəyimiz çırtlatdı. Hesabı vermək istədik, əlimizi cibimizə atmağa qoymadı. 44 dollar ödədi. Evdə cibimə qələm qoydum. Bu axşam ömrümüzə-günümüzə yazılmalıydı.

Ev sahibəsi ümumi otaqda yalandan aşağı əyilərək cins şalvarının altından tumuşunu çıxartdı, qarajda maşının açarını qəsdən yerə salaraq lifçiyini göstərdi. Bu gecənin bir xətası çıxacağına eyham vurdum. İngilis dilində də Qarabağ ləhcəsi ilə danışan Azin eyhamı tərcümə elədi: "beyjə çox gözəl keçəjək!" Eşitdiyi söz Fionanı xoşhallandırdı, üzünü güldürdü, hırıldayanda seyrək, həvə dişləri çöldə qaldı. Əşi, rədd olsun onun dişi də, dişiliyi də, gedək, görək başımıza nə gəlir...

"Qaz lampası" San Diaqo şəhərində gecə həyatının mətəsidir. Sadəcə sıra sayı və hərflərlə fərqləndirilən onlarla küçə barlarla, restoranlarla, diskotekalarla doludur. Fiona bizi dörd küçənin kəsişməsində düşürdü, göstərdiyi yerdən tərpənməməyi tapşıraraq maşınına dayanacaq axtarmağa getdi.

Ulduzlu iyul axşamıydı. Məhəlləyə adını vermiş qaz fənərləri yanır, restoranların, gecə klublarının, diskotekaların lövhələrində, reklam şitlərində hərflər bərq vurur, sayrışır, yanımızdan ötən qızlar alışıb-yanırdılar. Minlərlə, bəli, minlərlə qız sinələri, ayaqları, belləri açıq, bal paltarlarında yanımızdan keçirdilər. Bu dünyanın elə bir irqi, milləti yoxuydu o qızların arasında olmayan. Hər cür gözəl vardı. Hamısı biri-birindən qəşəng, biri-birindən qaynar, biri-birindən səmimiydilər. Elələri vardı, sifətlərini boyamış, saçlarına lələk düzmüş, karnaval maskaları taxmışdılar. Yanımızdan keçəndə mahnı oxuyur, köşədə, səkinin qırağında dayanıb maddım-maddım onları seyr etməyimizi gözündən qaçırmayanlar söz atırdılar. Ayaqüstü tanış olurduq. Tanış olduğumuz qızlara ona görə dərindən meyl göstərmirdik ki, Fionanın bizi hansı diskotekaya götürəcəyi müəmmalıydı. Gedəcəyimiz yerdə qız əlindən tərpənməyin mümkün olmayacağını gözümüzün qabağına gətirir, sərfəli planlar cızırdıq.

Fiona zabitə yerişiylə, tullana-tullana gəlirdi. Bunca gözəl qızları, qadınları olan San Diaqoda bəxtimizə onun qədər eybəcərin düşməsi taleyin ironiyası idi. Üzünə baxanda kəffarə vermək istədik, dilənçi tapmadıq. Yanımıza çatanda çırtıq çaldı, əliylə gedəcəyimiz səmti göstərdi. Yolda təəssüratlarımızı soruşdu. Ağzımız köpükləndi. Fiona qabaqda, biz arxada xeyli getdik, küçələr dəyişdik, dalanlar burulduq, yollar adladıq, axırı gəlib "F" küçəsi ilə 8-ci keçidin həndəvərindəki gecə klubunun qabağında dayandıq. Fiona saatına baxdı, bizi klubun qabağına tam vaxtında yetirdiyinə öyündü. Cəmi dördcə dəqiqə gec gəlsək, adama dörd dollar giriş haqqı verəsiymişik. İçəri havayı keçdik.

Gecə klubu çox balacaydı. Girişdən solda bar yerləşirdi, yuxarı baş musiqiçilərə ayırılmışdı, musiqiçilərin düz önündəki rəqs meydançası darıydı, sağ divar boyunca uzanan süngürlü oturacağın qarşısına miz düzülmüşdü. İçəridə iki qoca ər-arvad, yaşı qırx dördü haqlamış iki afrika mənşəli amerikan- onlara zənci

demək olmaz- kişi və adamların kluba hələ təzə gəlməsinə baxmayaraq, sərxoş vəziyyətdə ortalıqda dingildəyən kaftar fahişə vardı. Yanımızdan keçmiş minlərlə gənc qızın bircəciyi də bura uğramamışdı. Yeganə təsəllimiz kluba müştərilərin təzəcə ayaq açmasıydı. Fiona bizdən nə içəcəyimizi soruşdu. Gələndən pivəyə dadansaq da, qırmızı çaxır istədik. Tez-tez ayaqyoluna getmək və potensiyamızı zəiflətmək istəmirdik.

İçəri yavaş-yavaş dolurdu. Bir kluba ayaq basan yeni adamların, bir Azinin üzünə baxırdım. Qapıdan içəri bircə gənc qız, tək qadın girmirdi. Ölən ümidlərin xatirəsinə bakalları toqquşdurmadıq. Arada hava almaq bəhanəsiylə bayıra çıxdıq. Yanımızdan minlərlə gözəl qız adlayırdı. Yanımızdan adlayan minlərlə gözəl qızın bircəciyi o xaraba gecə klubuna girməyi ağlından belə keçirmirdi. Ovqatımız təlx olmuşdu. Fionanın hiyləsini yavaş-yavaş anlayırdıq, evə qayıdan baş paxırı açılacaqdı. Bizi maşından düşürərək dayanacaq axtarmağa getməmişdi; arabasına dərhal yer tapmış, yaşlı adamların toplandığı gecə klubu gəzmişdi. Əldən düşmüş qadınların arasında gözümüzə gözəl görünmək istəyirdi. Yanıb yaxıla-yaxıla içəri qayıtdıq. Fiona rəqsə nə zaman başlayacağımızı soruşdu. "Havanın sümüyümüzə düşmədiyini" bəhanə gətirib rəqs etmədik. Çöldən qayıdanda yaşı qırx dördü haqlamış afrika mənşəli amerikan- onlara "zənci" demək olmaz- kişilərdən birinin Fionaya girişdiyini görmüşdük. Oğraşlıqdan başqa çarəmiz yoxuydu, ya birimiz "düt" deyincə içməli, canını dişinə tutaraq gecə onunla yatmalı, ya da Fionanı afrika mənşəli amerikana- onlara "zənci" demək olmaz- sırıyıb qarmağa gözəlcə salmalıydıq. "Qağa, çaxır az olmadı?"- Azinin ağzını aradım. İmtina etdi. Haqlı sözə nə deyəsən, dərdimizin dərmanı kaş elə çaxır olaydı... Sözünü ingiliscə gecə klubunda sıqaret çəkilməməsi ilə yozdu. Məkanda siqaret çəkilməsini qadağan edən elanı onlara göstərdim, hər ikisi çevrilib arxaya baxanda ani imkandan yararlanaraq, onsuz da hər hərəkətimizə diqqət yetirən bayaqkı

afrika mənşəli amerikana- onlara "zənci" demək olmaz- göz vurdum: "bacarana baş qurban, qağa!" Qağam başıyla təzim etdi. Azini dartıb cölə apardım. Yanımızdan minlərlə gözəl qız adlayırdı. Yanımızdan adlayan minlərlə gözəl qızın bircəciyi o xaraba gecə klubuna girməyi ağlından belə keçirmirdi. Pəncərədən içəri baxdıq. Fiona afrika mənşəli amerikanla- onlara "zənci" demək olmaz- rəqs eləyirdi. Bir qədər ətrafı dolaşdıq, qızlarla tanış olduq. Marağımıza ən çox iki rəfiqə səbəb oldu. Əsl biz deyəniydilər. Rəfiqələri oturduğumuz kluba aparmaq istədik, məkanın adını eşidəndə gülümsündülər, tanışlarının dörd tin oyandakı diskotekada əyləndiklərini əsas gətirərək təklifimizlə razılaşmadılar. İsrarla bizim ora təşrif buyurmağımızı xahiş etdilər. Onları ötürüb geri qayıdanda gördük ki, afrika mənşəli amerikan- onlara "zənci" demək olmaz- Fionaya çaxır ismarlayıb və əlini belindən fırlayaraq döşünü tapmağa çalışır. Fionadan rəfiqələrin əyləndiyi diskotekaya getməyə icazə istədik. Bizi qırtlağımızdan sıxdı. Afrika mənşəli amerikan- onlara "zənci" demək olmaz- da onu xeyli dilə tutdu. Qara oğlanın dərdi varıydı. Fiona ingiliscə Nuh dedi, peygəmdər demədi. Gözümüz dallarınca qalsa da, rəfiqələrdən əlimizi üzmədik, gələn həftə yanlarına girməyi qərara aldıq. Qızlar həmişə cüt əylənirdilər. Atalar belə yerdə deyiblər, sən saydığını say, gör fələk nə sayır, fələyi afrika mənşəli amerikana- onlara "zənci" demək olmaz- calamaqda nə qədər səhv etdiyimizi anlamamışdıq. Qağamıza özünü əllətmək həvəsiylə Fiona o xarabadan əl çəkməyəcəkdi daha.

Fiona klubu hirslə tərk elədi, bıçaq vursan, qanı çıxmazdı. Qanlı-bıçaq olmuşdu bizimlə, yol boyu heç hansımızı dindirmədi. Adətən, maşın sürəndə tək-tük nevrotik səslər çıxarardı, o gecə iniltisi kəsmədi. "Deyəsən, başımız ağrıyacaq"- Azinə dedim. Ağzımdan çıxan sürücünün qulağına "gecəmiz çox maraqlı keçdi" şəklində çatdı. Fiona sözümü təsdiq mənasında "hımm" elədi. Qəzəbi maşın karvanını dayandırdı. İşıqforun qırmızı işığı yandı.

Yaşıl yananda Fiona artıq inildəmirdi, zingildəyirdi. Onu ulatmamaq xatirinə evə çatan təki yerimizə girib yatdıq. Ertəsi gün isti çay, südlü aş və qızardılmış suxarıdan ibarət səhər yeməyi stola gəlmədi. Fiona dünən gecə geydiyi tumanı stulun başından asmışdı. Səhərin gözü açılmamış bizim otağa gəldi, gecə lampasını əvəz edən zəif işığı daha yandırmamağı tələb etdi. Günortayacan ac qaldıq, saat dördə işləmiş bizi nahara apardı. Elə bahalı yer tapdı ki, adama 44 dollar xərcləsək də, Fionaya tuman tikə bilmədik, evə alaqarın qayıtdıq. "Günorta bərk yediyimizdən" şam etmədik, əvvəlki günlər yatmazdan qabaq otağa gətirib içdiyimiz pivənin iznini itirdik. O gündən evdə eşitdiyimiz bütün cümlələr eyni cür bitdi: **"in this country!"** Fionanın "in this country"də, yəni "bu ölkədə" bizə tutmadığı irad qalmadı. Evdə etdiyimiz nadir naharların birində boşqabın altına saldığı balaca dəsmalların üstünə çörək qoymağı mənə qadağan etdi və əppəyin "in this country"də boşqabın qırağında saxlanmalı olduğunu başa saldı. Əgər o gün sulu xörək yeməsəydik və növbəti dəfə Elşadgilə gedəndə "burjuy" amerikanların eynən mənim kimi çörəyi boşqabın altındakı dəsmala qoyduğunu görməsəydim, ömrüm boyu "in this country"də ədəbsizliyə yol verdiyimi düşünəcək, xəcalət çəkəcəkdim. Başqa gün getdiyimiz meksikan mətbəxində çuduya oxşayan kökəni "in this country" də düzgün yeməyin qaydasını izah elədi Azinə. Sən demə, o çuduya bənzəyən kökəni ağıza yaxınlaşdırıb yemək olmazmış, ağız kökəyə sarı əyilməliymiş. Əlqərəz, "in this country" də ürəyimiz istəyən, ürəyimizcə olacağı ehtimal edilən hər şey yasaqlandı. Bazarlıq edib evə gətirmək olmazdı, çimən zaman hamamın içindəki şüşəbənd parlanmamalıydı, vanna otağında üz qırxmağa icazə yoxuydu... Hələ bu harasıdır, həmişə eyni saatda yuxudan dursaq da, işə tez gedəcəyini axşamdan xəbər vermədən bir gün bizi gecikməkdə suçladı və evdə qoyub getdi. Başqa bir yol supermarketdən aldğımız kökələri maşında yeməyə qoymadı, yerə düşməyə

razılıq vermədi, evə də aparmadı, acından öldüyümüzü bilə-bilə bizi maşında saatlarca gəzdirdi. "İn this country"də maşında kökə yeməyin qəbahət olub-olmadığını cənab Markusdan xəbər aldıq. Cənab Markus xeyli güldü. İngiliscə dedi ki, ay xalası göyçəklər, nə qoyub, nə axtarırsınız, "in this country"də maşında kökə yemək nədi, heç sekslə məşğul olmaq da eyib deyil, arada Hollivud kinolarına baxın barı. Əlimdəki brelok- onu Məxmər xanım hədiyyə vermişdi- yerə düşdü. Dınq! Cənab Markus sarı simə vururdu.

Bəxtimizdən Portağal küçəsində Kambocanın Sesant mahalının Fi kəndindən siyasi mühacirlər məskunlaşmışdılar və Fionayla get-gəl edirdilər. Kambocalı gəlin Azərbaycan kulinariyası ilə Kamboca mətbəxini müqayisə etməyimiz üçün kömbə və xərçəng bişirmiş, bizə pay gətirmişdi. İçi ətlə dolu iri kömbəni iki, qızardılmış xərcəngi dörd günə yedik. Mühacir kömbəni və qızartmanı havayı yerə gətirməmişdi, tanış olanda, göy çəmənlikdə oturub Azərbaycandan, adət-ənənələrimizdən, yemək-içməyimizdən danışanda korluq çəkdiyimizi anlamışdı. Anam-bacım olsun yaxşı gəlin idi, kəndlərinin adının mənasının izah edənəcən min dəfə üzünü ayağımızın altına sərdi. Fi gecələr Kambocalı oğlanların yuxusunu qarışdıran pəriymiş.

- Azin,- obrazlı danışdım- Amerika bizim yuxularımızı qarışdıran Fidir.

- Fiona xəyal qırıqlığımız...

- Və Fi kəndindən qaçmış mühacirlərin qonşusu...

- Amerika macəralar ölkəsi deyil, imkanlar bərabərliyidir....

İmkanlar bərabərliyi ölkəsində Fiona Darrinin yəhudi rəfiqəsi vardı. Əsl adı Juel idi. Adını tez-tez dəyişməyi sevirdi, tanış olanda özünü Ctrl təqdim etmişdi, bizdən ayrılanda CL olmuşdu, hər dəfə adını çəkəndə "bu dünyada olmayan şeylərdən xoşuma gələn heç nə yoxdur" deyərdi. O, yəhudilərin keçirdiyi

ənənəvi mərasimə ev sahibəmizi qonaqlarıyla birlikdə dəvət etmişdi. Şənbə günü onlara getdik.

İki mərtəbəli mənzili sadə, taxta və hasarsız amerikan evlərindən fərqlənmirdi. Arxasındakı balaca bağçada Juelin oğlu Kelvin dovşan saxlayırdı. Kelvinin iyirmi bir yaşı vardı, köpəkoğlu yaxşı gitara çalırdı. Juel, Kelvin, Kelvinin gözəlçəsi və ev sahibəsinin digər yəhudi rəfiqəsi- Mayra Kattonla laqqırtı vurduq. Mayranın bir ayağı gorda, bir ayağı məktəbdəydi, qocalığında yorğalaya-yorğalaya kollecə gedirdi. Əri Cozef mason idi.

Juel soyuducunun yanına gətirib bizə yemək-içmək sərbəstliyi verdi. Əlimizi uzatmadıq soyuducuya, ABŞ-a qarın otarmağa gəlməmişdik. Süfrə açılmasını gözlədik, onlarla birgə çolpa yedik və ağ çaxır içdik. Süfrəni hamılıqla yığışdırdıq. Kelvin gitara çaldı, mahnını qızına ithaf etdi. Mahnı bitəndə dodaqlarını qızın, Borçalı aşıqları demiş, püstə ləblərinə birləşdirdi, dəqiqələrcə çəkmədi. Öpüşənləri alqışladıq. Alqışlar kəsiləndə şalvarının qabağı dombalmış Kelvin qızı öz otağına qaldırdı, biz söhbətə davam etdik. Mayra qonaq otağında Azinə masonlardan danışır, Juel mətbəxdə mənə üzvü olduğu Kabala təriqəti haqqında bilgi verirdi.

Kabala saylardan istifadə edərək Tövratın gizli mənalarını tapmağa çalışan mistik yəhudi təriqətidir. Təriqətin üzvləri rəqəmlərlə ibrani əlifbasındakı hərfləri əlaqələndirməklə müqəddəs kitablarındakı gizli mənaları açmağa cəhd edirlər. İbrani hərfləri "Həyat Ağacı"ndakı yolları əks etdirir. Bizim eranın I əsrindən etibarən formalaşan və VI yüzildən başlayaraq qələmə alınan təriqətin əsas hədəfi yəhudiləri İsanın dönüşünə hazırlamaqdır. Kabala təriqətinin bilgiləri ustaddan şagirdə ötürülərək yaşadılır və məxfi saxlanır. Yəhudi mistikləri insanın Tanrı ilə birbaşa kontakta girə və adını çəkməyi günah saydıqları ali varlıq- **YHVH** ilə bütünləşə biləcəyini vurğulayırlar. Kabalaçıların ənənəvi musəvilərdən fərqi bundadır. Ortodoksal

yəhudilər Musa peyğəmbərin qaydalarına əməl etdikləri halda, kabalaçılar insanın özünün **Y**aradanın **H**afizəmizdəki **V**arlıq **H**alı ilə birbaşa rabitəyə girməsini mümkün sayırlar. Kəhanət, tilsim və ovsunlama kabalaçıların dünyasında xüsusi yer tutur. Tarot- boş vaxtlarda başımızı qatdığımız oyun kartlarına bənzəyir- kabalaçıların okkultik vasitəsidir. Juel öz arvad sezgisi, Tövrat bilgisi və Tarot kartları vasitəsiylə adamın "Həyat ağacı"na çıxa bilirdi, fərasət ona anasından keçmişdi, anası çıxan ağacı balası budaq-budaq gəzirdi.

O, hər hansı kötü olacağı üzümə deməmək üçün falıma baxmaqdan imtina etsə də, aramızda qalmaq şərtiylə Azinə kart açdı. Rəfdən Tarotu götürdü, işığı keçirdi, şam yandırdı, görünür, bütün diqqətini kartlara cəmləmək istəyirdi. Kartları yaxşı-yaxşı qarışdırdı, masaya düzdü, birini əlinə götürdü. Verdiyi sualla məni çaşdırdı:

- Azin martın 14-də anadan olubmu?

- Tamamilə doğrudur!– dedim və maraqla onun ağzını güddüm. Gözləməyim əbəs oldu. Əlinə aldığı ikinci kart- **Tərsinə Asılmış Adam** gözünü necə böyütdüsə, Juel Azinin qəzavü-qədərini danışmaqdan vaz keçdi:

- A**dını dəyişdi-taleyini dəyişdi!-** Fiona öpüşdüyümüzdən şübhələnib yanımızı kəsdirənəcən kartdan gözünü çəkmədi.

***

Evə qayıdanda dilim dinc durmadı, anasının gözünün qabağında Kelvinin qızla öpüşməsinin, üstəlik, məqsədi kimsəyə örtülü qalmadan onu öz otağına aparmasının "in this country"də nə qədər normal sayıldığını soruşdum. Fiona dilimi ağzımda yandırdı, seks qapalı, sevişmək eyib deyilmiş... Axı nə ehtiyac var pərdə saxlamağa, palaza bürünməyə?- mənə od qoydu.

Juel yalan-gerçək aşnası olduğunu demişdi. Kelvin yaşda oğlu olan ananın öz məşuqu ilə harada görüşdüyünü soruşdum. Fiona Kelvinin yaşının, ümumiyyətlə, mövcudluğunun Juelə

əngəl törətmədiyini bildirdi. "İn this country"də istənilən kişini Juel evinə sala, onunla yata bilər, belə hallarda Kelvin uzaqbaşı öz kompüterində mina axtarmalıdır. Bəs sizin ölkənizdə necədir?- qadında seksə bir maraq vardı, gəl görəsən!

"Qeyrət" sözünün ingliscə sərrast qarşılığını tapmadım, Azin də kara gəlmədi,- bu da mənim ingiliscə yaxşı bilənim-yanımda gəzdirdiyim lüğətdə belə söz yerli-dibli yoxuydu. Nisbətən yaxın mənada işlənən "şərəf" sözündən yararlanaraq cavab verdim:

- "İn that country"də, yəni Azərbaycanda ana-bacı şərəfi çox prinsipial məsələdir. Şərəfli oğlan anasını yataqda yad kişiylə tutarsa, hər ikisini bıçaqlamalıdır.

Fiona qulaqlarını çəkdi. Dəqiqləşdirici suallarla tərcümə xətasına yol vermədiyimə əmin oldu və o andan hər ikimizdən qorxmağa başladı. Yataq otağının qapısını həmişə aralı saxlayıb mətbəxi gözdən qoymayan ev sahibəsi gecə uzanmazdan qabaq cəftəni saldı. Bizi potensial qatil hesab edirdi.

***

Juel və Mayra Azərbaycan mətbəxinə qonaq olmaq istəyirdilər. Azin badımcan, bibər və pomidor dolması bişirməyə, mən kabab çəkməyə söz vermişdim. Üzümüzə gələn axırıncı bazarıydı, qarşıdakı həftənin dördüncü günü ABŞ-ı tərk edəcəkdik. Doğrusu, ortaya girən qonaqlıq söhbəti qanımızı qaraltmışdı. Bizim başqa planımız vardı. Amerikada sevgi yaşamadan Azərbaycana qayıtmaq istəmirdik. Qayıtsaq, hər şey cəhənnəmə, ömrümün axırınacan Azinin dilindən düşməzdim. İndidən məzələnirdi:

- Ay geridəqalmış, bəlkə "Bakir" təxəllüsü götürəsən, Bakir Barses, yaraşır ha, özüm ölüm, gedərsən qabağa...

Özü qalmışdı qabağının hayına. Vətəndaş Diplomatiyası Şurasında Canessa adlı canı candan usandıran canan çalışırdı. Oğlanından təzəcə ayrılmışdı. Qrupumuzdakı bütün oğlanların

iştahından keçirdi, qabağa durmağa ürək eləyən yoxuydu. Azin Fionanın diskoteka seçimi ümidlərimizi puça çıxaranda Canessanın elektron poçtuna çiçək yollamışdı. Aldığı karta öz rəsmini cavab göndərmişdi qız. Bal geyimində çəkilmiş şəkildə balıydı canıyanmış, uzun ayaqları, açıq sinəsi, belinə çatan sarışın saçları və mavi gözləriylə birlikdə Azinin qarmağına keçən balığıydı. Balığı bişirmişdi Azin. Qız tovlamaqda üzü ağıydı. Öz işini düzüb-qoşmuş, sağ olsun, mənim də qayğıma qalmışdı. Canessanın boynuna rəqs müəlliməsini mənə calamağı qoymuşdu. Oğlan dostu olsa da, girəvəsinə keçəndə vaxtını başqalarıyla şən keçirməkdən imtina etməyən Canessanın rəqs müəlliməsi sazıydı, deyilənə görə. Canessanın işi bizi tanış etməkdi, sazı sinəmə basmaq mənim fərasətimə qalırdı. İngiliscə şeir yazammasam da, çulumu sudan çıxardırdım, özümə "Bakir" təxəllüsü götürəcək qədər fərsiz olmazdım, ona bir şey qoşacaqdım...

Azin Canessa ilə ilişgisini Fionanın Kəsə xəbərləməsindən qorxurdu. Qızın gül kimi işi, maaşı vardı, işgüzar reputasiyasını korlamaq insafsızlıqdı. Durumumuzdan ucundan-qulağından hali olan Canessa tədbirini tökmüşdü, dalımızca rəqs müəlliməsini göndərməklə eşqbazlığını palazın altında saxlayacaqdı. Balboa parkında gəzişəcək, axşam gecə klubuna gedəcəkdik. Dalına baxacaqdıq. Hansı dalına çevirsən, beş abbası bir manatdır...

Cümə günü ofisdən evə dönəndə Fiona supermarketə girdi. Bazarlıq edib qayıtdı. Bizi qonaqların bazar günü gələcəyindən agah elədi. Dostum "when" (haçan) sualındakı saiti uzadaraq Fionaya tarixi təkrarlatmaq istəyəndə, təsdiqləyici cavabı mən verdim: "bazar günü, Azin Şakir! - mənə "Bakir" təxəllüsü verən ovçuya əlindən çıxan şikara görə "Şakir" deyərlər, deməzlər?

Fionanın hər üzünə bələd idik artıq, banket bazara təyin olsa da, qonaqları bəhanə edib bizi şənbə günü də evdən çıxmağa, qızlarla görüşməyə qoymayacağını təxmin edirdik. Çıxmayan

candan ümid üzülməz, çıqqılı da olsa, işıq yeri vardı və o kiçik ehtimal hər ikimizi toxtadanda qara xəbərin biri də gəldi:

- Sabah cənab Mateo evində qonaqlıq verəcək...

Cənab Mateo şirkətdə çalışırdı, xanım Lorena hüquqşünasıydı. Hər ikisinin arabası vardı. Tez-tez zəngləşir, işdən macal tapanda mesajlaşırdılar. Vətəndaş nigahıyla birgə yaşamışdılar uzun sürə. İlkin emosiyaları, ehtirasları sovrulanda aralarındakı bağın üzülməzliyini anlamışdılar. Evlənib xoşbəxt olmamışdılar, xoşbəxt olub evlənmişdilər. Şad, xürrəm ömür sürürdülər. Bazarlığı birgə edər, yeməyi köməkli hazırlayardılar. Süfrəni yığışdırmaq və qabları yumaq ərin boynunaydı. Evin səliqə-səhmanı ilə xanım məşğul olurdu. Selena adlı madar qızlarının ən sevimli oyunu nanə yarpaqları əsdirmək idi, hər nazı çəkilir, ağzından çıxan göydə hazır olurdu. Bir dəfə Selena evlərinin qabağında oynamaq istədi, atasıyla birgə saatlarca onu gözlədik. Eyni cəhdi bizim uşaqlar etsəydi, qonağın yanında biabır olmuş ata başına qapaz salmışdı. Mateo özünü biabır olmuş saymadı, qızının qulağını burmadı, üstünə acıqlanmadı, əksinə, cocuğun şıltaqlığından aldığı ləzzətə bizi də qoşdu. Qapaz nədi, danlaq nədi, hirs nədi bilmirdi o uşaq. Qulağı "səni görüm təpəndən vurul" qarğışı eşitməmişdi. Dörd yaşı təzəcə tamam olmuşdu. Həftədə dörd kərə üzgüçülük məşğələsinə gedirdi. Onu məşğələyə bir dəfə atası, bir dəfə anası aparırdı. Necə üzdüyünü, bacarıqlarını necə artırdığını həm ata, həm də ananın görməsi, tərifləməsi uşağın psixologiyasına müsbət təsir edirdi. Bir dəfə maşına yığıb bizi də qızın üzməyinə baxmağa apardılar.

Anası qızcığazı suya doğmuşdu. Adını "külmə" qoydum. Külmələr hovuzda çoxuydu. Aralarında dörd aylıq uşaqlar da vardı. Dörd aylıq çağalar suda çabalayaraq mübarizə aparmağı öyrənirdilər. Yaxalarından göz muncuğu-zad asmamışdılar. Ağlımız bizim yekəldikcə həyat bacarığı olaraq yaltaqlıq öyrənən uşaqlara getmədi, onlar gözə-nəzərə gəlmirdilər.

Gözə-nəzərə gəlməyən o uşaqlar açdılar gözümüzü. Ey dili-qafillər,- suyu bulandırdılar- Azərbaycanda Gənclər və İdman Nazirliyinə ehtiyac yoxdur! Belə bir qurumu saxlamaq büdcəni havaya sovurmaqdır!- qrup bu qənaətə gələndə Azin Kürəçi Mateogildə qonaq qalan Ziya müəllimə zarafat elədi:

- Deyəsən, işinizi itirəcəksiniz. Obyektivlik naminə qayıdıb nazirliyin bağlanmasını təklif eləməlisiniz. Təklif qəbul olunsa, iş yeriniz ləğv olunacaq; sözünüzə baxmasalar, nazirliyi bağlatdırmaq istədiyinizə görə əmrinizi verəcəklər!

Ziya müəllim təmkinli adamıydı, tövrünü pozmadı:

- Niyə elə deyirəm? Hərifəm? Deyəcəm ki, bizim ABŞ-a çatmağımıza hələ çox var!

- Bravo, Ziya müəllim- mən qışqırdım- "Külmə"nin üzməyini görəndən bəri mən ABŞ-a heç zaman çatmayacağımızı düşünürəm. Görərsiniz, bü gün-sabah bir afrika mənşəli amerikan- onlara zənci demək olmaz- prezident seçiləcək "in this country"də!

Qaradan artıq rəng yoxdu. Bizi qarabaqara izləyən mərdimazar peyda olmaqla yenidən "nə etməli" sualı yaratmışdı. Kəs DeStefano təlimatda belə qonaqlıqların verilə biləcəyini demiş, orada iştirakın məcburi olmadığını bildirmişdi. "İstəməyən gəlməz, şəhəri gəzər, evdə qalar, yatar, kəsəsi, özü bilər neyləyər..." Kəsin dediklərini xatırladaraq Azinə getməməyi təklif etdim. Dabbaqda gönünə bələdiydim, ölərdi, "Şakir" ləqəbini götürməzdi. Sözüm ağlına batdı. Şövqlə Kəsdən sitat gətirərək sabahkı tədbirə getmək niyyətimiz olmadığını və günü ayrı cür planlaşdırdığımızı Fionanın qabağına qoydu. Kəsdən gətirilən sitata başımızın ağası etiraz edə bilmədi. Planlarımızla maraqlandı. Azin təzə tapdığı tanışının bizi restorana dəvət etdiyini haqq-hesaba basdı. Söz arası ona birbaşa Kəsdən icazə ala biləcəyimizi də eşitdirdi. Kəsə ağız açmağa ehtiyac görmədi, təzə tapılan tanışı soruşdu. Azin o irəli supermarketdə tanış olduğu satıcı qızla görüşəcəyini bəhanə elədi. Amerikada teşt, tiyan,

qazan, vedrə qalmadı, hamısını isti su ilə doldurub arvadın başına əmdərdilər. Özündən çıxartmadığı qanun qalmadı. Yekun sözü o oldu ki, biz "in this country"də sabah qalacağıqsa, mütləq cənab Mateogilə gedəcəyik. Mübahisə etməyin mənası yoxuydu. Səhərin açılmasını gözləmək, Kəsə zəng etmək, onu işə qarışdırıb bazar günü tezdənə qədər aradan çıxmaq lazımıydı, sağlıq olsa. Başımızı Canessanın rəfiqəsini Kəsin tanıması ağrıda bilərdi, əgər Azinin tanışıyla özü söhbət etmək istəsə- buna tam ixtiyarı vardı- arzumuz ürəyimizdə qalacaqdı. "Axşamın xeyrindən sabahın şəri yaxşıdır"- o boyda atalarımız varkən özümüzdən amerika kəşf edəsi deyildik, səbbini səhər almaq ümidi ilə Fionanın yerinə qor doldurmaq istəmədik daha.

Fiona elədiyi bazarlığı ortalığa tökdü. Azinin bişirəcəyi dolmaya cəmi bir ədəd bibər, bir ədəd pomidor və bir ədəd də qartımış badımcan almışdı. Ət, ümumiyyətlə, almamışdı, iki kilo sümüksüz toyuq çəkdirmişdi. Mən də elə sümüksüz toyuq ətindən kabab qoyacaqdım. Fionaya badımcan, pomidor və istiot dolmasının reseptini qırxıncı dəfə başa saldıq, ev sahibəsi dediklərimizi yalnız özünə sərf edən anda başa düşdüyündən onu bişirəsi olmadıq. Hər addımımıza qəmiş olan, özünü ağıllı, işbilən göstərmək istəyən Fionanın, fürsət düşmüşkən, aşının suyunu verdik, axı ona çox demişdik ki, bazarlığı birgə edək, pulunu isə özümüz verək...

Səhərin şəri şər olmadı, zırıltı, zıppıltı oldu. Fiona üz-gözünü elə turşutdu ki, ona "sabahın xeyir" deməyə cürətimiz çatmadı. Ev sahibəsi vacib zəng gözlədiyindən Kəsi araya bilmədik. Burnumuzdan ehtiras tökülə-tökülə cənab Mateogilə getdik. Sənə mələməmiş quzu kəsim, Kəs!

Kəs xahişimizi yerə salmadı, kəsmik yediyindən kəsik-kəsik danışaraq Azinə Balboa parkına necə gedəcəyini izah elədi. Kəsin ürək-dirəyindən cuşa gəlib, ikimiz də kəskin nəzərlərlə Fionaya baxdıq. Fiona kəsilə-kəsilə qalmışdı. Azin böyük

günahdan yaxa qurtarmışcasına sevinirdi. Elə şikarı əldən buraxmaq günahıydı, gerçəkdən günahıydı.

Şənbə günü evə qayıtmadı, heç bazar günü də gəlmədi, bazar ertəsi ofisdə görüşdük. Macəralarından qısaca danışdı. Canessa onu Sakit okeanın sahilindəki fənər qülləsinə baxmağa aparmış, orada öpüşmüşdülər. Axşam "Qaz Lampası"na gəlmiş, diskotekada əylənmişdilər. Bazar günü vəhşi çimərliyə- insanların anadangəlmə lüt çimdiyi plyaja getmişdilər.

Demə "yerin məlum", qardaş, demə, dərdimi təzələmə, qaysağını qopartma yaramın, toxun acdan nə xəbəri? Canessa sənin qucağında qıvrılanda mən acından gəbərirdim, Mateonun evindən gələli dilimə daşdan yumşaq heç nə dəyməmişdi. Fiona səndən giley edir, mən ağzından vururdum. Elşadın qonaqlığa gəlmədiyini, fotomanyak Akifin məclisdən tez getdiyini xatırladaraq səndə günah görmürdüm. Ay balam, Amerika "özün bilərsən" cəmiyyəti deyilmi? Başqalarının mülkiyyətinə, həyatına, azadlığına toxunmayan aydan arı, sudan duru sayılmırmı? Mən evi yıxılmış, daha doğrusu, evi heç olmamış nə qoyub, nə axtarıram, elə bil Fionanı təzə tanıyıram, o qadın olmadı, qayda oldu, qayda olmadı, qada oldu canıma, qadan alım. Yır-yığış edir, paltar yuyurdu. Bir təhər toyuq ətini soyuducudan cıxartdırıb buzunu açdım, qolumu çırmayıb basdırma elədim, görüm onu dərin basdırsınlar... Kambocalı mühacirlərdən aldığı balaca şişlərə nə qədər ət çəkəcəyimi dəqiqləşdirdim, neçə şiş kabab çıxacağını hesabladım, manqalın setkasını götürüb qırağa qoydum, içinin külünü təmizlədim. Kül başıma! Başını ağrıtmayım, uzatmayım, Fiona setkanı qaytarıb manqalın üstünə qoydu. Yanğın-filan bəhanədir, iradə yeridirdi, ürək sındırırdı, bel qırırdı, beli qırılmış məni ələ salırdı. Bunu görürdüm, lap aydın görürdüm, gördükcə təpəmə cin çıxırdı, şişə çəkdiyim ətlərə təpəmdən baxanda ağzı sulanırdı. Sən onda Canessanın can ətini şişə çəkirdin, şişmə, qulaq as, məndən yumağa kirli pal-paltar istədi, yadıma iylənmiş corablarım düşdü. Görmüşdün, Bakıdan Çin malı olan yay

ayaqqabısı almışdım, ilk dəfə ABŞ-a yola düşəndə geyinmişdim. Yaxşı getmədi, özümə başqa ayaqqabı aldım. Çin malının tərlətdiyi corabları torbaya yığmış, şkafa tullamışdım axı, yumağa onları verdim. Fiona torbanın ağzını açanda "oxxay" çəkəcəkdim. Oxxayı o çəkdi, canım sənə desin, mənim kəsafətli corablarıma hələ mahnı da qoşdu. Özünü tülkülüyə qoymuşdumu, verdiyi işgəncənin qabağında onu alçaltmaq istədiyimi anlayır, kefini kök göstərirdimi? Bəh-bəh, gör nə deyirdi, qardaş, nələr deyirdi:

*Çoxdandır kişi corabları yumuram,*
*Mən corabı yuyulmayan kişi axtarıram!*
*Qoy onun corabının iyi lap pis olsun,*
*Təki burnuma kişi iyi gəlsin...*

Kişi, mənim burnuma Fionanın maşında yeməyə qoymadığı kökələrin iyi gəlirdi, soyuducuda hələ dururdu. İstəyənin bir üzü qara, verməyənin iki! Belə duyğulu anları əldən buraxardımmı? Mahnısını oxuya-oxuya gedib kökənin birini, yalnız birini gətirdi. Onu loxmalayıb dərhal uddum, oğraşdı yalan deyən, belə iştahla Təpəgöz kündə yemir nağıllarda, Bamsı Beyrək midilənir Banu Çiçəyin toyunda. Qeyri-ixtiyari üzümə gələn təbəssümlə birini də istədim, narazı-narazı baxdı: "bəsdir, ağ eləmə, tezliklə qonaqlar gələcək." Saat dörddə gəldi qonaqlar. Qapıdan birinci Juel və Mayra girdi. Juel mənə bir ucu qəmə qələm, Mayra sənə medalyonunda "Ənx" simvolu-



olan gümüş boyunbağı gətirmişdi, al, as boynundan. Boynum bükülmüşdü, təşəkkür yerinə üzlərinə gülsəm də, aclıq məni əldən salmışdı. Dişimi dişimə tutub Mayradan ABŞ-da dəmir torsuz manqal qalamağın qadağan olub-olmadığını soruşdum. Bilirsən,- dedi- ABŞ-da iki dövlət var, biri mərkəzi, biri federal, heç hansı belə qanun çıxartmayıb... Açdım sandığı, tökdüm pambığı, ABŞ yox ey, Fiona çıxardıb, Fiona... Əlində əlacı olsa,

ABŞ-da bir avtoritar rejim qurar ki, bizimkilər şükürlü olar. Yəhudi qadınlar çox anlayışlıydılar, Fionanın şəxsi və milli qürurumu tapdaladığını başa düşürdülər. Ev sahibəsi stola yaxınlaşanda dəmir toru manqaldan götürməyi xahiş etdilər. Fiona daş atdı, başını tutdu: "bura mənim evimdir. Qərarları mən verirəm! Bu sən, bu sənin evin, bu manqalın, bu da şişin, sox gözünə! Qonaqlardan biri şişləri manqalda dəmir torun üstünə düzdü, orada barbeküfason bişirdi. Kabablıq doğranmış, şişə çəkilmiş ət dəmir torda yaxşı bişərmi heç? Yeyənlər təsəlli verdilər: "çox dadlıdır, çox dadlıdır!.." Yalan deyirdilər gözlərinin içinəcən, basdırma barbekü şit çıxmışdı. Əti duzlamamışdım, acığa düşüb kabab tikələrinə sonda duz səpildiyinin üstünü vurmamışdım. Amma yaxşıca vurdum, qardaş, hətta məclisdən razılıq alıb tost dedim. Sağlığını görüm, sağlığı belə qurtardı qağan:

- Hamınızı Azərbaycana kabab yeməyə dəvət edirəm!

# GİZLİ ATəŞ

Qulpunun biri sınmışdı, üstündə çoxlu çatlar vardı. Səthinə **Üçbaşlı Əsa** çəkilmişdi. Küp çox qədim idi. Kürəçi küpə uzun-uzadı baxdı. Hiss elədi ki, keşiş küpə kilsədəki bütün xaçlardan, şamdanlardan və ikonalardan daha çox can yandırır. Keşişin küpə canıyananlığını duyması bayaqdan bəri başında dolaşan suala Azinin marağını daha da artırdı. Görəsən, içində nə vardı? Keşişdən soruşmağın saqıncası yoxuydu, hər halda. Zahirən digər qonaqlarla maraqlanan və onlara kilsədəki əşyaların tarixi barədə bilgi verən keşişin də gözü Azində idi. Yaxasını sülhpərvərlərin suallarından bir təhər qurtarıb ona sarı gəldi:

- Gördüyün əşya çox qədimdir. Yaşı min ildən artıqdır. Onu qorumağı özümüzə xüsusi borc bilirik. Rəvayətə görə, bir yağsatan

oğlunun əmanətidir, kilsənin keşişlərindən hansısa onu cadulayıb, sahibi gəlmədən küpü açan adamı, başqa sözlə, əmanətə xəyanət edəni Tanrının böyük cəzası gözləyir. Görürsən, küpün ağzı bağlıdır, içində nə olduğunu bilən yoxdur dünyada. Hərə öz ehtimalını irəli sürür. Edilən gümanlardan hansının həqiqət olduğunu söyləmək mümkün deyil. Təkcə onu deyə bilərəm ki, kilsənin bütün keşişləri onun sirrini bilmək istəyiblər, qapağını qaldırmağa gələcək adamı gözləyiblər, məyus olublar və sirri açacaq adamın deyəcəyi məxfi sözü öz xələfinə söyləyərək dünyadan köçüblər.

- Siz parolu bilirsiniz?- Azin maraqlandı.

- Əlbəttə,- keşiş çox qədim sirr bilən seçilmiş adam ədası ilə danışığına ara verdi- amma onu söyləməyə ixtiyarım yoxdur. Sirri açmaq Tanrının cəzasını qazanmaq deməkdir!

- Əgər qapağı qaldıracaq adam min il öncə ölmüş yağsatanın oğlunun sirrini bilirsə, deməli, onun başqa əlamətləri də olacaq, eləmi?

- Bax, bu sualı gözləyirdim, dostum! Bəli, olmalıdır! Mənə elə gəlir o adam indi dünyamızdadır. Onun varlığını hiss edirəm. Qəlbimdə inam var ki, min illərdir qapağı açılmağa müntəzir küpün ağzından dibinə boylanan, onun sirrinin açılmasına şahidlik edən keşiş məhz mən olacam...

***

“İnternational alert” beynəlxalq təşkilatdır. Əsas məqsədi dünyadakı münaqişələrin həllinə yardım etmək, savaşan xalqların nümayəndələrindən sülh elçiləri hazırlayaraq barışa nail olmaqdır. Bu məqsədlə Qafqazda- Dağlıq Qarabağ, Abxaziya, Osetiya kimi qanlı problemləri olan regionda intensiv işləyir, qana susamış xalqların vətəndaş cəmiyyəti liderlərini görüşdürməklə Azərbaycan, Ermənistan və Gürcüstanda sülhü təbliğ edir. Azin Kürəçi Ermənistanın Sisyan rayonuna məhz həmin təşkilatın layihəsi çərçivəsində gəlib çıxmışdı. Sabah məktəblilərlə görüş olmalı, məruzəçilər Azərbaycana düşmən gözü ilə baxan erməni

gənclərinin başına şübhə toxumu səpməliydilər. QHT nümayəndələri günorta məşhur Şəki şəlaləsinin yaxınlığında, göy çəmənliyə salınmış kilimlərin üstündə bardaş quraraq yaxşıca nahar eləmişdilər. Namnazik yuxaları, üzlü keçi pendirini, quzu kababını, çaydan torla tutulmuş qızıl balıqların qızartmasını Arakel kirvənin samballı qonaq–qaralara saxladığı armud arağı ilə həzm-rabedən keçirən didişən Qafqaz xalqlarının barışsevər nümayəndələrinin kefi əməlli-başlı açılmışdı. Elə bu vaxt haradansa bir dəstə aşıq gəlib çıxmışdı. Kamança, zurna, balaban, nağara çalğıçılarından və xanəndədən ibarət olan dəstə məclis əhlini ayağa qaldırmış, hər kəs qol götürüb oynamışdı. Edilxanı, əslən Laçının Kamallı kəndindən olub Bərdədə yaşayan kamança ustasını soruşmuşdu erməni həmkarı Azindən. Hələ sağ olduğunu eşidəndə əməlli-başlı sevinmişdi. Laçının Qaragöl yaylağında, İşıqlı dağın ətəyində baş vermiş hadisəni danışmışdı. Qulaq verənlər, xüsusən də "İnternational alert"in əcnəbi ekspertləri söhbətə böyük maraq göstərmişdilər.

Bir gün Qaragöldə iki toy varmış. Biri erməni toyuymuş, biri türk. Ermənilərin keflənmiş sovxoz sədri Edilxanın dalınca adam göndərir. Soruşurlar ki, ara, kamança çalanımız var, Edilxanı neyləyirsən? Deyir, işiniz yoxdur, gedin çağırın. Edilxan məclisdən izn alıb gəlir. Sovxoz sədri Edilxandan Laçın toylarında söylədiyi "Anamla söhbət" düzməcəsini səsləndirməyi xahiş edir. O gündən Edilxanın düzməcəsi ermənilər arasında da məşhur olur. Edilxanın şəxsən özü düzüb-qoşduğu və kamanla müşayiət etdiyi o gülməli, ironik düzməcəni azərbaycanlı həmkarının adından ifa etdi erməni çalğıçı. Əl çalıb Sisyanın tarixinə "Qara Kilsə" adını əlavə edən məşhur məbədə gəldilər.

Kilsə qara daşlardan tikilmişdi. Daşların zəhmi adamı basır, basdığını kəsmirdi, əlini-qolunu kəndirləyib bir quyuya salırdı. Azingilin məhləsində haçansa bir quyu vardı, yadına güclə gəlirdi, yadına güclə gələn quyuya gözdən oğurlanıb çox əyilmişdi, gözü dərinliyə işlədikcə qaralmışdı, həmin dərinlik

xatırladığı ilk qaranlıq idi, zülmətdən qorxmamağı o zamandan öyrənmişdi, çünki gecələri quyunun dibində görmüşdü, quyunun dibində axşam olsa da, su aydınlıqdır, aydınlıq yerin bir üzündə okeandır, bir üzündə quyu suyu, sanki Qarakilsənin daşlarını quyu suyuna çəkmişdilər, bəlkə də onları suyu çəkilmiş quyudan bircə-bircə çıxartmışdılar, daşların quyunun qaranlığınamı, aydınlığınamı atılmasına fikir vermədən bir məbəd qaraltmışdılar, məbəd qara verirdi, qaradinməz və qısqanc görkəmiylə elə bil Allahdan nəyisə gizlədirdi, saxladığı sirr zərif məxluqa sevgisini cilovlaya bilməyən rahiblər kimi üzünü xudavəndi-aləmin yanında qara edirdi.

Qara Kilsənin həyətində qonaqları keşiş Xorenyan qarşılamışdı. Gümrah və hiyləgər idi. Hərdən baməzəlik edir, zarafata salıb tərs suallardan yayınırdı. Keşiş Xorenyanın Azin Kürəçiyə atmacası müxtəlif görüşlər zamanı şən ovqat yaratmaq üçün gülməyə meylli olan vətəndaş cəmiyyəti fəallarının dodağını qaçırtmışdı.

- Məzhəb haqqı, yaxşısını sən edirsən, bir yerə tez gedəndə sağı göstər, gecikəndə solu...

Hər kəs keşişin sözünə gülmüş, məntiqinə və müşahidə qabiliyyətinə "əhsən" demişdi. Azin Kürəçi hər iki qoluna saat taxardı. Sol qolundakı saat geri qalar, sağdakı qabağa qaçardı.

- Onun başı saatdan yaxşı işləyir!- sülhpərvərlərdən kimsə Azini öydü, keşiş alt dodağını qabağa uzadaraq diqqət göstərdi, amma pəjmürdələşmiş sifətini dəyişə bilmədi. Nədənsə o əhvalat keşişi dalğınlaşdırmış, içinə varavurd salmışdı. Gərginliyi keşişin ağrımayan başına buz bağlamaqdan qorxmasıyla izah olundu. Xüsusi xidmət orqanlarının sülh missionerlərinin görüşlərini izlədiyini və ehtiyyatsız sözün baş ağrıtdığını bilməyən yox idi nümayəndələrin arasında. Zəndlərində yanılırdılar, keşişi düşündürən tamam başqa məsələydi.

Müqəddəs ata hansısa iztirabverici fikri başından qovmaqdan daha çox, ona qəti şəkildə inanmaq həvəsiylə macal tapıb əlindəki vizit kartı yenidən nəzərdən keçirdi.

Azin Nadir oğlu Kürəçi... tonqal_sonmez@yahoo.com... Bu ad və soyad keşişdə Azinin şəcərəsinə, e-mail adresi təhtəlşüuruna və dünyagörüşünə dərin maraq yaradırdı. Azin Nadir oğlu Kürəçi... tonqal_sonmez@yahoo.com... Keşiş düşündükcə həyacan keçirir, talenin üzünə güldüyünə inanır, tez-tez xaç çəkir, eyni zamanda, vizit kartın sahibinə qarşı yaranan xüsusi marağını gizlətmək istəyirdi. Azin Nadir oğlu Kürəçi... tonqal_sonmez@yahoo.com... Kartdakı isim və elektron ünvan ona min illərin sirrini açmağa nə qədər yaxın olduğunu anladırdı. Çağdaş Azərbaycanda geniş yayılmamış adı oğluna qoyan atanın Xürrəmlər hərəkatından xəbəri, Babana dərin sevgisi olmalıydı. Azin xürrəmlər hərəkatının bacarıqlı sərkərdəsinin adıydı. Xilafət qoşunlarının Bəz qalasına hücumuna sərkərdəlik edən Afşin danışıqlar zamanı Azini girov istəmiş, Baban tələbi yerinə yetirməmişdi.

Məsələ təkcə adda deyildi, Azinin soyadı da keşişdə şübhələr yaradırdı. "Kürəçi" soyadı Azinin dədə-baba sənətindən xəbər verirdi. Əgər onun babaları kürəçiliklə məşğul idilərsə, deməli, oda yaxın olublar, gizli ibadətə, islam ölkəsində, müsəlman əyalətində hər kəsdən xəbərsiz alova sitayiş etməyə imkan qazanıblar. Üstəlik, Azinin oda olan genetik sevgisi onun e-mail adresində də üzə çıxırdı. O, özünü tonqal, həm də sönməyən tonqal sayırdı iç aləmində. Sönməyən tonqal onun ideal "mən"idir. Keşiş Xorenyan ölü yerindən banan oğurlayan mollaların tayı deyildi, bilgili adamıydı, fəlsəfəyə, tarixə, psixologiyaya aid onlarla kitab oxumuşdu. İnsanların real və ideal "mən"lərə malik olduqlarını və virtual aləmdə öz ideal "mən"lərini ifadə etməyə meyl göstərdiklərini bilirdi. Atasının ona küpün sirri ilə bağlı dediklərini də birər-birər yaddaşına həkk eləmişdi. Atası əmanət sahibinin əlində "Ənx" simvolu gələcəyini

söyləmişdi. Azinin boynundakı medalyonda həmin işarə keşişin gözünü deşirdi. Nəyin bahasına olursa-olsun, Xorenyan axşam Azini evində qonaq saxlamaq, saqqızını oğurlamaq istəyirdi. Gözlərini Azinə zillədi:

- Axşam bizdə qalarsanmı?

Azin özündə deyildi, diqqətlə küpə baxırdı. Yalnız keşişin ikinci sualına "hə, qalaram, mütləq qalaram" cavabını verdi. Xəyalı onu yenidən uzaqlara apardı. Nənəsi uşaq vaxtı onu sevəndə "balam yekələcək, yeri bilinməyən küpü tapacaq" deyərdi. Babası Bayram kişi gözlərini dünyaya yumanda Azinə küpü tapmağı vəsiyyət etmişdi. O, babasına "hansı küpü" sualını vermiş, "atan bilir" cavabını almışdı. Kişini torpağa tapşırıb qayıdanda Azin atasını yanlamış, atası küp-müp yeri bilmədiyinə and içmiş, qocanın vəsiyyətini ölümqabağı sayıqlama saymışdı. Daha bənd olmamışdı.

On dörd yaşında qəribə yuxu görmüş, nə vaxtsa küp tapacağına inanmışdı. O, əksər vaxt eyni yuxu görərdi. Hər dəfə ayaqqabılarını itirər, uzun-uzadı axtarar, ancaq tapmazdı. Bir dəfə yenə ayaqqabılarını itirmişdi röyasında, onu axtara-axtara çayın qırağında boş küpə rast gəlmişdi. Baxmışdı ki, çaydan qızıl suyu axır. Tapdığı küpün ağzını çaya tutmuşdu. Elə bu dəm atası onu səsləmiş, küpü doldurmağa qoymamışdı. Azin sonralar "bir küp qızıl sahibi olacaqdım, imkan vermədin ağ günə çıxaq"- deyərək onu yuxudan inəyə ot gətirməyə oyadan atasına sataşardı. Oğlanın yuxusu kənddə-kəsəkdə məşhur olmuşdu, el danışıb gülərdi, bircə Nadir kişinin özünün dodağı qaçmazdı. Görünür, kişinin saxladığı sirr vardı və atasının hansısa gizli sirrə vaqif olduğunun fərqinə indi Qara kilsədə, Babəki ələ verən Səhl Sumbatın yurdunda varırdı Azin.

Axşam Azin keşiş Xorenyangildə qaldı. Tsitsernavanklı Asya- keşiş arvadını belə təqdim etmişdi- yaxşı süfrə açdı. Dolmanın bükülməsinə, armud arağının çəkilməsinə söz ola bilməzdi. Sözarası arvadını tərifləyə-tərifləyə keşiş Azinə İsanın

doğuluşundan danışdı. Kişi ilə təmasda olmayan qadının hamilə qalacağına Azin şübhə edirdi. O, Məryəmin bakirəliyinə inanmasa da, İsanı əsl və son peygəmbər sayırdı. İsa gerçək sevgi adamıydı Azinin nəzərində. O, yasaq sevgilərin möhtəşəmliyini düşünür və yasaq sevgidən dünyaya gələn İsanın çiləsinə hörmət edirdi. Keşiş gəncin düşüncələrini çox diqqətlə dinlədi, dinlədikcə onun nə qədər azad, sevgi dolu adam olduğunu yəqin etdi. Azinin özünü tapmadığına, haqsızlıqla barışmadığına, barışmazlıqdan qaynaqlanan mübarizliyinə, çevik zəka sahibi olduğuna inandı. Onu Məryəmin bakirəliyinə etdiyi şübhələrdən qurtarmağa çalışdı. Keşiş öz inamı, Azin öz şübhəsi ilə girdi yatağa.

Tsitsernavanklı Asya yenə yaxşı süfrə açmış, süfrəyə yumurta soyutması, beçə balı, çiyə qoymuşdu. Keşiş səhər yeməyini həvəslə yeyir və danışırdı. Yuxudan bütün iztirablarına son qoyaraq oyanması ovqatının şuxluğundan bəlliydi:

- Küpün sahibi Babandır. Bəz qalasını tərk edən Baban Sünikə, bizim Şəki kəndinə, Səhl Sumbatın xanəsinə pənah gətirir və burada ələ keçir.

Keşişin Səhlin satqınlığını ustalıqla ört-basdır eləməsi Azinin dodağını qaçırdı. Xorenyan həmsöhbətinin təbəssümünü istehza yox, diplomatik danışıq məharətinə verilmiş qiymət hesab etdi. Ağzını doldurmuş Azinin sözünü kəsməsinə imkan vermədi:

- Xürrəmlər Babanın ruhunun yeni bədənə daxil olacağına inanır, onun dünyaya gəlişini gözləyirmişlər. Küpü kilsəyə qoyan xürrəm canlanan Babanın Şəkiyə gələcəyinə əmin imiş. Onu əmanətin yalnız canlanmış Babana veriləcəyinə arxayın salıblar. Baban özünü xüsusi sözlə tanıdacaq. O sözü bilən adamlardan biri mənəm, o biri atam. Mənə elə gəlir ki, sirri saxlayan üçüncü adam sənin atandır və mən indi o möhtəşəm sözü bilən dördüncü şəxslə danışıram...

- Yox, əşi!- Azinin həmsöhbətinə ilk reaksiyası belə oldu. Onun sifətinə baxdı. Qeyri-ciddilik sezmədi. Keşiş onu dolamır, ələ salmırdı. Təmkinlə cavab verdi:

- Mən gizli söz-zad bilmirəm! Yalanı yoxdur, danışdıqlarınız tarixi və mistik baxımdan maraqlıdır, amma adamınızı düz tapmamısınız, mənim mistikadan başım çıxmır, xürrəm-filan da deyiləm. Düzdür, özümü ciddi, hətta qeyri-ciddi müsəlman saymıram, cəhənnəm qorxusu, cənnət arzusu canımda yerli-dibli olmayıb. Canımı qoymağa yer tapmıram, ruhun bədəndən-bədənə keçib-keçməməsini da özümə dərd eləsəm, gərək halıma ağlamağa ağı deyən axtaram. Əvvəlki həyatımda Babək olduğumu eşitsə, bişmiş toyuğun gülməyi gələr. Dediklərinizi zarafat saya, gülə bilərəm ancaq.

- Amma mən inanıram- keşiş donquldandı. Səhərdən niyə qəfəsə dil qoymadığının səbəbi bəlli oldu:

- Səndə yalnız Babana xas olan əlamət gördüm, onu bu səhər müşahidə etdim. Sən yatmışdın, yorğandan çölə çıxan qolundakı tüklərin dibindən qan sızırdı. Rəvayətə görə, Baban yeniyetməlik çağında naxır otarırmış, mal-qaranı kölgəyə verib, çəmənlikdə yatıbmış. Yemək gətirən anası onu oyatmaq istəyəndə bədənindəki tüklərin dibindən qan çıxdığını görür və oğlunun qeyri-adi, müqəddəs yük daşıyacaq adam olduğuna inanır.

- Hə, məndə belə hal olub. Bir dəfə yuxu görürdüm, o gün yuxudan oyananda aparıb atama göstərmişdim qolumdakı tük yerlərindən çıxan qanı. Əgər sən də görmüsənsə, deməli, ikinci dəfədir. Dədəm qolumdan üç dəfə qan sızacağına inanardı. Bizim atalar üçdən deyiblər!

Azin yuxusunu xatırladı. Qızıl axan çayın ağzına tutduğu küp yadına düşəndə ürpəndi, tükləri biz-biz oldu. Onun ürpəndiyini keşiş lap yaxşı başa düşdü. Çox israr etdi, Azindən söz qopara bilmədi. Məktəblilərlə görüşə az qalmışdı. Keşişin köhnə "Niva"sına oturub tərpəndilər. Yol boyu keşiş "sirri hələ sən bilməsən də, atan bilir, yüz faiz bilir"- deyə təkrarlayır, Azindən "görəsən sənə niyə deməyib" sualına cavab soruşaraq təəssüflənirdi. "Niva"nı saxlayanda müqəddəs ata Azini başa saldı:

- Sənin bədənində üzə çıxmış əlamətlərə biz xristianlar "stiqma" deyirik. Bir xaçpərəstin bədənində İsanın çarmıxdakı yaralarının üzə çıxması üçün onun kilsə xadimi olması şərt deyil, indiki inancların və düşüncələrin də sənin Babanın ağrılarını yaşamağına mane olmur. Sən yaralısan! Əgər yalan deyirəmsə, saatlarını aç və biləklərində anadangəlmə çapıqlar olmadığını mənə sübut et! Şübhə etmirəm ki, o çapıqların necə əmələ gəlməsini həkimlər sənə izah edə bilməyiblər. Stiqmatikləri ilahimi seçir, yoxsa yaralar vəcdə gələn dindarın bədənində özlüyündənmi yaranır? Nə teoloqlar baş çıxarır, nə təbiblər, yaralar həkim müdaxiləsi ilə sağalmır və virus götürmür. Hə, bir də səni qan aparanda, onu yoxlat, çox zaman stiqmatiklərin yaralarından axan qan həmin adamın, belə deyək, öz qanıyla eyni qrupdan olmur!

Keşiş məktəbin həyətində Azini "İnternational alert"ə təhvil verib döndü. Kilsənin qapısından içəri girəndə Ermənistan Milli Təhlükəsizlik Nazirliyindən zəng vurub Azin haqda bilgi toplamağa cəhd etdilər. "Müqəddəs Məryəmin gerçəkdən bakirə olub-olmadığını soruşdu"- keşiş məzələndi. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları müqəddəs Məryəmin bakirəliyi haqda keşişin moizəsini dinləməyə həvəs göstərmədilər. Keşiş küpün yanına gəldi. Əlini onun yüz illər boyunca cadar-cadar olmuş səthinə sürtdü, ağzını qulağına əyib pıçıldadı:

- Sənin sirrin açılacaq, mütləq açılacaq!

"Məktəblilərlə görüş maraqlı keçdi. Sualların çoxu Dağlıq Qarabağın, ermənilərin "Artsax" dediyi ərazinin gələcək aqibətini, düşmən qonşuların birgə yaşamının mümkünlüyünə olan şübhələri əhatə edirdi. Ömründə azərbaycanlı görməmiş şagirdlərdən biri Azərbaycan türklərinin bioloji tələbatları ilə maraqlandı: "Uşaqların qanını una qataraq xəmir yoğurduğunuz və o xəmirdən çörək bişirdiyiniz düzdürmü?" Bu, səfeh şayiə olsa da, ksenofobiyanın gələcək nəsillərə ötürülməsinə şərait yaradır"-

görüşdən çıxan Azin "Azadlıq" radiosunun müxbirinə məktəbin həyətində müsahibə verirdi.

Şagirdlər Azinə yaxınlaşıb şəkil çəkdirmək istədilər. Elə bu zaman layihənin rəhbəri, əslən bolqar olan və Londonda yaşayan Elenora təzə xəbəri duyurdu:

- Qrafikdə dəyişiklik edilib! Gecə Sisyanda qalacağıq!

Azin eşitdiyi xəbərə sevinərək çığırdı:

- Mən yenə keşiş Xorenyangildə qalacam!

Onun çığırtısı qəfil qopan hay-küydə eşidilməz oldu. Anidən, bircə göz qırpımında peyda olan Artsax müharibəsi əlilləri "İnternational alert"in kəndə gətirdiyi sülhsevərləri daşa basdılar. Daşlardan birisi, özü də irisi Azinin başını yardı. O, yerə yıxıldı. Ayılanda Sisyanın  mərkəzi xəstəxanasında gördü özünü. Başına tikiş qoymuşdular. Haradansa keşiş Xorenyan da özünü yetirmişdi. Baxışları toqquşdu. Azin dodağının altında nə isə pıçıldadı. Onun pıçıltısını yalnız keşiş gördü, eşitdi və başa düşdü:

- **ƏSL YOLÇU OLMAYANLAR BİZİ TƏRK ETSİNLƏR!**

Keşiş anladı ki, daş həm də Azinin beynini silkələyib və küpün açılmasına lazım olan parolu yadına salıb. O, xaç çəkdi və hər kəsi otaqdan çıxartdı. Özünə gəlmiş Azinə yaxınlaşıb əlindən tutdu, eyni cümləni təkrar etdi. Azin dillənmədi. Özünü ölmüş bilən insanların keçdiyi qaranlıq tuneli xatırladı. Bu sözü ona tunelin lap o biri başında söyləmişdilər. O da **"İŞIĞA QOVUŞMAQ ÜÇÜN QARANLIĞA MÜQAVİMƏT GÖSTƏRMƏK GƏRƏK"** cavabını vermiş, gözünü yenidən dünyaya açmışdı. Keşiş sükutun çox çəkməsinə izn vermədi:

-Bir çiçəklə bahar olmur, bir cümlə ilə küpün qapağını qaldıra bilməzsən...

Onu ölümün ağzından alan sözü Azin keşişin ovcuna qoydu. Sevindiyindən keşiş az qala göyə tullanacaqdı. Başısarıqlı Azini götürüb evinə getdi.

Keşişin qızı babasıgildən gəlmişdi. Ayaqlarını qabaq-qabağa qoyub başı yarılmış mehmanın əlinə su tökdü. Qayanenin müsbət və sakitləşdirici aurası vardı. Kimisə öldürməyə gedən adamın qabağına çıxsa, hirsini tamam soyudardı. Çiynində məhraba saxlayanın verdiyi müsbət enerji ilə başındakı tikişləri unutdu Azin. Tsitsernavanklı Asya yenə yaxşı süfrə açmışdı. Sac içində qovrulmuş quzu əti yedilər, iki qədəh armud arağı içdilər. Azin Qayanenin şərəfinə tost dedi. Bərgüşad çayının sahilində hava almaq bəhanəsi ilə evdən çıxdılar.

Keşiş qaraçıraq yandırdı. Qaraçırağın işığı kilsənin səssizliyinə düşdü. Gəlib küpün yanında dayandılar. Azin başına dəyən daşın ağlına gətirdiyi sözləri təkrarladı. Keşiş qısaca dua oxudu, xaç çevirdi və harasa getdi. Qayıdanda əlində kicik balta vardı. Azin baltanın küpüylə küpün ağzına ehtiyyatla vurdu. Qapaq sındı. Küpə kükürd doldurmuşdular.

- Ürəyin yerinə gəlsin, torpaq çıxmadı!- Azin keşişə söz atdı.

Gülə-gülə kükürdü yerə tökdülər.

Oho, bu nə qavaldı belə?- Azin küpün ortasındakı ikinci qapağın altından çıxan əşyanı əlinə aldı. Qımışdı. Ətrafda yəzidi kürdlərin yaşayıb-yaşamadığını soruşdu. Keşiş dillənmədi. Qavalı alıb baxdı. Gözü bərəldi. Xəyal qırıqlığına uğradı:

- Bunu atamdan soruşmaq lazımdır, mütləq ondan soruşmaq lazımdır- narahat halda küp qırıntılarının başına fırlanaraq nə edəcəyinə qərar vermək istədi. Azinin qolundan çəkdi. Evə döndülər. Keşiş öz dilində qapıdakı itlərə söydü. Qonağı yatmağa göndərib, maşına oturdu. Qədim Tatev monastrına yollandı.

Ay işığında Tatev monastrı çox əzəmətli görünürdü. Çayın şırıltısı monastrın əzəmətinə qarışır, insan qəlbini riqqətə gətirən harmoniya yaradırdı. Keşiş harmoniya-zad hərləmirdi, hərləyəcək halda deyildi. Sisyandan vurub Gorusun iki addımlığına- o hesabla keşişin hər addımı gərək 18 kilometr olaydı- ay işığının sehrinə düşməyə gəlməmişdi. Üzündə qorxu vardı, sanki küpdən

qaval çıxdığına görə atası onu çaya basacaqdı. Qavazanın böyründəki tikililərdən birinə, taxta qapılı hücrəyə girdi. Yepiskop otağında idi, kitab oxuyurdu, eynəyi burnunun ucuna sallanmışdı. Çeşməyini düzəldib oğlundan soruşdu:

- Nə xəbərlə gəldin, Qurgen?

- Küpü sındırdıq!..

Qavalı atasına verdi. Yepiskop qavalın hər iki üzünü incələdi. Maraqlandı:

- Qavalı əlinə alanda nə oxudu kirvə?

- Bir ağız Qarabağ şikəstəsi dedi!- Qurgen atasının onu acılayacağından qorxub başını aşağı saldı. Yepiskop cavabı ciddiyə almadı:

- Ağzına su alıb durdumu?- hirsini cilovlamağa çalışdı.

- Yox, yəzidi kürdlərin Ermənistana nə zaman gəldiyini soruşdu.

- Sən nə dedin?

- Bir söz demədim!

Yepiskop saqqalını tumarladı. Erməni tarixçiləri haqlı olaraq yezidi kürdlərin Qafqazda cəmi iki əsr öncə yerləşdiyini bəyan edirdilər, bununla belə, Xürrəm hərəkatına dəstək verən və xilafətlə Bizans arasında çəkişmələrdən cana doyan bir aşirət Ağrı dağına erkən orta əsrlərdə gəlib çıxmış, Kundaksaz kəndini salmışdı. Azin ürəyi istəyəndə Ermənistana gəlib-gedə biləcək adam deyildi, iki daşın arasında adı dəyişdirilmiş o kəndi tapa bilməzdi. Kundaksaza ayağı dəyməsə, sirri qaytarıb palazın altına soxmaq lazım idi. Yepiskop yəzidi kürdlərin dabbaqda gönünə bələd idi, sözlərinə bütöv və cəsur olan dağ adamlarından əmanət küpün heç qulpunu da ala bilməzdi. Elə-belə onlara qaval aparanı yəzidilər çala-çala yola salardılar. Qavalın həqiqiliyinə pirlərini "Qara kitab"dan gətiriləcək sitatla inandırmaq gərək idi. Pir eşitdiklərini müqəddəs kitab- "Məshəfi Rəs"də yazılanlarla tutuşduracaq, düz gələrsə, küpü ortalığa çıxardacaqdı- elə indicə oxuduğu "Babanın əmanəti"ndə belə yazılırdı. Zülm onda idi ki,

“Qara kitab” yəzidi olmayana göstərilmirdi, əgər göstərilsəydi, Babanın əmanətinə xəyanət eləmək bir qurtum su içməkdən asan gəlirdi yepiskopa. Müsəlmanlar, xristianlar, musəvilər, atəşpərəstlər və alimlər “Məshəfi Rəs”i oxumağa cox can atmış, uğursuzluğa düçar olmuşdular. Kitabın içindəki mifləri, əsatirləri və nəsihətləri yəzidilər yüz illər boyunca şifahi yaşatmışdılar. Peyğəmbər saydıqları Şeyx Adi onların inanclarını XI əsrdə qələmə almışdı. Şeyx Adi təzə kitab gətirməmişdi, yeni inanc yaratmamışdı, danışanların ağzını bir yerə yığmışdı. Yepiskop dekabrın ilk cüməsində İmam Hüseynin qatili ibn Müaviyənin doğulmasına şadyanalıq edən yəzidilərin Abbasi xəlifələrinə nifrət bəslədiklərini və Babanın üsyanına dəstək verdiklərini bilirdi. Zərdüştlüyün, musəviliyin, xristianlığın və hətta islamın bəzi prinsiplərini özündə cəmləyən yəzidilərin canlanmaya inamları xürrəmlərdən qalma idi. Qəbir əzabına qatlaşmadan yeni bədənə daxil olacaq yəzidilər öz ölülərini zurna-qavalla basdırırdılar. Yepiskop dalına iki çırtma vurub qavalı oğluna verdi.

- Araqatsotn marzının Araqats rayonundakı Rya Taza kəndinə gedin, pir Bedonu tapın!

Mışıl-mışıl yatan Azin keşişin onu oyatmasından narazı qalsa da, səsini çıxartmadı. Hər iki əlini alnından yanaqlarına çəkərək zəhrimar yağan üzünü keşişin tələskən baxışlarından gizlətdi. Nəyin bahasına olursa-olsun Kundaksaz kəndinə getməli və “İnternational alert”in sülhpərvərləri yuxudan oyananacan geri dönməliydilər. Keşişin planı real deyildi, amma bərkini tutsan, mümkün ola bilərdi. Azin yuxulu olduğundan keşişi yaxşı başa düşmədi. Əynini geyinib mızıldana-mızıldana onun qabağına düşdü. Gecənin ayazı yuxusunu qaçırtdı. “Niva”ya minməzdən qabaq keşişdən hara getdiklərini soruşdu. Keşiş Ermənistanın qərbinə çıxacaqlarını gözünün pıçalağını təmizləyən Azinə izah elədi. Ev yiyəsi qulağı alana sevindi, qonağı şirin yuxudan oyatdığına peşman oldu və işlərin rast getməsini sirrin özünün

açılmağa can atmasına- atası həmişə deyərdi ki, "Kolumb Amerikanı o zaman kəşf elədi ki, Amerika özü kəşf olunmaq istədi"- yozdu:

- Biz sabah Aştarkda olacağıq, məktəblilərlə görüşümüz var. Orada mehmanxanada qalacağıq. Yaxşısı budur, sən sabah ora gəl, bir təhər aradan çıxaram...

Darvazanı əvəzləyən köndələn payanı qaldırıb həyətə girdilər. Güntutanına təzə təzək yapılmış yastı qayadan Azinin burnuna kəkotu iyi də gəldi. İki dəfə burnunu çəkmək ciyərlərini ağırlaşdırsa da, kəkotunun yerini tapdı, toyuq-cücə eşələməsin deyə onu elə təzək yapışdırılmış qayanın başına sərmişdilər. Gərmə tayasının qırağından ev yiyəsini hayladılar:

- Bedo! Bedo!

Bedonun cavabı ağılın başında qarqaraya bağlanmış itlərin hürüşməsini səngitdi. Saçı-saqqalı çiyninə düşən, qalın və dağınıq qılların arasında boynu qıldan nazik görsənən bir kişi qapının ağzına qoyulmuş toppuzlu çomağı götürərək qabaqlarına gəldi. Azinin Azərbaycandan olduğunu biləndə Pir söhbətin ayaqüstü olmadığını başa düşdü.

Pir qavalın pullarını barmaqlarının arasında bir-bir elə sürtdü ki, elə bil dolların saxtalığını yoxlayırdı. Uzunhacını qatlayıb, aləti dumbuzladı, başını sola əydi və elə həmin əliylə sağ qulağının dalından basaraq çıxan səsi otaqda azmağa qoymadı.

Qavalın dərisinə Mələk Tovuz çəkilmiş, quş ayaqlarının arasında günəş xaçı tutmuşdu. Tovuz quşuna baxdıqca Xudaya şükür edirdi. Xudanın soraqlanan bilürü müqəddəs çərşəmbə günündə ona nəsib etməsinə sevinir, heyrətlənir, inancının səhihliyi ilə qürrələnirdi. "Qara kitab" qavalın məhz çərşənbə günü gətiriləcəyini müjdələyirdi...

Azin qabağına qoyulmuş camın dibini sivirdi, camış qatığına bulaşmış gümüş qaşığı gözə çarpdırmadan yalayıb boşqabın içinə qoydu. Gümüş qaşığı ona yepiskop göndərmiş və

yeməyini yeyib qurtaranda pir Bedoya bağışlamağı ismarıc etmişdi.

Ev sahibi keşişi oturduğu yerdə qoyub Azini dalına saldı. Girdikləri otağa yük yığılmış, balışlara Mələk Tovuzun tikməsi sərilmişdi.

**"RUHLARI KÜPLƏRƏ DOLDURUB QIRX GÜN GÖZLƏDİLƏR..."-** Azin uşaq vaxtı gördüyü yuxunu yozan babası Bayram kişinin ağzından eşitdiyi sözü pirə təkrar elədi.

Pir mitilin arasından "Qara kitabı" götürdü. Oxuyub razılıqla Azinə baxdı. Çarpayının altına girib teşi və teşidən hələ üzülməmiş basımbar çıxartdı.

- Bu mənim axirət qardaşımın hədiyyəsi,- Tatev monastrının yepiskopunu nəzərdə tutaraq ipi cibinə basdı- bu da sənin,- teşini ona uzatdı,- üçüncü küpü saxlayana verərsən!

Azin dünən boynundakı "Ənx" medalyonunu keşişin ondan niyə aldığını indi başa düşdü. Canlanmanı simgələyən "Ənx"i yepiskopa verməklə keşiş atasını haqqaniyətdən tam arxayın etmişdi. Bəs o medalyonu yəhudilərin Azinə bağışlaması necə, təsadüf idimi? "Hər halda, təsadüfdür"- Azin özünü inandırmağa çalışdı.

Çarpayını kənara dartdılar. Divardakı soba yerində küp və tanış rəsm- Üçbaşlı Əsa göründü. Küpü qırdılar. İçinə duz doldurulmuş, duzun altında zəng gizlədilmişdi.

***

Bərdənin Küm kəndindəki dədə evinə çatanda anası qapıdakı şəritə paltar asırdı. Azini görəndə sevindiyindən əlindəki köynəyi sərə bilməyib yerə saldı.

- Bıy, başına dolanım, Azin- ləhcəsində "sığır nun"u yaşadan qarabağlı qadın oğlunun qabağına yüyürdü, marçamarç öpüşüb-görüşdülər.

Atası yatmışdı, anası gedib onu da yuxudan oyatdı. Salamlaşdılar. Ailə nigaran qalmışdı. "Ürəyimiz qopmuşdu, nə

yaxşı sağ-salamat qayıtdın, nə qədər olmasa, düşmən ölkədir, uzaq olsun, başına daha betər işlər gələrdi”- onun öz başını Ermənistandan sarıqlı olsa da, salamat qaytarmasına sevindilər. Atası kanalların səfərə münasibətindən danışdı. Azərbaycan QHT-çilərinin Qarakilsədə daşa basılmalarını yerli televiziyalar, Anadolu türkləri demiş, abartaraq veribləmiş. Ölkədə boğulan insan haqlarından danışmaqdan qorxub vətənpərvərlik səngərinə girənlərin hamısı yun çubuğu ilə döyəcləyirmişlər xalq diplomatlarını. “Bunlara boş ver”- Azin atasını ayrı söhbətə çəkdi:

- Küpləri tapdım!

Nadir kişinin rəngi qaraldı. Duruxdu. Nə deyəcəyini bilmədi. Özünü handan-hana toparladı:

- Küpləri???

- Sizin axtardıqlarınızı! Nənəmin tapacağıma inandığı, dədəmin “tap” dediyi küpləri...

Nadir kişi lap karıxdı. Sirr barədə Azinlə danışan olmamışdı. Xürrəm olduqlarını, min illər boyu Şirvinə gizli ibadət etdiklərini, Baş Bəyin canlanacağını və canlanma əlamətlərinin Azində cəmləndiyini kim demişdi oğluna? Andına xilaf çıxaraq kim açmışdı sirri? Özünün ağzından söz qaçmadığına əmin idi, anası da səhv buraxmazdı. Bəlkə arvadının, yəni Azinin anasının dili dinc durmayıb? Di gəl, Azinin çoxdandır rayona gəlməməsi onu arvadından bədgüman olmağa qoymurdu. Azin atasının tərəddüd elədiyini başa düşdü. Məxfi sözü heç kimdən öyrənmədiyi halda, atası onun gerçək küpü tapdığına əmin deyildi. Kişini intizarda saxlamadı: “ƏSL YOLÇU OLMAYANLAR BİZİ TƏRK ETSİNLƏR”, çünkü,- ardınca ikinci cümləni söylədi- “İŞIĞA QOVUŞMAQ ÜÇÜN QARANLIĞLA MÜQAVİMƏT GÖSTƏRMƏK GƏRƏK!”

Şübhə ediləcək yanı qalmamışdı işin. Cümlələr düz idi. Düz olsa da, oğlu parolu haradan öyrənmişdi, küpün içindən nə çıxmışdı? Sözü Azin özü açdı. Qanları bahasına aldıqları torpaqların xoşhaxoşluqla geri qaytarılmasına razı olmayan

Artsax əlillərinin atdığı daşı, Qara kilsəni, keşiş Xorenyanı, pir Bedonu, küpləri yerli-yataqlı təsvir elədi. Atasının əli üzündə qaldı. Nadir kişi anasının yanına getdi, arvadını da çağırdı, onları muştuluqladı. Yurd Ananın gözləri yaşardı. Əri Bayram kişinin böyük günü xürrəm ocağının başında görə bilmədiyinə kədərləndi. Küplərin həqiqiliyini təsdiqlədi. Alqış elədi:

- Baş Bəy dünyaya yenidən gəldi. Onun ruhu Azinin bədəninə keçib. Gedib küpünü tapdı, kürəsini də tapacaq. Qoy onun ruhundakı azadlıq, canındakı sevgi köləliyə və qorxuya qalib gəlsin! Qoy bizim tonqallarımızın atəşi gur olsun, ağırlığımız-uğurluğumuz üstünə tökülsün. İşığa həsrət qalmayaq!

- Mənim əzizlərim,- Azin üzünü gizli xürrəmlərə tutdu- Siz nəyə inanırsınız, niyə inanırsınız, ondan xəbərim yoxdur. Başa düşün, qəbul edin, mən Babək deyiləm! Özümü Azin Kürəçidən başqa kimlikdə təsəvvür etmirəm və etməyəcəm! Siz mənim doğmalarımsınız, istəyirəm biləsiniz ki, mən "ruh" deyəndə dinlərin söz açdığı metafizik varlığı nəzərdə tutmuram. Ruh- insanın ideyalarıdır. İnsanın cismi ölür, ideyaları isə yaşayır, başqa bədənlərə, düşüncələrə keçir, mübarizə aparır, qalib gəlir və ya məğlub olur. Bu mənada mən Babəkin ruhunu daşımağıma çox sevinirəm. Sevinirəm ki, Babəkin azadlıq ideyası mənim içimə, düşüncəmə, həyatıma hopub. O ideyanın məni həzzə, yoxsa edam kötüyünə aparacağını gələcək göstərəcək. Şairin sözü olmasın, ölsəm də sevinin, evə dönsəm də!

***

Qaş qaralırdı. Qalina barmağındakı üzüyün qaşını oynadır, Azin onun alınmış qaşlarına baxırdı. Qaşlarını nam-nazik eləmiş Qalinanın mavi gözləri dumanlı-çiskinli havada üşüyən okeana bənzəyirdi. Qarnı burnundaydı, vaxtına az qalmışdı. Onun hamiləliyi Azinin canına xoş ağrı salırdı. Ağrımı? Ağrı deyildi, iz idi. Qalinadan qalan iz...

Telefonun dəstəyini qaldıranda ölürdü Azin, yerdə yatırdı, ayağa durub özünə bir stəkan çay süzə bilmirdi. Gözü qaralırdı. Titrədirdi. Ağzında acı tam vardı. Öskürə-öskürə cavab verdi qıza. Dünən onu yağışın altında gözləyəndə vermişdi kürəyini soyuğa. Ayrı qız olsaydı, gözləməzdi, gedərdi. Ayrısı deyildi, kəndçisi, "Qapandar" Nəsibin qızı idi. Vacehinə yetəndə, heç onu da gözləməmişdi, sadəcə, gedə bilməmişdi. Tərslikdən gözlədiyi yerdə Qalina ilə rastlaşmışdı. Qalina... Qalya... Tyotya Valyanın qızı. Azinin "Çapayev"də olan dayısının qonşusu...

Yeddini qurtarmışdı. Leytenant Şmitd adına zavodda mühəndis işləyən dayısıgilə tətilə gəlmişdi. Həyət evində yaşayan dayısı canına qulluq edən adamıydı, manqala od salmağa bəhanə gəzirdi. Bəhanə bacısı oğlunun gəlişi olmuşdu, bir teşt kabab çəkmiş, qonşulara pay göndərmiş, lap yaxın bildiklərini ziyafətə dəvət etmişdi. Qalyanı ilk dəfə onda görmüşdü. Ziyafətin ardınca başlayan rəqsdə onunla vals oynamışdı. Oynamamışdı, öyrənmişdi, düzünə qalsa. Öz arvadı ilə vals oynayan ağ mayka, yaşıl zolaqlı pijama, yaxud qırağından barmaq boyda iki ağ zeh keçən tünd göy idman şalvarı, altdansa, heç şübhəsiz, dizəcən qara tuman geymiş kişilər ona göz basmışdılar. Cazibədar Qalya ondan kəsən qonşuların acığına yüngülcə ovxalamışdı kürəyini, yanağından öpmüşdü Azinin. Hər dəfə rastlaşanda bir öpüş almışdı Qalyadan. Hər dəfə özünü itirmişdi...

Küpə salmağa gələn qız ovxaladıqca bədəninə isti gəlmişdi. Həzin bir musiqi səslənmişdi. Çapayev küçəsindəki beynəlmiləl həyətdə, tənəyin altında Qalya ilə rəqs etmişdi... Qalya onun yanağından öpmüşdü. Qadından kəsən dayısı, dayısının loto oynadığı lotu kişilər o öpüşə həsəd aparmışdılar. Qalyanın nazik dodaqlarını öpmək ehtirası ilə alışıb-yanan Azinin içi özünü yandırmışdı, çölü özgələrini. Belində qız əli gəzişdikcə içini də, çölünü də atəş sarmışdı. Qızdırmışdı...

Bir gün Qalyanı telefona çağırmağa getmişdi. İçəri girəndə onu lüm-lüt görmüşdü. Əri olmayan Qalyanın qarnı bekaraca

bilinirdi, vaxtından təzəcə keçmişdi... Qalya əlləri ilə qarnını tutmuşdu onda, özünü itirmişdi. Azinin yanından keçib gedəndə əyilib üzündən öpmüşdü, "не кому не скажи!"

Aşağı əyilən qadının balaca, yupyumru, ucları dim-dik məməsinə dəymişdi dodaqları, «хорошо!»

Qalina "Qapandar" Nəsibin qızı olmuşdu o gün...

Dadı damağından getməmişdi...

O tamı bir səhər axşamacan sümürdü kürəyini küpələməyə gələn qızın döşlərindən. Su içmədilər, yemək yemədilər, fasilə vermədilər... Küpə? Qızdırmalı adama küpə salmazlar...

"Qapandar" Nəsibin qızı Qalina oldu o gün...

Qalsana...

"Qal sənə, qurban..."

Qalmadı. Gecənin uzunluğundan qorxdu... Getdi!

Dadı damağındaydı...

Qarnı burnuna dəyirdi, vaxtına az qalmışdı...

Dayanmışdılar.

Qalina barmağındakı üzüyün qaşını oynadır, Azin onun alınmış qaşlarına baxırdı. Pəncərənin arxasında payız ağacları soyundururdu.

Danışmırdılar.

Qalinanın mavi gözləri dumanlı-çiskinli havada üşüyən okeana bənzəyirdi.

Dalmışdı.

- Qalya!

Dala-dala getdi.

Avazıyaraq çarpayıya söykəndi. Nəfəs ala bilmirdi.

Qarnını əlləriylə tutub mavi gözləri ilə ürkək-ürkək baxdı.

Ağaclardan qopan yarpaqları Gəncə Dövlət Kamera Orkestri havada oynadırdı.

Qalinanın günahkar hıçqırtıları qədim alban kilsəsindən gələn musiqini tamamlayırdı...

Avandına Azini almış qarında bir cocuq hər iki dünyanı təpikləyirdi...

Azinin Gəncəyə fala baxdırmağa gəlməsinə inanmayan Gümüş teşini görəndə mətəl qaldı. Matı-qutu qurumuş halda bir zamanlar mollaya dua yazdırmasına acıqlanaraq ondan ayrılan Azini qınadı:

- Gəldin mən deyənə? İndi görürsən ki, belə şeylər düzdür? Kim bilir hansı ciyarıyanmış əməl eləyib sənə, Allah gərdəyə həsrət qoysun eləsini...”- dalını ürəyində gətirdi: “bəxti bağlıdır ki, ayrıldıq, yoxsa nə olmuşdu bizə? Sən Allah, birdən ürəyinə mən gələrəm, elə bilər mənim əməlimdir?” Özündən xoflandı, ürəyinə suyu “Pükçü”nün baxıcılığı çilədi:

- Tez geyin, qapını açıram, gələn olar, qalaram boynunda!

“Qapandar” Nəsibin həkim qızının sözünün o biri başında zarafatyana bir eyham da vardı: “Boşansam, vay halına!..“ Azin eyhama əhəmiyyət vermədi, əlindən tutub rəqs edirmişcəsinə Gümüşü geriyə fırlatdı, sonuncu dəfə qucaqladı və divardakı güzgüdə gözlərinin içinə baxa-baxa qarnını sığalladı:

- Deyəsən, dayısına oxşayacaq- “Qapandar” Nəsibin idmançı oğluna işarə etdi.

- Kimə oxşayırsa oxşasın, bircə əkəninə çəkməsin...

- Çoxmu narazısan?

- ...

- Yerin yaxşı deyilsə, boşan...

- Boşananın da həyatında yaxşının yeri yoxdur, Azin bəy...

Bərkini tutmadı. Qollarını Gümüşün boynundan açdı. Gümüş aynaya yaxınlaşıb dodağına pomada çəkdi və utana-utana soruşdu:

- Mənə on manat verə bilərsən? Diri olmasın...

Azin təəccüblə əlini cibinə atdı.

- Qaşını düyünləmə, gördüyün işin haqqını almıram, ürəyinə xal düşməsin, baş həkimə verəcəm, yoxsa işdən qovar

məni, “xaltura”nı gizlədiyimi fikirləşər, səhərdən qoymamısan siftə edim...

Poliklinikanın boş koridoruna çıxdılar. Xadimənin süpürdüyü palatanın ağzına qoyduğu zibil vedrəsindən Qalinanın gözləri baxırdı. Qəzet parçasını götürdü. Qonşular “Çapayev” küçəsindəki evinə sahib olmaq üçün rus qadını zəhərləmişdilər...

El arasında “Pükçü” ləqəbiylə tanınırdı. Onun aşıqla püşk atdığını, mübahisələri bəxtə-xuda yoluyla həll etdiyini söyləmişdi Gümüş. Bəxti bağlanan qızlara, zifaf gecəsi uğursuzluğa düçar olan oğlanlara tilsim qururdu. Boğazı gələn uşaqlara əl çəkir, çəyirdək udanların, qırtlağına qılçıq gedənlərin, ağzına yumurta qabığı soxanların çöpünü çıxardır, topuğu burxulanların, biləyi oynayanların çıxığını salır, oğul arzulayan gəlinlərin aybaşısını hesablayırdı.

Növbəsində xeylaq adam varıydı, hamısı məyus-məyus oturmuş, qabaqlarındakı boş armudu stəkan-nəlbəkiyə baxır, ordan-burdan söhbət edirdilər. Yastıbaş bir uşaq əlində podnos ağır-ağır masanın başına fırlanır, çayını içib qurtarmış qonaqlara yemək təklif edirdi. “Pükçü”yə pənah gətirənlər “Allah var eləsin” alqışıyla yeməyə yer tapmır, yastıbaş uşağa, uzaqbaşı qabaqlarındakı çayı təzələmək zəhməti verirdilər. Hər kəs ikimərtəbəli evdən iki metr aralı çiy kərpicdən tikilmiş daxalın qapısını marıtlayırdı. Ora “Pükçü”nün qəbul otağıydı. Hər yarım saatdan bir “Pükçü” qapıdan çıxır, ucuna ip bağlayıb daxalın qabağındakı ağacdan asdığı qırıq teşini yelləyir, komasına qayıdırdı. “Pükçü”nün teşisi srağagün qırılmışdı, neçə gündür fal açmır, cadu eləmirdi. İmdad dalınca gələnlərə bu gün günortayacan ona teşi göndəriləcəyini elan etmişdi. Çar-naçar hamı gözləyirdi, guya göydən qırmızı zənbillə adam düşəcəkdi “Pükçü”nün qapısına.

Azin çaxmağı əlindən alıb "Pükçü"nün müştüyünü alışdırmaq istədi. Çaxmaq yanmadı. Arvad siqareti ovcunda əzib, tütünü ağzına atdı.

**- Haradan gəldin?**- tanımadığı adamlara həmişə eyni sual verərdi.

Azin nə cavab verəcəyini bilirdi:

**- GEDƏCƏYİM YERDƏN GƏLDIM!**

- O irəli teşim qırıldı. Hələm-hələm qırılmaz mənim teşim, bilirdim təzə teşi göndərəcəklərini...

Pir Bedonun teşisini "Pükçü"yə təqdim etdi. Qarıdıqca yumağa dönmüş arvadın qırışığı açıldı, yaşına yaraşmayan cəldliklə teşini ovcunda fırladıb dodağının altında nə isə oxudu, Azinin üzünə püflədi. Tütün qoxusu siqaret çəkməyən Azinin ödünü ağzına gətirdi.

Sən demə, vaxtilə Gəncə məbədində bir küp varmış. O küpün içinə nə isə atmaq qadağanmış. Küpə nə isə tullayanı mütləq ilan çalarmış. Sovet vaxtı kilsə Kamera Orkestrinin ixtiyarına veriləndə partiya komitəsi qərara gəlir ki, küpü yerli sakinlərindən birinə versinlər. Qoy aparsın, içinə un, buğda yığsın, xürafatdan, mövhumatdan qurtarsın camaat. Kommunistlər ha təbliğat aparsalar da, partiyanın qərarına əməl edən, küpə yaxın duran olmur. Küpü yığıncağa gətirirlər. Yenə kimsə sahib çıxmaq istəmir küpə. Axırda avamlıq nümunəsini gələcək nəsillərə göstərmək üçün məktəb muzeyinə verirlər. O gündən boş küp 21 saylı orta məktəbin qaranlıq otağında saxlanır...

Azin ümidsizliyə, boşluğa yuvarlandı. Kamera musiqisi başında uğultuya çevrilmişdi. Gümüşün ləhləyə-ləhləyə canından çıxartdığı tər ətini yedikcə peşmançılığı dərinləşirdi, otelin duşu xarab olduğundan çimə bilməmişdi. Paltarından tər qoxusu ilə yanaşı, Gümüşün ətri də gəlirdi və "J`Adore" Azini özünə söydürürdü. Bunca il Qalinadan Gümüş, Gümüşdən Qalina düzəldib yataqda qovrulmaqla havayı yerə əzab çəkmişdi. Qalina

da, Gümüş da gözündən düşmüşdü, adiləşmişdi, tamını qaçırmışdı. Küpün boş çıxmağı da onu bir yandan üzürdü. Həmişə kürəklərini qamçıladığı kommunistlərə acıyırdı. İçi boş olan küplərdən başları az çəkməmişdi binəvaların. Sir-sifəti turşumuş halda "Pükçü"yə baxdı. İşə bax, onun ləqəbi tərsinə "ÜÇ KÜP" oxunur... Yox, içi boş-zad deyil küpün, doludur, tıxılı-təpilidir. Mal yiyəsinə oxşayar, nə ad verəsən indi bu arvada? Şamanmı, maqmı, kahinmi, övliyamı, möhtəkirmi? Bütövü kəsmə, paraya dəymə, doğra, doyunca ye!

-Ye oğlum, ye!

Torpaqla şirlənmiş daxalda qırmızı ipək üzlü döşəkçədə oturmuşdu, hər iki dirsəyinin altında mütəkkə vardı, ayağının birini altına qatlamış, süfrənin qırağını yığışdıraraq yarıbükülü halda o birini həsirin üstünə qoymuşdu, gözü "Pükçü"nün çoxdan ölmüş atasının divardakı dəsmalın qırağından ağaran saqqalına sataşdıqca iştahı lap pozulur, xörək əvəzinə içini yeyirdi:

- Mənim nə işim vardı cadugərin-küpəgirənin süfrəsinin qırağında? Mən indi kiməm? Dinəndə camaatı aydınlığa, elmə, inkişafa səsləyirəm, özüm düşmüşəm bir səfeh qarının, türkün sözü, dalına! Dalınca gəldiyim küpün də içi boş... Boş olan küp deyil, ay geridəqalmış, sənin özcə başındır, millətin taleyini falçıya etibar etmək olarmı? Yepiskop doladı məni, duza göndərdi. Min ildir bir qaşıq su ilə bir qaşıq qanın arasında qalmağımıza rişxənd elədi!

- Bir qaşıq da götür, dibində qalmasın, heyfdir, nişanlın çirkin olar yoxsa...

"Bir dəli şeytan deyir get, dovşan ferması yarat, artımlıdır, yaxşı baxasan ha, o qədər doğub-törəyər ki, bircə ilə sayını itirərsən, özüm ölüm, bərk ayaqda giriləsi işdir... Bərk ayaqda? Bundan da o yana gün var? Amerikanların "Messenger" peyki günəşin ağzından alov qapır, sən görücü Səyyarənin ətəyindən yapışmısan, bir boş küpün içinə girirsən... Barı, ay geridəqalmış

dovşan- qaşığı boşqabın qırağına qoydu- əlinə o güncdəki süpürgəni də al, cizgi filmlərindəki küpəgərən qarılar sayaq qiyyə çək göylərdə...”

- Ayağını çırıp gir içəri, ayaqqabıların toz-torpaqdır, aləmi batırarsan!- məktəbin ayrım ağzıyla danışan qızıldiş tarix müəlliməsi illərlə qapısı açılmayan qaranlıq otağın matahını çıxartdı. Azin cin atına mindi. “Ay qıvlasız, guya bu qaranlıq otaqla şagirdlərin gözünü qorxutmursunuzmu?- yəhərsiz olduğundan atdan tez düşdü, yoxsa müəllimənin abrını bükərdi qırçınlı ətəyinə. Yenə özünə görə olmadı, küpü basan qalın tozu müəlliməyə yalatdı. Toz-torpağın altında Üçbaşlı Əsa güclə seçilirdi. Şəklini çəkmək istədi. Özünü hövlank qaranlıq otağa yetirən direktor müavini qoymadı. Direktor da gəldi. Özünü təqdim etməmiş Azini məzəmmət elədi, ayrı-ayrı adamların dilindən eyni xəttlə yazılmış təəssüratlar dəftərinə Bakıdan gəlmiş qonağa rəy yazdırdı. Boynundan sallaşıb yeməyə aparmaq istədi. Azin qızıldış tarix müəlliməsini, saytal tədris hissə müdirəsini, yaxasında Ümummilli liderin nişanını gəzdirən yekəqarın məktəb direktorunu nazirlikdən gəlmədiyinə arxayın salıb “Xan bağı”na yön aldı.

Ayaqqabılarının bağı açılmışdı. Qaytanlar şappıldaya-şapıldaya balağının ardınca sürünür, xəzəlləri döyəcləyirdi. Əyilib onları bağlamağa can çəkirdi. İplər bağa tələsirdi. Bağa gedən yolun qırağındakı adamlar ayaqqabısının açılmış qaytanlarını vecinə almayan adama təəccüblə baxırdılar, düyündən düşmüş iplərin addımlarına dolaşaraq ona badalaq gəlməsini gözləyirdilər. Onu bağların açılmasından agah eləməyə lüzum yox idi, gözü ayağının altını görürdü, gözü görə-görə əyilib ayaqlarını ilgəhləmirdi. Həyata yenidən bağlanmaq istəmirdi. Qaytanların ayaqqabıdan, ayaqqabının ayaqlarından çıxsa, ayaqyalın qalacağını başa düşürdü, narahat olmurdu, bəlkə də çıxhaçıxda havaya bir təpik atacaq, çəkmələrini cütüylə qovacaqdı.

Xan bağındakı qoca çinarlar, çınarların gölgəsinə sığınmış çayxana, çayxanada tas-tas vaxtını uduzan müştərilər, müştərilərə can yandıran çayçı, çayçının cəddinə tapındığı göy imam Azinin gözünə oturdu. İcazə almadan bir kişi də altına stul çəkdi:

- Axtarışda olan insanı gözləyən nəticələrdən biri də məhz boşluqdur. Əsl yolçu əli boşa çıxanda özünü itirməyən, məqsədindən çəkinməyəndir. Ümüdlərinin puça çıxması səni ruhdan salmasın, oğlum.

- Siz kimsiniz?- ona öyüd verən naqqaldan xəbər aldı.

- Mən qalayçı Qardaşxanam, "Pükçü"...

"Aşıq atan!"- Azin ürəyində dəqiqləşdirdi.

- ... Səyyarənin əri.

- Xoş gördük!

- Dedim bəlkə qonağımıza bir köməyim dəydi!

- Küpün içi boşdur, dayı, sənlik bir şey yoxdur...

- Küp ona görə boşdur ki, sən ora içindəki tərəddüdləri, qorxuları, əzabları tökəsən, qaradan azad olasan!

- Səyyarə xala dua yazar, pencəyimin astarına asaram, qara-quram gedər, gözə-nəzərə də gəlmərəm!..

- Üstümü unlu görüb, yoxsa məni dəyirmançı bildin, oğlum?- qoca sağ əli ilə hər iki çiynini ehmalca döydü. Azin qocanın hərəkətini başa düşmədi, sözünə isə həyasızlıqdan başqa məna verə bilmədi. Dillənmədi. Qalayçını başından əkmək istəyirdi. Onun fikrini başa düşən Qardaşxanın təvazökarlıqdan uzaqlaşmaqdan başqa çarəsi qalmadı:

- Oğlum, mən nə sən deyən qalayçılardanam, nə də aşıq atdıranlardan! Unut qalayı-balayı, qulaq as kimyagərə!

Axsaq at, kor nalbənd, cadugər arvad, kimyagər ər! Yaslan bə Halil İbrahimmm!- Azin halına güldü.

- Küpün üstünə Üçbaşlı Əsanın niyə çəkildiyini Qardaş başa salsınmı sənə?

- Üç dil- üç küp!

- Düz deyirsən oğlum, düz deyirsən! Amma sənin bu qalayçı dayın ayrı şeylər də fikirləşir...

"Bu dəqiqə mənim özümü qalaylamaq lazım, qopmuşam, özü də pis qopmuşam dünyadan"- Azin başının hayında idi. Hətta üzgörənlik xatirinə də ona qulaq asmaq istəmirdi. Başını yana çevirdi. Kor tutduğunu buraxardı, qalayçı əl çəkməzdi:

- Oğlan, Üçbaşlı Əsanın qədim hindlilərin Tanrısı Şivəyə məxsus olduğunu desəm, mənə qulaq asarsanmı? Əlbəttə, asarsan, savadlı adamsan.

Şivə hara, bu hara?- absurdun miqyası Azini heyrətləndirdi. Gözucu kişiyə baxdı.

- Yadında saxla, adının çəkilməsi ilə hər kəsi saflaşdıran Şivə **yıxıcı Tanrı** idi və hind kimyagərləri civəni onun toxumları hesab edirdilər. Saxladınmı? İndi yadına sal, ilk küp sənin qarşına Qara Kilsədə çıxdı, Qara Kitabı açdırdın, qara küpləri sındırdın. O küplərdən kükürd və duz çıxdı. Oxumuş adamsan, məndən yaxşı bilirsən ki, - xalis sənətkar nəzakəti ilə Azini qılıqladı- kükürdlə duz kimyagərliyin təməl prinsipləridir- yəni, adi vaxtda başa düşdüyümüz maddələr yox, onların fəlsəfi təyinatlarıdır. Əgər bir küp kükürdlə, o biri duzla doludursa, deməli, bu işarəylə üçüncü qaba civə yığılıb!

- Civənin saxlanması qadağandır ey, bizi tutarlar- Azin bayaqkı qaydada kimyagəri aşağılayan atmaca atmadı, hind fəlsəfəsindən xəbəri olduğuna görə ona münasibəti dəyişmişdi.

- İndi de görüm, mən gəlməsəydim nə edəcəkdin?

- Gedib dovşan saxlayacaqdım!..

- Bəs indi səni civəylə ilişdirib həbs etsələr?

- Ömür boyu yatsam, vecimə olmaz!

- Əsl sirr budur, kişi! Sən yad idin, qara aləmə gəldin, yer altına düşdün, içindəki özgələri və kölgələri öldürdün. Dəyişdin, işığa can atdın, ona öz mənliyini qət edərək çatacağını başa düşdün. Təbiri-kimyagəri, ağardın! Mükafatmı istəyirsən? O da

məndə! Gedək, gör elə xalçanı heç küpdə çürüdərlərmi? Saxlamağa erməniyə versən dalına keçər, kürdə versən oğurlayar!

Eni üç, uzunu dörd metr olan xalçanın yeri qara, işləmələrinin çoxu ağ və qızılı idi. Qıraqlarından bir qarış içəriyə

**S**

hərfləri nəqş edilmişdi. Azin seçkiqabağı platformasını yada saldı. O, seçicilərinə "**S**"-lə başlayan dörd perspektiv vəd edirdi: **S**ağlamlıq, **S**avad, **S**ahibkarlıq, **S**evgi! Xalçadakı hərflər də eyni sayda idi. Əlbəttə, orta əsrlərdən qalma xalçadakı hərf deyildi, sadəcə, ona bənzəyirdi.

Qalayçı Qardaşxan elə bil bütün ömrü boyu xalçanı Azinə şərh etməyə hazırlaşmışdı:

- Bu "Sı"ya oxşayan **ƏJDAHAnın** nişanasıdır. "Bəyin oğurlanması"na baxmısan?

- "O əjdahadan niyə xaricdə var, bizdə yoxdur?"

- Nə qədər istəyirsən gül, könlündən keçirsə lağa qoy məni, amma ay başına dönüm, gözünü yediyim bu əjdahanın yanında xaricdəkilərə kərtənkələ də demərəm!

- Nadir Qafarzadə de!

- Şitlik eləmə, qulaq as, hər xalqın öz əjdahası var. Cuhudların dünyada iki əjdahası məşhurdur, biri qanadlıdır, biri qanadsız, Davudun ulduzunu qoruyurlar. Çində itə daş atırsan, əjdahaya dəyir, ağıllı və xeyirxah varlıqlar sayılırlar. Qədim Babil və şumer tayfalarının "uçan ilan"ı qanadlı və aslan pəncəli idi. Nemeslerin əjdahadan xoşu gəlməz, kökünü kəsərlər...

- Ağzında "nemes" deyirsən...

- Yunanların əjdahası qaravulçudur...

- Bizim nağıllarda da qaravulçudur, bir yana baxanda... Suyun dəhnəsində oturur və qabağını açmağa bir gözəl qızı qurban istəyir...

- Hə, indi yavaş-yavaş tutursan məni, hərçənd, hələ cavansan, bir balaca tələsirsən, bizim nağıllarda əjdahalar qaravulçu deyil, bala, işğalçıdırlar, qəsbkardırlar! Bizim əjdahalar

əcayib məxluqdur, su, hava və atəş ünsürlərini özündə cəmləyirlər. İstəyəndə yağış yağdırarlar, istədiyi ili quraq gətirərlər, hərdən deyirik ha, "göydən od yağır", əjdahanın ağzından qalandır...

- Bəs bu zolaqlar?

- Boz zolaq soyuğun çalarıdır, qəhvəyi isə kədərli boyaqdır, soyuq rəngin yanını isidir.

Xalçanın boz və qəhvəyi rəngli haşiyələrə alınmış ortasına **"Baş Bəyin əsir alınması"** səhnəsi işlənmişdi. Ov tazıları Baş Bəyi talada mühasirəyə alan əli qılınclı müsəlmanlara hürürdülər. Adamlardan hürkmüş bir maral meşəyə doğru sıçrayırdı. Yəhərdəki Səhl Sumbat qamçı ilə Baş Bəyi göstərirdi. Baş Bəy atdan enmiş və buraxdığı qızılquşun ardınca son dəfə göy üzünə baxırdı... Ortoboylu, şaqqalı adam idi, başına ağ dürrə bağlamış, arxalıq geymişdi. Saqqal buraxmamışdı. Dırnağıyla yer eşən atının quyruğu düyünlənmişdi.

- Bu düyün sənə nə deyir?- Azindən qəsdən soruşdu.

- Düyünə salır məni- Azin artıq çoxdan arxada qalmış psixoloji savaşı unudub səmimi cavab verdi.

- Bir cəngavərin atının quyruğunu düyünləməsi onun ölüm-dirim savaşına girdiyini göstərər. Baş Bəyin boz atının quyruğu həmişə düyünlü olardı... O əjdahayla döyüşə ölümünü gözünün altına alaraq girmişdi. Əjdaha- yurdun düşməni, qurban tələb etdiyi qız isə torpağın təcəssümüdür. O, hər dəfə suyun qabağını açmaq üçün bir qız istəməklə torpağın qutsallığını korlayır, sonra ona su verirdi. Torpaq həmişə oğullarından onu qorumağı, əjdahayla döyüşməyi, ona qalib gəlməyi, cövhərinə sahib olmağı umur.

- Əjdahanın cövhəri nədir ki?

- **Gizli Atəş!**

***

“Iraqın Samirə şəhərində baş verən terror aksiyasında...” – televizorun səsini aldım. Baş Bəyin edam olunduğu şəhərin görüntülərinə şərhsiz tamaşa etmək istəyirdim. Sarımtıl-açıq qəhvəyi rəngi vardı şəhərin. Sarının istiliyi, ağın qaytarıcılığı, qəhvəyinin ziddiyyəti şəhərin enerjisinə çökmüşdü. Vahiməli, şübhəli, saldırıcıydı. Yuxarıdan çəkilmiş görüntülərə baxdıqca filin belində edam kötüyünə gedirdim elə bil. Bədənimdə Baş Bəyin yaralarını hiss edirdim. Havam çatmırdı. Məni tuluğa salmışdılar. Samirənin uçuq tikililərini, tüstülənən evlərini, dağılmış məscidləri gördükcə əlimi ağrıyan dizlərimə çırpırdım, kim nə deyir-desin, bu şəhər çoxdan, lap çoxdan yaşamalıydı xaosu, xilafət yıxılmalıydı, şərq qırmızı günü görməliydi. Qızmar günəşin altında Samirəyə çarmıxdan baxırdım... Külək səhra qumlarını sovururdu, minarələr susmuşdu, evlər yerə yapışmışdı, adamlar... adamlar yoxuydu.... Başımı itirmişdim.

Külək rəzəsi düşmüş pəncərəni qəfildən taybatay açdı, şüşələrini çilik-çilik edərək evə səpələdi. Soyuq içəri şığıdı. Pəncərənin önündəki xırdaca reyhan dibçəyini aşıraraq gecələr bir gözünü yandırdığım elektrik qızdırıcısının amanabənd şnurunu qopardı. Yorğanı başıma çəkdim. Nə büründüyüm yun yorğan, nə də geydiyim qalın tuman-köynək qorudu məni buzlamaqdan. Sazağın sındırdığı reyhan qanadlarının giziltisi iliyimə işləyirdi. Hızır Nəbinin yeriydi. Gəlib çıxmırdı. Bir adama ehtiyacım vardı. Elə bir adama ki, ona qərib düşmüş ruhlardan danışım, Hızırın əl çəkdiyi yaralardan söz açım, arvadların xəşil bişirdiyi, kişilərin küpdən bəkməz çömçələdiyi qarlı bir gündə qurd təki ulayım... Nə bir içim su, nə bir udum hava, nə bir qarış torpaq, bir çobanın qaladığı sönmüş ocaqdakı küllərin arasında balaca bir köz... kiçicik bir qığılçım... şaxtaya müqavimət göstərən barmaq boyda kösöv!

*“Ruhunmu ateş, yoksa o gözlərmi alevden?”*- bütün gülərüz avropalılar sayaq hər dəfə rastlaşdığımızda əcnəbi qızın gözü gülürdü, dodaqlarına təbəssüm qonurdu. Alovun şəklini çəkirdi,

hücrələrin divarını oxşayırdı, ayağını yerə basmırdı, yox, özüm ölüm, yerə basmırdı, torpaq onu ovcunun içində gəzdirirdi. Qoy yanım-yaxılım, qoy çarmıxdan yıxılım, qoy sənə sıxılım, üşüyürəm, sümüklərim sızıldayır, sən nə təhər qızsan bəs, duymursanmı, dişlərimin şaqqıltısını eşitmirsənmi, eşitmirsənsə, duymursansa niyə titrəyirsən? Sən atəşgahda donmağın cəhənnəmdə yanmaqdan daha böyük əzab olduğunun fərqindəmisən? Susa bilmədim:

- Üzr istəyirəm xanım, biz tez-tez qarşılaşırıq. Əgər məbədi bərabər gəzsək, belə olmaz!

Qız gülərək "olar" dedi. Doğrusu, sözün hansı mənada deyildiyini dərhal kəsdirəmmədim, olmazın olarlığı ilə, oların olmazlığı arasında qaldım. Nə yaxşı özü soruşdu:

- Bəs, niyə dayanmışıq?

Loviza diplomat idi, Azərbaycana yeni gəlmişdi. İsveç səfirliyinin viza şöbəsində işləyirdi. Beynəlxalq münasibətlərdən əlavə mifologiya və canlanma ilə maraqlanırdı. Atəşgahdakı alovun növünü "Avesta"dakı təsnifata əsasən dəqiqləşdirə bilməmişdi.

-İslama qədər bu məbəddə hərə öz oduna qızınırdı, səd heyif, indi hamının atəşi sönüb- ruhanilərin də, savaşçıların da, xalqın da!

- Niyə?- Loviza təəssüflə soruşdu.

Eyni kədərlə ona atəşgahın daş hasarlarının o üzündəki neft buruqlarını göstərdim. Hasarın o üzündəki neft buruqları torpağın qanını içirdi.

Kabab qanlı, igid canlı!- ofisant bəh-bəhlə buludu qabağımıza qoydu, kababçılarını tərifləyərək iştahımızı açmaq istədi. Zarafatla ağzından vurub onu yola saldım:

- Sağ ol qardaş, ala bu çaypulunu, çıx get, səni and verirəm əzizlərinin canına, bəri gəlmə...

"İnqilab" küçəsindəki "Tonqal" restoranında öncəki həyatında vikinq olduğuna inanan qızın şərab qədəhini çənəsinə söykəyərək sənin deyəcəyin sağlığı gözləməsi, bütün lənətlərin

acığına çarmıxın dibində bitmiş lalənin bir üsyançı ruhunu cana gətirməsinə bənzəyər...

Ondan sonra Hızır gəlsə nə olacaq, gəlməsə nə olacaq...

Mən sənə Hızırın atından danışmayacam, Loviza!

Mən sənə Azərbaycanda Hızır Nəbi mərasiminə "Qurdlar bayramı" deyilməsindən bəhs etməyəcəm!

Mən sənə qurdun yaşayacağı hər yerdə özümə yuva qura biləcəyimdən söz açmayacam, Loviza!

Mən sənə Alim Qasımovun bizi ovsunlayan mahnısının gizəmini anladacam:

**Yaramı sarı!..**

***

Ağlım başımdan çıxdı. Cins şalvarlı dalğın qız harasa yoxa çıxmış, sarı örpəkli, sarı-qızılı dekolteli, sarışın, mavi gözlü çılğın gözəllik dayanmışdı qapıda. Onu təriflədim:

- Bu qədər gözəl olduğunu təsəvvür etmirdim!

- Mən də bu qədər cəsarətsiz olduğunu!- içəri girəndə onu öpmədiyimə tənə elədi.

Hər ikimizə qəhvə süzdü. Masanın üzərindəki kitabı götürüb baxdım. Kundalinidən bəhs edirdi. Loviza kitabın məzmunu haqda qısa bilgi verdi:

- Kundalini insanın içində yatmış enerjidir. Onu oyandırmaq lazımdır! Hər insan özü körükləyə bilər o alovu. Sən daxilən hazır olmalısan, yoxsa yüz kitab, min müəllim qalaya bilməz o ocağı...

Kundalinidən çox danışmadıq. Şərab içdik, vals oynadıq, aram-aram özümüzə gəldik. Kundalini yada düşmədi, əsla. İşıqlar söndü. Zülmətdə qaldıq. Qucaqlaşdıq. Belimin naziyindən bir od qalxırdı. **"Eskato! Bebeloy!"**- pıçıldadı. Mən Loviza ilə ingiliscə danışırdım, dediyi son cümlə özgə dildəydi. Mənasını soruşdum.

- **Əsl yolçu olmayanlar bizi tərk etsinlər!**

Dövlətləri otaqdan qovduq. Sərhədləri əynimizdən soyunduq.

- **İşığa qovuşmaq üçün qaranlığa müqavimət göstərmək lazım!**

- Sən mistik qəhrəmansan- dodaqlarından öpməmə fürsət verdi.

İşıqlaşana qədər ibadət etdik. Kundalinidən söz açmağa macal tapmamışdıq.

"Saboun xeyir, Odlar Yurdu" proqramında astroloq Ramal Yusifzadə sensassiyalı xəbəri şərh edirdi:

- Təbii odun atəşgaha birdən-birə qayıtması Allahın bizə rəhm eləməsidir!

Allah hara, atəşgah hara!- səydərəşin səsini kəsdim. Özümü duş qəbul edən Lovizanın yanına saldım. Köpüklü vannada Loviza mənə **"Eskato! Bebeloy!"** cümləsinin işləndiyi ezoterik törəndən, yunanların "***Elevsin Mistikləri***" məktəbindən danışdı:

- Onların rituallarından ancaq yarıyacan xəbərimiz var. İlk mərhələləri adlayanlar Əsl Yolçu elan edilir, and içirdilər. Uca rahib onlara gizli bilgiləri oxuyurdu. Əsl yolçular sirri saxlamağa söz verdiklərindən mərasimin axırı bizə qaranlıqdır.

- Günümüzə çatan bilgilər?

- Üzümçülüyə və şərabçılığa nəzarət edən Tanrı Dionis hər gün ölür və dirilirmiş. Hər bahar Elevsin mistikləri eyni adlı şəhərdə, tanriça Persefonanın şərəfinə törən düzənləyərmişlər. İştirakçılar çoxlu sınaqdan keçərək illüziyalar aləminə daxil olarmışlar. Buradakı rahib əlində tutduğu gödək çubuğu buxarların və dumanların içərisinə uzadar, rəngarəng anaforalar yaradarmış. İştirakçılar halqalara girən zaman onlara görünməz əllərin toxunduğunu və yerə çırpıldıqlarını hiss edərmişlər. Qorxaqlar geri çəkilər, cəsurlar irəli gedərmişlər. İrəli gedənlərin girdiyi tək sütunlu salonda yer üzündəki bütün pislikləri zərərsizləşdirən və insanlara hücum edən vəhşi heyvanların dilini-ağzını qurudan bürünc ağacın altında taxt qurulurmuş. Taxtda yeraltı dünyanın sahibi Dionis oturar, yanında müqəddəs qız Persefona əyləşərdi. İştirakçılar törənin əvvəlki etaplarında

başa rahibənin təsvir etdiyi cəhətlərə əsasən tanıyarmışlar onu. Ritualın gedişində Persefona qışqırarmış:

- **ANA, İŞIQ!**

O əsnada məşəllər sönər, kimsə bağırarmış:

- **ÖLMƏK TƏKRAR DOĞULMAQDIR!**

## NƏNƏMİN SANDIĞI

- Buyur, abi,- ənənəvi xitabla Cahandar Bayoğlunun zənginə cavab verdim.

- Nə iş görürsən?

- Oturmuşuq Azinlə, qonaqlıq gözləyirik...

- Sən təzə xəbər denən, guya Siz nə vaxt qonaq gözləmisiniz ki? Elə həmişə qonaqlıq gözləyərsiniz, nə tüfəngə çaxmaq oldunuz, nə sünbəyə toxmaq...

- Neyləyək abi, məsəli səndən uzaq, zər əhlində kərəm yoxdur, kərəm əhlində zər!..

- Görürəm, darıxırsınız, durun gəlin yanıma...

- Baş üstdə, abi, baş üstdə, sən olmasan, batarıq bataqlıqda!..

Qapısı açıq idi. Soba xorhaxor yanırdı. Astananın qabağındakı mətbəxdə çaydan özünü öldürürdü. Abi soyuqdan gələcəyimizi nəzərə alıb çaydanı doldurmuş, qırağa qoymağı və dəmləməyi öz öhdəmizə buraxmışdı. Əgər özümüzü yaxşı aparsaq, lap dəqiqi, onun internetdə dünənki fəaliyyətini azacıq tərifləyə bilsək, çayı türk şirniyatı ilə içəcəkdik. Cahandar Bayoğlu virtuallaşan dünyanın nəbzini tutmuş ilk millətçilərdən idi. “Paltalk” adlanan internet proqramında öz otağı vardı, hər həftənin şənbə günü türk dünyasının müqəddəratı orada həll olunurdu. “Ağ ev”ə, Kremlə, Çankaya köşkünə həftəlik mesajlarını Cahandar bəy oradan verər, Tehranın sarayına durmadan atəş açardı. Bayoğlunun ofisinin qalın divarları çöldən həyətdəki Hökümə xalanın çığırtısına, içəridən siqaret tüstüsünə və Araz Elsəsin

türkülərinə alışmışdı. O, hər dəfə bilgisayarını açanda Boz Qurd ağzını Savalana tutub ulayar, Əbülfəz Elçibəyi salamlayardı. Bəyin yanından Mustafa Kamal Atatürk və Başbuğ Alparslan Türkeş asılmışdı. Küncdəki televizor ancaq "Kurtlar vadisi" teleserialı gedəndən-gedənə açılardı, Bayoğlu həmin filmdəki Doğu bəyi çox sevər, bölgədə gedən prosesləri müxtəlif dövlətlərin dərin maraqları açısından təhlil edəndə ondan sitatlar gətirərdi. Ayda bir dəfə "Kütləvi İnformasiya Vasitələri Evi"ndə konfrans keçirər, Güney Azərbaycanda azadlıq mübarizəsini qızışdırar, Mahmudəli Çöhrəqanlıya qahmar çıxardı. Doktor Çöhrəqanlı xarıcdə sığınacaq alan ərəfədə yeni qurum yaratmış, Güney Azərbaycandakı milli fəalların müdafiəsinə qalxmışdı. Bütöv Azərbaycan yolunda qoyduğu qabığı "ETTELAT" qara dəftərinin arasında saxlayırdı.

Təzə noutbuk yükünün xoruzun belində olmadığını masaya qoyurdu, əli yaxşı idi, dünən "paltalk"a qoşulub Tehrana iki "enter" də biz vursaydıq, bir türk lokantasında boğazımızı isladırdıq indi. Sözü gələcəkdən salmaq, keçmişə boylanmamaq lazım idi. Mümkün deyildi! Araz Elsəsin uddurduğu qanın dalınca rakı kar eləməzdi kimsəyə, adamın ürəyini, ələ düşsə, qımız sərinlədərdi. Atlar tappatap, tappatap, tappatap, tappatap zamandan uzaqlaşırdılar. Tappatap, tappatap, tappatap, tappatap zamandan uzaqlaşan atlar özünü Araza vururdular. Çay qaynayırdı. Çaydan özünü öldürürdü. Atlar kişnəyirdi. Kişnəyənlər qanad açırdı. Qanad açanlar uçurdu. Uçanların dalınca ürəyimiz atlanırdı, ürəyimizi qovurduq; qovur, qovur gətirib çaya tökürdük. Çay qaynayırdı. Çaydan özünü öldürürdü. Atlar Arazı güldürürdü. Araz gülə-gülə axırdı. Araz gilə-gilə axırdı. Arazgilə axırdı...

- "Püff... olmadı daa!.."- Cahandarın əsəbi səsi Arazgildə başmağımı cütləyib qabağıma qoydu.

- Nə olub, abi?- bəlkə onun qəfil reaksiyası olmasaydı Arazgildə Cavidanı tapacaqdım. Canlanmış Cavidanı çoxdan axtarırdım, tapa bilmirdim və lələyimi qarlı-çovgunlu bir qış

səhərində Bəz qalasına yorğalayan atların ayağının palçığına batıra-batıra igidlik eləyib hələ ad qazanmamış oğuz oğlunu tərkində Baş Bəyliyə aparan ruhun son vücudunu çəkirdim.

- Burada bir sual əskikdir... O sual qoyulmalıydı...

- Özüm ölüm, şaqqalatdırar adamı Araz, oxumur, bir ağ atın quyruğunu düyünlədir adama...- Azin hələ özünə gəlməmişdi.

"Yox ey, burada o sual mütləq qoyulmalıydı ki, Babəkin atının adı nə olub? Qoyulmalıdır, qoyulmalı deyil?"– Cahandar cavabımı gözləmədən Araza qulaq asa-asa göz gəzdirdiyi internet səhifəsindən moderatorun sualını oxudu: *"Forumumuz üzvlərinə IX əsr Azərbaycan üsyançısı Babək Xürrəmi haqqında öz fikirlərini paylaşmaq imkanı yaradır. Onun özü və başçılıq etdiyi xürrəm hərəkatı haqqında həm tarixi qaynaqlarda, həm də günümüzdə ziddiyyətli fikirlər söylənir. Bəs, Sizin fikrinizcə Babək kimdir?"*

Əyilib özüm baxdım, sanki ali savadlı adam düz oxumamışdı. "Yaxın gəl ey, qırğın gedir virtual dünyada"- Azini səslədim. O, divandan qalxmadı. Deputatlığa namizəd olmuş adamların da keçmə belə işindən, bəzən yaman ağır otururlar. Rəyləri ona oxudum:

**Tabu:** Lənət olsun ona! O, zındıq, məlun, şeytan idi! Allahın düşmənlərindən olub. Quranda elələri haqqında "nəcis" sözü işlənir.

**Ağa:** Qəhrəmandır, amma kafir və zındıq deyil, Abbasilərə qarşı vuruşurdu, islama qarşı yox

**Ravi:** Sən o kafiri zəlalətdə olduğumuz çağlarda Allahın kəlamını bizə çatdıran müsəlmanlarla vuruşduğuna görəmi qəhrəman adlandırırsan?

**İftixar:** Babək öz xalqını, torpağını və ideallarını sonacan qoruyan ünlü qəhrəmandır.

Bilirsiniz necədir?- Cahandar Bayoğlu öz fikrini dedi:

- Babək Azərbaycanda ərəblərin anasını ağladıb. Xilafətin altı ordusunun burnunu ovub, Həmədandan Göyçəyəcən bütöv ulus yaradıb, o boyda Abbasilər sülaləsini suquta aparıb, qanını

üzünə çəkib çıxıb ölümün qabağına. Əşi, özünə gülür onu bəyənməyən... Bəy dediyin nədir, bəyənmədiyin nə? Hələ də qovur yadları Azərbaycandan.

"Elədir, abi, elədir"- onunla razılaşdım və www.canlan.ma saytından moderatorun ikinci sualını oxudum: **"Babək ad idi, yoxsa titul?"**

Nə cavab veriblər?- qırmızı qalstukunu açıb təzədən bağlayan Azinin gönünə yavaş-yavaş isti keçirdi.

**Tabu:** Mən ona Bobik deyirəm! Bobik Allahın halal nemətlərinə arxa çevirərək iyrənc xürrəmilər hərəkatını və adətlərini yaymağa başlayıb.

**Ağa:** Babək fars mənşəli "Papak" sözünün ərəbcə yazılışıdır.

**Ravi:** Babəkin əsl adı imamlarımızdan gəlirdi, Həsən idi.

**İftixar:** Xilafət müsəlmanları özlərinə və başqalarına təzə ad qoyurdular. "Həsən" ona ərəblərin qoyduğu ad idi.

Sən nə fikirləşirsən?- Cahandar mənim rəyimi soruşdu.

**-** Düzü, abi, Babəkin adı hamını dolaşdırır. Ermənilər onu "Baban" çağırırlar, adı ərəb mənşəli deyil, bizim dilimizdə "a" səsi uzadılmır, farslarsa "Papak" deyirlər. Farsların aləmində o, özünü Sasani çarı Ərdəşir Papakanla eyniləşdirib. Mən iki səbəbə görə bu ehtimalı ciddi saymıram. Tarixi sən məndən yaxşı bilirsən, Babək yoxsul ailədə doğulmuşdu, Sasani şahının adına iddia eləyən baldırıaçığa el deyərdi ki, arpası artıq düşüb. Bir yana baxanda da, xürrəmliyin mayasındakı maniçilik dövlət institutuna qarşı çıxırdı. Babəkin ulusu ilə liberal demokratiyanın yaradıcılarından olan Skandinaviya vikinqləri, mənim aləmimdə bir almadırlar abi, ikiyə bölmüşəm, meyvənin saplağı da anti-dövlətçilikdir. Xatırlayırsansa, onu tabe olmağa çağıran oğluna Babək "mən rəisəm" demişdi. Onun rəislik titulu necəydi? O, sənin sözün olmasın, bir ağzı Həmədanda, bir ağzı Göyçədə olan bir ulusun iqtisadi, siyasi, hərbi və mənəvi lideri idi, ancaq şah, xaqan, əmir, imperator, kral titulları daşımırdı. Lider ola, onun titulu olmaya? Onun titulu Baş Bəy idi, abi, Baş Bəy!

- Bəs "Ş" hara yoxa çıxdı?

- Əməviləri qəbul edən və ulduzları Abbasilərlə barışmayan kürdlər şeytanın baş hərfi olduğundan həmin səsi tələffüz etmirdilər.

**Bəs, Babək özü hansı dildə danışırdı?-** Azin forumun növbəti sualını uzaqdan "oxudu".

**Tabu:** Kürdcə danışırdı, nəbaticə mahnı oxuyurdu.

**Ağa:** Farsca danışırdı.

**Ravi:** Babəki gah Ərdəbilli edirsiniz, gah Mədainli, gah Xorasanlı. Niyə Babəkin talış olduğunu etiraf eləmək istəmirsiniz?

**İftixar:** Babəkin üzbəüz söhbət elədiyi adam Afşin və Səhl Sumbatdır. Səhl Sumbatın qohumu deyildisə, deməli, türk idi.

Türk idi, xalis türk idi, - Cahandar bəy tarixə getdi:

- Onlara qonaq düşən Cavidan Babəkin biliyini yoxlayanda oğlanın iranlıların dilində qırıq-qırıq danışdığına şahid olması barədə kitablar yazıb. IX yüzildə Babəkin yaşadığı coğrafiyada üç əsas dil vardı- ərəblərin, iranlıların və turanlıların dilləri. Xəlifə Mötəsimin ona tərcüməçi vasitəsi ilə sual verdiyi bəllidir. İranlıların da dilində qırıq-qırıq danışdığından...

Zəng gəldiyindən sözünü tamamlamadı, bilgisayarın arxasından qalxıb pəncərənin qabağına keçdi. Yerində Azin gəlib əyləşdi və qabaqlaşdığı ilk sual belə oldu: "**Babəkin atası kim idi?"**

**Tabu:** Babəkin atası Mədain nəbatisi olan yağsatan Abdulla idi. O, Ərdəbil yaxınlığında yağ satarkən gələcəkdə Babəki doğacaq qadınla- Bəruməndlə tanış olmuşdu. Bəruməndə nəbati dilində mahnı oxuyanda su gətirməyə gedən kənd arvadları onları görmüşdülər. Abdullah qaçmış, Bərumənd isə kəndə qayıtmışdı, sonradan evlənmişdilər.

**Ağa:** Atası Mətər, yaxud Mərdəs adlı dilənçi olub.

**Ravi:** Hamınız səhv edirsiniz, Babək soylu insan idi. Əməviləri yıxan Əbu Müslümün nəvəsiydi.

**İftixar:** Babək Azərbaycanın oğlu idi.

**Xürrəm:** Xorasan türkü və tarixin adsız qəhrəmanlarından idi. Onun atası Cavidanın döyüşçüsü olmuşdu. Ərəblər onu basqında öldürmüş, Cavidan Bilalabad kəndinə onun ailəsinə başsağlığı verməyə gəlmişdi.
**Babəkin anası kim idi: avam kəndli qadın, dindar yoxsa fahişə?-** sual forumda qəsdən köntöy qoyulmuşdu.
**Tabu:** Bobikin fahişə anasının adı Bərumənddiydi.
**Ağa:** Anasının adı Mehriydi və atəşpərəstiydi.
**Ravi:** Fatma! Əməvilərin hakimiyyətinə son qoyan üsyançı Əbu Muslimin qızı!
**İftixar:** Anası sadə bir Azərbaycan qadınıydı.
**Xürrəm:** Börümən varlı ailələrin uşaqlarına süd analığı edərdi, fahişəyə uşaq əmizdirməzlər!

**Ən mübahisəli məsələlərdən biri "xürrəm" sözünün mənşəyi ilə bağlıdır- moderator mübahisəni canlandırmağa nail olmuşdu- "Xürrəm" nə deməkdir?**
**Tabu:** Həramilərə, quldurlara verilən addır.
**Ağa:** İranda yaşayış məskənidir.
**Ravi: D**eyirlər, Məzdəkin arvadının adıdır...
**İftixar:** "Şən", "şad" mənasında işlənir.
**Xürrəm:** "Gün işığı" deməkdir.

**Moderator soruşurdu: Babəkin qalasına sahib çıxdığı Cavidan kim olub?**
**Tabu:** Babəkdən qabaqkı zındıq!
**Ağa:** Fars və atəşpərəst idi.
**Ravi:** Yerli feodal idi.
**İftixar:** Xürrəm sektasına başçılıq edirdi.
**Xürrəm,** yaz,- dedim:

- Onun qaynaqlardakı tam adı Cavidan Sührəkdir. Səid Nəfisi farsca "Sührək" adı olmadığını boynuna alır. Sührəkin təhrif olunmuş türk sözüdür. Cavidan farsca "əbədi zaman" deməkdir. Sührəkin üçüncü səsini tələffüz etməsəniz, eyni anlamı

verən "sürək" sözünü ağzınızdan qaçırdacaqsınız. Cavidan sürəkli yaşama inan sektanın lideri idi.

***Cavidanın arvadı ona vurulmasaydı,- moderator yaman tərs suallar verirdi - Babək xürrəmilərin lideri seçilərdimi?***

**Tabu:** Cavidanın arvadı kəsdiyi oğlana ərə getməyin dərdindən özündən vəsiyyət uydurmuşdu. Saxta vəsiyyətlə hakimiyyətə gələn necə xalq qəhrəmanı ola bilər?

**Ağa:** Babəkin lider seçilməsi göylərin rizasıydı. Allah imamlarımızın qisasını onu başa çıxartmaqla aldı.

**Ravi:** Bəyəm tarixdə atasını, qardaşını öldürüb padşah olanlar azdır? Onların yanında saxta vəsiyyətlə hakimiyyətə gələnin ayağını yuyub, suyunu içmək olar.

**İftixar:** Görəsən, Xədicə ilə evlənməsəydi Məhəmmədə peyğəmbərlik gəlməyəcəkdimi?

**Xürrəm:** Baş Bəyi ulus seçmişdi və o, səsvermədə Cavidanın oğlunu udmuşdu.

**Moderator: Bəz qalasında siyasi quruluş: anarxiya, monarxiya, yoxsa kommunizm idi?**

**Tabu:** Onların quruluşu haramçılıq idi.

**Ağa:** İmam Hüseynin arzuladığı dövləti qurmuşdular xürrəmilər. İnanmırsınızsa, buyurun, "Google"- də axtarış aparın.

**Ravi:** Necə də gözəl səslənir, IX əsr müsəlman tarixçisi Əl-Google- Allah ondan razı olsun- yazmışdır: "Babək Xürrəmdin İmam Rzanın gizli müridlərindən idi... "

**İftixar:** Ərəbistana və İrana baxmayın, Bəzdə quldarlıq olmayıb.

**Xürrəm:** Bəz qalasında Skandinaviya vikinqlərinin ilkin liberal demokratiyasına bənzəyən və xəzər idarəçilik ənənələrindən bəhrələnən sistem təşəkkül tapmışdı. Cavidanın arvadına xürrəmlər hansı sualı vermişdilər? Yeni lider seçməyə yığışan xürrəmlər xəbər almışdılar: ***Cavidan niyə fikrini birbaşa özümüzə bildirmədi, bizi yığmadı?*** Qadın aydınlıq gətirmişdi: ***"Həranız bir kənddə yaşayırsınız. Cavidan sizi gecə çağırsaydı, yolda ərəblər hücum edər, sizi öldürərdilər."*** Hər yaşayış məntəqəsinin öz

təmsilçisinin olması, liderin onlara hesabat verməsi mənim yadıma Robert Dahlın sözünü salır: **"demokratiyanı insanlar od kimi müxtəlif yerlərdə, bəzən də bir-birlərindən xəbərsiz kəşf ediblər."** Demokratiyanı kəşf edənlərdən biri də biz olmuşuq. Babəkin qalasında demokratiyanı kəşf etməyə əlverişli şərtlər var idi. Ərəblər Azərbaycanda "biz" və "onlar" bölgüsü yaratmışdı, demokratiyanı da məhz həmin bölgü doğmuşdu. Xürrəmlər tam olaraq hərbi nizamla, savaş qaydaları ilə yaşamırdılar. Azad adamlar olaraq barabərlik məntiqinə istinad edirdilər.

- Onu da qeyd elə ki, Uppsal Universitetinin arxeoloqu Annika Larssonun tapdığı daraq vikinqlərlə xürrəmlər arasındakı telləri darayır. Vikinqlər də qırmızı geyinir, döyüşdən qabaq qalxanlarına qırmızı zolaq çəkir, düz tiyəli qılınclarla döyüşürdülər- Azinə xatırlatdım. O, dərinə getmədi.

**Moderator: Bəz qalasında seksual münasibətlər necə olub?**

**Tabu:** O namussuz Babək xalqın arvadına, qızına göz dikirdi, ana-bacı ilə cinsi əlaqəni normal sayırdı.

**Ağa:** Şəriətə əməl edirdilər, cinsi əlaqəyə girməzdən qabaq siğə oxuyurdular.

**Ravi:** İranda islam inqilabına qədər "şam söndü" mərasimləri qalmaqdaydı...

**İftixar:** 17 arvadı vardı...

**Xürrəm:** Bəz qalasında yaxın qohumlar- ana və oğul, bacı və qardaş arasında cinsi əlaqələrin mövcudluğu ağ yalandır. Salnaməçilər atəşpərəstlərin adətini xürrəmlərin ayağına qəsdən yazırdılar. Babək atəşpərəst deyildi. İlin bir gecəsində- Novruz bayramında dağa çıxır, tonqallar qalayır, kütləvi şəkildə sekslə məşğul olurdular. Kütləvi seks zamanı qadınlar püşklə seçilmir, partnyorlar dəyişmir, arvadlar ümumiləşmirdi, sadəcə, insanlar özünü oyanan doğayla bütünləşdirir, snerji yaradırdılar. Seksual əlaqəyə girmək qarşılıqlı istəyə, evliliyə və digər bənzər prinsiplərə söykənirdi. Babək Cavidanın dul arvadı ilə evlənəndə gəlin bəyə reyhan qanadı bağışlamışdı. Nigah mərasiminin

mövcud olduğu heç bir toplumda arvadların ümumiliyindən söhbət gedə bilməz. Xürrəm seksin əsas və pozulmaz şərti qadının razılığı idi. Həddi-büluğa çatmış oğlan və qızlar özlərinə sərbəst şəkildə seksual partnyor seçirdilər. O dövrdə ərəblərin başa düşmədiyi və islama zidd saydıqları məhz bu azadlıq idi. Bəz qalasında elçi getmək, mehr kəsmək, başlıq almaq adət deyildi. Qızı öz razılığı ilə qaçırırdılar. Müsəlmanlara qızın qoşulub qaçmaq azadlığı çatmırdı. Xürrəmlərin seksul azadlığı indi Avropada həyat tərzidir. Cinsəllik qərbdə açıq və azaddır.

**Bəz qalası nəyin simvoludur?- forumda son sual belə idi.**

**Tabu:** Əxlaqsızlığın! Şükürlər olsun, Ulu Allah onu yerlə yeksan elədi!

**Ağa:** Elə qalalardan İranda çoxdur.

**Ravi:** Biri də Lerikin Bəlləvur kəndindədir. Orada kalan qızıl basdırıblarmış...

**İftixar:** O qala türklüyün simvoludur!

**Xürrəm:** Bəz etiraz enerjisininin qalasıdır!

Cahandaaar!- Hökumə xala bağrımızı yardı. Qapının ağzında dayanıb qaloşlarını yerə çırpırdı. Yalandan qaloşlarının qarını-palçığını tökə-tökə Cahandarı otağa girəcəyindən xəbərdar edirdi, oğlu yerində olsa da, ondan çox utanırdı. Cahandar otaqda yox idi, başımız foruma qarışanda aşağı düşmüşdü, çox güman, siqaret almağa getmişdi. Həftə səkkiz, mən doqquz axşamı Bayoğlunun ofisində salırdım, duz günü tezdən Hökumə xalanın ofisi yağ töküb yalayanacan təmizlədiyini bilirdim, Cahandardan açar almağa gəlirdi. Masaya baxdım, açar-zad yox idi. İçəri girmiş Hökumə xala qışqırdı:

- Öyünüz yıxılmasın, adə, huşdurumlar...

Çay dəmdən boğulmuşdu. Çaydan hirsindən çatlamışdı. Yuxuya getmiş qazın fısıltısı mətbəxi götürmüşdü...

Cahandar ofisə qayıdanacan ağbirçək "iraq olsun" sığortasıyla fövqəladə hallar nazirliyinin bütün öyüdlərini qulağımıza doldurdu. Cahandar malalaya-malalaya abrımızı

Hökumə xaladan birtəhər geri aldı. Abrımızı özüylə apara bilməyən Hökumə xala dalınca gəldiyi açarı Cahandardan istəməyi unudub qarşısını aldığı faciəni qonşu arvadlara danışmağa tələsdi.

***

Dədəmgilin qapısında, kötüyün üstündə oturmuşdum. Əmim odun doğrayırdı. Baltanın tappıltısı kəndin ayağından qayıdırdı. Əmim kəndi dolaşan səsi baltalayırdı. Səs kənddəki tut ağaclarının hamısının başına dönüb özünü baltanın ağzına verir, canını tapşırırdı. Səsin canı baltanın ağzından çıxıb göyə uçur, çəpərin başında dayanmış dumana qarışırdı. Duman başıma çökürdü. Doluxsunurdum. Mən gözümü o məhlədə açmışdım, o tutun altında ayaq tutmuşdum, o ağacın budaqlarından asılmış yelləncəkdə yellənmişdim. Kölgəsində xəyallara daldığım ağacın kötüyündə büzüşərək xatirələrə baş vururdum. Anamın sandığı gəlirdi yadıma. Qıfılının altına "ТОЈУНУЗ МУБАРӘК" yazılmışdı. O sandığa anamın adıma atdığı pal-paltarın, pay-püşün, qır-qızılın heç biri ortaya çıxmadı mən evlənəndə. Qıfılının altına "ТОЈУНУЗ МУБАРӘК" yazılmış sandıqdan bir xalat çıxardıb xonçaya qoymadı nişana gedəndə anam. Qar qapıda qurdlayan qış oduna pul çatdırmamışdıq, anam sandığını sobaya atıb yandırmışdı. Anamın bir sandıq arzusu bircə gecə isitmişdi balalarını. Üşüdüyümüzdən nənəm gələnə qədər yorğanın altından çıxmamışdıq ertəsi gün. Nənəm çıraq sönəndə gəlmişdi, poçtun qabağında ağaca dönmüşdü, onu yandırmayaq deyə aldığı təqaüdü bizə odunpulu gətirmişdi. Niyəsə gözünün yaşını anamın sobanın külünü boşaltdığı çanağa axıtmışdı, onda yekə kişi olduğuma heç kimi inandıra bilmirdim, özümü ağlayan nənəmə göstərmək üçün sandıq külü ilə göz yaşını qarışdırıb evimizin yırtıq-deşiklərini tuturdum. Hozəki iş tutmamağım nənəmin xoşuna gəldi, öz sandığını mənə boyun oldu. Nənəmin sandığında vaxtilə bütün gəlinlərinin, qızlarının gözü varıymış,

dilindən ortancıl qızına verəcəyini qaçırdıbmış. Ortancıl qız qarabaxt olandan hamısı tamahını sandıqdan yığışdırmışdı, dalınca göz qalmağından, düşər-düşməzindən qorxmuşdular. Nənəmə o sandığı açdırmaq istəyirdim, əmim tütəyinin dilini çəkmişdi, odun doğrayırdı, onun ağzıyla bibim danışırdı:

- Aparma, halı xarabdır, ölüb-eləyər, bu da bizə bir dərd olar...

Arvadın çənəsi atırdı, sadəcə, canını ağzından çıxmağa qoymayan tilişgə qalmışdı boğazında, öskürürdü. O tilişgəni çıxartmağa məni arzulamışdı. Gəlmişdim. Yastığının qırağından çəkilməməliydim, tut ağacının başdaşında- kəsilmiş ağaclara başdaşı öz gövdəsi olur- ağzımı aralamaya-aralamaya əmimlə çənə döyürdüm, ağac-ağaca gəlirdim, söz güləşdirirdim. Əmim axırıncı oduna siqaret qutusunu tulladı. “Gördün, bibi”- arifə bir işarə etdim- məni göndərmədi, özü getdi.

- Əşi, o çətin qayıdar, dur, keç nənənin yanına- bibim ərinin “Rodopi” axtaracağını bilirdi, indiki əyyamda o siqaret çətin tapılardı.

Nənəm gözləriylə çağırıb məni yanında oturtdu. Əlimi ovcuna qoyub öpdü, qolumdan yapışıb dikəldi, çiynimə söykənib yeridi...

Otağın qapısı qıfıllanmasa da, hələm-hələm açılmazdı. Rəhmətliyin cehizi Novruz bayramında da çırpılmazdı. Divarda işığın açarını axtardım. Lampa partladı. Pəncərini açdım. Təzə evin eyvanından sandığın başına cüzi işıq düşürdü. Nənəm döşünün arasında gəzdirdiyi kisədən barmaq boyda dəmir çıxartdı. Sandığı açdım. Bibim boynumuzun dalını kəsdirmişdi. Rəng verib-rəng alırdı. Rəngini boşalan sandığa verir, üzünə yerə tökülən çürümüş pambıq vururdu. Ömrü gödək olmuş qızın yengəliyini edəndən bibim o sandıqdakı pambıqdan qorxurdu. Sandıqdan çıxan yorğan-döşək üzlərini, mələfələri nənəm gəlinə verdi:

- Apar işlət, bala, apar işlət...

Bibim suyu süzülə-süzülə otağı tərk etdi. İkimiz qaldıq. Nənəm sandığın dibindən paxlavaqaş üzük çıxartdı:

- Mənim qızlıq üzüyümdür, bala, rəhmətlik nənəmdən qalıb...

Dillənmədim. Paxlavaqaş üzüyü ovcumun içində sıxdım.

- Başın aşağı olmasın, bala, qızın günahı yoxuymuş, üzü pambığıymış balamın. O vaxtlar indiki həkimlər yoxuydu bala, yoxuydu, heç doxtura-moxtura aparan da olmadı, bala, olmadı, başını qırxıb üzüqara elədilər balamı, yağlı əllərini başıma çəkdilər...

Paxlavaqaş üzüyü ovcumun içində sıxırdım. Əlləriylə doldurduğu sandığı tökürdü:

- El içində rüsvay olduq, bala, rüsvay olduq, dədəndən, əmindən gördülər, bu xarabada ala qarğa bala çıxartmaz, bala, bala çıxartmaz, asdı özünü, aydan arı, sudan duru uşaq...

Paxlavaqaş üzüyü ovcumun içində sıxırdım. Nənəm məni başa salmağa söz tapmırdı:

- Onun qızlıq pərdəsi anadangəlmə yoxuymuş, demə nənən ağzının danışığını itirib, mənim qarnımdan çıxandan eləymiş, qarnım yansın mənim...

Paxlavaqaş üzüyü ovcumun içində sıxırdım.

- Ağzımıza qurd düşən iliydi... İlin axır çərşənbəsiydi. Bayram aşımız zəhər olmuşdu. Qapımıza papaq atan, torba sallayan yoxuydu. Uşaqlar tonqalın başındaydılar, mənim ürəyimdə yağ qalmamışdı, yanlarına gedə bilmirdim. Bayaq odun doğrayan əmin kişiyə dirənmişdi ver tüfəngini atım, kişi verməmişdi, o da bir yandan qanımı zəhərə döndərmişdi... Bir də gördüm, gəlib süfrənin küncündə oturdu. İstədim deyəm: "az, bayramın günü süfrənin qırağında niyə oturmusan", dilimin ucundan qaytardım, yadıma düşdü ki, ölü gəlib evimizə... Ürəyi durmayıb, bizi görməyə gəlib, biz iki il onun qara bayramına getməmişdik bala, yuxaydı, ürəyi durmamışdı, bizimlə bayramlaşmağa gəlmişdi. Dedim: "bir boşqab aş gətirim

yeyirsən?" Dedi: "bu ilki aşın yaman yağlıdır, yemirəm." Qızım olanda nə olar, ürpəndim bala, ruhdan ürpəndim, istədim qışqıram, səsim çıxmadı, güldü, dedi qorxma, gəl otur yanımda. Oturdum. Dedi, ürəyini buz kimi saxla, mənim heç kimlə haqq-hesabım olmayıb, heç əlimdən də tutan olmayıb, soruşdum, bəs bu işiydi açdın başımıza? Qayıtdı mən Bəy qızıydım qabaqkı həyatımda, dədəmi əsir aparıb doğradılar, mənə də xəlifə sataşdı. Ürəyimin telləri əsdi. Dedi, sənə dediklərimi qulağında saxla, yekələndə Barsesə çatdır.

- Barses kimdir?

- Fateh!

- Fateh kimdir?- həyacandan sənin əsl adını unutmuşdum bala.

- Nəsir!

- Nə çox adı var uşağın?

- Onda biri qalsın...

- Daha nə dedi?- maddım-maddım ovcumdakı paxlavaqaş üzüyə baxdım.

- Dediyini başa düşmədim, bala, başa düşməsəm də, yadımdan çıxartmadım:

**T 3 (5)**

**H (65)**

***

"Kütləvi İnformasiya Vasitələri Evi"ndə ölkənin hüquq müdafiəçiləri Azin Kürəçinin srağagün qaldığı binanın qabağında bıçaqlanmasını pisləyir, bıçaqlayanın tapılmasını və cəzalandırılmasını tələb edirdilər. Tədbiri hüquq müdafiəçisi Novella Cəfəroğlu aparırdı. Salon ağzınacan dolmuşdu. Oturmağa yer yox idi, jurnalistlər qapının ağzında durmuşdular. Novella xanıma him-cimlə "buralardayam" deyib Azin Kürəçinin polisə verdiyi izahatın bir nüsxəsini götürdüm, bayıra çıxdım. Uzundraz mizdən tapdığım qələmlə hərf səhvlərini düzəldə-düzəldə oxudum:

- Onu ilk dəfə avtobusda gördüm. Babək prospektində avtobusa ədası yerə-göyə sığmayan bir xanım mindi. Elə mindi ki, sanki bütün dünya həmən xanımın arxasınca sürünməli, qabağında diz çökməli, yalvarıb-yaxarmalı, ən azı ayağa qalxıb ona yer verməlidir. Gəlib düz burnumun ucunda dayandı. Bahalı iyi avtobusun bütün qoxularını öldürürdü. Oğlanlar ehtirasla qoxunu ciyərlərinə çəkirdilər. Duxinin küpünə girməsi, əslində, qadının vulqarlığından xəbər verirdi. "Püff" edərək onun ədasını və qoxusunu özümə yaxın buraxmadım. Pərt oldu. Pərtliyindən üzümə baxmasa da, əlləri ilə saçını geri sığallayaraq özünü sındırmadı, ağzını yüngülcə büzməklə ona yer təkilf edəcəyimə ümidini itirmədiyini nəzərimə çatdırdı. Özünə gülürdü, canı çıxsa da, ayağa durmazdım. Nəfəsini boynuma verən cigid mənə ağıl öyrətdi:

- Bəlkə durasan, xanım otursun?

- Sən nə zamandan mənim müşavirimsən?

- Mumla, dur ayağa, xanım otursun!– bozardı.

Burnumun qabağına baxdım. Qadın dinmirdi. Cigidin özünü ona göstərdiyini anlayır, dinməməklə bir yandan onu it yerinə saymır, bir yandan da mənim sındırılmağıma sevinirdi. Sizi yormayım, mübahisəmiz iki dayanacaqdan keçdi, üçüncüsünə çatanda nazənin enib getdi. Gözləmədiyim halda arxamdakı qadın mənə qahmar çıxdı:

- Belə durmur, əcəb eləyib durmur, sən nə özünü atmısan ortalığa? Açıq sinəsinə bənd oldun, ya çılpaq ayaqlarına? Dini yox, imanı yox, Allah bilir kimin adamıdır, sən də toy toğlusuna dönmüsən. Allahın, Quranın buyurduğu görkəmdə olaydı, oğlan da durub ona yer verəydi... Eləsinə yer vermək günahdır!

Mömünə oturduğumu burnumdan tökdü. Acığımı cigiddən çıxdım:

- Mən də avtobusda biletlə gedirəm, o xanım da. Kim ayaq üstdə qalmaq istəmir, avtobusa minməsin. Camaat yığışıb Nəqliyyat Nazirliyinin qabağında piket keçirsin, ödədikləri pulun

müqabilində yüksək xidmət tələb etsin. Guya sən nəzakətlisən? Geridə qalmısan, geridə! Hələ mənə ağıl verirsən... Elə ağıllısansa, sürücüyə çəmkir! Bu qədər adamı avtobusa niyə doldurub?

Sözüm özünü karlığa qoyan sürücünü tutdu. O, cigidi yamanladı:

- Əmioğlu, sənə nə var kim durub qadına yer verir, kim yer vermir? Yer verən də özü bilər, verməyən də. Güc-bəla ilə planımızı doldururuq, evimizə çörək pulu aparırıq, deyirsən ruzimizi aparıb itə-qurda yedizdirək?

Yolda məhəlləmizdə qalan idmançı uşaqlar mindi avtobusa. Onların mənə salam verməsi cigidin pısını yadızdırdı. Söhbəti bağladıq.

Gecə birdən-birə evdə telefon kəsildi, həyətdəki internet kafeyə endim. İnternet kafedə adam azıydı. Kafenin administratoru kompüterdə nərd oynayırdı, iki gənc çatda qız axtarırdı, bir nəfər MSN-də mikrafona bağırırdı. Ona fikir vermirdim. Getdikcə səsini yüksəldir, adamı özündən çıxardırdı. Gənclər ondan çığırmamağı tələb etdi. Vecinə almadı. Əlbəyaxa oldular. Durub araya girdim. Kimi görsəm yeridir? Avtobusdakı cigidi! Cigid siqaret çəkmək bəhanəsi ilə çölə çıxdı və qayıtmadı.

Səhər tədbir varıydı, evdən tələsik çıxdım. Blokun girəcəyində mini yubka geymiş gül dəstəsi dayanmışdı. Başı buketin dalında idi, görünmürdü. Yanından keçməyə yer yox idi. "Xanım, icazə verin, keçim"- dedim,- "güllər əzilər..." Xanım binanı pəncərəyə çıxartdı. Haradansa bizim cigid peyda oldu. Əlində bıçaq mənə cumdu. Pəncərələrə duy vurdu ki, alçaq özünü bacıma sürtüb..."

www.canlan.ma portalının reportyoru yaxınlaşıb başsağlığı verdi:

- Eşitdik nənəniz rəhmətə gedib, qəbri nurla dolsun!

Təşəkkür etdim. Müxbir Azinin bıçaqlanmasının əsl səbəbi ilə maraqlandı. İzahatı göstərdim. İncəvara, "Kütləvi İnformasiya Vasitələri Evi"ndə növbəti tədbir başlamaq üzrəydi, jurnalist

sırtıqlıq eləmədi, atəşgahda təbii odun yenidən sönməsinə mətbuat konfransı həsr edən astroloq Ramal Yusifzadənin hesabına kofe içməyə getdi. Tədbirdən çıxmış Novella xanım məni yanına çağırdı, cibimə 500 manat qoyub Azindən muğayat olmağı tapşırdı:

- Mənə düzünü de, Azin qəsdən əl atmayıb o gədənin bacısına???

- Yox, ey, nə qız, nə əl atmaq, yer olmayıb yanından keçə, camışı qəsdən salıblar bloka, Azinə vurulan qanlı bıçaqla qurd ağzı bağlayıblar... Görmürsünüz, atəşgahın odu təzədən söndü?!

- Hamınız oğraşsınız!- Novella xanım məşhur komplimenti ilə sözümə güldü.

Axundova gəldim. Hündür qapısını aralayanda çoxdan ayaq kəsdiyim kitabxananın sakit, müdrik və gənc havası məni vurdu. Fərəhlə pilləkənləri qalxdım. Ustadın büstünün yanından keçəndə biləyimi yanağıma sürtdüm, özümdən ixtiyarsız tələbələrə xidmət göstərən zalın kitabxanaçılarına boylandım. Həyat xanımı görmədim, təbii, gözümə dəyməməliydi, işdən çoxdan çıxmışdı; mənim bu məbəddə oxuduğum ən maraqlı sevgi romanı o kitabxanaçı idi, hər dəfə Axundovun yanından adlayanda biləyimi üzümə sürtməklə onu salamladığıma inanardı. Onun sayəsində biblioqrafiyadan az-çox baş çıxardırdım və nənəmin verdiyi şifrənin tarixi ədəbiyyat kataloqlarında açılacağına əmin idim. Güzgüsü əlindən düşməyən növbətçi biblioqrafı yüngülvari əziyyətə salıb şifrənin qoyulduğu kitabı tapdım. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk, "Siyasətnamə", "Elm" nəşriyyatı, mamam ölən il.

Bufetə endim. Kitabxanaçıya sifarişimi yerinə yetirmək üçün lazım olan yarım saat vaxt getmirdi, ayağına sosiska cığarasından papış tikmək istəyirdim. İki tələbə bu romanın www.canlan.ma-da yayınlanmış cızmaqarasını ağ yuyub, qara sərirdi. "Axı Persefonanın Azərbaycana nə dəxli var?" Keçib yanlarında oturdum, özümə haqq qazandırmağa, nəyisə başa

salmağa həvəsim yox idi, çaylarının pulunu vermək istəyirdim.

Əlimi kitaba basdım. İşarə gözləyirdim. Ətrafa göz gəzdirdim. Təzə təmir edilmiş humanitar zala xidmət edən kitabxanaçının özünün və çəkmələrinin boğazının uzunluğundan savayı diqqətimi cəlb edən olmadı. Kitabı açdım. "Siyasətnamə" 182 və 183-cü səhifələrinin arasından taybatay oldu. 183-cü vərəqin axırdan üçüncü abzasına pıspısa qurusu yapışmışdı. Salam, **SKARABEY,-** qədim misirlilərin canlanma simvoluna təntənəylə təzim elədim, Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülkə baxdım.

**"Hekayət.** Bir gün Mötəsim şərab məclisində oturmuşdu, qazi Yəhya bin Əksəm də orada idi. Mötəsim məclisdən durub o biri hücrəyə getdi. Bir az orada qaldıqdan sonra dişarı çıxıb şərab məclisinə gəldi, sonra hamama gedib, üç dəfə qüsl etdi, dişarı çıxıb canamaz istədi, iki rükət namaz qıldı, sonra yenə də şərab məclisinə gəldi. Qazi Yəhyaya dedi: "Bu namazı nə üçün qıldığımı bilirsənmi?" Dedi: "Yox!" Dedi: "İzzət və cəlal sahibi allahın əta etdiyi çoxlu nemətdən biri üçün idi." Yəhya dedi: "Əgər böyük rəy sahibi lazım bilərsə, desin, biz də şad olaq. " Dedi: "Mən bu saat üç qızın bəkarətini aldım. Bunların hər üçü mənim düşmənlərimin- biri Rum padşahının, ikincisi Babəkin, üçüncüsü Maziyar gəbrin qızı idi."

# SABİTLİK

Məni dimgədə Firuz qarşıladı. Kənd camaatının topladığı vəsaitlə və hansısa dini vəqfin yardımı ilə tikilən məscidin yanından keçirib evlərinə apardı. Darvazadan girəndə özümü əsl kənd evində hiss etdim. Firuzun çox gözəl həyət-bacası vardı. Ötən əsrin altmışıncı illərində tikilmiş kirəmit damlı xudmani ev ola, pəyəsi, hini, it damı ilə bahəm göz oxşamaya? Qoz, palıd,

şabalıd, alma, armud ağacları, fındıq kolları, göy çəmənlik, çiçək bağçası ürəyimi əməlli-başlı açdı. Tut ağacının dibində gilanar mürəbbəsi ilə samovar çayı içə-içə Ayazın gəlişini gözlədik.

Tələbəlik illərində otaq yoldaşı olmuşduq. Bakı Dövlət Universitetinin yataqxanasında, balaca otaqda qalırdıq. Birtəhər dolanır, səbirsizliklə yaxşı yerdə işləyəcəyimiz, pullanacağımız günləri gözləyirdik. Otağımız gah siyasi diskussiya klubuna, gah ədəbi dərnəyə çevrilərdi. Ən müxtəlif siyasi və ədəbi düşüncələri daşıyan gənclər mübahisə etməyə yaxşı məkan tapdıqlarından tez-tez bizə yığışardılar. Adətən, yeməkdən əvvəlki müzakirələr siyasətə həsr olunar, süfrə yığışılanda ovqat ədəbiyyata köklənərdi. Bu dünyada heç bir məclis, heç bir ziyafət, heç bir törən tələbə yataqxanasında açılan süfrə qədər xoş ola bilməz. Hərə əlində bir pay gətirər, atışıb araq alar, xudmani məclislər düzəldərdik. Eh, adam yaşlaşdıqca özünü daha çox bədbəxt hiss edir bu ölkədə... həyat o qədər maraqsızlaşıb ki, yataqxanada acından gözüm qaralan günlər nədi, haupvaxtda yatdığım sutkalar şirin gəlir. Hə, haupvaxtdaydım Ayaz evlənən gün. "Azadlıq" blokunun namizədinə səs verən yeganə hərbi qulluqçunu narıncı istirahətə göndərmişdilər, toyuna gedə bilməmişdim Ayazın. Əlimə beş-on manat düşmüşkən görməyə gəlmişdim təzə bəyi. Oğlu bu gün-sabah məktəbə gedəcək Ayaz mənim nəzərimdə hələ təzə bəy idi.

Onlara pay apardığım litrlik "Monarxiya" arağını qapıdan kəsilmiş iki çolpanın qızartmasıyla axşamın sərinində necə boşaltmışdıqsa mahnı oxuyurduq: "Qaçdım sənin dalınca mən, dalınca mən, gördüm yoxsan..." Bizim dalınca qaçdığımız kəpənək yox idi, ölmüşdü, murdar olmuşdu, qanad çalsaydı, sabitlik pozulardı, insanlar hərəkətə gələr, xaos bizi bir yana çıxardardı...

Çaxıra keçmişdik. Müxalifətin mübahisəsi gedirdi. Yataqxanadan çıxandan yaltaqxanada qalmağımızın günahlarını müxalifətin dalına şələləyirdik, əsirlərin əsarətdə saxlayanlara

patoloji sevgisini- "Stokholm sindromu"nu çözürdük, Qərbin boşalan neft quyularına doldurduğu demokratiyanın silos iyi verəcəyindən qorxurduq. Hakim partiya uğursuzluqlardan təngə gəlmiş Firuzu cərgəsinə qatmışdı. Dilini farağat qoymaq şərtiylə məktəbdə müəllim işləyirdi. Monarxiyaya diş qıcayan Ayaz müxalifətin də ətəyində namaz qılmırdı. Söhbəti dəyişdim:

- "Q" nəyin işarəsidir fizikada???– yataqxanadakı sağlığımızı xatırlatdım- yaşasın elektrik yükü!

Səhər yuxudan oyananda təəcübləndim. Yayın cırhacırında üstümə atılmış qalın yorğanı görəndə gözlərim bərəldi. Zaman hissini itirməsəm də, sərxoşluqdan məkanı unutmuşdum.

- Bura Nic bazarıdır!- əyin-başları nimdaş, əlləri-ovucları boş, sısqa kəndliləri Firuz topdan təqdim elədi.

Üzlərdən mağmunluq, fağırlıq, əlacsızlıq, ümidsizlik, peşmanlıq yağırdı. Həftəbazarında dolaşan zənbillərin üzü qaralmışdı külfətlərin yanında. Sabah- bu günün adsızlığı idi əlində zənbil Nic bazarını gəzən insanların gözündə. Sovet istehsalı olan köhnə maşınlar, traktorlar gözümə görükməsə, zamanı qeyb edər, neçənci əsrdə yaşadığımı unudar, özümü orta əsrlərdə sanar, ətrafımdakı çəlimsiz və çarəsiz yoxsulları təhkimli kəndlilər bilərdim. Mallarını başabaş dəyişirdilər. Yadıma çaqqal Fiona düşdü. Bank rekvizitlərinin əlimizə keçəcəyindən qorxub kompüterinə yaxın qoymamışdı bizi.

- Ay camaat, başınıza hava gəlib? Niyə hərəniz bir tərəfə gedirsiniz? Sözü bir yerə qoyun, hamınız eyni səmtə gedin!

Qışqıra-qışqıra camaata ağıl verən seyid idi, başdanxarab hər bazar Yevlaxdan gəlib Nic bazarında nəzir yığırdı.

"Heç deyərsən onun oğlu Dövlət Təhlükəsizliyi Nazirliyində işləyir"- Firuz yerə tüpürdü.

Barmağımı dişlədim:

- Yox, onun oğlu atasına baxmayan qurumsaq deyil, uşaq olma, ata oğlunu öz işlədiyi yerə düzəldib, seyid çekistlərin qarmağındadır!

Firuzun inanmağı gəlmədi.

- Bazar xaotik məkandır, qağa, üsyanları və dəyişiklikləri bazarlar yaradır. Hamını eynə səmtə səsləyən bu agent bazarın ruhuna qarşı çıxır, xaos enerjisinin təhkimli kəndlilərin canında oyanmasını əngəlləyir. Hamının eyni qibləyə baxması, eyni palaza bürünməsi, eyni yolu sürünməsidir orta əsrlər!

Bazardan çıxanda Firuz bərk-bərk tapşırdı:

- Nic qarışıq kənddir, dilini faragat qoy, kəndə gələnləri KQB izləyir!

- Narahat olma- dedim,- uzağı iki saata hüzurundayam!

Movsesin evini tapanacan mənimki mənə dəydi. O ara sənin, bu darvaza mənim, soraqlaya-soraqlaya "Ağ dəlləkli" məhəlləsindəki nallı doqqazı tapdım. Qapıya arvadı çıxdı və evin fındıq kollarına qulluq edən kişisini çağırmağa getdi.

- "Arvad da bilmiyitdi, səni evə dəvət eləməyitdi, gərək bağışlıyasan"- udi üzrxahlıq elədi. Şabalıd ağacının altında yer göstərdi.

- Biri min olsun, yaxşı hinduşkalarınız var!

- Payızda gələrsən, birini kəsərəm, fırlama bişirərik...

- Udilərə məxsus yeməkdirmi?

- Hə, fırlama da bizim mətbəxin şahıdır, hinduşkanın təndirdə qızardılmasıdır!- Movsesin ağzı sulandı.

Arvadı süfrəyə çay və qoz halvası gətirdi. Udilərin tarixindən, alban kilsəsinin bərpa olunmasından, erməniyə ərə gedən udi qadınların qohum-əqraba üzünə həsrət qalmalarından danışdıq. Qoz halvasını təriflədim. Movses qoz halvasının xüsusi reseptlə və ancaq bu kənddə hazırlanmasıyla fəxr etdi:

- Neçə min il yaşı var Nicin, təkcə qoz halvasının sirrini saxlamır.

Gəlişimin məqsədini açıqlamağın əsl vaxtıydı:

- Sənin də boxçanda nələrsə olar...

- Yox, bizim nə boxçamız var, nə taxçamız...

Udi üzümə dirəndi. Sağ biləyimi yanaqlarıma çəkərək tanışlıq verdim:

- **Axan qan damarda durmaz!**

**- Üstümü unlu görüb, məni dəyirmançı bilmə!-** Movses sağ əli ilə çiyninlərini döyəclədi.

- Dur, taxçayla tanış elə məni!- daha vaxt itirmədim, Firuz gözləyirdi. Movses könülsüz razı oldu.

- Arvad çayları ora gətirsinmi?- mənimlə tək qalmaq istəmirdi. Əlimi çiyninə vurdum. O, bayaq sağ əliylə çiyinlərini döyəcləməklə açıq danışmağa saqınca olmadığını bildirmiş, şahidləri qovmuşdu. Əl hərəkətimlə arvad tumanının dalında gizlənməyin qurallarımıza zidd olduğunu yadına saldım. Məni mərhum atasının emalatxanasına apardı. Atası kilid düzəldən sənətkar olmuşdu.

Emalatxananın taxçasına əsrlərlə yaşı olan kilidlər düzülmüşdü. Birini götürtmək istədim, Movses qoymadı:

- Dəymə! Barmağını atar! Yanındakından da ehtiyyatlı ol, ayrı açar salanda, içindən zəhərli iynə çıxır, əlləşdirənin barmağına batır.

- Bura Azin adında adam gəlmişdimi?
- Gəlmişdi...
- Nə axtarırdı?

- Mənim mərhum atam uzun illər öncə Bərdənin Küm kəndində bir sünnət eləyib. Atam dəllək deyildi, kilid düzəldərdi. Onu ora ləzgi adıyla aparmışdılar. Məqsəd uşağın kəsilməsi yox, kəsilməməsi olmuşdu. Sünnət mərasimi görüntü xatirinə təşkil edilibmiş. Sən demə, o uşaq Azin imiş. Gəldi, atamı soruşdu, rəhmətə getdiyini öyrənib qayıtdı.

- Başqa?

- Boxçadakı da elə budur, taxçadakı da...

- Ağlınca, sən məni yola verirsən?-ona təpindim.

- Yox...

- Kəs səsini!- onun hinduşkaya oxşayan boğazından yapışdım. Bir tərəfi qələm olan qəməni hulqumuna dayadım:

- Səni hinduşka əvəzinə fırlama bişirərəm, oğraş! Hanı açar?

- Hansı açar?

- Azin sənə kilid gətirmişdi?

Armudbaş təsdiqlədi.

- Bəs niyə açmadın?

- Ona düşən açar yoxdur bizdə!

- Oyaram gözlərini, murdar, çilingağac oynayırsan mənimlə?- əlini taxçadakı zəhərli qıfıla sarı apardım.

- Yoxdur, öldür məni, bizdə yoxdur!

- Satıbmı dədən?

- Satmayıb, heç nə satmayıb!

- Heç ürəyini sıxma, yepiskopdan aldığı pul burnunun iki deşiyindən gəldi Bərdədə, xəbərin olsun, Azinin yerinə atanı sünnət eləmişdilər...

Movses fınxırdı. Dizimlə qurşağından aşağıya iki zərbə vurdum.

- Təşkilatın kriptoqramını erməni yepiskopuna satmağının cəzasını almadımı elə bilirsən?

Hulqumunu buraxdım. Bir ayağı qırıq stulu emalatxananın divarına söykəyib oturdum. Movses qabağını tutub zarıyırdı. Azinin gətirdiyi kilid taxçadaydı. Atası açarı qəsdən itirmişdi, Movsesdə günah yox idi. Kilid açılmasa, xalqın dili-ağzı bağlı qalacaqdı.

***

Nicdən qayıdanda Ayazı kəndin arasında gördüm. Saçını düzəltdirmək istəyirdi. Biz şüşəsinə "kişi salonu" yazılmış dəlləkxanaya girəndə kresloya bir qoca müştəri yayxanmışdı. Ayaz mənə göz vurdu. Üzünü qırxdıran Qurban kişi idi. Təraş bitdi, Qurban kişi dəlləyin vurduğu odekolonun yandırıcı təsirini

ağır-ağır ayağa qalxmasıyla ötüşdürdü, gərnəşdi, mənə çəpəki nəzər salıb yanımdan ötdü.

Qurban kişi məni tanımasa da, mən Qurban kişini yaxşı tanıyırdım, yataqxanada çox qonağımız olmuşdu. Hər il züryətini qəbul imtahanına gətirərdi və oğlu Turab hər il kəsilərək onu dost-düşmən yanında xəcil edərdi, xəcalətli düşmənim olsun, bizə gələndə gedib ayrı otaqda qalar, yer salıb yerdən yatar, çarpayılarımızı onlara verərdik. Bu hörmətin qabağında pıçhapıçla aramızı vurmağa çalışardı. Xoşlanmazdıq Qurban kişidən. Qəlbimizi testlə qəbul imtahanlarının əleyhinə çıxması qırmışdı. Qurban kişi testin savadsızlaşmaya səbəb olduğunu iddia edirdi, halbuki, ona yer edən bisavad oğlunun ali məktəbə qəbul olunmamasıydı, yoxsa, çoxdan cibinə tələbə bileti qoymuşdu Turabın. Test zırrama oğlunun yerinə iki yumurtanı dörd yerə bölənləri oturtmuşdu parta arxasında.

Dəlləkxanadan çıxanda Ayaz Qurban kişinin qəsrini göstərdi. Qəbələdə palıd ağacının kökünü kəsirmiş. Belini yuxarılara bağlayıb əli belində gəzir, qos-qocaman palıdların qırılmasına, dəzgahdan keçirilməsinə, satılmasına nəzarət edirdi. Turaba icra hakimiyyətində iş düzəltmiş, bacısı oğlunu kəndin icra nümayəndəsi təyin elətdirmiş, qardaşı oğlunu bələdiyyə sədri qoydurmuşdu. Məntəqə seçki komissiyasının əksəriyyəti onun tayfasındanıydı, komissiyanın müxalifətçi katibi Ayaza düşmən gözüylə baxırdılar. Səsvermə gecəsi ağzını əzmək, həftəyə bəyin gözünün altının qarasını təriflətmək istəmişdilər xanəndəyə... Tüklərim biz-biz durdu. Biz-biz duran tüklərimə baxanda Qurban nakişinin üzünü qırxan bərbər yadıma düşdü. Bərbər anadangəlmə lal və kar idi. Lal və kar olmasaydı, eşitsəydi, dili-ağzı qurumasaydı, bərəkət haqqı, üzünü qırxmazdı, sifətinə tüpürərdi Qurbanın.

Mağazanın qabağına gəldik. Pivələmək istəyirdik. Qurban kişi yuxarı başda oturmuşdu. Təraşdan çıxıb çay içirdi. Əlindəki qəzeti görüb Ayaza öyüd verdi:

- Müəllimsən, otur müəllimliyini elə, başını aşağı sal, çörək pulunu qazan, axı nə işinə qalıb dövlət neynədi, hökumət neynədi, sənin başını yemiş o bəylərin vaxtında gecələr evdən çölə çıxmaq olmurdu, indi əlin qulağının dibində, pivə içirsən dimgədə.

"Müəllimsən, otur müəllimliyini elə, başını aşağı sal, çörək pulunu qazan, axı nə işinə qalıb dövlət neynədi, hökumət neynədi"- təhkimçilik, bax, budur. Məhz budur! Sən çörək pulu qazandığın sahəyə təhkimsən, gözünü açıb ətrafa boylanan an, başını qaldıran dəqiqə, etiraz səsini ucaldan saat feodallar və onların rəiyyətləri canına darışacaqlar, sənə ağıl verəcəklər, yol göstərəcəklər. Guya düz fikirləşən, düz danışan, düz hərəkət edən onlardır, yanlış yol seçən sən. Hövsələmi basammadım, Ayazın əlindən "Çağırış" qəzetini alıb Məti Naxışın köşəsini hündür səslə oxumağa başladım, oxuya-oxuya cümlələri elə dəyişdirirdim ki, guya şəxsən Qurban dayıya xitabən yazıb:

- Qurban dayı, keçmiş əyyamlardan danışanda "gecələr yata bilmirdik" deyirsən. Ölkədə hərc-mərclik baş alıb getdiyinə, hərənin əlində bir silah olduğuna, prezident ölkəyə nəzarət edə bilmədiyinə görə sabaha salamat çıxacağına inanmırmışsan. Düz sözə nə deyəsən, hakimiyyət dəyişdi, gözünə döndüyüm yeni dövlət başçısı yuxusu ərşə çəkilmişlərin başının altına böyük bir yastıq qoydu. Hamı yatdı. Təkcə özünün gözünə yuxu getmədi. İqtidar havadarlarının sözüdür, gecəni gündüzə qatıb işlədi, ölkədə sabitlik qurdu. Parklar salındı, tonqallar qalandı, konsertlər verildi, güllər dərildi, ağaclar əkildi, şadlıq evləri tikildi, ulduzlar yerə töküldü. Millət yata bildikcə yatdı, bayramı bayrama qatdı, fişənglər partladı, düşmən bağrı çatladı.

Gecələr rahat yatmağa rayon yerlərində daha gözəl şərait yaradıldı. Qaşla işıqlar eyni vaxtda qaraldı. Millət səksəkəyə düşdü: Biri Şuşanı, kimisi Laçını, bəzisi Füzulini, başqası Ağdamı röyasında görüb yuxudan dik atıldı, başının altına qoyulmuş yastığı qucaqlayıb hönkür-hönkür ağladı. Təqvimdəki bayramları

sayan çox kişilərin gözünə səhərəcən bir çimir yuxu getmədi. Evinə, ailəsinin içinə əliboş gəlməsi, ondan çörək, ayaqqabı, şalvar istəyən balalarının gözü yada düşdükcə yataqda qovruldular. Əlacsızlıqdan tərk etdilər ölkəni. Bu dəfə onların arvad-uşağının gözünə yuxu getmədi. Ərsiz evin gəlinləri adını, ismətini qorumaq üçün hər gələn səsə oyandılar, uşaqlar hər taqqıltını atalarının ayaq səsləri zənn edib yuxularını qaçırdılar.

Rejimə qarşı çıxanlara yatmaq imkanı gecədən-gecəyə yox, illərlə verildi. Bayılda, Şüvəlanda, Qobustanda... Bir il boyu insanları gecələr yatmağa qoymayanlara nadzorlar "laylay" dedilər. Belinə polis dubinkası dəyənlər sübhədək ağrıdan sancıldı. Otuzuncu illərə qayıtdıq, evlə həbsxananın arası qapı zəngi uzunluğunda oldu. Yalana, saxtakarlığa, haqsızlığa dözə bilməyənlər hirsindən, hikkəsindən dala bilmədilər uyğuya, türkün sözü.

Ölkənin ən tanınmış adamlarını qapısının ağzında güllələdilər. Ziya Bünyadovu, "Qara Polkovniki", Elmar Hüseynovu qətlə yetirdilər. Hacı Məmmədov adlı polis polkovnik-leytenantı adamları evindən oğurladı, uşaqları məktəbdən qaçırdı, öldürdüyü adamların məzarı üstündə rəqs meydançası düzəltdi, nazirlər bir-birinə silah çəkdi, məmurlar döyülüb hovuza atıldı, parlament salonunda deputatlar söyüşüb yumruqlaşdılar- millətin gecələr rahat yatması naminə. Hər gün bir rayondan xəbər gəldi. Polis güllələndi, prokuror qovuldu, icra başçısı döyüldü, deputat rayona buraxılmadı. Ortabab hər məmurun onlarla qoçu dəstəsi üzə çıxdı. Qos-qocaman Bakı şəhəri ötən əsrin əvvəllərində görmədiyi qoçu atışmalarına şahid oldu. Oliqarx balaları bir-birini yolun ortasındaca güllələdilər, killer tutdular, adam öldürtdülər. Hökumətin iqtisadi inkişaf naziri efirə çıxıb ölümlə təhdid edildiyini car çəkdi dünyaya.

Qabaqlar adamlar bir-birinə "gecən xeyirə qalsın", "sabahın xeyir" deyərdilər, hətta qiyamla baş nazir olmuş Surət Hüseynov kompüterə "nə var, nə yox" sualı vermişdi,

qəzetlərinin yazdığı lətifəyə gülməyib, inansaq. İndi gecə də şərdir, gündüz də. Nə axşamın xeyir olacaq halı qalıb, nə səhərin. Kim kimi görür soruşur: "barı, babat yata bilirsən?" Bəzən zarafata salıb onu da xəbər alırlar ki, "özün yatıb, özün dura bilirsən"? Çox komik, yəni...

Qurban sənə dayı, mənim zarafatla-zadla aram yoxdur, olsaydı, "Tütək səsi" filmindən bir epizodu yada salmazdım: "Sən gecələr yat, ay Qurban!.."

# QAN VƏ ÜZ

Atam zəng elədi. Türkiyədən barat gəldiyini xəbər verdi. Görəsən içində nə vardı, payı yollayan kim idi? Dedi ki, göndərən adını yazmayıb, qutunu açmadığından içində nə olduğunu da bilmir. "Yəqin sizin QHT-çilərdən gəlib- məni oyaladı– sabah günortaya Bakıdayam, gətirərəm, açıb baxarsan."

Bahalı kostyum, təmiz dəridən ayaqqabı, köynək, qalstuk... Geyim-kecim əynimə qutu kimi oturdu. Pencəyin cibinə xərclik, Türkiyəyə ikitərəfli uçaq bileti və Kütahyada "Aizona" otelinin kartı vardı.

- Yəqin bunu da sənə hədiyyə göndəriblər bizim xeyirxahlar - çini qabı atama verdim.

Tonqalın qırağında əllərini isidən yeddi nəfəri atam özümə qaytardı:

- Əsl Yolçular səni çağırırlar...

- Əsl Yolçular kimdir? Pasport nömrəmi, zövqümü haradan bilirlər?

- Yazıqlar min illərdir gözləyirlər, deyirsən, seriyanı bilməsinlər?

Gizli xürrəm cəmiyyətinin varlığından xəbər tutanacan mən özümü, sadəcə, əcdadından qalma dəfinə axtaran macəraçı sayırdım. Sən demə, sıradan bir macəra deyil mənimki. Xristianlar

İsanın qayıtmağını, müsəlmanlar Mehdinin dönməyini necə gözləyirlərsə, xürrəmlərin də gözü Babəkin yolunu eləcə çəkib. Gözləyə-gözləyə gizli cəmiyyət yaradıblar, hər iki Azərbaycanın əksər bölgələrində, atam daxil, qulağıdinc həyat sürən yüzlərlə adamı xürrəm inancında saxlayıblar. Biz onlarla çay içir, söhbət edir, övladı, dostu, əleyhdarı oluruq. Gerçəkdə kim olduqları bilmirik, min illərdir içini yeyən protest enerjisindən xəbərsiz qalırıq, qəlbindəki azadlıq sevdasını görmürük. O adi adamların, sadə insanların arasından, ailəsindən çıxıb tarixə yön göstərən liderlərimiz. Səssiz-səmirsiz həmvətənlərimiz atılıblar meydana, qanını, canını, sanını veriblər azadlığa. Özüm ölüm, yüz il qala Azərbaycanda prosesləri izləyən, yönəldən, tənzimləyən gizli cəmiyyət olduğuna inanmazdım. Həmin cəmiyyət ərəblərdən üzü bəri Azərbaycanı zəbt edən bütün qüvvələrə müqavimət göstərib, üsyanlar qaldırıb, bayraqlar dalğalandırıb, dövlətlər, hökumətlər qurub...

Dörd gün avara-sərgərdan dolandım Kütahyanı, itirib-axtaran olmadı. Kütahyanın ölü dirildən çamır vannalarında, Fatehin yeri məlum, anadangəlmə oldum. Germiyan caddəsinin ağayana evlərinə qırmızı fəs əydim. Zeybək rəqsi festivalında yelimi töküb otelə qayıdanda qəbulda oturan qız səhər ayağımı odadan qırağa qoymamağı rica etdi, deyəsən, üzə çıxacaqdılar.

Mehmanxananın restoranında səhər yeməyimi arxayınca yeyib odama qalxdım. Dünəndən qabqarladığım çemodanı qapıya endirdim. Əsl yolçu gəldi. Sarıbəniz türküydü. Mehribanlıqla əl tutdu:

- Benim ismim Tarkan.
- Benim ismim Sizinki kadar ünlü deyil: Azin!

Oteli tərk edib "Lexus"a oturduq. Uzun, incə bir yola çıxdıq. Məni Aizonoiyə apardı, xatırlatsam, Bakıya dönməzdən öncə Pessinusu da gəzdirəcəyinə söz verdi.

- Ana Tanrıça Kübelenin kultu sayılan meteorit parçası bir zamanlar Pessinusdaydı. Romalılar Karfagenlə ikinci Pun

müharibəsini edir, Kübelini öz paytaxtlarına aparmaq istəyirlər. Berqama kralından izn alır və meteoritin arxasınca ekspedisiya göndərirlər. Miladdan öncə 204-cü ildə kult gəmiyə yüklənir. Kübele yerindən tərpənmir. Kahinlər bakirə bir qızın gəmini öz kəməriylə dartmasını məsləhət görürlər. Qızlar bəhsə girir, üzüqara çıxırlar. Bakirəliyinin pozulduğu haqda dedi-qodu yayılan Quinta gəmini tərpədir, kult üzür, qız bəraət qazanır. Romalılar kultu aparıb Platinus dağına qoyur və Karfagenə qalib gəlirlər. **Ulu Ana** indiyəcən qoyulduğu yerdə durur. Kübelenin portretinə Romada poçt markalarında rast gəlmək olar. Bilərsən, hazırda İtaliya qülləvari papaq qoyan qadınla simvolizə edilir.

- Çox ilginc!- növbətçi təbəssümlə cavab verdim.

- Daha ilginc olan hər il martın 21- də Pessinusda Kübelenin qutlanmasıdır. Martın 21-də...

- Martın 21- də???

- Əvət, martın 21-də, bizim Novruz bayramında! Qədim dünyada Kübele çox ünlüydü, həm yunanları, həm də romalıları yönəldən Tanrıçaydı. Kübele **DOĞANIN ÖLMƏSİNİ VƏ DİRİLMƏSNİ** simgələyir. Doğanın ölməsi və dirilməsi inancı uzmanları milladdan öncəki minilliklərə, Kübele kultuna aparır. Frakiyalılar baharı suya çiçək ataraq qutlayardılar. Əfsanəyə görə, Kübelə dəliqanlı Attisə vurulur. Atası Attisi kral Midasın qızıyla evləndirir. Kübele özünü toya yetirir, aləmi qatır, özündən çıxan Attis əl atıb xayalarını qopardır. Xayasından axan qanın çiləndiyi yerdə çiçəklər bitir, Attis özü ağaca dönür. Yaz, yay və payız Kübeleylə Attisin seksual dönəmi, sonuncu fəsil impotensiya dövrdür. İnsan doğanın övladıdır, anasına bənzəyir, ölür və dirilir.

Qoca çayın sahilindəki Aizonoi tapınağında havanın ılıqlanmağa gücü çatmırdı, yüngül meh əsirdi, nübar sarımsağın ağız sulandıran qoxusunun metroya minəcək adamda yaratdığı kəskin tərəddüdü burnumdan qova bilmirdim, Tarkanın söhbəti bayrama gətirməsi ovqatımı yaza köklәsə də, nigaranıydım,

hərdən öləziyirdim, Kütahyanın yekcinsliyi sındıran iqlimi sütunları dillənməyə qoymurdu, dənizlər uzaq və isti, torpağın üzü soyuq idi, qəsəbədəki misilsiz harmoniyanın buzu açılmırdı, adamların yox, mərmərlərin hərarəti yayılırdı zamana.

- Mən kiməm?- Tarkana naqolay bir sual tutuzdurdum.

Ağzını sürüdü:

- Həm Zevsə, həm də Kübeleyə tapınılan ayrı məbəd yoxdur yer üzündə.

- Sən kimsən?- ikinci sualı Kübeleye verdim ki, Ulu Ananın qabartmasından gözünü çəkməyən Tarkan da məni duysun.

- Biz hər iki cinsin Tanrılığını qəbul edən tapınaqda yox, həm də dünyadakı ilk birjanı, ilk açıq bazarı gəzirik.

- Örtülü bazar, dostluğu pozar, abi, biz kimik?- daha ümumi sualla getdikcə əsəbləri olmadığına inandığım adamdan cavab gözlədim.

Qolumdan tutdu.

- Babəki xəzərlər satdı, Xaqan xəlifəylə bazarlığa getdi, Bizans köməyinə vaxtında gəlmədi, Məzyar və Heydər sözünə baxmadılar, dünya kor qaldı...

- O kimdir?- Babəki qəsd edirdim və heç nə anlamırdım, qolumdan tutanın soyuq məntiqini dəstələyə, sözünün axırını bir yana çıxarda bilmirdim, əvəzində, onun ustalıqla qəlbimi oxumasına valeh olurdum, fəhmlə doğu və batı kültürlərinin Bəzdə yallı gedəcəyini duyurdum.

- Gözünlə gördüyün dünya Babəkin yenilgisindən doğdu. Qorxu Batıyla Doğunun arasına girdi. Avropa ilə Asiya Babəkin qalasında əl-ələ tutacaq. Siz **Qutsal Kürə**ni tapmalısınız!

- Mən niyə?

- Siz canlanan Babək olduğuna inandığımız Azin Kürəçisiniz. “Qırmızı Kitabı” oxuyaraq “Qan və üz”ə daxil olmalı, cəmiyyətin lideri seçilərək Ağ Kitabın yazılmasına xeyir-dua verməlisiniz.

- Hansı cəmiyyətə?

- "Qan və üz"ə! Məncə, atan ucundan-qulağından nələrsə deməliydi Sizə.

Kallığa nə hacət, əsəbsiz zənn etdiyim dərya gözümün qabağında böyük bir davanın romantikasına çevrilirdi.

- Sizi müsafir etməkdə amacımız konspirativ "Qan və üz" cəmiyyəti barədə məlumat vermək və quruma üyə etməkdir. Bilgilərin verilməsi mənə həvalə olunub. "Tarkan" mənim kod adım.

- Gerçək isminiz nədir?

- Özgür Sarıbuzov...

Özgür Sarıbuzov gizli xürrəm cəmiyyətinin tarixindən bəhs etdi:

- Babək 834-cü ildə oğlunu dörd minlik orduyla Bizansın köməyinə göndərir. Babəkin oğlu xaç suyuna çəkilir, Feofob adını və imperatorun bacısını alır. Atasının məktubuna Feofilin barmaqarası baxması, xilafətə hücuma keçməməsi, Bəz qalasının köməyinə çatmaması Feofobu incik salır. Bir müddət araları sərin olur. 838-ci ilin iyununda indiki Malatya yaxınlığındakı Dazimon qalasında imperatorun həyatını xilas edən Feofob yenidən etimad qazanır. Azərbaycanda xürrəmləri toparlayır, 838-ci ilin 4 iyulunda- Babəkin doğum günündə "Qan və üz"ü yaradır. Cəmiyyət əlaltdan Babəkin sağ qalan övladlarını Güney və Quzey Azərbaycanda qoruyur, onun Samirəyə əsir aparılan ailə üzvlərinin bəziləri Kərkükə qaçırır. Bizansa keçən xürrəmlər ölkənin qərbində yurd salırlar. 842-ci ilin yanvarıdır, Feofob 14 minlik ordunun komandanı, imperatorun sağ əlidir, ona sarayda mənzil verilib. Feofil qəfildən azarlayır. Vəliəhd Mixael südəmər körpədir. Sarayda "Qan və üz"ün toplantısı gedir.

Tarkan dayandı. O günün ağırlığını, gərginliyini özüylə irəli apara bilmədi. Çənəsini ovxaladı.

- Südəmər körpə Bizans boyda imperiyanı idarə edə bilməz, ona bacarıqlı bir naib lazım!- Tarkanı qabaqlamaq istədim.

- Təbii, təbii. Vəliəhdin atası-anası da məhz o fikirdədir!

- Feofob dura-dura ayrı aday nəyə lazım?

- Malisəf, imperator Feofobdan qorxur. Ondan qurtulmağın yollarını arayır. Tam o anda çuğullar "Qan və üz"ün toplantısından xəbər gətirirlər ki, Feofobun xilafətə hücum planı artıq hazırdır. Feofob sarayda dilimizi bilən əyan olduğunu toplantıdan dərhal sonra zindana atılanda anladı və onun səhvi Bizans imperatorluğunu ələ keçirməyimizə imkan vermədi.

- Və?

- 20 yanvar 842-ci ildə Feofil əlini Feofobun tasdakı qafasına qoyaraq öldü...

- Yeni imperator kim olur?

- Südəmər III Mixael! Ona naibliyi anası Feodora edirdi. Feodora "Qan və üz"ü axırına çıxmaq istəyirdi, Konstantinapollu Kassiya olmasa xürrəmliyin izi-tozu da qalmazdı.

- Kassiya kimdir?

- Kassiya sözün həqiqi mənasında Bizans gözəli idi, zəngin ailənin qızıydı. 821-ci ildə Feofilin anası oğluna qız axtarırdı, Bizansın bütün gözəllərini saraya toplayaraq gəlin seçirdi. Hər kəs Feofilin əlindəki almanı Kassiyaya verəcəyini gözləyirdi. Feofil onun qabağında dayandı və qadınların günah mənbəyi adlandırdı. Aldığı cavabdan sarsıldı və almanı farağatda dayanan Feodaraya uzatdı.

- Kassiya necə olur?

- Kassiya rahibəlik edir. Nəğmələr yaradır, Konstantinapolda ilk qadın monastrının əsasını qoyur və ölənə qədər "Qan və üz"ə dəstək verir. Cəmiyyətin mərkəzi Konstantinopolda Səfəvilərlə Osmanlıların arası dəyənə qədər qalır. Xürrəmlər Səfəvi İsmayılı dəstəkləyir, onun Azərbaycanı vahid dövlətə çevirməsinə sevinirdilər, ürəklərindən iki qüdrətli türk dövlətinin dil tapması keçirdi. Cəhdlərimiz puça çıxır. Osmanlı sarayı "Qan və üz"ü Kütahyada qalxan bir üsyana dəstək verməkdə suçlayır. Cəmiyyət İstanbuldan Kütahyaya köçür, Rus-

İran müharibələri dönəmində Qafqaza- Tiflisə qayıdır. Burada cəmiyyətə lider seçilən Axundov "Qan və üz"ü yenidən yapılandırır. O, Güney və Quzey Azərbaycandakı gizli xürrəm sektalarını cəmləyir, xalqın içindən çıxan istedadlı adamları sıralarımıza qatmaqla ölkəni azadlığa və bütövlüyə aparır. İlginizi mütləq çəkəcək, Azərbaycan Demokratik Respublikasının qurucularından olan Fətəli xan Xoylu bizim ən bacarıqlı liderlərimizdəndir. Sovetlər dönəmində cəmiyyəti Üzeyir Hacıbəyov idarə edib. Onun "Koroğlu" uverturası xürrəmlərə himn bəstələnib. Misirdə tərcüməçi olduğu dövrdə Azərbaycanın gələcək dissidenti, milli-azadlıq hərəkatının lideri və prezidenti Əbülfəz Əliyev "Qan və Üz"ə girir.

- Elçibəyin mason olduğunu da söyləyirlər!..

-İnanma, ağız sözüdür, Elçibəy bizim liderdir! Təxəllüs ona Əsl Yolçuların Qahirədə keçirilən toplantısında verilib. Gizli cəmiyyətin lideri Azərbaycanda azadlıq bayrağı qaldırdı. Bəyin ölümündən dörd gün sonra, Bəz qalasının süqutu günü Bakıda toplanan Əsl Yolçular Babəkin canlandığına və öz davasına sahib çıxacağına əmin olduqlarından cəmiyyətin müvəqqəti idarəçiliyini Feofoba həvalə etdilər.

- Onu tanıyıram?

- Üzr istəyirəm, cəmiyyətə üzv olmadan adamlarımızın adını bilməyəcəksiniz.

- Cəmiyyətə necə üzv yazılmaq olar?

- Güney və quzey Azərbaycanda, Türkiyədə, Kərkükdə günümüzədək özünü qoruyan xürrəm icmaları, dünyanın müxtəlif ölkələrində Babəki ailələr var. Həmin icmalar qurumun əsas bazasıdırlar, bununla belə, cəmiyyətin varlığından xəbərsizdirlər. İcmadan bir nəfəri xüsusi olaraq hazırlayır və sıralarımıza cəlb edirik. Üzvlük yalnız Əsl Yolçuların təklifiylə mümkündür. Qurum konspirativ fəaliyyət göstərdiyindən sadə adamlarda belə bir arzunun yaranması imkansızdır. İldə vur-tut 21 nəfər girə bilər "Qan və Üz"ə...

- Bunları mənə atam deyə bilməzdimi, nə ehtiyac vardı bu qədər xərcə-xəsarətə?- dil-ağız elədim.

- Atan cəmiyyətimizin yeddinci dərəcəli üzvüdür, onun bilgiləri məhduddur və atanız da olsa, bizdən iznsiz öz sirrinizi özünüzə açmağa ixtiyarı yox idi.

- Ən yüksək dərəcə?..

- 21-ci dərəcədir. Bu dərəcə yalnız canlanan Babəkə verilə bilər. Qurumun tarixində 21-ci dərəcəyə çatan kimsə yoxdur. Əsl Yolçuların hamısı iyirminci dərəcədədirlər.

- Dərəcələr necə adlanır?

- **B**əz**,** **A**lov, **B**ilgi, **Ə**dalət**,** **K**itab, **İ**lmə**,** **N**ovruz, **R**avi**,** **U**lu, **H**əyat, **U**sta, **C**anlanma, **A**ydın, **N**əsr**,** **L**açın**,** **A**ğ**,** **N**al**,** **A**ğac**,** **C**əngavər**,** **A**xınçı**,** **"Q"...**

**-** Mən hansı dərəcədə olacam?- sualım yersiz olmasa da, vacib deyildi.

**-** Babəkin ruhunun bədəninizdə canlandığına inandığımızdan Sizi dərhal "Axınçı" dərəcəsinə yüksəldəcəyik!

- Etimadınıza görə minnətdaram,- nəzakətli olmaq və etiraf etməyi bacarmaq eyib deyil- amma boynuma alıram ki, mən qurumun mahiyyətini axıracan anlamıram...

- Niyə? İtalyanların "Karbonari", yəhudilərin mason lojalarını, Amerikadakı "Sümük və kəllə" masasını yada sal. Zahirən masonlar bənnaların, Karbonari kömürçülərin həmkarlar ittifaqı, sendikasıdır. Biz də kürəçilərin qurumuyuq, həm masonlarla, həm də karbonarilərlə yaxın əlaqələrimiz var. Onların əsas məqsədi kilsənin topluma təsirini azaltmaq, dünyəviliyi dəstəkləməkdir. Bizim amacımız Azərbaycanı savadlı, dünyəvi və zəngin diyara çevirməkdir. Babəkin xəyalındakı Azərbaycan xilafətin müstəmləkəsi yox, Bizansın müttəfiqi olduğundan, biz də yurdumuzu Avropanın bir parçası sayırıq.

- "Qan və üz"ün kürəçilərin sendikası olduğunu dediniz. Maraqlıdır, hansı kürəçilərin? Kürəçilər qabağımıza koks-kimya sənayesində də çıxır, abraziv, ayna istehsalında da...

- Orta əsrlərdə kürəçilər dəmir qızdırardılar, yeni kürəçilər təbəqəsini sənaye dövrünün zavodları yaratdı. Post-sənaye çağında isə biz qlobalistlərik. "Qan və üz" tarixi yenilikləri öz fəaliyyətində vaxtında nəzərə alır, müsafir bəy!

- Necə olub ki, ötən min iki yüz il ərzində qurum açığa çıxmayıb?

- Əslində, dəfələrlə açığa çıxıb, yəni kütləvi hərəkatlar ərsəyə gətirib. Sadəcə, "Qan və üz" bineyi-qədimdən bir nəfəri önə verib, etiraz və azadlıq hərəkatlarını dövrün tələbləri çapında yönəldib. Hürufilər, səfəvilər, ələvilər, öncələr mənim də üzvü olduğum məlamilər, bir sözlə, heterodoks islamı qəbul edən təriqətlər bizim təsirimizdə olub. Sözümü qəribçiliyə salma, biz hər dinin, qurumun içinə sızır, hədəflərimiz uğrunda qovğa aparırıq.

-Hər dinin?

- Xürrəmliyin əsas prinsipləri Tanrı-İnsan eyniliyi və ruhun canlanmasına, reinkarnasiyaya inamdır. İslam aləmində nə qədər hülula, vücudun vəhdətinə, tənasühə inanan təriqət, cərəyan varsa, harada yaranmasından, kimin əmələ gətirməsindən asılı olmayaraq, hamısı bizdən ideya və güc alıb. Türkiyədəki Ələvilər, İrandakı əhli-haqlar, əvvəllər mənim də üzv olduğum məlami təriqəti xürrəmliyin iki ana prinsipini mənimsəyən islam qollarıdır.

- Məlamilərdən niyə aralandınız?

- Aralanmadım, arındım, "Axınçı" dərəcəsinə yüksəldim. Axınçı heç bir Tanrıya qul, kölə olmamalı, səmavi dinə tapınmamalıdır. Məlamiliyin isə bir səmavi dinin təriqəti olması arada böyük fərq yaradır.

- Fərqiniz varsa, bənzərliyiniz də var...

- Düz buyurursunuz, bənzər yanlarımız var, ortaq qənaətimiz həqiqəti hər kəsin özü tapmasıdır, insan qəlbinə hökm etmək yolverilməzdir. Digər bənzərlik rəsmən mövcud olmamaqdır, konspirativlik onların da əsas ilkəsidir, xürrəm

xürrəmliyini, məlami məlamiliyini açıqlamaz. Kiminsə məlami olub-olmadığını təsbit etmək mümkün deyil.

- Niyə gizlənirlər məlamilər, məgər inandıqları Allah onları görmür?

- Məlamilik Xorasanda yaranıb, İpək Yolu vasitəsiylə tacirlər onu dünyaya yayıblar. Məlamilər qınanmaq istəyir, özlərini cəmiyyətin gözündən salırlar. Cərəyanın adı ərəbcə "ləvm" kökündən törəyib, qınanmaq, xəcil, rüsvay olmaq mənasındadır. Onlar özlərinin mömin yox, sapıq, cəhənnəmlik, dinsiz kimi tanınmasını istəyirlər, ruhani rütbələrdən, titullardan və hər cür ehtiramdan qaçırlar. Pis cəhətlərini gizlətmir, müsbət yanlarını açıqlamırlar. Məlamilərin sözüdür: "mənə Hacı deməkdəndirsə, hacamatçı desinlər..." Bu cür fikirlər onlara təhlükə və qorunmaq zərurəti yaranır.

- Adını qorumaq, sanının qayğısına qalmaq adamı toplumdan və yalanlardan asılı etmirmi?

- XVII yüzildə özünü məsih elan edən Sabetay Sevi yəhudilərə İsrail dövlətini quracağını müjdə verdi, onları inandıraraq öz tərəfdarına çevirdi, musəviliyi parçaladı. Bir gün tutularaq Osmanlı məhkəməsinə çıxarıldı. Məhkəmədə Sabetay canını ölümdən qurtarmaq naminə əqidəsindən döndü, müsəlmanlığı qəbul etdi, Mehmet əfəndi adlanaraq saray məmuru oldu və tarixdə "dönük" qaldı. Babək isə qanıyla üzünü boyadı.

- Görürəm, yəhudilərin tarixini dərindən bilirsiniz, masonlarla aranız necədi?

- Mən məlamilərlə masonlar arasında bağlar qururdum.

- Fikrinizcə, masonların mənə münasibəti necə olacaq?

- Onlar sənə hədiyyələrini veriblər!..

- Nə hədiyyəsi?

- Boynundakı "Ənx"i yəhudi qadın Mayra verməyibmi?

- Tutalım, o verib təsadüfən- Özgürə medalyonu təzə aldığımı demədim.

- Yəhudilər bəxt deyil ki, təsadüfi hədiyyələr etsinlər, Mayranın əri Cozef Katton “Kral Baltası” dərəcəli masondur.

- Dərəcəsini deyə bilmərəm, masonluğundan xəbərim vardı.

- Pəki, hədiyyənin mənasını bilirsinizmi?

- Sizin yozumunuzu bilmək maraqlıdır, hər halda.

- “Ənx”in mənası çoxdur. ƏBƏDİYYƏT XAÇInı hədiyyə etməklə masonlar Sizə üçüncü gözlə- rəmzin özəlliklərindən biri də budur- baxdıqlarına eyham vurublar. Özəl həyatınıza toxunmaq istəməzdim, amma bilsəniz iyidir, Canessa çılpaq çimərliyə dəvət edərək saatlarınızın altındakı anadangəlmə çapıqlara baxdı və ünlü medium Edqar Keysin irsini tədqiq edən fonddan kalan qonorar aldı.

- Siz bunları haradan bilirsiniz?- sualım çox sadəlövh idi.

- Mən məlamilərlə masonlar arasında bağlar qururdum. Lütfən inciməyin, sizin elektron gündəliyinizi də biz oxuyurduq.

- Gör ey, yəhudilər də ağzıyırtıq çıxdı, bacarmadılar sirr saxlamağı...

Təzədən “Lexus”a mindik. Tarkanın mənə sürprizi vardı. Canlanan Börümənd öz oğlunu gözləyirdi. Onu necə tanıyacağımı təsəvvür etmirdim, olub-bitənlərə inanmağım gəlmirdi, mən olmayım, sən ol Babək, ananı nədən tanıyarsan, əcaba? Laylasından, əlbəttə, laylasından tanıyarsan. Dillərin və illərin min dəfə canlandığı dünyaya min dəfə də gəlsək, anamızı dörd misralıq layladan tanıyarıq. O layladadır ən dərin YUXU, ən təmiz QOXU, ən mükəmməl OXU! Gerçəkdən anam olubsa, o yuxunu, o qoxunu, o oxunu özündə cəmləyən bir SEVGİ görəcəm!

Kürəçi, Kütahyanın Küreci köyünə gedirik!- Özgür ünvandan savayı heç nə demədi. Tarkan uzun, incə yola laylay deyirdi.

Ormanlıqdakı köyün ağız-ağıza girən qırmızı kirəmitli, tək eyvanlı, ikimərtəbəli evlərindən biri yuxarı divarların al boyanması ilə fərqlənirdi, mülk yolun düz qırağındaydı, hasarının

çölündəki ağacın eni iki metr olardı. Ağaca qısılıb özümü toparladım. Evə keçdik. İkinci mərtəbəyə qalxında təntidim. Dayandım. Gücümü toplayıb qapını itələdim və təzə adını deyərək irəli uzatdığı əllərindən öpdüm anamın.

## CIZZZ!
## ("Dalğa" Gənclər Hərəkatının çıxartdığı teatr. Quruluşçu rejissor Ramin Hacılıdır)

**(PƏRDƏ QALXIR)**

*(İşıq səhnənin dalındakı birinci lövhəyə salınır)*

***"Ma Obanın dünyada özünəməxsus yeri vardır!"***

*(İşıq səhnənin dalındakı ikinci lövhəyə salınır)*

***Afrikanın kontur xəritəsində Oba Manın yeri görünür.***

Səhnənin sağındakı Hökümət Evinin qabağına bir dəstə adam yığışıb. Sağ əllərini düyünləyərək yuxarı qaldırıblar. Qabaqlarına qırmzı xəttlə qalın cızıq çəkilib. Səsləri gəlir: Mızzzz... Mızzzz... Mızzzz...

Əks cinahdakı qapıdan qoltuğuna qara qovluq vurmuş, qara kostyum geymiş, qalstuk taxmamış bir nəfər girir, bambılı-bambılı ətrafa baxaraq mərkəzə qoyulmuş kürsüyə sarı addımlayır. Əli ilə mikrafonu yoxlayır: "da... da..." Tamaşaçılara müraciət edir:

- Narod, duşes, özü də Xanatop meşəsindəki cır duşesdən bir xaral aparmaqla qonşularımız güclənən deyil. Biz qonşularımızdan daha silnıy olmalıyıq. Xalqın sayı artmalıdır! Poetemu ya sçitayu, qoz yemək lazımdır. Atalarımız nə deyib? Da, oni pravda deyiblər çto, əkməyən yeməz! Mən elə bu tribunanın yerində qoz əkirəm, inşallax, mənim qozlarımdan yeyərsiniz...

"Mızzz" səsləri ona sözünü tamamlamağa imkan vermir. Heç özü də daha danışmaq istəmir. Tribunadan kənara çəkilir, yaxasına kommunist nişanı və çoxlu orden-medal taxmış iki nəfər

tez bel və aftafa gətirirlər, tribunanı götürüb, yerində çala qazırlar. O, portfelindən iki qoz çıxardaraq çalaya atır. Üstünü torpaqlayır və sulayır.

Mızzz... Mızzz... Mızzz...

Qoz əkən mızıldayanlardan kiməsə səslənir: Bar Eti... Eti Bar! Sözün var? İdi suda, gəl denən!..

Mızzz... Bam... Bam... Bılı... Mızzz... Bam... Bam... Bılı... Mızzz...Bam... Bam... Bılı...

Mızıldayanların içindən az öncə çağrılan şəxs cızıqdan qabağa çıxır, səhnənin ortasına gəlir, beli götürüb qoz əkəni qovalayır. Qoz əkən "Qan Xuli... Qan Xuli" qışqıraraq dal qapıya qaçır.

Atəş səsləri gəlir. Kokardasında sovet ulduzu parıldayan əsgərlər qəfil dal qapıdan səhnəyə hücum edir, mızıldayanlara atəş açırlar. Gülləyə tuş gələnlər yerə sərilir, sağ qalanlar dağılışırlar. Əsgərlər Bar Etini mühasirəyə salır, beli əlindən alaraq yerə atırlar, qollarını qandallayır, aparırlar.

(Ma Oba xalq artisti Kam İl qaboy çalır )

**(PƏRDƏ ENIR)**

***

**(PƏRDƏ QALXIR)**

*(İşıq Ma Oba Hökumət Evinin qabağına salınır)*

Mızıldayanlar yenə cızığın arxasına yığışıblar. Öz avazlarındadırlar. Qoz ağacı böyüyüb, yarpaqlayıb, bar verib. Bar hələ kaldır. Budaqlarından birini kəsib tabletka düzəldib, tabletkanı ağacın altına qoyublar. Aftafadaşıyanlar kreslonun yan-yörəsinə fırlanırlar. Ağ kostyum geyinmiş bir yoldaş gəlib oturur; güzgüyə baxır, qalstukunu, saçlarını düzəldir. Aynanı cibinə qoyaraq ayağa qalxır:

- Özünüz görürsünüz, qoz hələ yetişməyib. Təklif edirəm qozu birgə becərək. Kim istəyirsə gəlsin, otursun yanımda, hamıya yer çatar. İstəyirsinizsə, göstəriş verim təzə budaq

kəssinlər, skameyka düzətsinlər, yer gen olsun. Yeganə şərtim qoz ağacının altına ayı bağlamaqdır. Öz itlərimizə etibar yoxdur...

Mızzz... Mızzz... Mızzz... Bunun əlləri ağappaqdır! Mızzz... Matışka... Mızzz... Kişinin əlləri gərək qabarlı ola, möhkəm ola, dəmir ola... Mızzz... Matışka...

Aftafadaşıyanlar medallarını çıxardıb onlara atırlar, ikisindən biri cavab qaytarır:

- Mətişkə sənün nənöndür, alə...

Mızıldayanlar qeyrətə gəlirlər. Cızıqdan çıxaraq Ağ Kostyum Geyənə cumurlar. Başına milli lələk taxmış bir mızıldayan yerdəki beli götürür, qoz ağacına doğru yüyürür. Ağ Kostyum Geyən qaça-qaça səhnəni tərk edir. Mızıldayanlar qoz ağacının altına səpələnirlər. Saqqalı bir nəfər qoz ağacını qucaqlayır və şeir deməyə başlayır:

*Yolunu gözlədim, hər səhər, axşam,*
*Salam dar ağacı, əleyküm-salam!*

Milli lələkli qoz ağacının altında çuxur qazır. Qaza-qaza ağaca şeir deyənə səslənir:

- Bəy, mən beyjə ya Şaşunu alajam, ya da başıma güllə vurub elə bu qəvirdə yatajam...

"Özünə rəhmin gəlsin Rə, sən xalqa lazımsan, Him!.."-digər mızıldayanlar beli onun əlindən alıb səhnəyə atırlar. Yalvar-yaxarla Rə Himi rəhimə gətirirlər. Rə Him him edir, aftafadaşıyanlar qoz ağacının altına stul gətirib qoyurlar. Bəy əyləşir, aftafadaşıyanları qovur, xalqa səslənir, intəhası, az adam ona qulaq asır, zalda səs-küy var, hər ağızdan bir avaz gəlir:

- Bayanlar və bəylər! Obamızda ta cızıx-mızıx olmayacaq. (Bir nəfər yüyürüb qırmızı cızığı yuyur) Düzdür, cızıq bizim öz sözümüzdür, ona görə də bəzi bəylər deyirlər ki, Bəy, dəymə qalsın. Mən Ah Pənlə Bar Etiyə dəfələrlə başa salmışam, sizə də deyirəm, cızıx çəkilən yerdə millət inkişaf eləməz, millətin qabağına gərək cızıx çəkməyəsən. Ürəyinizi qısmayın, tamam ləğv eləmirəm, sadəcə, millətin qabağından götürüb düz sərhəddə

qoyuram ki, obamıza göz dikənlər həddini bilsinlər, o yanda nə qayırırlar qayırsınlar, cızıqdan bəri keçməsinlər. Əgər biz o cızığı ora çəkməsək, qonşularımız bizim obaya Azərbaycandan gəldiyimizi zənn edər, deyərlər, onların cızığı-zadı yoxdur. Niyə yoxdu? Qonşularımız cızıx çəkməyi bizdən öyrəniblər, Fi Rudin bəy bu məsələləri daha dərindən bilir. Məsələni qoyuluşu düz olmalıdır, gəlin, cızıqdan yox, cızdan danışaq. Cız yol mənasını verir. Mən cızıq yox, cız çəkirəm millətə. Hərdən məndən soruşurlar: "Bəy, bəs o cız haralardan keçəcək?" Biri deyir oradan keçsin, biri deyir buradan. Bəzi bəylər deyirlər ki, gərək Liviya səhralarına gedib çıxa. Hamısı düz deyir, amma bəzi yerləri unutmaq olmaz. Niyə bu cız Fil Dişi sahilindən keçməsin?

Bəy danışdıqca səhnənin güncünə xeyli adam yığışır. Sayları 91 nəfərə çatanda sızıldamağa başlayırlar: Sız... Sız.. Sız... Buna da bir qoz... Sız... Sız.. Sız... Buna da bir qoz....

Bəy çıyınlərini çəkir:

- Bəylər, siz "qarğa məndə qoz var" deyirsiniz. Qozu özünüzə istəyən "mənə də bir qoz" deyər, "buna da bir qoz" deməz! Bir fağır adam tapmısınız, elə bilirsiniz ki, heç nə başa düşmür? Mən heç kimə qoz çırpan deyiləm, kim istəyir gəlsin özü yığsın. Dədələrimiz "qız ağacı, qoz ağacı" deyiblər, hərə bir daş atar.

Sızıldayanlar yerdən daş götürüb qoz ağacına tolazlayırlar. Qayıdıb ona dəyən daşlara tab gətirməyərək Bəy yıxılır.

- Sızzz... bizə pyanıska lazım deyil. Sızzz... Vətən əldən gedir... Sızzz.. Vətənə xilaskar gərək! Sızzz... Obaya dəmir əl lazımdır... Sızzz...

91-lərin dəstəsi böyüyür. Aralarında rus generalları, baboçkalı ingilis biznesmenlər, şərfli fransızlar, başıfəsli türklər gözə dəyir. Dəstədən kimsə sürətlə irəli şığıyır, beli götürüb ağacın altına hücum edir. Qarışıqlıq yaranır.

**(PƏRDƏ ENIR)**

(Ma Obanın xalq artisti Fa Una "Qayıt" mahnısını oxuyur)

***

## (PƏRDƏ QALXIR)

*(İşıq qapıya düşür)*

Hər iki əli dəmirdən olan uca boylu kişi qətiyyətli addımlarla səhnəyə irəliləyir. Sızıldayanlar qoz ağacının ətrafına cızıq çəkirlər. Cızığı polis qoruyur. Başların üzərində qırmızı kreslo gətirilir. Kişi oturmur, ayaq üstdə çıxış edir:

- Bilırsınız, mən dəfələrlə dedim, yaşlı adamam, mənə təmiz hava lazımdır, qoz ağacının altında otursam, havam çatmayacaq. Ona görə bura gəlmək istəmirdim. Xalq tələb etdi, siz tələb etdiniz...

Səhnənin güncündə kimsə mızıldayır. Natiq ona:

- Axı sən nə istəyirsən To Fiq Qa Sım Ov?

- Mızzz... Mızzz... Mızzz...

- Müstəqilliyimiz əbədidir, sarsılmazdır, dönməzdir!- natiq yumruqlarını hamının başı üzərinə qaldırır.

Polislər Tonu aparırlar. Yenə mızıldayan var. Kişi ona acıqlanır:

- İb Ra, mən qoz qabığına soxmağa adam axtaranda, sən əyninə aşırma şalvar geyinib Zey kəndində qoz-qoz oynayırdın, moqeyini bildir! Mən qiyam nəticəsində gəlməmişəm bura. Surəliylə öncəki pərdədə səhnəyə hücum edəni göstərərək- obamızın qəhrəmanıdır!

İb Ranı qandallayıb zaldan çıxarırlar.

Natiq sözünə davam edir:

- Mən çox dedim, Sur, sən Baş nazirsən, suçu deyilsən, heç qoçu da deyilsən, ha-ha-ha, lopatkanı yerə qoy, o, az eşitdi. Dövlət çevrilişi etmək istəyir! Mən buna imkan verməyəcəm! Mən həyatımın qalan hissəsini da obama bağışlayıram!

O, beli Surun əlindən alır, sapını dəmir əlləri ilə ikiyə bölür, sağ əlindəkini Surun kürəyinin ortasına ilişdirir. Polislər beli qırılmış Suru sürüyüb aparırlar.

Obada sabitlik yaranır. "Əsrin müqaviləsi" bağlanılır. Xalq əlində aftafa neftdən pay gözləyir.

Sabitliyin qurucusu bel qulpunun qırıqlarını salabey edib qoz ağacına atır. Yerə düşən qozu götürür.

- Yeyən var?

Sızıldayanların arasından bir nəfər ağzı sulana-sulana ona yaxınlaşır.

-Ul Rəs gəl, gəl qoz ye...

Kişi əlindəki qozu onun başına qoyub sındırır. Dəmir əllə vurulan zərbə Ulu yarımcan edir. Təcili tibbi yardım onu ABŞ bayrağına bükür, xərəkdə səhnədən çıxardır. Kişi yenidən zala səslənir:

- Başqa kim yemək istəyir?

Obada sakitlikdir.

Dəmir əlli lider qəfil ürəyini tutur və yerə yıxılır.

**(PƏRDƏ ENIR)**

(Ümummilli sakitlik elan edilir)

***

**(PƏRDƏ QALXIR)**

*(İşıq mərkəzə verilir)*

Səhnədə yekə küp qoyulub. Küpün başında beynəlxalq müşahidəçilər- baboçkalı ingilis, şərfli fransız, fəsli türk və rus generalı dayanıb. Arxadan bir molla da burnunu soxmağa çalışır, onu çimdikləyib qovurlar. Adamlar sırayla gəlir, küpə qoz atırlar. Qozatma qurtarır. Küpdən qəlyan, dalınca qəlyanı çəkən çıxır. Qoz ağacının altında durmuş polislər dərhal yüyürüb onu qırılmış belin sapıyla döyürlər, səhnənin güncünə balaca çevrə çəkir və dairəyə salırlar. Baboçkalı ingilis dairəyə salınana təsəlli verir. General istehzayla gülür. Türk deyiləni tərcümə edir:

- Sayın büyük elçimiz sayın Asi beye diyor ki, “ana mühalifet lideri olmak büyük şeref!”

Sayın Asi bəy dairədən çıxmadan ağacın altını hədələyir: “Bızzz...”

Bu dəfə qutudan başqa adam çıxır. Cavan oğlandır. Qutunun başında duran ingilis, fransız, rus və türk onunla öpüşüb-görüşürlər. Şəxsən zəhmət çəkib ona taxt gətirirlər. Cavan oğlan ingiliscə bəyan edir:

- Biz öz ümummilli liderimizin yolu ilə gedəcəyik!

O, sürəkli alqış sədaları altında taxta çıxır.

**(PƏRDƏ ENIR)**

(Ma Obanın əməkdar artisti Xum Ar "Döz" mahnısı oxuyur)

***

**(PƏRDƏ QALXIR)**

*(Səhnənin bütün işıqları yanır)*

Qoz ağacına gələn cığırların qırağına üstünə "Cızzz!" yazılmış işarələr qoyulub. Səhnə balaca-balaca ərazilərə bölünüb, ərazilər çəpərlənib. Çəpərlənən ərazilərdə qəsrlər gözə dəyir. Hər yerdə çal-çağırdır. Sol tərəfdə qoyulmuş lövhədə yazılıb: "Hərəyə bir qoz ağacı əkək!"

Qoz ağacı kəsilib. Ondan çəllək düzəldib, içinə neft doldurublar. Bayaqkı beynəlxalq müşahidəçilər vedrə-vedrə neft daşıyırlar. Xalq əlində aftafa evdə çırağa tökmək üçün neft növbəsinə dayanıb. Asi bəy neft daşıyanları durduğu dairədən hədələyir: "Bızzz..." Taxtın qabağında yerə palaz sərilib. Bellərinə ditdili qanadları taxmış deputatlar bardaş qurublar. Ma Oba Tayfalar Məsclisinin sessiyası gedir. Hamısı əlləriylə Asini asıb-kəsirlər: Dızzz!!! Dızzz!!! Dızzz!!!

Cavan Oğlan taxtda oturub. Taxtda oturan hərdən qabağındakı xonçadan qoz götürür, deputatların birindən Asinin çevrəsindəkilərə göndərir. Qozu alan milçək qanadı çıxarır, vızıldayıb ağcaqanadların yaxınlığında toplaşırlar: Vızzz... Vızzz... Vızzz...

**(PƏRDƏ ENIR)**

(Meyxana ustası Miq Na Rıncıçuxurlu

*"Tikilməyib körpülər birdən-birə,*
*Çevrilibdir dövlətimiz liderə"*
qafiyəli meyxana oxuyur)

***

**(PƏRDƏ QALXIR)**

Şam işığı restorana romantika verir. Masada iki gənc qol-boyun olub. Oğlanın adı Du Raq, qızın adı Da Raqdır. Əmiuşağıdırlar, təzə nişanlanıblar. Gənclər özlərini yığışdırırlar. Ofisant əlində şampan içəri girir, Du Raq qoz ləpəsi sifariş verir. Ofisant "vallah, ləpəmiz qurtarıb" deyə sifarişdən imtina edir. Du Raq hirslənir:

- Ə, mən ABŞ prezidenti Ba Rakın əmisinəvəgillərdənəm.

Ofisant "vallah, ləpəmiz qurtarıb" deyə üzrxahlıq edir. Du Raq cızığından çıxır, ofisantı təpiyinin altına salır. Polislər ona cumurlar. Xaos yaranır. Du Raq qardaşına "vızov" atır. Qardaşı Ya Raq tayfanın cayıllarını yığıb davaya gətirir.

Du Raq yaralanıb və qan içində uzanıbdır. Polislər Da Rağın şalvarını çıxartmaq istəyirlər. Dunun qardaşı Ya şampan butulkasını götürüb polislərə cumur, onların başını yarır. Va Raq varağa yazdığı "uğur duasını" aparıb Asi bəyin döş cibinə basır. Danın qardaşı Ma Raq nərə çəkib dızıldayanlara cumur. Onlar dızıdıb qanadlarını yerə atır, aradan çıxırlar. Milçəklər "vızz" edib geri qayıdır, qanadlarını çıxardıb yelpik düzəldir, Asi bəyi yelləyirlər.

Tamaşaçılar ayağa qalxır, səhnəyə axışırlar. Xalqın ilk nümayəndəsinin ayağı səhnəyə dəyəndə Cavan Oğlan taxtdan enir, kirimişcə qapıya sarı gedir.

Taxt üstündə dava düşür. Ras, Eti, Asi və Vuş Siya adlı gözlənilməz iddiaçının hərəsi taxtın bir ayağını dartır. Taxtın ayaqları qırılır.

Xalqın zirək oğulları qarışıqlıqdan yararlanıb neft aparmağa yüyürürlər. Aftafanı daha öncə doldurmaq üstündə itələşəndə çəlləyi aşırırlar.

Çəlləyin içi boşdur. Onu diyirləyib səhnədən yerə salırlar.

İşi belə görən Ras, Eti və Vuş Siya aradan çıxır, ortada təkcə Asi qalır.

**(PƏRDƏ ENIR)**

(Ma Oba aşıqları "Çaxmağı çək" oxuyurlar)

***

**(PƏRDƏ QALXIR)**

*(İşıq arxa dekorasiyaya salınır)*

**Dünya Bankının Baş ofisi.**

*(İşıq dekorasiyanın qabağına salınır)*

Dünya Bankının baş ofisinin qarşısında Asi bəy çəlləkdən neft daşıyanların atdığı vedrələrin birini tərsinə çevirərək altına qoyub, nağara əvəzinə o birinin dalını döyəcləyir, üçüncüsünü də qabağına qoyub pul dilənir.

**(PƏRDƏ ENIR)**

***

*(İşıq mikrafona salınır)*

Ramin Hacılının monoloqu:

Hər şey belə olmaya bilərdi! Hər şey belə də ola bilərdi! Olmadı! Sizi referendum münasibətilə təbrik edirəm! Rəiyyətinlə baş-başa, yaşa, padşahım, yaşa!

**(PƏRDƏ ENIR və QALXMIR)**

***

Ramin Hacılının əlini sıxa bilmədim. Sabit əmimgil yanımı kəsdirdilər.

Əmim və onun uşaqlıq dostu Sabir bağlıbadaşdılar, şərikinə çörəkbişirmə sexi işlədirlər, qabaqlar Bərdə bazarında ələk düzəldib satarmışlar. Sabit ələkçiymiş, Sabir də qıl verəni. Teatra ayaqları birinci dəfə dəyirdi. Tamaşadan xəbər tutmuş, başıalovlu teatra soxulmuşdular. Həmişə əsəbləşəndə əmim cümlənin son sözünü demirdi, fikrini qıl verəni tamamlayırdı:

- Min dəfə demişəm ki, bu işlərdən
- qurtar!
- Məni türmələrdə
- süründürmə!
- Ə, bala, sizin axırınız
-yoxdur!
-Hamınızın yeri
-türmədir!
-Gedib kişinin oğlunun ətrafında birləşməkdən, Ulu Öndərin ruhundan üzr istəməkdən, hələ durub camaatı lağa qoyursan, teatr
- çıxardırsan!
- Demir ey, biri başa düşər, gedib çatdırar, KQB də gəlib bunun boğazını
-üzər!
- Yaza bilirsən, götür babaya şeir yaz, oğluna poema
- qoş!
- O da çağırsın sənə ev versin, eşik versin, iş versin, fəxri ad versin, şöhrət ordeni versin, sən də get
- dolan!
- Savad olmaqla deyil, gərək adamın ağlı, fərasəti də
- ola!
- Min dəfə demişəm, ha yazsanızda, pozsanız da xeyiri yoxdur, o taxt ömürlük
- onlarındır!
- O boyda Şəhriyar "Heydər babaya salam" poemasını yazmışdı, sən heç onun əlinə su tökməyə layiq
- deyilsən!
- Ağlın olsun, o "Heydər babaya salam" yazıb, sən də "Heydər balaya salam"
- yaz!
Əmimgildən qurtulanda Həyat xanım zəng elədi:

- Nəsir, - mənə kənddə və ailəmizdə Nəsir deyirlər- təcili evə gəl, evə mişovul girib!

Evə göz gəzdirdikcə Loviza dolurdu, ağlamaqdan və "bu nə yaşayışdır" sualını verməkdən özünü zorla saxlayırdı. Dərnəgüldə qaçqınların məskunlaşdığı yataqxanaların arasında, sovet dövründə televizor anbarı olmuş zirzəmiyə soxmuşuq başımızı. Arxadan üst tərəfi "Səadət" şadlıq evidir. Səadətin arxasında və zirzəmisində başımıza yataqxanalardan bəxtəvərçilik yağır. Dincliyimizi hərdən mişovullar pozur. Azinlə köməkləşib mişovulu öldürdük.

Həyat xanım anda versə də, yeməyə oturmadılar, ditdililərə yem olmaq istəmədilər. Evi abıra salan və rayona getməyə yır-yığış edən arvadıma dedim:

- Həyatım, narahat olma, biz özümüzü ac qoymarıq.

Həyatım ditdililərə qarğış elədi. Üzünə baxdım. Pəjmürdə idi. Həyatın çoxdan gülümsəmədiyinin fərqinə o anda vardım. Eh, həyatım, bəzən biz sevgini məyus edirik, bəzən sevgi bizi...

Zibilxananın yanından vəhhabilərin dükanına tərəf burulanda bomba partladı. Vəhhabiləri görmüş Loviza hər iki əlini qulaqlarına aparıb qorxa-qorxa ətrafa boylandı. Narahat olma, sağıq,- onu vahimədən çıxartdım- partlayan zibil torbasıdır. Loviza yataqxanadan vızıldadılmış torbaya baxdıqca əsim-əsim əsirdi. Gölməçə, zibil və dolma qoxusu aləmi bürümüşdü. Diplomat qız hər ikimizin qoluna girdi, "Azəri" un məmulatları mağazasının qabağından yolun o tayına keçdik.

- Ta bura qədər gəlmisiniz, Gülü dayıya baş çəkməsək eyib olar...

- Görək, nə deyir- rəyini öyrənmək məqsədiylə qıza Gülü dayının kababxanasını təsvir elədi. Loviza gözlərini döydü. Yalnız ingiliscə "underground" kəlməsini eşidəndə "doğrudanmı" sualını verdi.

Müştərilərin və qonşu kababçıların "Gülü" dediyi ahıl və istiqanlı kişini Lovizaya əsl adıyla təqdim etdim:

- Güloğlan dayı Dərnəgül kababçılarının kralıdır, Füzulidəndir. Anası rus imiş.

Füzulidən gələndən Dərnəgül yataqxanalarında məskunlaşmışdı, dayanacağa manqal qoymuş, avtobus gözləyənləri kabab iyinə vermişdi. Qazancına qızırğalanmayıb daş dayanacağı satın almış, iki kabinet düzəldərək Qarabağın sabiq kassirlərinin, mühasiblərinin, mağaza müdirlərinin, kolxoz sədrlərinin ixtiyarına vermişdi. Qaçqınpulu alandan-alana əli qalınlaşan sabiq qarabağlılar o kabinetlərdə vəzifəli günlərini xatırlayar, qabırğaları sananan xidmətçi xalanın masaya salfetka qoyan cod əllərinə yanağından qan daman keçmiş katibələrinin vurduğu lakdan yaxmamağına təəssüflənərlər.

Gülü dayı xidmətçiyə səsləndi:

- Ağız, Məhrə!

Mahirə yaşlı arvadıydı, qulaqları ağır eşidirdi. Gülü dayı yenə çağırdı:

- Ağız, Məhrə!

Mahirə cavab əvəzinə armud saplağına dönmüş boğazını uzatdı. Gülü dayı ona Lovizanı göstərdi:

- İsveç səfirliyində işləyir, qıza yaxşı qulluq elə!

Kababxanasına İsveç diplomatının təşrif buyurması Gülü dayının nəzərində çox böyük hadisəydi, qıza yaxşı qulluq göstərmək Qarabağın xətasız-bəlasız geri qaytarılmasına təsir edə bilərdi. "Belə şanslar çətin ələ düşür"- Gülü dayı ATƏT-in düzüb-qoşduğu sülh danışıqlarını izləməyən Mahirənin siyasi hazırlığını artırdı.

Tikə, lülə, içalat kababı sifariş elədik, içməyə rus istehsalı "Monarxiya" arağı və "Coca-cola" istədik. Mahirə xala xalqın əziyyətini çəkərək qab-qaşıq gətirdi. Gülü dayı kababın bişməsinə bütün təcrübəsini qoymuşdu, isti-isti gətirib boşqaba çəkirdi. Loviza başlanğıcda əllə yeməyə tərəddüd eləsə də, daldan-dala barmaqlarının beşini də yalayırdı.

Marşuruta mindik. Sürücünün üzündən kir, gözündən kin yağırdı. Damağında siqaret tüstülədir, hərdən digər marşrutlarla ötüşür, meyxanaya qulaq asırdı. "Gənclik" metrosuna çathaçatda yol polisi bizi saxladı. Sürücü cibindən çıxartdığı manatlıqları köməkçisinə verdi. Uşaq kirli əllərini tüpürcəkləyərək əskinasları ütülədi, dəstələdi, sayıb sürücüyə qaytardı. Sürücü sükandan düşdü, köynəyini şalvarına sala-sala getdi, hırıldaya-hırıldaya qayıtdı. Sərnişinlər ağını çıxartmış yol polislərinin qarasına deyindilər.

Metronun qırağında hər ikisi ilə ikiəlli sağollaşıb "Gənclik" mehmanxanasına tərəf adladım. Zirzəmidə yerləşən internet kafeyə düşdüm. İnternetdən aralananda Azin qabağımda iki dəfə asqırdı.

- Qağa, qabaq tək səbr idin, indi cütlədin, təki axırı xeyir olsun!

Başına gələnləri danışdı. Piyada "Azadlıq" prospektinə gedirmişlər. Mc.Donaldsın arxasındakı parkdan keçəndə öpüşüblər və polis başlarını alıb:

- Niyə milli əxlaqımıza yaraşmayan hərəkətlər edirsiniz? Özü də zooparkın yanında!

- Ona görə ki, belə istəyirik.

- Sənə qalsa, çox şey istəyərsən! İstəməklədir? Qayda var, qanun var, əxlaq var! Zooparkın yanıdır bura!..

- Hansı qayda-qanunda yazılıb axı parkda öpüşmək olmaz?

- Bura park deyil, zooparkın yanıdır!

- Deyirsən, heyvanların əxlaqını poza bilərik?

Serjant onları bölməyə aparmış, rəisə Azinin müqavimət göstərdiyini məruzə etmişdi. Polisə müqavimət göstərməyin nə demək olduğunu cinayətkara başa salmaq həvəsiylə rəis əllərini sinəsində çarpazlayıb sakit görkəmlə nə baş verdiyini soruşanda, qanlarının arasına Lovizanın diplomatik pasportu girmişdi. Qonağın yanında hər iki üzümüzü qara edən, Azinin diplomat

qızla yuxarıların tapşırığıyla öpüşdüyünü anlamayan polis nəfərinə rəis itin sözünü demiş, onu işdən it kimi qovacağına and içmiş, itin dalında həbs etmişdi.

Səhəri gün avtovağzala getdik. Avtovağzalın həndəvərində şoferlərin çığırtısından qulaq tutulur. Gəncəyə bir nəfər! Ağcabədi, Agcabədi! Bərdəyə çıxıram! Tərtərə maşın tərpənir ha!.. Əlimdəki çantanı görən qarğa sürüsü üstümə şığıdı.

Guya məni çoxdan tanıyan sürücü əl çəkmədi, qır-saqqız olub boğazıma keçdi:

- Yerri, Ətağa (fikir ver, gör kimin cəddinə and içirəm, Bakıda yer almışam) bəyaxdan bir nəfər gözləyirəm, otur, srazı çıxax!

- Yerli, İmamzada haqqı (bərəkallah, mən neçə ildir Bakıdayam, yarım sot torpağım yoxdur) rayona indi getmirəm. “Varis” şadlıq evində kəndçimiz Böyükağa müəllimin oğlunun toyudur axşam. Saat altıda toya, oradan da kəndçilərimi Bakıya gətirən avtobusla rayona gedəcəm. Arvad-uşağı dayım öz maşınında aparacaq.

- Xeyirdimi onda? Pul-pənə göndərirsənsə, ver çatdırım, bir nəfər gözləyirəm, gəlsin, srazı çıxıram!

- Sağ ol qağa, iki nəfər yola salacam, sənin maşınında da bir yer boşdur,- bunu deyəndə Azinlə Loviza özünü yetirmişdilər- mənə bənd olma, bir nəfər axtar!

- “İllaf yaxşı, iki nəfər də gələr, çıxarıq dana...”- sürücü burnunda mızıldandı və belə məlum oldu ki, “bir nəfər gözləyirəm” deyəndə, o, ilk müştərini nəzərdə tuturmuş. Üzeyir Hacıbəyovun “Yevlax–Şuşa yolu” hekayəsini xatırladım. Xalqımız dilicandan düşüb “Moskviç”ə, “Moskviç”dən enib “Merseders”ə mindi, Yevlax-Şuşa yolunda satiraya tuş gəldi, xeyri olmadı, dəyişmədi, dəyişmədi, dəyişmədi...

***

Toydan çıxıb "Doxsan" Məzahirin avtobusuna doluşduq. Hərə mərifətinə, fərasətinə, tayfasına uyğun yer tutdu özünə. Maşın tərpənəndə Seyid Əhməd "Allah, Məhəmməd, ya Əli" qışqırdı. Sürücü "prrobblem yoxdur" dedi. Ağa çaşqınlıqla onu süzdü, yanında oturmuş Şahsevən gülümsündü. Yolda-irizdə ala itdən məşhuruydu Məzahir, PAZ-ını tanımayan yoxuydu, avtobusunu şosedə doxsandan yuxarı sürməzdi, ondan artıq çəkmirdi də. Ləqəbinə layiq olduğunu gözə soxdu: "cəddinə qurban olum ağa, doxsandan yuxarı getmirəm, nə prrobblem olasıdır..." Bundan yekə nə *prrobblem* olacaq,- ağzını əydim dodağımın altında- tıxaca düşdük.

Siqnal səslərinin arasında Ağanın ona verdiyi öyüd eşidildi:

- Heylə demə, heylə demə, Xudavəndi-Kərim min ağac uzaq eləsin, olacağa çarə yoxdur, ölüm qaşla göz arasındadır.

Ölümdən söz düşəndə Qəssab İbişin arvadı Cəhrə zoqquldadı. "Ona min dəfə dedim qoqa-qoladan az iç, öhd olmadı!"- camaatı arvadının mərəzindən agah elədi. Arvadlı-kişili hamı özünü gecənin soyuğuna verməmək üçün qoyun kürkü geyindi. Qəssab İbiş öz kürkünü arvadının çiyninə atdı, oğrun-oğrun avtobusdakıları süzdü, mən də altdan-altdan ona göz qoydum.

Arvadı naxoşlamışdı, belini ovmağa keçi piyi gərəkiydi, piy nə gəzirdi, piydən ötəri gərək kəndə çataydı, bir dıbır boğazlayaydı, ətini sataydı, piyini kürəyinə sürtəydi, yelini qovaydı, azarını öldürəydi, üstünü möhkəm-möhkəm örtəydi, kəkotulu çay gətirəydi qızı Sərəncam, içəydilər, çəkəydilər onun da dərdinə əncam, döşü baş yarırdı, üstündə baş yarılırdı, qıza nə var, başlı-başına qoysan ya halvaçıya gedər, ya zurnaçıya, zurnaçı Sadığın oğlu fır-fırlanır darvazalarının qabağında, qabağına çıxana bax, camaat quş gətirir, Şahqulu bayquş, bayquş ulayır dədə yurdunda, fərasətli oğul olsa, ocağını kor qoymaz atasının, atası ondan nə xeyir gördü, qayınatası nə görə, gör-götür dünyasıdır, adamın gərək qanacağı ola, qanacağı qancıqdanmı

alaydı “Dıbır” İsmayıl, anası ölmüşdü, xalası Səkinənin südünü əmmişdi, əmdiyi burnundan gəlsin, cərrahlıq oxuyub guya, arvadın sol döşünün yerinə, sağ əmcəyini kəsib, əmlik keçir könlündən, buynuzu gicişir, ayama qoyur, söz çıxardır gül kimi qızın adına, hünəri var adını çəksin birdə, çəksə tayfa davası düşər, başını üzərlər, dərisini boğazından çıxardarlar, aşılanmağa verərlər, dabbaqda gönləri gendən tanınır hamısının, dıbırın da, aslanın da, Aslana kimdi qız verən, erkəkliyi-dişiliyi bilinmir, bir heylə ət alsa da yediyi-içdiyi üzə çıxmır, soxulcana oxşayır, zifaf gecəsində gəlinin üzünü çətin ağarda, gözü ağarsın ona xanəndə deyənin, toya gedir, oxuya da bilmir, ciy-ciy ciyildəyir, ciyarlı oğlan Cavanşirdi, rəhmətlik dədəsi də yaxşı bənnaydı, maşallah, biləkləri ət kötüyündən yoğundu, almasa-almasa hər şənbə bir şaqqa ət aparır evlərinə, denən, yavanlıq olurmu o boyda külfətə, olmasa-olmasa on beş baş adam var evdə, ağız deyəni qulaq eşitmir, qulağının dincəlməsinə çox var, ayrı ev-eşik olması uzundərədi, dərənin qırağında torpaq qalmayıb, “Tülkü” Mahir qamarlayıb hər yeri, deyir, ev-eşik yiyəsi olmaq hər oğulun hünəri deyil, bələdiyyəsi var, icra hakimiyyəti var, iti var, qurdu var, qurdun adı bədnamdır, indiki zamanda ev tikmək üçün ev yıxmaq lazımdır, Allah saxlamış Cövdət də ev yıxan deyil, adam yıxandır, özünə iş tapıb o da, buna badalaq gəl, onun kürəyini yerə vur, yiyəsi olsa, güləşə-müləşə qoymaz, polisə düzəldər, oduhana “köpəyoğlu” Hüsü, maaşı alır, hörməti qazanır, qulaqları da iy bilir itin, sür-sümük verəndə yaxın durmur, yağlı yer axtarır, “Əmlik”də o boyda quyruq nə gəzir, getdi rəisin qohumunu aldı, buna bax, camışa oxşayır, əşi, elini ürküt, axsağından yapış, elə axsaq yaxşıdır, sürü geri qayıdanda qabağa düşür, düz qabaqda oturub Şahsevən, qoçdu, qoçaqdı, ilanı seyid Əhməd əliylə tutandı, o boyda kişini elçi göndərməyə hazırlaşır, bir dəfə gələnə qız verməzlər, amma yüz elə qız qurban olsun ağanın cəddinə...

Ağa "dərəyə sür" dedi, sürücü əlini gözünün üstünə qoydu: "prrobblem yoxdu!" Şamaxı yoluyla gedəsi olduq. Ağsu aşırımlarına çathaçatda gözümə bir lövhə dəydi, üzərinə Ulu Öndərin kəlamı yazılmışdı: **"Biz tamamilə demokratiya yolu ilə gedirik!"** Demokratiya yolunda məni mürgü tütdu. Nə yata bildim, nə oyaq qala. Məzahir camaatı demokratiya dolamasında dolandırır, avtobus ləngərləyir, mən yuxuyla oyaqlıq arasında vurnuxurdum, bilmirəm yatmışdım yuxu görürdüm, yoxsa oyağıydım gerçəkliyi; sərxoşuydummu, ayığıydımmı, hər nə haldaydımsa, avtobusdakıların 90 faizi gözümə qoyun görünürdü. Qoyunların arasında bir əmlik vardı, seyid Əhməd qəssab İbişlə Şahsevənin yerini dəyişdirib ona elçilik edir, atalardan misal gətirirdi: "quzunu qurda tapşırmaq olmaz..." Məzahir təsdiq edirdi: "prrobblem yoxdur..." Nətəhər yoxdu əə, korsan? Bu nə PAZ-dır bizi mindirmisən, içində çoban var, qəssab var, keçi var, qoyun var, qoç var, anaş var, əmlik var, aslan var, şir var, tülkü var, bayquş var, avtobus deyil, meşədir, cəngəllikdir, Seyid Əhməd gedib ilanını tutmaq əvəzinə, bayaqdan qurdun qarasınca danışır... Mənim qeybət qıran adamla aram yoxdur, istəyirsən seyid ol, istəyirsən ağa, kişisən, sözü üzə de, qurd üzü mübarəkdir! "Əşi, denən mübarək olsun, bir xınalı quzu gətirək, bir dıbır yeyib gedək"- Ağa üz vurdu, sürücünün tanış reaksiyasını təkrarən eşitdim: "prrobblem yoxdur." Düzlük deyil ha əlindən gəlməyə, sənə nə var, prrobblem çıxardacaqsan bu saat, belə yerdə heç doxsanla sürərlər Məzi, qurd ürəyi yemisən nədir, avtoşluq eləmək istəyirdin, eləyəydin, ipək yolunu qoyub bizi bu dolamaya niyə gətirib çıxartdın? Niyə gərək həmişə ağa dediyi dərəyə sürəsən? Göz-gözü görmür dumandan, tamamilə demokratiya yolu ilə getdiyimiz yerdə qəza baş verər, - bəlkə də hansısa seyid onu min ağac bəri göndərib- kəllə-mayallaq aşırdarsan bizi, PAZ-dan çıxıb paza keçərik! "Prrobblem yoxdur!"- nəyə gətirdi bunu? Hə, Seyid Əhmədin sözünə, "qurd duman axtarar" deməyinə... Camaatı dolamadan salamat

çıxaracağına əmin etmək istədi. Təki, salamatçılıq olsun!.. Off, adam nə qədər atalar sözü deyər, zərb-məsəl çəkər, "sən qurda tikməyi öyrət, yırtmağı atasından dərs alıb", and olsun cəddinə, "Səma" TV-yə çıxsan ayrı cür danışarsan, deyərsən ki, "qurddan qurd törəyər." Təbiətdə də, insanın xarakterində komponentlər bir-birinə bağlıdır. Seyid Əhməd tamahkardır, tamahkar xəsis olar, xəsis hiyləgər, hiyləgər yalançı, yalançı yaltaq... Qəssab İbişin ağlı olsa, kor qız da verməz yaltağa! "Prrobblem yoxdur"- partlayacaq ürəyim, yenə dedi, nənəm, yenə dediiii! Bu "doxsan" Məzahir ya çox qanmaz adamdır, ya sırtıq, heç vaxt adam olmayacaq, doxsanında öyrənən, gorunda çalar. Fikrim dağıldı, eşidəmmədim, Qəssab İbiş nə soruşdu, Seyid Əhməd ona "qurd qapıda əhilləşməz" cavabını niyə verdi. Əcəb edər əhilləşməz, əlinin içindən gələr, çölündən çıxar, niyə əhilləşib azadlığını itirməlidir? İt qurdun qohumudur, qağa, onu əhilləşdirib ağ günəmi çıxartdınız? Səkinə müəlliməyə demoqoqluğuna görə "qancıq" demirsinizmi? İtlərin azadlığını, liderliyini əlindən alıb sürüyə güdükçü qoymamısınızmı? Utanmırlar, üzləri də var danışmağa... Yox ey, işin içində iş var, axı qurda nə verib Seyid Əhməd, ala bilmir? "Qurdun üzü ağ olsaydı, gündüz çölə çıxardı"- sözgəlişi demir bunu, kininin kökü dərindir, kim bilir haralara gedib çıxır. Görəsən, qurdun üzü niyə qaradır əmmaməlilərin yanında? Seyid Əhmədin yanınca toya gətirdiyi nəvəsi "Dıbır" İsmayıla boz keçinin şeirini deyirdi. Yalqız gəzib dolanma, tək olma, təşəbbüskar olma... Dağa-daşa dırmanma, etiraz eləməyə, dağa çıxmağa qorx, çobansız hərəkət eləmə, sürüdən aralanma, qoyunların qabağında get, qabaqcıl qoyun ol, qıllan, sənə ev verək, eşik verək, orden verək, medal verək, deputat seçək... Ay uşaq, əzbərlə, böyü, adam olma keçi ol, ziyalı olma, kozyol ol! Piyinə ehtiyac olanda, kozyolu günahkar çıxartmağa nə var? Yox, bu, keçinin şeiri deyil, kozyolun şeiridir! Kozyolu elə qurd yesə, yaxşıdır! Hanı o qurd, hanı o bir-birinə dal çevirməyən gözəl canlıların boz nümayəndəsi? Niyə gəlib çıxmır

bu sürünün axırına? Nə demişəm özünü sala sürüyə, salamat qoyun buraxmaya, anaşına-əmliyinə, şişəyinə-şişliyinə, qoçuna-qıçına baxmaya, boğazlaya hamısını...

Boğulurdum, pəncərəni açan olsa, bir az hava gələrdi, bilərdim, yatmışammı, oyağımmı, sərxoşammı, ayığammı... Başım hərlənirdi, başımda yer kürəsi tərsinə fırlanırdı. Tərsinə fırlanırdırsa, zaman da tərsinə axırdı, deməli...

14 yaşım vardı. O vaxtlar belə deyildi, bərisindən baxanda o yanı görünmürdü Küt meşəsinin. Meşə çaqqalsız olmaz, amma çaqqal deyildi, qurduydu, talada uzanmışdım, yatmışdımmı, oyağıydımmı bilmirdi, məni iyləyirdi. Gözümü açanda düz içinə baxdı, baxışdıq, gülümsündü, üstümdən keçib getdi. Niyə getdi? Hara getdi? Məni niyə parçalamadı? Getdi sinif yoldaşım Şahsevənin otardığı sürünü tapdı, özünü haya yetirən çobancığazın ayağını gəmirdi, ömürlük axsaq qoydu. Çox axtardılar izini, tapa bilmədilər. İlim-ilim itmişdi o qurd. Nə işiydi o? Kimiydi o qurd? Məniydimmi? Nənəm deyərdi ki, qurd əti qurda haramdır, şükür, qoyun deyilmişəm, qoyun Şahsevəniymiş. Şahsevən elə indi də qoyundur, "qoç" ləqəbidir, bəs qabaqlar nə olub? Seyid Əhmədin anası ölər, qabaqlar işinə yaramayanın qabağına düşə, elçilik eləyə. Huşum başımdan çıxıb, adı nə idi o türk savçısının? Yadıma düşdü, Sabih Qanadoğlu, başına iş açmasalar yaxşıdır, hansısa dinin mənsublarını "qoyun sürüsü" adlandırmışdı. Məzahir belə yerdə deyəmməz "prrobblem yoxdur!" O boyda Türkiyə problem içindədir, düyünə düşüb Avropa Birliyinə girməyi. Bu nə düyündür? Boğazıma qayıdır kabab tikəsi, yeyəndə ürəyimə dammışdı dünəndən qaldığı, çeynəyəmmədim, diri-diri uddum. Öz aramızdır, yaman ət yeyənəm, görən doğrudanmı mən qurd olmuşam? Qurd olmuşamsa, niyə atılmıram bu qoyunların üstünə? Gör ey, necə rahat hiss edirlər özlərini kürkün arasında. Toyda oturmaqlarını görəydin, ağıldaydılar, hamısı bir ağıldaydılar, oynamaqlarına baxaydın, o yekəlikdə şadlıq sarayında küncə qısılırdılar... Öz

aramızdır, qəşəng oynadın ha "Gizir oğlu Mustafa bəy"i, oynamadın, uçdun, oynamaq deyildi o, uçmağıydı... Yox, nənəm, yox, mən qurd olmamışam, quzğun olmuşam, budur, dövrə vururam səmada, başım fırlanmır, qanad açıb süzürəm... Quu... Quu.. Bu səs hardan çıxdı? Yox, məndən çıxmadı, mən "qu" desəm, qusaram yediyimi, avtobusdan çıxdı, siqnal verdi "Doxsan" Məzahir. Bəs niyə mələmir, bu nənəsi mələr qalmışın siqnalı mələyə gərək... İmitasiya edir, doxsan yox, doxsan doqquz yox, lap yüz faiz imitasiya edir! Səhv dedimsə, bağışla, dilimə yatmır belə sözlər, dilim ağzımda yanır susuzluqdan, ürəyim yaman pis qalxır, özümü saxlaya bilmirəm, mayor Aranlı demiş, içməyin də qusmağı olmaya. Həyat xanım çox deyir mədənə yazığın gəlsin, mədə neyləsin ey, "Monarxiya" arağının zayı çıxıb, rossiyski adına satdıqlarına baxma, Bakıda bağlayırlar, camaat dadanıb, əl çəkə bilmir. Əlim hanı, əlimi tapa bilmirəm cibimdən dəsmal çıxardıb burnuma tutum, qığ iyi öldürdü məni, ödüm ağzıma gəlir. Gərək bir belə içməyəydim, küpünə girdim əməlli başlı, bəs küpdən necə çıxdım? Necə çıxacam uça-uça, qanadlarım var axı mənim, quzğunam, Akgün Akova necə deyib, "qanadlarına güvən!" Qanadlarıma güvənirəm güvənməyinə, amma qurd harada qaldı? Niyə gecikir, niyə gəlib "kozyol"u yemir? Anasının əmcəyini səhv kəsəndən mömin olub, adama nə təhər tərs-tərs baxır, guya dilinə araq dəyməyib ömründə. Gəlmişkən "Qoç"u da yesin, namaza başlayıb, elə bilir cənnətə düşəndə Pekin olimpiadasına qaçmağa gedəcək, başına nə qusaram onun, yediyim zeytunları bir-bir pencəyinə düymə düzərəm, uşaqlıqdan zəhləm gedir ondan. Gəl çıx ay qurd, gəl, sürüyə gir, qoyunları boğ, kozyolları boğazla, çobanları axsaq qoy, itləri did, mən də leşinə darışım sürünün, leşinə. Yadındadır, bir dəfə qulağını burdum, özünü tezcənə yetirdin ha... Yaxşı yeyib-içdik səninlə dembellər tərxis olunan gün... Kiminlə yeyib-içdim, qurdla, ya Azinlə? Azin haranın qurdudur axı? Azin nə zamandan haralı sualına cavab verən olub? Sərxoş! O kürəçidir,

canlanmış Babəkdir! Şirvin də məni bağışlasın, tutub yaxasından soruşmaq lazımdır, indiyə qədər haralarda sülənirdin? Gerçəkdən haralardaydı Babəkin ruhu? Kimiydi, nəçiydi?

Yer kürəsi başımda tərsinə fırlanır, tərsinə fırlanırsa zaman geriyə axır deməli... Bura haradır, bunlar kimdir, bu nə kötükdür, bu nə baltadır, doğranan kimdir? 838-ci ildir, mart ayının on dördüdür, Samirə şəhəridir, xəlifə Mötəsimin sarayıdır, altına inək dərisi salınmış edam kötüyündə doğranan Baş Bəydir, nənəm, Baş Bəydir. Biləyinin qanını üzünə çəkib artıq, can verir Baş Bəy... Kimə verir canını, bu nə qəhqəhədir gəlir qulağıma? Baş Bəydir, ASENA!- qışqıraraq ucadan gülür, son qəhqəhəsini çəkir, canı ağzından çıxır. Qurda dönür, qurda nənəəəəm, qutsal qurda! Dağa götürülür, dağa, dişisini bulmağa, qisasını almağa!

Səndələyə-səndələyə gəlib Seyid Əhmədlə qəssab İbişin dizinin qabağında durdum:

- Ağa, bilirsən, Şopenhauer nə deyib? Şalampur yox seyid, şalampur yoox, SO-PEN-HA-U-ER deyib ki, "ən erkək olan ən dişisəl olanı axtarar!"

Ağa məni itələdi, qəssab İbiş qolumdan yapışıb yıxılmağa qoymadı, müvazinətimi düzəldib ona qayıtdım:

-İbo, sənin qurdlar aləmindəki alfa cütlüyündən xəbərin var?

Məni yerimdə otuzdurmağa "Qoç" Şahsevən durdu. Ay qoyun, - ondan soruşdum- sən heç bilirsən, qurdlar aləmində lider özünü necə qurban verir?

Şahsevən qulağımın dibinə bir qapaz qoydu, içən adamı vurmazlar, namərd!... Gözlərim Seyid Əhmədin ovcuna düşdü.

- Böö-yüüük-ağaaaa...

Məktəbdə də beləydim, "Qoç" Şahsevən məni döyəndə Böyükağa müəllimə şikayət edərdim.

***

Xalam Kümə gəlin köçüb. Uşaq vaxtı yolum onlara tez-tez düşərdi. Xalamgilə tez-tez getməyimin bir səbət səbəbi varıydı. Səbəblərin başı hamamıydı. Onda hər adamın qapısında hamam yoxuydu, bizim həyətdə heç bünövrəsi də tökülməmişdi, bir vedrə suyla ləyəndə yaxalanmağa ərindiyimdən onların hamamına gedər, necə deyərlər, həm də çimərdim. Hamamdan çıxıb tellərimi yan darayar, kəndin o başında yaşayan sinif yoldaşım Mütüşü görməyə gedərdim. Düzü, nə mənim sinif yoldaşımı görmək niyyətim olardı, nə onun mənə ayırmağa vaxtı. Dədəsi ona avara-uvaraya qoşulmağa icazə verməz, qadaqda saxlayar, ot çaldırar, pəyə kürüdər, dana bordaqladar, qapı suladardı. Yoldaşcasına bir hovur söhbət etməkdən qabaq gərək Mütüşə əl uzadaydın, inəklərinə yem verəydin, camışlarına su qoyaydın, pəyələrini kürüyəydin, şayəd dədəsi ona ayrı xırım-xırda iş tapşırmasa, doqqazın ağzından uzağa getməmək şərtiylə ayaqüstü hal-əhval tutaydın. Mütüşün halından xəbəri olmayan varıydımı? Ovqatı həmişə təlx olardı. Ən böyük arzusu dədəsinin əlindən baş götürüb doqqazlarının ağzından uzaqlara, lap uzaqlara- səhərlər doqqazlarının ağzından görünən Murov dağına getmək idi. Mütüş Murovun soyuq, qarlı olduğunu eşitmişdi, soyuq və qarlı yerlərin hamısını Uruset bilirdi. Urusetə gedib dədəsinin tək əliylə qapazladığı üzünü rus qızlarının dizinə qoyub arın-arxayın yatmaq keçirdi könlündən. Dayısı Urusetdə donuz saxlayırdı, üç-dörd ildən bir türklənib kəndə gələrdi, tay-tuşlarına donuzdan tük çəkməyin yollarından danışardı, Mütüşə ancaq onu demişdi ki, qoyuna baxma, donuzun belində tük olmur. Belində olmursa, yəqin adama oxşayır donuz, qıl qısığının arasında bitir, qoyun-quzu qırxmağı yaxşı bacarırdı, di gəl, donuzun qısığından tük çəkməyə ürəyi gəlməzdi, öz qoltuğunun altından birini dartmışdı, yaman yandırmışdı, dini-imanı qaçmışdı, heyvana zülm eləməzdi, içində heyvan sevgisi vardı, yeri gələndə, azarlayan davardan ötəri doqqazın ağzında oturub hönkür-hönkür ağlayardı, donuza da öyrəşərdi, qəfildən- dayısı

həmişə o məqamda əliylə qarnının qabağında soldan-sağa qövs cızar, ovcunu cəld bükərdi- qılını dartıb insafsızlıq eləməzdi. Mütüş nədənsə donuzu dayısından çox istəyərdi, düzünə qalanda, onun içində insan sevgisi kəm idi, dədəsi yıxılıb ölsə, gözündən yaş çıxmazdı. Qəbiristanlıq yolunun qırağında olurdular, evlərinin yanından meyit aparılanda "çezdi, canını qurtardı" deyərdi. Ölənin kimliyinə, nəçiliyinə, yaşına baxmazdı, onun aləmində adamlar ölmürdü, çezirdi. Mütüşə insan sevgisini aşılayan mühit yoxuydu, məktəbə gəlməz, gələndə uşaqlara qaynayıb-qarışmazdı, sinifdəki dostluqlardan, zarafatlardan, küsüşmələrdən və davalardan qıraqdaydı. Səhərdən-axşamacan işləyər, səhərdən-axşamacan işləyən, alaq vuran, pambıq yığan anası, bacılarıyla bahəm dədəsinin təpiyini çörəyinə yavanlıq edib yeyərdi. Təpəsinə qapaz vurulmaqdan səyləşmişdi, fikri özündə olmazdı, malda-davarda qalardı. Mənim halımla Mütüşün əhvalı heç vaxt üst-üstə düşməsə də, onu axtarıb-aramağım səbəbsiz deyildi. Ta söz açılıb, deyəcəm, Mütüşin qapıbir qonşusu «Qapandar» Nəsibin qızını sevirdim.

Nəsibin gözünün ağı-qarası bircə oğlu və iki qızı vardı. Gözünün ağı-qarası bircə oğlu qızlarından balacaydı; atası ona maşın sürməyi hələ öyrətməmişdi. Qızlar dirçəlmişdilər, yekəlmişdilər, ay parçaları olmuşdular, bığ yeri təzə tərləyənlərdən tutmuş tər bığını saqqalına yapışdıranlaracan çox özündən deyən oğlanın yuxusunu qaçırtmışdılar.

Mıkı əsgərlikdən təzə gəlmişdi. Əsgər forması əynində kənddə hərlənib, adını, daha doğrusu ləqəbini arvad-uşağın dilindən yerə salmadığı günlərdə Xeyransanı görmüşdü. Evlərinə qayıtmış, əsgərlikdən gətirdiyi bloknota yapışdırdığı lüt qız nakleykalarını cırıb atmış, təzə vərəqə təzə sətirdən yekə hərflərlə qırmızı flamastrla **MIKI+XEYSANRA** yazmışdı. Öz adını tam yazmamışdı. Hərfləri çox olduğundan öz adını səhih yaza bilmirdi Məmmədkərim, qızınkında səhvə yol verdiyini isə ağlına belə gətirməmişdi. Bloknotu qatlayıb döşəyinin altına qoymuş,

əsgər formasını əynindən çıxartmış, qara şalvarda, ağ köynəkdə, uzunburun ayaqqabıda Mütüşün dədəsinə hərbi salam verməyə getmişdi. Gedəndə əliboş getməmişdi, hərbi formasını və çəkməsini zənbilə doldurub Abbasa aparmışdı. Qəzaya düşdüyündən Mütüşün dədəsi Abbasın sol qolunu kəsmişdilər, elə o zamandan da el "Həzrət" ayaması artırmışdı adının qabağına, ləqəb onun hörmətini birə-beş artırmışdı. Abbası evdə tapmamışdı, payını Mütüşə vermişdi. Mütüşdən Xeyransanı istəyənlərlə maraqlanmışdı. Mütüş hərbi şöhrətinin qarşısında davam gətirməyib doqqazlarının ağzına gələn bütün yeniyetmələrin, cavanların adını vermişdi Mıkıya. Adları bir-bir sadalayıb qurtaranda "onların hamısı bekara şeydir, «Qapandar» Nəsib eşşək otaranlara qız verməz, *ves sovetlikdə-* SSRİ zamanında sovetliyə Küy, Küm və Küt kəndləri daxil olmuşdu- bəlkə "Kəllə"yə razı ola" demişdi. Mıkı "Kəllə"nin kim olduğunu soruşanda Mütüş əlini yola uzatmışdı.

Mən xalamgildə hamamlanmış, qartımı-qurtumu düzəltmişdim, telimi yan darayıb Mütüşlə görüşməyə gəlirdim, yanlarına çatanda salam verdim. Mütüş salamı başıyla aldı. Əsgərlikdən təzə gələn qımıldanmadı. Qımıldanmazdı, əsgərlikdən təzə gəlmişdi, onun halını gərək ayrıca xəbər alaydın:

- Sən nətəhərsən, Mıkı?

- Saa navar nətərəm? Həkimsən? Bləd, guya Mıkıyla stroybatda daş qaldırıf ey... barı adamın adını düz deyə, yanıf-tökülməssən...

Mıkıdan belə cavab gözləmirdim. Onu görəndə xeyli sevinmişdim. Mıkının dil-boğaza qoymadan Monqolustandan danışacağını gözləyirdim. Ona qulaq asmaq bəhanəsiylə axşama qədər «Qapandar» Nəsibin doqqazına boylanmaq həvəsindəydim. Mıkı ümüdlərimi doğrultmadı, mən də özümə görə deyildim, onu yumşaq yerindən sancdım:

- Sənin əsl adın Mıkı deyil ki?

- Mənim adım Məmmədkərimdir!

- O irəli Azin yanımda pojik atıb, qulağım batıb, yaxşı eşitmir, adını yaz göstər!

Mıkı onu doladığımı, adını yaza bilməməyindən agah olduğumu, savadsızlığına rişxənd elədiyimi, "mən hara, sən hara" soruşmaq istədiyimi göydə tutdu. Tərifli kəlləmə lak qapaz salıb, sinəmə yumruq qoydu. Mıkının başına vurmaq üçün yerdən daş götürməyə əyiləndə, paçamın arasından qonum-qonşudakı qızlarla xurma ağacının altında söhbətləşən Xeyransanı gördüm. Paçamın arasından baxanda külək Xeyransanın donunu qaldırdı. Onun gündən-günə toppuşlaşan budları göründü. Ah, o qızın ayaqları... Qızdım, nə qızdım. Mıkı, sənin ananı... Mıkı paçamın arasına təpik atdı. Götürdüyüm daşı atıb əllərimlə sancıdan kəsilən paçamın arasını tutdum. Paçamın arasının ağrısı kəsəndə dinməz-söyləməz yolun ağına düşüb kəndimizə qayıtdım. O gündən nə tez-tez Kümə getdim, nə də Xeyransa ilə rastlaşmaq istədim. Heç Mütüşü də görmədim. Murovda şəhid oldu. Çezmədi, ölmədi, vəfat etmədi, şəhid oldu. Məktəbimizə onun adını verdilər. Qabağıma çıxmadı ona deyəm ki, Mütüş, ilk məhəbbət adamın paçasının arasına dəyən ilk zərbədir. Görəsən o zərbəni Mütüşün paçasının arasına hansı eşşək vurmuşdu?

Kümün göbəyindəki "Barama hörən qurd" abidəsinin yanıyla fikirli-fikirli xalamgilə gedirdim. Dalğınlığımı siqnal səsi dağıtdı. Siqnal verən Mıkıydı. "Lexus" sürürdü. Pul gücünə özəl ali məktəbə girmiş, hüquqşünas diplomu almış, dörd ilə adını yazmağı ancaq öyrənmiş, gömrükdə işə düzəlmişdi. Astarada gömrük məntəqəsinin rəisi işləyirdi. Deyilənə görə, yaxşı qazanırdı, sağlığına qismət, kənddə yüz hektar torpaq almış, becərməsini qayınatasına tapşırmışdı. Arada-bərədə gəlir, əkin-biçinə göz qoyurdu.

"Qapandar" qabaqda oturmuşdu, qucağında uşaq saxlamışdı, arxadakı Xeyransa idi. Onu görəndə paçamın arasından yüngül ağrı keçdi. Mıkı maşından düşüb ədəb-ərkanla mənimlə salamlaşdı.

- O gün "Adam içində" tox–şousunda, Xatirə İslamın yanında gördüm səni. Fəxrimizsən!

- Çox sağ ol, diqqətinə görə təşəkkür edirəm!

- Xətrinə dəyməsin, sən də olan kəllə kimdə olsa, dirəyi qızıldanıydı indi. Meyxanadan-zaddan da demədin ki, "Döşə, gəlsin"də adımı çəkəsən, yığışıf saa bir maşın alax, piyada gəzməyəsən sən gərək.

- Çox sağ ol, mən arada dalğınlaşıram, maşın sürə bilmirəm.

- Sən canı tələsmə, saa söz deyəjəm, xayış da eliyirəm öz aramızda qalsın!

- Buyur, bu nə söhbətdir!

Xır yolda adam olmasa da, Mıkı məni kənara çəkdi. "Adam içində" verilişində "əjdaha kimdir" sualına birgə cavab axtardığımız müğənni Xatirə İslamla şəxsi münasibətlərimin olub-olmamasıyla maraqlandı. Xatirəni daldan olan oğlunun,- türkün sözü-zad işlətmədi- kiçik toyuna gətirmək istəyirdi. Jurnalist dostum Mətin Axışdan Xatirənin nömrəsini öyrənib ona dedim. Maşına oturub getdi. Xatirənin maşındakı maqnitafondan gələn səsi xalamgilə çatanacan qulaqlarımdan getmədi: "Budur eşqin kitabı, olmayaydı belə kaş!.."

Çəpərlər əyilmiş, evlər köhnəlmiş, həyət-bacalar balacalaşmışdı. Kəndə gələndən addımbaşı qapıların daraldığını hiss edirdim, indi də xalamgilin həyəti az dəyirdi gözümə, balam, dünya yaman balacalaşıb, yaman.... Qohumlar ayağımın altında bir ovuc torpağa dönürdülər, adamlar ayağını yerdən üzərək torpaq olurdular, torpaq artmışdı, balam, yaman artmışdı, bəs dünya niyə balacalaşmışdı? Təkcə torpaq yox, adamlar da balacalaşmış, bürüşmüşdülər, insanlar cırlaşdıqca kitablar da kiçilmişdi, Zahidin atadan qalma kitabxanasının qulağının dibi saralmışdı. Çoxdan geridə qalmış illərdə məni bura çəkən kitablar nazilmişdi, səhifələri cırılmış, cildləri əzilmişdi. Qapıların yekə vaxtında o kitabların hamısını oxumuş Zahidə həsəd aparardım.

Kitabların qalın günlərində Zahid yaxşı oxucuydu. Onun tövsiyyə elədiyi romanları gətirib evdə oxuyar, qaytaranda fikirlərimizi bölüşərdik. Zahidin fikirlərini bölüşməyə tapdığı adam bir məniydim...

Sifariş olanda ev rəngləyər; olmayanda, gipsdən heykəllər düzəldər, bazarda satar, çaq-çuq edərdi. Camaat deyir, dədəsinin universitetə girməyə verdiyi min manat şirinliyi aparıb Minvodda urusa-murusa xərcləməsəydi, badədən yapışmasaydı indi beş kişidən biriydi Zahid. Onu daldada deyirdilər ağzıgöyçəklər, yeri gələndə o sözü danışanların adı Zahidin siyahısında yox idi. Onun qəbul elədiyi kişilər Babəkiydi, Nəsimiydi, Mirzə Fətəliydi, Üzeyir bəy idi, Cəlil Məmmədquluzadə idi, Əli Kərim idi, birinin də adını içəndə yadına sala bilmirdi. Bu dünyada qapıların yekə, kitabların qalın vaxtlarını görmüşdüm, fəqət, Zahidin ayıq vaxtı olmamışdı, olsa, yadına düşərdi axırıncı kişi də. Zahid ayıq olmasa da, sayıq olardı, el-obanın bütün ölüsünə, dirisinə, böyüyünə, kiçiyinə hörmət edərdi; qəbiristanlıqda hər məzarın başında ayaq saxlayıb mərhuma rəhmət oxuyar, yolda qarşısına çıxan hər uşağın əyilib üzündən öpər; bütün qadınlara ana-bacı ehtiramıyla yanaşar, bütün cavanlarla araq içərdi- kəndin ədəb-ərkanlı cavanlıq fəlsəfəsiydi. Lap cavanlığından “Daqqa” Kazımdan zəhləsi gedərdi. Nə var, nə var, Kirovabadda aqronomluğa girən “Daqqa” Kazım özünə sığışdırıb universitetdən kəsilən Zahidə salam verməmişdi. Odu-budu ağzıəyri gəzirdi “Daqqa” Kazımdan.

Xalamın bükdüyü dolmaya yaxın durmadım. Əlimi qapıdakı xoruza uzatdım:

- Bunu çığırt!

Xeyirdə-şərdə aşpazlıq edən xalamın göstərdiyim xoruzu “məni yeyin” çığırtısıyla süfrəyə gətirməsi beş dəqiqə çəkmədi. Süfrəni çardağın altında, yerdən açdırdım. Təzəcə yaşarmağa başlayan çəmənliyə palaz sərdilər, mütəkkə, döşəkçə atdılar. Azin özünü süfrəyə tam vaxtında çatdırdı. “Düz düzdə qalar! İkinizdə

düzdə qalmısınız, yenə düzdən əl çəkmirsiniz"- xalam yerdən oturmağımızı bəhanə edib mədəni şəkildə bizi tənqid elədi. Bərkini tutmadıq. Bərdə baharının ılıq havasında başımızı açdıq. Zahid bildirdən saxladığı ərik arağını ortalığa çıxartdı, onu mühafizə etməsiylə qürrələndi:

- Özüm ölüm, qış qapını kəsməmiş Pənah çəkdiyi arağın hamısını satıb qurtardı. Söz düşdü, ağzımdan qaçırdım ki, bəs, bacanağımın oğluna bir balon saxlamışam. Nə qədər elədilər "gətir içək", razı olmadım.

İlk qədəhləri toqquşduraraq Zahidin arağı saxlamağa çəkdiyi əziyyəti yüksək qiymətləndirdik. Göz yaşından ərik tamı gəlirdi. Belə araqdan bizə saxlamamaq günah olardı. Zahid günahlarını araqla yuyardı həmişə. Onun bu dünyada missiyası yumağa günah axtarmaq idi. "Daqqa" Kazımın da günahlarının hamısını Zahid sağlığa saxlamışdı, nə vaxtsa "daqqa" Kazımı yuyacaqdı, ona sözünü yuyatda deyəcəkdi. Zahid əsl sovet oxucuydu, deyəcəyi sözdən qabaq klassiklərin həyatından misal gətirməyi xoşlayırdı:

- Rəhmətlik Həsən bəy Zərdabi 20-ci əsrin əvvəllərində Bakı Dumasına namizədliyini irəli sürür. Hacı Aslan adlı Bakı zəngini ona alternativ olur. Rəqibi puldan basıb seçiciləri ələ alır, bir az pul, bir az zor gücünə səsverməni udur. Ayrı vaxt yazıçıya iltifat göstərən Kəblə Mirzə də Hacının felinə uyur. Bir gün Həsən bəy yolda köhnə dostuyla rastlaşır, onu sorğu-suala tutur:

- Kəblə Mirzə, mən təmiz adamam, ya Hacı Aslan?
- Əlbəttə sən, bəy!
- Mən çox oxumuşam, ya Hacı Aslan?
- Əlbəttə sən, bəy!
- Mən xalqa çox xeyir verərəm, ya Hacı Aslan?
- Əlbəttə sən, bəy!
- Mənə əlin tez çatır, ya Hacı Aslana?
- Əlbəttə sənə, bəy!
- Bəs niyə mənə səs vermədin, Kəblə?

Bu misalı ona görə gətirirəm ki, səsvermə günü məntəqəyə gedəndə qabağıma "Daqqa" Kazım çıxdı. Daqqa-daqqa məndən kimə səs verəcəyimi soruşdu. Sənə səs verməyimə ağzını büzdü:

- Mən Azinə səs vermədim!

"Daqqa" Kazımın Azinə səs verməməsi qəribə deyildi. Qəribə olan Həsən bəyin ötən əsrin əvvəllərində tənqid etdiyi, aydınlığa, azadlığa çağırdığı millətin eyni məişətdə yaşamasıydı. Görəsən, niyə dəyişə bilmədi Mirzə Fətəli, Mirzə Cəlil, Mirzə Ələkbər, Üzeyir bəy, Əbdürrəhim bəy sevgili millətimizi? Kitablarını oxudular, tamaşalarına getdilər, kinolarına baxdılar, güldülər, əl çaldılar, amma dəyişmədilər, yenə dönüb Vəliqulu, Hüseynqulu, Cəfərqulu, Mehdiqulu oldular, Novruzəli oldular, ay kişi! Niyə axı?

Zahid arağı hərlədi. Kəblə Mirzənin, Hacı Aslanın, "Daqqa" Kazımın sağlığına içdik. O, arağın tamını ağzından qaçırdı:

- Bilmirəm, Üzeyir Hacıbəyovun "Millət geridə qaldı" felyetonunu xatırlayırsınızmı? Orada Üzeyir bəy məsələni çox düzgün qoyur: "millət geridə qaldı" deməklə heç bir toplum irəli getməz!" Hətta deyərdim, millətə yol göstərmək, onu inkişafa səsləmək də azdır, əsl idealist doğru bildiyi yolun ağına düşüb gedəndir, arxasına baxmadan yürüyəndir. Axundov teatrın nə olduğunu bilməyən xalqa komediya yazırdı, Üzeyir bəy yazdığı operada oynamağa qadın aktrisa tapmırdı. Cəfər Cabbarlı "Oqtay Eloğlu" əsərində aktyor yetişdirməyən xalqa deyirdi: "varsansa yarat, yoxsansa çəkil, get tarix səhnəsindən!" Xalq var olduğunu sübut etdi. Adil İskəndərovu, Nəsibə Zeynalovanı yetişdirdi. Axundov ona yanıb tökülürdü ki, xalqımız Avropa xalqlarından istedadsız, bacarıqsız olmaya-olmaya çağdan geri qalır.

- Tamam, milləti tərəqqiyə yalnız idealistlər qovuşdura bilərlər- Zahid elə maraqlı məqamlara toxunmuşdu ki, Azin söhbətə qoşulmaya bilmədi- ona söz yox. Mirzə Fateh sualı başqa cür qoyur, məncə. Soruşur ki, nədən biz milli istiqlalımızı qazansaq

da, azad ola bilmədik? Niyə bazarımız sərbəst, cəmiyyətimiz açıq, dövlətimiz məhdud, hökumətimiz yaxşı olmadı? Nə üçün Azərbaycan Latviya, Litva və Estoniya sayaq demokratiyaya sıçrayışla keçə bilmədi, əksinə, avtoritarizmə, monarxiyaya, despotizmə yuvarlandı? Bax, bu suallara cavab axtaranda hərləyib-fırlayıb bizə eyni aforizmi deyirlər: "hər xalq öz hakimiyyətinə layiqdir!" Diktaturaya, avtoritarizmə layiq xalq yoxdur dünyada! O başqa məsələdir ki, dünyadakı avtoritar ölkələrin xalqları vətəndaş ləyaqətinə malik deyillər. Yəqin razılaşarsınız, "sakin" sözüylə "vətəndaş" ifadəsi arasında çox geniş sosial fərq var. Sakin, bir ölkədə, bir şəhərdə, bir evdə məskunlaşan, yaşayan, nə bilim, yemək yeyən, su içən, tualetə gedən adamdır, vətəndaş- ideyaları olan, tənqidçi, təşəbbüskar, etiraz edən fərddir. Bayaq adını çəkdiyimiz şəxslər əsl ziyalı idilər, vətəndaş idilər, hər ikisindən daha çox missioner idilər. O missionerlər Ləmbərandan Hacı Qaranı, Danabaşdan Məmmədhəsən əmini, İtqapanlıdan Novruzəlini tapıb ələ salırdılar, bizləyirdilər, istəyirdilər Hacı Qara, Məmmədhəsən əmi, Novruzəli vətəndaş olsun, qəzet oxusun, teatra getsin, operaya baxsın, səs versin, haqqını-hüququnu tələb eləsin, zənginlik davası döysün. Onlar salavat çəkməkdən, təsbeh çevirməkdən, şəbeh çıxartmaqdan, baş yarmaqdan, zəncir döyməkdən, xoruz döyüşdürməkdən, it boğuşdurmaqdan dala qalmırdılar. Müharibə gedirdi. Bir səngərdə aydınlarıydı, o biri səngərdə feodallar, təhkimli kəndlilər, ruhanilər. Aydınlar çiyinlərini istər Romanovların dövründə, istərsə də Leninin inqilabından sonra rus dövlətinə söykəyirdilər. Ruslar quzey Azərbaycanı İranla savaşaraq işğal etmişdi, cəmiyyəti İranın təsirindən qurtarmaq istəyirdi, ziyalıların qabağına yekə çızıq çəkmişdi, buyurun, öz toplumunuzu nə qədər istəyirsiniz tənqid edin, ancaq dövlətə toxunmayan. Bu minvalla dövlət xalqı kiçildir, vətəndaşı inkişaf etməyə qoymurdu, aydınlarımız isə problemin özəyinə gedə bilmirdilər.

- Halbuki, Avropa aydınları əsas sualı dövlətə ünvanlamışdılar- Azinin sözü bu yerə gətirməsi lap ürəyimcə oldu:

- Onlar "kim və necə idarə etməlidir" sorusuyla xalqları öz dövlətlərinə, krallarına və imperatorlarına qarşı etiraza, üsyana, inqilaba, vətəndaş müharibələrinə hazırlayır; daha azad, daha zəngin, daha maraqlı yaşamağa çağırırdılar. Onlar xalqa yox, dövlətə qarşı çıxırdılar. Azərbaycan aydınlıq hərəkatında yeni dönəm başlayır. Uzun illərdir Azərbaycanda axtarılan yeni aydın o adamdır ki, dövlətə qarşı çıxsın. Dövlətin mükafatına, təqaüdünə, fəxri adına, imtiyazına yaxın durmasın, verdiyi evdə yaşamasın, bağışladığı maşında gəzməsin. Ədəbiyyat, kino, rəssamlıq, musiqi, kəsəsi, mədəniyyətin bütün sahələri dövlətdən ayrılmalıdır. Yazıçı əsərini satıb pul qazanmalıdır, rəssam tablosunu. Dövlətə qarşı çıxmayan sənətin dəyəri yoxdur. Onu yaradan insan işıqdan məhrumdur. Azərbaycanda ziyasızın obrazı var, ziyalının obrazı yox; qaranlığın obrazı var, aydınlığın yox! Hələki bizim əsl aydınımız Kefli İskəndərdir- heç vaxt dövlətin çətiri altında yaşamadığına görə. Bu gün dövlət Azərbaycanda savadlı adama iki seçim tanıyır- ya mənə xidmət edəcəksən, kef çəkəcəksən, ya da ay İskəndər, marginallaşacaqsan.

- Qorxmayın marginallaşmaram!- bayrama gəlmiş tələbə xalaoğlum bizi salamladı.

Haqq-nahaq Zahid oğlunun "Əbubəkr" məscidində gödəkşalvar əxilərə qoşulacağından əndişələnirdi, xalam "Dalğa" Gənclər Hərəkatının yırtıqşalvar gədələrinə. Uşağı gözümçıxdıya salmışdılar. İskəndər uşaq deyildi, pis gözə tikan batsın, boylu-buxunlu gənc olmuşdu, tellərini yan daramışdı, Küy kəndindən gəlirdi. Ərik arağı Azinin dilini açmışdı:

- Qaqa, tabe olan, razılaşan adam heç zaman inkişafa xidmət etmir. Dünyadakı bütün kəşflər və yeniliklər etiraz edən adamlara məxsusdur. Etiraz- düzgün olanı axtarmaqdır, daha

düzgünü bulmaq iddiasıyla düzənə qarşı çıxmaqdır. Türkiyədə 1997-ci ildəki seçkilərdə Bülənt Ecevit mitinqdə çıxış edir: "Bu düzən dəyişəcək!" Bir vətəndaş qışqırır ki, "düzənlər halından məmnun, düzülənlər nə zaman dəyişəcək?" Haqlı sualdır! Düzülənlər dəyişməlidir! Düzənlər düzənə qarşı çıxanları həmişə cəzalandırmağa, özlərini qorumağa çalışırlar. Amma düzən cazibədar olduğu qədər də itələyicidir. Onun cazibəsinə düşənlər öz enerjilərini itirirlər, düzənin itələdiyi adamlarınsa enerjisi yığılır və etiraza çevrilir. Etiraz- enerjinin candan çıxma, sərf olunma formasıdır. ETiraz yeni nələrsə ETməkdir! Etiraz submədəniyyətdir. Bu submədəniyyətə malik olmayan xalqlar, cəmiyyətlər başlarının üstündə həmişə diktatorlar görməyə məhkumdurlar. Biz çalışmalıyıq, əlləşib-vuruşmalı, ETiraz submədəniyyətinə qarşı duran streotipləri sındırmalıyıq. Budur o streotiplər:

Dünyayla öz münasibətlərini aydınlaşdırmaq istəyəndə adama iki öyüd verirlər; deyirlər ki, bala, "dünya belə gəlib, belə gedəcək", "sən dünyanı düzəldən deyilsən." Buyur, tarixə bax, inkişaf eləmiş xalqların həyatına nəzər sal, dünya gəldiyi kimi getmir, dəyişir, yeniləşir, canlanır. Dünyanı dəyişdirən adamların hamısını ETiraz submədəniyyəti yetişdirib. Düzənlərin itələdiyi, qəbul eləmədiyi adamlar dəyişib dünyanı. Qorxma! Təkliyindən, kasıblığından, düşüncələrinin qəbul edilməməsindən qorxma! Dünyanı dəyişə bilməyəcəyindən qorxma!

Haçan özünü dünyaya elan elədin, ikinci öyüdü eşidəcəksən: "hökumətlə hökumətlik etmək olmaz." Niyə olmaz? Mənim əzizim, o toplumlar yaxşı yaşayırlar ki, hökumətlə hökumətlik edirlər, onlardan hesabat istəyirlər, istədiklərini görəvə gətirir, istədiklərinin dalından dəyirlər.

Bu səddi aşanların üçüncü boyunduruq gözləyir. Böyüyün sözünə baxmayanın böyürə-böyürə gedəcəyinə inandırmaq üçün bütün tayfa məşvərətə yığışacaq: Əyil! Allahın qabağında diz çök, dövlətin qabağında iki qat ol, böyüyün qabağında başını aşağı sal!

Onlara sual et: Allahın qabağında diz çökən, dövlətin qabağında iki qat olan, böyüyün qabağında başını aşağı salan bircə ləyaqətli cəmiyyət, zəngin toplum göstərə bilərsinizmi mənə?

Bu gün Qərb dünyası ona görə barışa, rifaha, zənginliyə qovuşub ki, etiraz enerjisi toplumun hərəkətverici gücünə çevirib. Martin Lüterin xristianlığın bir məzhəbi olaraq meydana çıxartdığı PROTESTantlıq insanlara bütün atalara- kilsədəki mənəvi ataya, çöldəki dövlət ataya, evdəki bioloji ataya qarşı çıxmaq haqqını tanıdı. Ataları adamların boynundan düşürdü. Ən böyük sənsən! Öz başını özün saxla! Öz həyatını özün qur! Səni razı salmayan nə varsa, ona qarşı çıx! Bil və agah ol: Sən Həzzin övladısan, Həzzdən yaranmısan və Həzzə can atırsan!

Samovar həzin-həzin cüyüldəyəndə "Daqqa" Kazım gəldi. Gəldimi, göndərdilərmi?- xalam him elədi: "artıq-əskik danışmayın yanında". Zahidin kefinə soğan doğrandı. "Daqqa" Kazım onun dost-doğma xalası oğlu və kənddə hakim partiyanın özək sədriydi. Özünü dünyada hamıdan ağıllı sayır, hər kəsə məsləhət verir, oturduğu hər yerdə Ulu Öndəri təbliğ edirdi. Təklif gözləmədən daqqa-daqqa palaza oturdu, soruşan olmasa da, təzəcə aldığı maşını təriflədi, oğluna tikdirdiyi evdən danışdı, hərləyib-fırlayıb sözü seçkilərdən saldı, çağrılmış bayatılara keçdi:

- Demə belə deyir, sənin gərək villaların olaydı, dalında cangüdənlər gəzəydi. Özünə umac ova bilmirsən, başqalarına ərištə kəsirsən. Evində yox urvalıq, könlündən keçir darğalıq. *Deftat* olmaq istəyirsən. Səni *deftat* qoyarlarmı heç? Demə belə deyir, hər evin, hər rayonun, hər ölkənin öz ağsaqqalı var. Sən katifin- "Daqqa" Kazım icra başçısına "katib" deyirdi- ağzını aramamış, hökumətin əleyhinə çıxannara qoşuluf *deftat* olmaq istəyirsən. Deyərdin, gedəydik qəbuluna, gənəşəydin, o da deyəydi namizədliyini ver, ya vermə. Demə belə deyir, kəllən var, əlin-qolun var, get özünə gün ağla, dədənin-nənənin qara gününü fikirləş...

- Demə belə deyir, görürsən də Kazım dayıda nə hikmətlər var, atalardan cüt-cüt sitat gətirir - Azini qızışdırdım.

- Kazım, bilirsən nə var?- Azin gerçəkdən qızışdı- yaranan gündən hakim partiyanın üzvüsən, səhv eləmirəmsə.

- İlk gündən!- "Daqqa" Kazım fərəhləndi.

- Oğlunu yol polisində işə düzəltməyə nə qədər rüşvət vermisən?

- Belə dana, bir az tərrədim...

- Bəs ali məktəbə girəndə nə qədər "tərrəmişdin"?

- Testdə rüşvət yoxdur ha, a bala. Gədə öz kəlləsinə girmişdi.

- Sənin gədən niyə ali məktəbə rüşvətsiz girir, işə pulla?

- Çıxardajax dana...

- Haradan çıxardajax? Haqsız-hüquqsuz millətin canından? Ayıb deyil? Utanmırsan? Utanmaz-utanmaz mənə ağıl verirsən. Bilirsən ki, sənin Ulu Öndərin hakimiyyətə bircə il tez qayıtsaydı, bu ölkədə test sistemi olmayacaqdı? Mən, Fateh Mirzə, on minlərlə kasıb-kusub universitet üzünə həsrət qalacaqdıq? Bəlkə sənin tayların uşağına rüşvətlə diplom alardılar onda, amma biz 100 faiz papağımızı günə verəcəkdik! Bayaqdan gəlmisən, görməmiş-görməmiş danışırsan, guya sizlər ağıllısınız, bizlər səfeh. Siz sadəcə görməmişsiniz! Geridəqalmışsınız! Mən pul qazanmağın yolunu sənin o oliqarx nazirlərindən yüz dəfə yaxşı bilirəm, bu ölkədə intellektlə, ləyaqətlə pul qazanmaq olmur, bizim davamız bunun üstündədir. Sənin müfəttiş oğlun yolda ona-buna əl açır, yadında qalsın Daqqa, mən bunu özümə sığışdırmaram! Xalqın canından çıxan mənə lazım deyil. Mənim həyat amalım yaltaqlanaraq, xalqı soyaraq qəsrdə yaşamaq deyil, mən "qara gün" düşüncəsinin adamı deyiləm. Siz qara günün adamlarısınız, mən ağ gələcəyin, fərqimiz budur! Get səni bura göndərənlərə de ki, Azin zirzəmidə də yatsa, türməyə də düşsə azadlığa xəyanət etməyəcək, köləliklə razılaşmayacaq! Öz meşşan

dəyərlərini mənə sırımağa çalışma, saqın mənə ağıl öyrətmə və axırıncı dəfə olsun, göndərsələr də, bir də mən olan yerə gəlmə!

"Daqqa" Kazım suyu süzülə-süzülə durub getdi. Zahidin kefi açıldı. Əli Kərimin "Babəkin qolları" şeirini dedi:

*Qolu sındırılmış Babək,*
*Yurdu yandırılmış Babək,*
*Qan rəngli bir arabada,*
*Şərq boyda bir xarabada,*
*Söyə-söyə,*
*Döyə-döyə,*
*Hamıya görk olsun deyə,*
*Kənd-kənd gəzdirilən Babək,*
*Ölübən-dirilən Babək;*
*Qollarını görməyəndə,*
*Azca rahat olan Babək,*
*Bir qırmızı yuxu içrə,*
*Uzaqlara dalan Babək,*
*Deyən Babək: - Aman dostlar,*
*Hücum çəkin qoşun-qoşun,*
*Orda mənsiz qılınc çalan,*
*Qollarımla bir vuruşun!*

***

Ağacların baş əyən günüydü. Çimib yatmış uşaqlar xoruzun axırıncı banını yarım saat qabağa çəkmişdilər, gecədən durub hinə cummuş, fallıqda yumurta qoymamışdılar. Dişə vurulan bayram yumurtalarının boşları boyanıb xonçalara, bərkləri papağa düzülmüşdü. Xonçalar dünəndən tutulmuşdu, belinə qırmızı bağlanmış günah cücərmişdi. Hamının gülən günüydü. İl boyu əzilmişlərin, sıxılmışların, alçaldılmışların qırışığı açılmışdı. Torpaqdan, havadan, sudan, oddan, ağaclardan və adamlardan fərəh axırdı. Ürəklər dağa dönmüşdü. Qan qaynarıydı Kümdə. İlin axır çərşənbəsini qutlayırdı el.

- Neçə belə bayramlara çıxasınız, Nadir dayı!

- Sağ ol başına dönüm, sağ ol!

- Sizinlə belə, Nəsir, sizinkilərlə belə! Ə, qadan alım ə sənin, niyə görünmürsən, dəmir ataq ayağının altına? Novruz bayramı olmasa, kəndə-kəsəyə ayağınız dəyməz - Sona xalaydı, Azinin anası.

- Dəyəndə dəyir, gərək günahımdan keçəsiniz, macal eləyib hal-əhval tuta bilmədim keçən dəfə. Ər-arvad hara belə?

- Yoluxmalı, doluxmalı bir şey yoxdur, başına dönüm, bizim işimiz Abbasın doqqazının qabağından o yana gedib-bəri gəlməkdir- Nadir dayı dolayı təsəlli verdi.

- Bizim Fəzinin gəlini- qardaşım Fəzini deyirəm, acıq edib, gedirik onu dədəsi evindən gətirməyə, qadan alım.

- Yaxşı eləyirsiniz, gətirin, küsənlərin barışan günüdür!

- Azin evdədir, başına dönüm, qapıdan qayıtma!..

- Ə, sən canın, aradan çıxma, xalan aşı yaxşı bişirir, bilirsən. Təknədə isti çiriş kətəsi var, çəkinmə, götür bir-ikisini ye!

Hamının ağırlığını–uğurluğunu tökən günüydü. Tonqalın çırpısı qapıda qalaqlanmışdı, qalanıb qaranlığı qaçırdacaqdı. Sona xalanın ev-eşiyə, həyət-bacaya, mal-qaraya hərlədiyi üzərrik üzərimə hopduqca hovu olmayan arvadın ürəyindən keçən gəlin gözümün qabağına gəlirdi.

Qismətin qapıya gələn günüydü. Təndirə çörək yapmışdı, sac asmışdı, qovurğa qovurmuşdu, şirniyyat bişirmişdi, Fəzinin gəlnini dədəsi evindən gətirməyə gedən Sona xalaya düyü arıtlayırdı, axşamacan aş dəmləməyi, qara qovurmağı da öyrənəcəkdi, qonşu qızlara qoşulub qulaq falına çıxacaqdı. Məlum məsələdir, xeyir eşidəcək,- ağızdan yaxşı söz çıxan günüydü- sağ əlini ər həsrətində olanların başına çəkəcəkdi, gərdəkdəydi gələn ilaxır çərşənbəyəcən.

Təzə otla damağı dadlanan dananın buynuzuna qırmızı bağlanmışdı. Darvazanın buynuzları o qırmızıdan ötəri ölürdü. Darvazanın başı dananın başına bıçaq çəkiləndə sevinəcəkdi.

- Deyirəm ay mahir balıqçı, sərrast atıcı- həyətdəki ağacın altında silib-yağladığı tüfəngi götürüb danaya tüşladım- yaman yeməlidir ha, payızdan o yana qalsa, əti qartıyacaq.

- Keçəlin ölən günüdür-dedi.

Ölənlərin yada düşən günüydü. Ömründə Bərdədən qırağa çıxmamışdı, Yevlağı da görməmişdi. Dədəm qoyardımı ayağını darvazadan çölə ata? O gün qıçını qırardı, saçını qoluna dolayardı, kəndin arasında meyitini sürüyərdi. Gen dünyada dədəm sənə gün vermədi, nənəm, gün vermədi; ömrü boyu üzünə baxdı, günü görmədi dədəm, görmədi. Getdi-gəldi səni söydü, getdi-gəldi səni döydü, getdi gəldi səni doğuzdurdu, altı oğul, dörd qız böyütdün, əlinin duzu olmadı. Bişirdiyin yeməklər duzsuz gəldi dədəmə, deyəniydi; yeyəniydi dədəm, səni qazanın başından bir yana qoymadı; qoymadı dədəm, doymadı dədəm. Dədəmdən cana doymadı nənəm, doymadı. Bozbaş bişirməyə, əriştə kəsməyə, inək sağmağa, pendir tutmağa, paltar yumağa, yun daramağa, kilim toxumağa, gəlmişdin dünyaya. Bişirəndə-düşürəndə gülərdi, yuyanda-yamayanda gülərdi, saxlayanda-sığallayanda gülərdi. Axır çərşənbənin səhəri arxın qırağından qara yumurta tapanda mən uşağıydım, dədəm zınqrovlu keçimi kəsirdi, gözümün yaşını ətəyinə silməyə getmişdim, o məni kiritmədi, dədəm, mən onu ağlatdım. Söz vaxtına çəkər, o gün xəfif külək əsirdi, nənə, külək əsirdi. Çox şeyi ağlım kəsməsə də, çox şeyi ağlım kəsirdi. Ağlım kəsirdi ki, Zeynəb Xanlarova "dünyanın xoşbəxti mənəm, mən" mahnısını içi sən qarışıq, bütün Azərbaycan qadınlarının adından oxuyur. Bəlkə də acıq verir; qazından, odundan oxuyur, nənə, odundan oxuyur. O nə sözüydü dedin, nənə? Yumurtaya baxıb o nə sözüydü basdırana dedin, nə, nə? "Qurban olduğum mənim çəkdiymi sənə çəkdirməsin, qızım"- dedin, elə dedin, eşitdim. Nənə, mən o günə qədər elə bilirdim, bütün qadınlar xoşbəxtdir, sən xoşbəxtsən, gəlinlərin xoşbəxtdir, qızların xoşbəxtdir; o gün elə bildim ki, Azərbaycanda bütün qadınlar xoşbəxtdir, tək sən xoşbəxt

deyilsən; indi anlayıram ki, heç biriniz xoşbəxt deyilsiniz nənəm, anam, mamam, xalam, bacım, arvadım, qızım, Azərbaycanda öz bəxtini öz qızına arzulayan qadın yoxdur. Xoşbəxt elə Lovizadır! Bəxtəvər yellənmək istəyir, nənəm, yellənmək istəyir. Gəl, səni yelləyim, Loviza... Gəl səni yelləyim, Kübele... Gəl səni yelləyim Persefona... Gəl, səni yelləyim, nənəm!

- Yıxacaqsan qızı, bəsdir, gəl, yumurta döydürəşək!- təklif elədi. Azarım tutdu. Balaca və ucu nazik yumurta seçib:

- Dəyişək, döyüşək? – qıy verdim.

- Yumurtalar onsuz da bizimdir, uddu var, apardı yox!- məzələndi.

- Qəti elə şey yoxdur, qağa, udsam axşam aşın qazmağı olacaq!- şərtimu şumda kəsdim.

- Onda get evinizdən yumurta gətir!- uşaqlaşdı.

- Sən kimin udmasını istəyirsən, Loviza?

- Özümün!– diplomatlıq eləmirdi, yumurta döyüşünün cazibəsinə düşmüşdü.

- Qoy doğuş qalib gəlsin,- dedik.

- Qoy, canlanma qalib gəlsin- dedik.

- Qoy müqəddəs kürə qalib gəlsin!- dedik.

Doğan və canlanan **MÜQƏDDƏS KÜRƏ**ni qırmızı boyadıq.

***

Bəlləbur kəndində bir evə girdik. Pəncərəsində qaranquş yuva qurmuş adi bir kənd evi idi. Məni bura kod adı Rüstəm olan xürrəm gətirmişdi. "Kürəçi, hər şeyi yaxşı-yaxşı başına vur"- qapını örtüb getmişdi. Evin divarları ağ və qara rənglə boyanmışdı. Hər iki başda fənər yanırdı. Otağın ortasına edam kötüyü, kötüyün başına balta qoyulmuşdu.

Başımı kötüyün üstünə qoydum. Baş-başa verib dərdləşdik. Baş sındırmağa gərək yoxuydu, bir yana baxanda. İllər öncə yürüməyə başladığım yoldu. Nə iş qalmamışdı başıma

gəlməyən? "Başını bu işə soxma" deyib telefonda söyənlər, "başın bədəninə ağırlıq edir" hədəsiylə qabağımı kəsənlər az olmamışdı. Azərbaycandan baş götürüb gedəkmi, ölkənin başına daş salanların qabağından qaçaqmı? Kim istəyir məni başı xarab saysın, kim istəyir başı gicişən. Mən sevgilimin dizinə qoymamışam başımı, ayağının altındakı yola baş qoymuşam, başıma qoyduğum vətəndir edam kötüyü. Bu edam kötüyündən qorxsam, uzaqbaşı başımı qurtaracam, amma başıaşağı yaşayacam ömrüm boyu; qorxmasam, başım uca olacaq hər zaman. Başına dolanım Baş Bəy, mən Azinəm, yalana, qorxuya, əsarətə baş əyməyən ruhunam sənin. Adım Babək yox, Azin olanda nə olar, azadlıq uğrunda başdan keçilməzmi? Nədən qorxum axı başına kül olmuş bu taxta qırığından? Taxtadan düzələn çarmıx da çürüyəcək yer üzündə, tabut da, taxt da, bu dünyaya azadlıq qalacaq. Döndü yoxdu, öldü var! Ölsəm, başın sağ olsun, azadlıq!

Başımı qaldırdım. Baltanı götürüb kötüyə çalmağa başladım. Kötüyə vurduğum balta həm də kötüyə vurulan baltaydı. "Qan və Üz"ün yolu kötülüyə, pisliyə qarşı çıxmaqdan başlayır. Kötüyə və kötüyə yeddi zərbə vurub dayandım. Baltanın çıxardığı yeddi səs Əsl Yolçulara təklifin qəbul edildiyini çatdırdı. Səbirsizliklə Əsl Yolçuların üzümə qapı açmasını gözlədim. Gözlədiyim qapı gözləmədiyim yerdən- döşəmədən açıldı. Kötüyün üstündən adlayaraq açılan lükə girdim. Pilləkənlə zirzəmiyə endim. Rüstəm orada gözləyirdi məni. Əynimə qırmızı qiyafə geydim, boynuma paxlavavari formada kəsilmiş ağ parça keçirdim. Qirmızı çust geydim. Başıma qırmızı çalma bağladım. Rüstəm yeraltı yolla məni Baş Bəyin 830- cu ildə sığındığı Bəlləbur qalasına apardı.

Qırmızı kərpicdən tikilmiş qalaya qırmızı xalçalar sərilmiş, qırmızı döşəkçələr atılmış, qırmızı süfrə salınmışdı. Qırmızı geyinmiş Əsl Yolçular qırmızı şərab tökülmüş qırmızı camın

dövrəsində oturmuşdular. Rüstəm xürrəmliyin üç cümləlik "Qırmızı kitabı"nı ortaya gətirdi. Ucadan oxudum:

- **"Qırx il qul kimi ömür sürməkdəndirsə, bir gün Bəy kimi yaşamaq yaxşıdır!"**

**- "Kimsənin əfvinə ehtiyacım yoxdur!"**

**- "Dara çəkiləndə dözümümü hər kəs görəcək"!**

Çörəyi doğradım. Bıçaqla barmağımı çərtdim, qanımı üzümə və xonçadan götürdüyüm əppəyə sürtdüm, tikəni uddum. Azadlığı çörəyə satmayacağıma and içdim. Dalınca qırmızı camdakı qırmızı şərabı çəkdim başıma. Rüstəm cama yenidən çaxır süzdü. Camı götürüb Əsl Yolçulara yaxınlaşdım. Mən yaxınlaşanda Əsl Yolçular niqablarını açır, kod adlarını deyir, camlarımızı toqquşdururduq. Müaviyə, Abdulla, Noğtay, Əzrək, Məzdək, Narşeh, Tarkan... Onlar Babəkin sərkərdələri olmuşdular. Hamısı yenidən canlanmışdılar. Belə şeylərə təəccüblənmirdim daha. Məni heyrətləndirən, dəhşətə gətirən Feofob oldu, Kütahyanın Kürəçi köyündə İstanbul Məryəm Ana Ortadoks Kilsəsindən Sevgi Ergen Ekonu görəndə belə təəccüblənməmişdim.

# ÇÖLSÜZ EVİN İÇİ

Sancıdan saralmışdım, qarnım doğranırdı. Bağırsaqlarım bağırırdı, tab gətirmirdi. Avtobusdan düşəndən üz-gözümü turşudub tualet axtarırdım. Özümü ayaqyoluna, ayıb olmasın, zorla çatdırdım. Yüngülləşib türk kinosunun kifayət qədər tanınmış komik obrazı Şabanın ağzıyla "of bə, dünya varmış" dedim və tualetin qapısına qara flamastrla yazılmış sözləri oxudum: "burada mütləq farsca danışmaq lazımdır..."

Burası irinləmiş İran İslam Respublikası. 1828-ci ildə Rusiya ilə sövdələşərək Azərbaycanı ikiyə bölən, ölkənin güneyini

müstəmləkəyə çevirən imam imperiyası. O imperiyanın ən böyük müstəmləkə şəhərinin avtovağzalında tualetdə oturmuşdum, hıqqınırdım, hıqqına-hıqqına tualetin qapısına əski əlifba ilə yazılanları oxuyurdum.

Güney Azərbaycana, güney Azərbaycanın ən qədim şəhərlərindən olan Təbrizə uçaqla təşrif gətirməsəm də, uça-uça, uçuna-uçuna gəlmişdim. Burnumun ucunu göynədən Təbrizdə burnumu sallayıb gəzirdim. Qəribiydim, qərarsızıydım avtovağzalda. Təbrizin təbiblərin dərman buyurduğu havasını, təzə-tər nəfəsini, təmiz ruhunu duymamışdım hələ. Qarayola qarınağrısı qoymamışdı. Qarnım sancılana-sancılana, içim doğrana-doğrana tualet gəzəndə gözümə sataşan andıra qalmış bildirişlər imkan verməmişdi. Xalqın dalda danışdığı dillə elanlar, bildirişlər yazılmış lövhələrdəki zəbanın fərqlənməsi Təbrizin müstəmləkə şəhər olduğunu addımbaşı anlatmışdı mənə. Tualetin qapısına yazılan cümlə o lövhələrə, o bildirişlərə bilmərrə kinayəydi. İran İslam Respublikasının Təbriz əhlində yaratdığı etirazı, imperiyanın düyünə düşdüyünü avtovağzal tualetinin qapısına istehza ilə yazılmış o bircə sətir aləmə car çəkirdi: "burada mütləq farsca danışmaq lazımdır..."

Gerçəyi tapmaq, doğru yolu bulmaq üçün həmişə tapınaqlara, məbədlərə, ziyarətlərə getmək, qalın-qalın kitablar vərəqləmək, simvollar, şifrələr çözmək, qurban kəsmək, nəzir paylamaq lazım deyil. Haqlı söz bəzən bəzəkli yox, zir-zibilin arasında çıxır qarşımıza.

Tualetdən çıxıb əl-üzümü yuyanda, güzgüdə özümə baxanda içimi çox yüngül hiss elədim. Təkcə bağırsaqlarımı boşaltmamışdım, zəhərimi də tökmüşdüm; İrana, onun dövlət quruluşuna, dövlət maraqlarına, millətləri əzməsinə dişimin dibindən çıxanı demişdim. Tez telefon tapıb Yasaq bəyə zəng elədim. "Evdə gözləyirəm"- dedi, məni qarşılaya bilmədiyinə üzülərək üzr istədi, ünvanı yenidən başa saldı.

Mənimlə yaşıd olan, sokaklarda solmuş sınıq-salxaq taksiyə mindim, Kücüvar məhləsinə sürdürdüm. Sürücü orta boylu, orta yaşlıydı, köküydü, köklü-köməcli təbrizliydi. Sınıq-salxaq maşınındakı tozlu radioda farsca yayınlanan son xəbərlərə qulaq asır, informasiyalara asta səsiylə səbirsiz-səbirsiz reaksiya verirdi. Onun reaksiyası yarımçıq olurdu, ardındakı sicilləmə sual cümləsini dilinin ucundan qayçılayıb qaytarırdı: "yaxçi bəs..." Taksidən düşəndə dübarə nə qədər verəcəyimi soruşdum sürücüdən. "Bir gorbagor!"- aldığım cavab məni çaşdırdı, gorbagor olaydım gorbagorun kim olduğunu başa düşdümsə. Avtovağzalda dəyişdiyim pulu ona uzatdım: "seç, götür!" Fikri radioda olduğundan dilini sürüyə-sürüyə sürücü "yaxçi" dedi, ona uzatdığım kom pulun içindən üzərində İran inqilabının lideri Ayətullah Xomeyninin şəkli olan əskinazı aldı.

Təbrizin Kücüvar məhəlləsində taxtapuşlu evin taxta darvazasını taqqildatdım. Qapını qaçaraq gəlmiş Yasaq bəy açdı, doğru-dürüst "xoş gəldin" deyəmmədi, qəhər onu boğdu, boynuma sarılıb hönkürdü. Mən də göz yaşlarımı saxlaya bilmədim, Arazın alağaclarını keçəndən dolmuşdum, kövrəlib-kövrəlib körpə uşaq olmuşdum. Arada gözlərim yaşarırdı, yaşaran gözlərimi əllərimin dalıyla silirdim xəlvətə salıb. Yasaq bəylə qol-boyun olub ağlaşdıq, ağlaşa-ağlaşa ağlaşdıq, ürəyimizin qara-qurasını, içimizdə ağırlaşmış hisi-pası göz yaşlarımızla yuduq.

*"Qar daşı, qar daşı*
*Qarlı dağdan qar daşı,*
*Elin könlü yar istər,*
*Mənim könlüm qardaşı..."*

Bayıldıcı bayatını çağıran Yağmur xanımıydı, gözündən yaş sel kimi axırdı. Əri tutulanda, dərd-səri sərindən aşanda ağlamamışdı. Aylarla ərinin yeri bilinməmişdi, gözündən yaş çıxmamışdı. Aylarla izinə düşməmişdi, dizinə döyməmişdi. ETTELAT-ın Təbriz şöbəsinin əməkdaşları bir gün evinə Yasaq

bəyin Tehrandakı Evin zindanında saxlandığını xəbər verməyə gəlmiş, əriylə görüşə aparmışdılar onu. Evindən evinə buraxmamışdılar, qazamata salmışdılar. Ömür-gün yoldaşının əleyhinə danışdırmaq, halalca ərinin üzünə durğuzmaq istəmişdilər Yağmur xanımı xanimanı dağılmışlar. Türmədə saxtalıqla saxlandığı günlərdə vəkili vasitəsi ilə xarici mətbuata çıxan xəbərlər mübariz Güney Azərbaycan qadınının obrazına çevirmişdi onu. ETTELAT-ın müstəntiqləri ərinin asılacağını söyləyəndə Yağmur xanım qürurunu sındırmamışdı:

- "Ya onu Təbrizə aparın, ya kəndiri Təbrizdən gətirin!"

Ərinin Azərbaycan qadınlarının əyirib-düzəltdiyi kəndirlə boğmağı təklif etmişdi ETTELAT-a o mətin, o iradəli qadın. Qazıların fitvasiyla yeddi ay o, sərhasər bir il də əri yatmışdı Evin qazamatında. ETTELAT-ın qəzəbinə tuş gələnəcən Yasaq bəy kitab və CD ticarəti ilə məşğul olur, Təbrizin mərkəzi xiyabanında xiridarlıq edir, dədə-babadan qalma mağaza işlədirdi. Quzey Azərbaycanın məşhur, məharətli bədii oxu ustası Ağalar Bayramın CD-sinin satılması ETTELAT-ın dükanla maraqlanmasına səbəb olur. ETTELAT məmurları mağazaya gəlir, yanğılı, yanıqlı səsi ilə Təbriz haqqında bayatılar deyən, "Bəs bu vətən necə olsun" şeiri ilə insanları öz yurduna sahib çıxmağa çağıran Ağalar Bayramın CD-sini müsadirə edirlər. "İran" adlı rəsmi nəşrin Azərbaycan türklərini təhqir etməsinin ildönümündə qəzetin üzr istəməsi tələbiylə təbrizlilər yürüşə çıxanda, öndə gedən Yasaq Dilavər ETTELAT-ın qara siyahısına düşür. O, həbs olunur və eyni gündə güneydə tutulan milli hərəkatçılarla birgə Tehrandakı Evin zindanına aparılır. Qazamatda ETTELAT Yasaq Dilavərdən adını, soyadını dəyişməyi tələb edir. Onların fikrincə, **"YASAQ DIL**avər" adı və soyadı siyasi anlam daşıyır, Azərbaycan türkcəsinin İranda qadağan edilməsinə eyham vurur. Yasaq bəy, heç şübhəsiz, etiraz edir: "nə adımı dəyişənəm, nə soyadımı, könlünüzdən keçirsə, ömürlük türməyə basın, asın, daş-qalaq edin məni!"

Yasaq Dilavəri "Allaha qarşı çıxmaq" qədər ağır cinayətlərdən sayılan "İran İslam Respublikasının əleyhinə təbliğat aparmaq" maddəsiylə edam etmək istəsələr, yumurtaya qulp qoyan qoluzorlulular çox mahna tapardılar. Yekə çıxmasın, onun türmədən buraxılmasında mənim rolum, mənim qolum oldu. Cahandar Bayoğlunun zəngi ilə onun və Yağmur xanımın işini uluslararası demokratik institutların gündəminə gətirdim. Cahandar Bayoğlu xaricdəki mühacirləri səfərbər edərək Norveçdə, İsveçdə, İspaniyada, Almaniyada İran səfirlikləri önündə dəfələrlə etiraz piketinin keçirilməsinə nail oldu. "Dalğa"çılar ağızlarını sarıyıb İranın Bakıda səfirliyinin qabağında susmaq aksiyası düzənlədilər. Gözü qırılan Tehran cəlladları Yasaq Dilavəri və Yağmur xanımı məhbəsdən buraxdılar, hədədən gəlib, dədədən qalma kitab dükanlarını isə əllərindən aldılar.

Gətirdiyim hədiyyələri həvəslə təqdim etdim. Yasaq bəyin oğlanları Qalxana və Vətənə İngiltərənin "The Guardian" qəzetinin "İrana qarşı seks-bomba" adlandırdığı Azərbaycan müğənnisi Röyanın təzə CD-sini, qızları Güneyə və Quzeyə Bakıdakı "Qız qalası"nın sinisini, Yağmur xanıma 1977-ci ildə Fatehin nənəsinin öz əlləriylə tikdiyi "Nüşabə qalası" tikməsini, özünə Sabir Rüstəmxanlının şeirlər kitabını bağışladım. O kitabda yer alan "Qan yaddaşı" şeirinin həsr olunduğu oğlan məniydim, Nüşabə qalasının böyründə fit çalanda Sabir bəyə rast gəlmişdim, yanına çağırıb başımı sığallamışdı, zaman sürətlə fitildəyib keçmiş, mən boya-başa çatıb fitimi tanımışdım, handan-hana şəxsən tanış olmuşduq, hər ikimiz yaddaşımızı eşələyib-fırlamış, fıştırığı göylə gedən o qırışmalı tapmışdıq.

Şahanə şam zamanı Qalxanla Vətən mənə şallaqlanmaqlarından danışdılar. Qardaşlar əkiziydilər, təzəlikcə Təbriz Universitetinə girmişdilər. Milli mitinqdə tutub bellərinə qırx şallaq vurmuşdular. Onları Təbrizdə cəzalandırmağa cəsarət eləməmişdilər, Xürrəm şəhərinə aparmış, orada şallaqlamışdılar.

Əkizlər şappaşap şallaqlananda valideynləri Tehranda, Evin həbsxanasında saxlanırdı.

Yasaq bəydən Evin həbsxanasını soruşdum, "düşmənim düşməsin ora"- dedi:

- Evin zindanı tarixi binadır. Evdə 1921- ci ildə baş nazir Seyyid Ziyəddin Təbatəbai yaşayıb. Evin quruluşu, şəraiti, əlbəttə, indi dəyişdirilib, dəyanətsiz molla rejiminin zülm, işgəncə, edam yuvasına çevrilib. Orada yatan, kir içində batan, vərəm tutan yüzlərlə dustaq edama məhkum edilib. İçinə tüpürdüyüm türmənin 209-cu bölməsi Kəşfiyyat Nazirliyinin ixtiyarındadır. Heç bir hökumət qurumunun ora ayaq basmağa rüsxəti yoxdur, bildir hətta həbsxanaya baxış keçirən İranın millət vəkillərini də içəri buraxmayıblar. Millət vəkilləri nədi, Evin həbsxanasının öz rəhbərliyi rədd edilir 209-cu bölmənin qapısından. Nəzarətçilər istədiyini edir, dustaqları söyür, döyür, ac-yalavac saxlayırlar. Xüsusi işgəncə otaqları, alətləri var, hansını qoyum, hansını götürüm, min halətləri var. Evinə girən evinə ya yarıcan qayıdır, ya ölü, ya da heç qayıtmır. Azərbaycan dilinin qrammatikasını öyrənməyə görə ora düşən Səttar Səlimini boğublar, meyidini ailəsinə təhvil verəndə arsız-arsız "Araza düşüb Bakıya qaçanda" deyiblər. Halbuki, ETTELAT etiraf etmişdi onu tutduğunu.

- Sizə qarşı necə davranırdılar daşürəklər?

- Mən göydən göy zənbillə düşməmişdim ha? Beş kvadratmetrlik karantin kamerasına salmışdılar. Neçə həftə nə xəbər, nə ətər! İkinci ay mənə ailə üzvlərimin həbs olunduğunu və Evində saxlandığını bildirdilər, bilaixtiyar sarsıldım. Oğlanların dərdini çəkmirdim, Yağmurdan da arxayınıydım, hər nə qədər xəstə, hər nə qədər vasvası olsa da, onun dözəcəyinə, qurtulacağına inanırdım. Ürəyimə qızları qıfıllamışdım. Mənə qızların fahişələrlə eyni hücrədə saxlandığını deyir, lağ edirdilər, ələ salanda lap ağ edirdilər. Beş kvadratmetrlik dünya başıma lap dar olmuşdu, beş günlük dünyaya nifrət edirdim. Evin zindanında, əsasən siyasi məhbusların və casusların saxlandığı

bölməyə fahişələri qəsdən salır, nəcabətsiz nəzarətçilərin əlinə verirlər. Qızlarımın onlarla eyni kamerada, eyni şəraitdə saxlanması mənə ağır gəlirdi. Çıxanda bildim ki, qırılmışlar qızları heç tutmayıblarmış. Nə təhər sevindim, nə təhər həyacanlandımsa, verilən bütün işgəncələri unutdum.

"Evin yıxılsın, Evin yiyəsi"- həbsxanada çəkdiyi əzabları xatırlayan Yağmur xanım iki əlli boğma çıxartdı.

Yasaq bəylə nəşəylə nərd oynadıq. Oyunun gedişində Yasaq bəy ehtiyacı olan dörd qoşanı atanda çox sevindi, götürüb zəri öpdü: "Azərbaycanı da belə qoşa görsəydim, cüt görsəydim dərdim olmazdı." Ona İranın irəliləyə bilməyəcəyini, tifaqının mütləq dağılacağını söylədim:

- Sovet İttifaqının çöküşü və kommunizimin iflası fərqli rəngli, fərqli görünüşlü, ancaq eyni xislətli rejimlərin işini fırığa salıb. İran əhalisi inqilabdan bu yana iki dəfə artsa da, iqtisadiyyatı sürətlə qabağa qaçmayıb. Həm ölkənin yoxsullaşması və dünyadan təcrid olunması, həm totalitar quruluşların qısırlığı, həm də post-sovet məkanda müstəqil dövlətlərin meydana gəlməsi, xüsusən, Quzey Azərbaycanın istiqlala qovuşması İranı silkələyir. İran artıq dizin-dizin sürünür, uzun sürməyəcək. Onun özünü dəyişmək, özünü yeniləşdirmək şansı yoxdur. Pəhləvi sülaləsinin mollalarla əvəzlənməsi əvvəlki İranı mahiyyətcə dəyişdimi? Yox, dəyişmədi, dəymədi imperiya maraqlarına. Pəhləvi şahları fars mərkəzli siyasət yürüdür, islamı dışlayır, özlərini Qərbə qəsdən yaxın göstərirdilər. Əsrlərlə əsarətdə saxladığı xalqlara iranlı kimliyi aşılayırdılar. 1979-cu ildə gerçəkləşdirdikləri islam inqilabıyla hakimiyyəti ələ keçirən mollalar İranı dünyadan təcrid edib, millətləri minməklərini müsəlmançılıqla pərdələyirlər. Farslar demiş, çifayda, həm iranlı, həm də müsəlman kimliyi deqradasiyaya uğrayıb. Hər gün Təbrizdə, Zəncanda, Ərdəbildə və digər Azərbaycan şəhərlərində ETTELAT-ın apardığı repressiya insanları ana dilində təhsil almaq, dünyaya açılmaq, yaxşı yaşamaq istəyindən məhrum edir.

Az adamı susdurmaq olar, bu boyda millətin dilini qopartmaq, boğazını qurutmaq, ürəyini çıxartmaq olmaz. Azərbaycan yırğalanır, yıxacaq İranın evini. Evini də, Evini də!

Bizə çay gətirən Yağmur xanım sözümə qüvvət verdi:

- Düz deyirsən, qardaş. İran əhalisinin az qala yarısı türkdür. İran tərəqqisini Təbrizə borcludur. Quzey Azərbaycanın Rusiyanın sol axınlarından təsirlənməsi, sağ düşüncənin Osmanlıda və Türkiyədəki mövqeləri Təbrizi də zaman-zaman silkələləyib. Təbriz İranda ilk modern çap evi, redaksiya və məktəblər ilkələyib. Ana Yasa, suverenlik, parlament anlayışlarını İrana qazandıran siyasi mərkəzdir bizim şəhər. 20-ci əsrdə Azərbaycanda Səttarxan, Xiyabani, Pişəvəri, Şəriətmədarinin başçılığı ilə dəfələrlə üsyanlar qalxıb, qaç kərə müstəqillik qazanmışıq, az ömür yaşasa da, 1920-ci ildə "Azadistan" Respublikasını elan etmişik. Bunları bugün bilən varmı dünyada?

- Narahat olma, Yağmur xanım,- sualını cavabsız qoymadım- dünyanın bütün ciddi cinahları bilirlər ki, böyük inqilab təcrübəsi olan Güney Azərbaycan yenidən ayağa qalxır. Liberalizmin liderliyi və kürəçilik əsarətdə olan xalqlara xaraba imperiyaları sorğulamağa, öz haqlarını tələb etməyə şans yaradır. İran nüvə silahı ilə yaraqlanmaqla yaşadığımız bölgəyə baş ağrısı olmaqla yanaşı, bütün dünyanın təhlükəsizliyini şübhə altına alır. Super güclərə gücənmək mənasızdır. Güney elə mütəşəkkil, davamlı dava aparmalıdırlar ki, həlledici anda bağımsızlığını elan edə, tanıda və Quzeylə birləşə bilsin. Siz nə deyirsiniz, devrimçi qardaş?

- Molla rejimi ölkədə üst-üstə qalanmış narazılıqları, güclənən etirazları ABŞ-a calamaq istəyir. Narazı olanlar, etiraz edənlərin hamısına "Amerikanın casusu" yarlığı yapışdırmaq olmur. Çöküş rejimi sərtləşdirir, amansızlaşdırır, Tehran milləti qısnayır, qılıncdan keçirir. Mollalar dünyanı vecinə almırlar, hər halda, İraq və Əfqanistandakı xərcləri əndazəni aşan çağda ABŞ-ın hərbi güc işlədəcəyinə inanmırlar. Quzey gözlədiyimiz dəstəyi

dəbbələyir, diasporamız didişir. Gör nə aləmdirsə, ABŞ-dan yayınlanan "Günaz TV"-yə baxmamaları üçün camaatın damından peyk antennalarını mollalar mola vermədən yığışdırırlar. Bəzdə bəh-bəhlə bəhanə bəstələyirlər: "qalanın ətrafında arxeoloji qazıntılar aparırıq"... O nəğmələrə qulaq asan yoxdur, hamı ağı-qaradan seçir, millət öz dilini, öz azadlığını, öz rifahını istəyir. Gizli təşkilatlar, açıq dərnəklər qururuq, rejimi əldən salır, yoruruq. Himə bənddir Güney Azərbaycan. Himi edəcək lider, sadəcə, hələ yoxdur ortada. Doktor Mahmudəli Çöhrəqanlının mühacirəti mübarizəni ləngitdi, içəridə lider boşluğu yaratdı. Yeni liderin ortaya çıxmasına, yeni dalğanın qabarmasına zaman və seçkilər kimi açıq siyasi şərait lazımdır.

- Ümid bəslədiyiniz kimsə yoxdurmu?

- Ümid bəslədiyim adam çox gəncdir, güdaza vermək olmaz.

- Yaşı neçədir, kimdir?

- Yaşı 21-dir, adı Ərsundur.

- Tələbə hərəkatının fəalı?

- Tələbəliyini tamamlamaq üzrə. Özün ətraflı tanış olarsan, bir azdan bizə gələcək...

Ərsun ərz elədi ki, atasını İran-İraq savaşında itirib, bir qarnı ac, bir qarnı tox anasının himayəsində böyüyüb. Qavaralı oğlanıydı, iti ağlı, iti nitqi varıydı. Bişmiş, bic uşağıydı. Qanını qaşığa qoymuşdu. Ərsun ərsəyə gizli tələbə təşkilatı gətirmişdi. Təşkilat təlatüm tərəfdarıydı, tələsirdi, tətikdəydi, təhdidlər, tələlər, təhlükələr təpələrindəki tərəqqi təşəbbüslərinə təsir göstərmirdi, "Təbrizin tələbələrdən təmannası"nı tərtib etmişdilər:

- Tarix xəyalların xəlvət-xəlvət gerçəkliyə çevrildiyi yoldur. Əsl Yolçu xəyallarındakı dünya, xəyallarındakı azadlıq boydadır. Bu vətəni boyunduruqda saxlamaq, başını qapazlamaq, qanını içmək istəyənlər sənin də ətinə yerikləyəcəklər. Qorxmayacaqsansa, usanmayacaqsansa, yorulmayacaqsansa

günü sabahdan gir, atıl meydana. Baş Bəy əsir alındı, Samirəyə gətirildi, qafası qalib Mötəsimin hüzurunda edam kötüyünə qoyuldu. Xilas yolu olmadığnı, xilafət sarayından sağ-salamat çıxmayacağını, xirtdəyinin üzüləcəyini bilirdi. Bilə-bilə xəlifənin bütün təkliflərini, təminatlarını rədd etdi. Baş Bəy ölərkən güldü! Bağışlamadılar onu doğrayan Nudnudu, qanını, qarnını deşdilər, dilini kəsdilər. Əsir düşərək xəlifəyə qulluq göstərən keçmiş şahzadə Afşin Bəz qalasını tutanacan lazımıydı Mötəsimə, acından zarıya-zarıya gəbərtdi onu türmədə tünbətün oğlu. Bəli, bu yolun üç başı yoxdur, iki başı var, ya sonda güləcəksən, ya da sonuna güləcəksən. Sonda gülən də qəhrəmandır, sonuna gülən də. Azadlıq davasına girən hər kəs tarixin ən böyük üsyançısı Baş Bəy sayaq cəllada gülməyi bacarmalıdır. Daha bir dəfə qanrılmağı, qanıyla üzünü boyamağı, gorsuz-məzarsız qəhrəman olmağı fəxri xiyabanlarda dəfn edilməkdən üstün tutmalıdır. İsa əqidəsini çarpaz çarmıxda, Baş Bəy edam kötüyündə təsdiq etdi. Əsl yolçuları ya İsanın çarmıxı gözləyir, ya Baş Bəyin edam kötüyü. Bizim əsl sevgilimiz çarmıxdır, dar ağacıdır, edam kötüyüdür. Sevginin, azadlığın, üsyanın üstələnməsi, çarmıxa çəkilməsi enerjinin tarixdən gələcəyə axıdılmasıdır. Mismarlar paslanır, millər çürüyür, milçəklər murdarlaşır, İsanı otuz gümüşə, Baş Bəyi milyon dirhəmə satanlar ölüb gedir və canlanmırlar! Azad ruhlar dolaşır dünyanı, nəsildən-nəsilə, insandan insana keçir, gah mənim canım olurlar, gah sənin. Gah mənim gözümün işığı olurlar, gah sənin. Gözündə azadlıq işığı olan adamlar səbrini basa bilmirlər qadağalar, qadalar görəndə. Mən Sizi öndər olmağa, başda oturmağa, hər kəsi əmrinizə müntəzir etməyə çağırmıram, ucalığa- çarmıxa can atın, zamanın qabağında addımlayın, əllərinizi yana açın, yüyürün edam kötüyünə, qucaqlayın çarmıxı. İtaətkarların boyundan uca, diktatorların soyundan uludur çarmıx. Yerdən üzüləndə ayaqların torpağa öpüş göndərməkdir, bıçağın altına uzananda boğazın boş göy üzünə tüpürməkdir əsl yolçuluq. Yer üzündə

çabalayan adamlar, göy üzündə vurnuxan quşlar görə, duya bilmirlər çarmıxdan görünən dünyanı, çarmıxı canına çəkə, çarmıxın ağrısını ala bilmirlər. Canınızda çarmıx sevgisi varsa, durun irəli!

***

Vətənlə vətənə çıxdım. Vətən vəd vermişdi dünən, məni "Qapalı çarşı"da gəzdirməyə boyun olmuşdu. Təbrizin bütün küçələrində farsca yazılmış yaşıl plakatlara, Ayətullah Xomeyninin portretlərinə, İraqla savaş səhnələrini əks etdirən tablolara rast gəldim. Qurandan ayələr, peygəmbərdən hədislər yazılmış, dini-siyasi liderlərdən sitatlar gətirilmiş lövhələrlə xalqı qandırmaq, hədəfindən yayındırmaq istəyir rejim. Bazara girdik. Bəlkə allanı aldadır, evdə danladır, mayanı qudurdub nəfi yedizdirir, fəqət müştərisinə hər malın, hər dövlətin əyər-əksikliyini açır, hər xalqın hər üzünü göstərir bazar. Üzü üzlər görüb Təbriz bazarının. Təbrizlilər addımbaşı adamın düz gözünün içinə baxırlar bazarda. Adamı gözündən oxumaq, gözündən tanımaq, kimliyini, nəçiliyini, hansı yuvanın quşu olduğunu baxışlarından öyrənmək istəyirlər. Nə kişilər, nə də qadınlar yayındırırlar baxışlarını özgələrdən. Qolaylıqla tanışmağa, söhbətləşməyə imkan verilməyən məhbus məmləkətdə insanların göz-gözə gəlməkdən başqa çarəsi qalmayıb. Yadda saxlamaq istəyirlər qarşılaşdıqları adamları. Xatırlamaq, haqqında düşünmək, özünə doğma olan cəhətlərini kəşf etmək və qəlblərinə yazmağı umurlar adamları. Danışılacaq, danılmayacaq o qədər sorunlar var ki... Nə aça bilirlər, nə bükə. Ürək qızdırmağa, can yandırmağa kimsələri yox. Təkləniblər. Dövlət bir tərəfdən, şəriət bir tərəfdən, yoxsulluq bir tərəfdən əzib onları. Nənələr bütün nagılları, mollalar bütün hədisləri, dövlət bütün gopları danışıb, qurtarıb. Nağıllardakı almalar, cənnətdəki hovuzlar, siyasətdəki şirniquşlar çəkmir, çəminə salmır Təbrizi. Təbrizdə insanın insana ehtiyacı var. Şəxsiyyətini aktuallaşdıra və

reallaşdıra bilməyənlər baxışdıqları adamların gözündə fürsət arayırlar. Adamların hamısı göz-gözə gəlib, hamısı bir-birini duyub, bir-birini oxuyub bu şəhərdə. Təhtəlşüurlar birləşib, istəklər üst-üstə düşüb, arzular qoşalaşıb, cəmləşib, toparlanıb bu şəhərdə. Təbriz yaratmaq istəyir. Yenidən yaranmaq istəyir. Bütünləşmək istəyir. Gün gələcək, adamların gözündən tökülən qığılcım, baxışlarından yağan od Təbrizdə etiraz tonqalına çevriləcək. O tonqalın başında enerjisini, gücünü hiss edəcək millət. O tonqal yandıracaq İranı, yaxacaq Evini, adamlara göstərəcək eşiyi.

Ayrı yer olsaydı, gözümün içinə baxan arğaz oğlanın yaxasından yapışar, "nədəəəə" deyərdim. Yaxasından yapışmadım. "Nədəəəə" deyib üzünə bozarmadım, boğazından tutmadım. Qardaş qabağımda dayandı. Adətən, belə yerdə tanımadığı adamla söhbətə girişənlər ya mal sırımaq istəyir, ya pul diləyir, ya da bazarın od tutub yanmağından şikayətlənirlər. Təbrizli qardaş nə alverçiydi, nə dilənçi, heç köhnə bazarın təzə nırxından da şikayət eləmədi. Danışmaq istəyirdi. Söhbət etmək istəyirdi. Ürəyini boşaltmaq istəyirdi. "Məni çalmayan ilan min yaşasınmı, səncə"- gözünü gözümdən çəkmədən soruşdu. Mənim cavabımı gözləmədən sualı xırdalamağa başladı:

- Məni, yəni məni,- əli ilə sinəsinə vurdu- çalmayan ilana "min yaşa" deməyin düz olmaz. Məni çalmayan ilan, səni çalıbdır, bəlkə? Səni çalan ilan, bəlkə məni də sancacaq səhər, hardan bilim?

- Xalasının dabanına lənət, yaxşısı budur ilanın başını balacalığında əz!- ona məsləhət gördüm.

- Elə mənim də deməyim odur ki, məgər ilanın başını vaxtında əzməmişik, yekəlib, kökəlib, dikəlib əjdahaya dönüb, gəlin gözləməyək tək-tək axırımıza çıxsın. Əlbir olaq, dilbir olaq, gedək başını əzək...

Bığıburma qardaşın adı Cəlal idi. İlan məhəllələrini məəttəl qoymuşdu:

- Bizim məhəllədə iki ilan var, biri ağdır, biri qara. Deyirlər, yerini qaralayıb qaranı öldürək, ağa dəyməyək; mən də ağzımı yoruram ki, əşi, ilanın ağına da lənət, qarasına da lənət, əjdəhadan bizə xeyir gəlməyib, gəlməyəcək də!

Səd heyf, Cəlalla ətraflı tanış olmağa, danışmağa, söhbətinə qulaq asmağa macal olmadı. Yağmur xanım günortayacan evə qayıtmağı tapşırmışdı. Tapşırmasaydı, axşamacan "Qapalı çarşı"nın qapısından çıxmazdım. İki tümən üstündə iki saat sövdələşən, qiymət öldürən təbrizlilərə göz qoyardım. Təbrizin qədim "Qapalı çarşısı"nda alıcılarla satıcıların çənələşməsi çərənçilik, "aşağı-yuxarı söhbəti" yox, danışmağa bəhanə idi. Qapalı toplumda danışmaqdan, mövqeyini ifadə etməkdən məhrum edilmiş incik insanların ünsiyyətə rahat girə biləcəyi yeganə məkan ora idi, halbuki bütün qapalı bazarlarla bahəm dünyadan ayrıydı, aralıydı, sövdəgərləri "çökkə" işlədirdilər.

Axşamüstü Vətən və Qalxanla piyada Elgölü parkına getdik. Məmə yeyəndən pəpə deyənə Təbrizdə hamı buradaydı. Gölün qırağında salınmış sakit parkda hava alırdılar, çay içirdilər, voleybol oynayırdılar. Polislər, sərbazlar, mülkü geyimli ajanlar gecə-gündüz güdükdəydilər. Ajanların güdüyü altında alındım, ürəyim qısıldı. Gedib oturduq çayxanada. Çal çayçı çay qoydu. **"İran" adlı rəsmi qəzetdə** dərc olunan elanı oxudu mənə Vətən: ***"İmam Rzanın ziyarətinə gələn qardaşların rifahı və onların müqəddəs Məşhəddə olduqları zaman halal yolla cinsi ləzzət almaları üçün Xorasan vilayəti ərindən boşanmış və bakirə bacıların siğə mərkəzini yaradıb... "***

- Məşədi olmaq istəyirsən?- Qalxan ehmalca soruşdu.
- Məhəl qoyma, müsəlman deyiləm!
- Mən ölüm, hansı dinə tapınırsan?
- Məhz "Qapalı çarşı"dakı ilan boğanın dininə!
- Məgər o peyğəmbərdir?

- Məsxərəyə qoyursan? Mən o dinə inanıram ki, onun Tanrısı, tabuları, kitabı, peyğəmbəri, imamı, mollası yoxdur. Hər kəs özünün Tanrısı və elçisidir. İnsan axtardığı həqiqəti kitabda da tapa bilər, filmdə, musiqidə də. Məbəddə də, tualetdə də, internetdə də. Onu sənə bilgili də deyə bilər, sevgili də, avam da, düşmən də. Nə aradığını, nə axtardığını bilsən yetər.

- "New age"???

- Xürrəmlik!

- Sən iki axını necə birləşdirmisən?

- Sən onlarda fərqli nə görürsən?

Paşa-paşa parkdan çıxdıq. "Səni heç zaman unuda bilməyəcəyin səfeh səhnəyə baxmağa aparacam" – dedi Vətən. Gedəcəyimiz yer uzaq olmadığından yolu piyada qət etdik. Elgölündən gələn yolun İmam Xomeyni xiyabanı ilə kəsişməsindən azacıq aralıda yerləşən "Can bazarı"na getdik. "Can bazarı"nda gənc qız Müxəmmirəni camaatın gözü qabağında asacaq, daşa basacaqdılar. Müxəmmirə fagır fars qızıydı, Şırazlıydı. Müsibətini Təbrizə göstərməyi rejim qəsdən düşünmüşdü. Adamları öz şəhərində daşlamağa, dar ağacından asmağa qorxur molla rejimi. Təbrizdə edam edilməsinə daha incə səbəb səfil qızın qırmızı adıydı. Qırmızı geyən başıalovlu Babəkçilər tarixdə həmçinin müxəmmirə adıyla məşhurdurlar. Zinakarlıq üstündə ölümə məhkum edilmiş Müxəmmirəni mücadiləçi Təbrizdə edam etməklə xalqa mesaj verilirdi: "xürrəmlər zinakar olublar!" Qalsın qulluğunuzda, quqqulular!

"Can bazarı"nın dörd yanı xəfiyyəylə doluydu, poqonun, polisin əlindən tərpənmək olmurdu. Verdikləri mesajın qayıdıb qafalarına dəyəcəyindən qorxurdu rejim. Müxəmmirənin edamına qarşı çıxan hünərli hüquq müdafiəçiləri ortamı gərginləşdirmişdilər. Ölkədəki xarici telekanalların mürtəd müxbirlərinin edam səhnəsini lentə almasına əngəl olmaq tapşırılmışdı xəfiyyələrə. Qalsın qulluğunuzda, quqqulular!

Həmin günün səhəri BBC telekanalı Müxəmmirənin edam səhnəsini yayınladı. Fitvanın icrasında əldən-ayaqdan gedən, qızın boynuna kəmfürsətliklə kəndir keçirən mollanın üzünə çırpılan çarşabı bütün dünya gördü. Dünyanın lənətlədiyi o görüntüləri gizlincə mən çəkmiş, informasiyanı internet vasitəsiylə BBC-yə göndərmişdim. Bunu insanlıq adına və quqqulu mollaların acığına etsəm də, Bakıya qayıdanda həyatımı həqiqətən risqə qoyaraq çəkdiyim o görüntüyə BBC yaxşı qonorar verdi. Həmin qonorar qolumu qoynumdan götürdü, Babəkin sirrlərini axtarmağım üçün göydəndüşmə oldu.

Müxəmmirənin çarəsizlikdən çarşabı mollanın üzünə vurduğu səhnəni BBC yayınlayanda mən yoldaydım, avtobusla Təbrizdən Kəleybərə gedirdim. Kəleybərdə məni qabalıqla qapadılmış "Çağrı" qəzetininin əməkdaşı, Evin zindanının daha bir keçmiş məhbusu Yürüş qarşılayacaqdı. Koçulu məhəlləsində yerləşən evlərinə qonaq aparacaq, axşam onlarda qalacaqdım. Sübh tezdən şələ-şüləmi yığışdırıb onunla Bəz qalasına yollanacaqdım.

## "T"OXUNUŞ

Diplomunu özü ilə götürmüşdü. Anasının yaylığına büküb diyircəkli çemodanın arxa gözünə qoymuşdu. Hərdənbir çıxardıb baxır, əli ağzında yana-yana ayın-oyunlarını qabqarlayanda arvadın başından açıb verdiyi örpəyi iyləyir, qəhərlənirdi. Anası yaylığın bir ucuna ağladığı qanı silmişdi, o tərəfi dolan gözlərinin nəminə çəkməyə əli gəlmirdi, örpəyin digər küncünə onun öz qəhəri hopmuşdu. Yaylıq göz yaşı qoxuyurdu və o qoxu diplomdan gələn oduncağın iyini duzlamışdı. Duzlu oduncaq iyini ciyərlərinə dartan burnunun ucu anasından, rayonlarından,

yataqxanadan, universitetdən, Xəqani-33-dən ötrü göm-göy göynəyirdi. Yadına Çinqouzda- Bərdədən Ağcabədiyə gedən yolun dövrəsi- yediyi xaş düşürdü, Kamalın xaşı rayonda adla deyilərdi, deyilmişkən varıydı, dana dırnaqlarının sap-sarı həlimi barmaqlarının beşini də bir-birinə yapışdırmışdı, başına limon sıxıb bir çappa stəkan "Bəy" arağı vurmuşdu, qəlyanaltının nə vaxtsa hansısa məktəbin, yaxud ictimai müəssisənin yeməkxanasının ayağından silinmiş sınıq-salxaq kətillərinə, bir qırağına domino xalları yazılmış göy üzlü mizlərinə və narıncı boya ilə üzdən rənglənmiş fanerlərinə baxmışdı, çölə çıxmışdı, burnuna səhər-səhər təzəcə köz salan manqaldan kömür iyi gəlmişdi, uzun manqalın başındakı xeyir-şər samovarını görəndə eyninə xoruzquyruğu çay düşmüşdü, dəmlətdirib iki armudu stəkan içmiş, tənəklə qol-boyun olmuş çəkilin budağında cikkildəyə-cikkildəyə o yana-bu yana tullanan sərçənin şəklini çəkmişdi, digital aparatın plyonkasız necə şəkil çəkdiyini o sualları fizika müəllliminə verməli olan Tomuya, yalan olmasın, yarım saata güc-bəla ilə başa salmışdı, könlünü xoş eləmək üçün bığ yeri təzəcə tərləyən xidmətçini də kadra çevirmişdi. Kamalın yanından çıxanda qaşdakı dəmir dükanının qabağından keçib o taya getmək, körpünü piyada adlamaq istəmişdi. Qaşdakı dəmir dükanının işləyib-işləmədiyinə göz qoya bilməmişdi, yanından keçən motorelin səsi onu uşaqlıq illərinə aparmışdı, Təzə bazarda dədəsi ilə yediyi ilk pitidən tutmuş, kitabxananın dalındakı evinə hazırlığa getdiyi rayonun ən savadlı tarix müəllimi Sərdar Zeynalovacan hər kəs, hər şey gəlib gözünün qabağından keçmişdi. Bir də baxmışdı ki, dəmir yolu vağzalındadır, 1941-45 müharibəsində oğlunun qara xəbərini alan ananın heykəlinə baxıb, böyük körpüdən o taya keçib, ayaq körpüsündən bu taya qayıdıb və kassanın qabağında durub kupeyə bilet istəyir.

- Bilet yoxdur! Yoxdur!!!

- Müdir, sən canın, gör neyləyirsən!

- Ə, sən nətəhər adamsan, söz kar eləmir? Yoxdur! Plaskarta istəyirsənsə, verim, ikisini, üçünü, lap dördünü verim, amma kupeyə, balamın ölmüşü, biri də qalmayıb!

-Bıy, bu bizim Eldəniz döyül? Gün hardan doğuf əə, belə? Nə yaxşı buraları yad eləmisən? Dədən nətəhərdi əə? Danadan-dunadan qapıda var maldan-davardan? Neyləsin, sənin ucundan edir, uşaq oxutmaq çətindir indiki zamanada, keçən il mal bazarında gördüyümdür, demə belə deyir, bir az sınıx dəydi gözümə, özünü oda-közə vurur kişi, tay qurtarmısan unverseti, əmələ gələr. Əmin nətəhərdi əə? O irəli Bakıdaydım, maşın almağa getmişdim, sağlığına 011-i dəyişdim, “Çeşka” qoydum altıma, Moskovski prospektdə QAİ saxlatdı, düşdüm, əmin! Boynunun dalına bir qapaz vurdum, dedim ə, Mızıx, səhər-səhərdir, siftə verim? Dedi, ə, səysən? Bir işə düzəlləmmədin hələ? O boyda diplomun var, özünə yaxşı bir iş tap, bu dəqiqə camaat milyardlar qazanır! Müxalifətə-zada qoşulma, onların axırı yoxdur!

Ona ağzını açmağa macal verməyən “Ququ” Əhliman idi. “Ququ”nun rayonda aşıra bilmədiyi iş yoxdu, deputat köməkçisiydi, son parlament seçkilərində çəkdiyi əziyyəti icra başçısı yerdə qoymamışdı.Çağırmışdı yanına:

- Adın işdə gedər, aybaay maaşını alarsan, bir qız da götürərsən, seçicilərin məktubları-zadını qəbul edər, bir yana çıxanda da vəsiqədir, əlindən tutar!

“Ququ” Əhliman  Bakıda yaşayan bacısının oğlunu Bərdəyə saldırmışdı, komandirə görüm-baxım edib əsgərliyinin yarısını çəkmiş uşağı on günlük məzuniyyətə çıxartmışdı, ona bilet almağa gəlmişdi.

- Bilet almısan? Almısansa dəyişdirək, sağlığına əlimiz uzundur, bacıoğluyla bir gedin elə...

- Plaskartda getmək istəmirəm, kupeyə də bilet qalmayıb, kassir balasının canına and içir...

“Ququ” Əhliman gülümsəyib kassaya yaxınlaşdı və iki dəqiqə keçməmiş əl eləyib onu yanına çağırdı.

- Balamın ölmüşünə qalan elə iki biletdi, onu da tapşırmışdılar, zəng elədilər ki, day gedəsi olmadıq, kakraz Əhliman gəldi, ona da verməyib, kimə verəcəm, türkün sözü-kassir özünə bəraət qazandırdı.

“Ququ” Əhlimanın bacısıoğlu alıb telefonuna baxdı. Onun telefonu ilə çağrı verib öz nömrəsinə kontur yüklətdi və batareya qurtaranacan sevdiyi qıza SMS yazdı. Eldəniz telefonunun sönməsinə və “Ququ” Əhlimanın bacısıoğlunun başının qarışmasına sevindi. Yola pendir, soyutma kartof, yumurta və çolpa götürmüş ahıl ər-arvadın and verib uzatdıqları dürmək boğazından keçmədi. Ər-arvad Bakıda hansı qohumlarının evində qalacaqlarını götür-qoy elədilər və qonum-qonşudan yüngülvari qeybət qırıb yatdılar.

Qatarın səsiylə baş-başa qaldı. Nədənsə qatarın səsi hamıdan, hər şeydən qabaq ona bir bənd şeir xatırlatdı:

*İki ömür yolu- bir dəmir yolu,*
*Bizimçün dayanıb bu dayanacaq,*
*Nə sənin mənimtək sevənin olub,*
*Nə məni sənintək duyan olacaq!..*

Kimin şeiriydi? Nüsrət Kəsəmənlinin? Yox, onun deyildi, Nüsrəti əzbər bilirdi. Musa Yaqubun? Məmməd Arazın? Sabir Rüstəmxanlının? Qərar verə bilmədi. Qərara gəlməyə can atmadı da. İki ömür yolu- bir dəmir yolu olmamışdı. Olsaydı, indi qatarda getməzdi, qatarın səsinə qulaq asmazdı. Gedən qatarın dayanmasını arzulamırdı, heç arzulamırdı, qatarın yolunun üstündə onlara görə dayanmış bircə dayanacaq da yox idi, artıq yox idi, hamısı uçmuşdu, tökülmüşdü, təmir edilmişdi, rənglənmişdi... Bərdədən Bakıya gedən yeni xəyalları gözləyirdilər.

Taq.. Taq... Taq... Taq...

Taq.. Taq... Taq... Taq...

- Bura haradır?- Gülşən ondan soruşdu.

Ataları, iyirmi ilin əsgərlik dostları tələbə adını qazanmış övladlarının sağlığına yaxşıca vurub yatmışdılar. Dostundan qıvraq olduğuna görə yuxarı qata çıxmış atasının üzündəki təbəssüm Eldənizin dodağını azca qaçırtdı.

- Əə, nəyə qımışırsan, söz soruşmuram? Bura haradır?

- Deyəsən, əmin yaxşı yuxu görür, gülümsünür!..

- Sənin əmin də qoymur məni yatam!- Gülşən hərdən xoruldayan atasına eyham vurdu.

Gülşənin atası alt tərəfində yatdığından Eldəniz onun üzünü görmürdü, hərdən xorultusunu eşidirdi.

- Bura, vallah, heç bilmirəm haradır... Amma Ucarı keçmişik, hə, çoxdan keçmişik... yox, hələ təzə keçmişik!

Yastığını götürüb qapıya sarı qoydu. Dirsəklənib gözlərini Gülşənə zillədi. Gülşən "baxma mənə" deyə bilmədi, ataların eşidəcəyindən qorxdu. Gözlərini yumdu. Kiprikləri Eldənizin baxışlarınacan uzandı. Boynunu azca yana əyib altdan yuxarı baxdı.

- Qurban olum, baxma!

Lap yavaşcadan dedi. Təkcə o eşitdi. Bir anlığa ona elə gəldi ki, hər ikisinin qolları uzandı, lap uzun oldu və əlləri bir-birini sıxıb boşladı. Eldəniz əllərini axtardı. Sağ əlini başının altına vermişdi, sol əli arxasına düşmüşdü. Gülşənin əllərinə göz qoydu. Büründüyü mələfədən təkcə Gülşənin çiyinləri görünürdü. O, mələfənin altından çıxardıb sağ əlinə baxdı və daha sonra onunla gözünü örtdü.

Taq... taq... taq... Qurban olum, baxma!

Taq... taq... taq... Qurban olum, baxma!

Gülşən dilli-dilavər, şirindil idi. Öz evlərində, onlara gələndə hamıya "qurban olum" deyərdi. Ondan savayı. Onun dilindən bircə dəfə "qurban olum" eşitməkdən ötəri nələr verməzdi Eldəniz?

- Gülü!- lap yavaşdan səslədi.Pıçıltıyla.

Cavab vermədi. Onun nə deyəcəyini bilirdi. Eşitmək istəmirdi. Atasının, əmisinin yanında eşitmək istəmirdi. Ayrı yerdə eşitmək istəyirdi və ona ürəkdən, lap ürəkdən "qurban olum" demək istəyirdi. Gözlərini yummuş Gülşən ağ mələfinin arasında və Eldənizin baxışlarının altında özünü gəlinlik donunda təsəvvür edirdi. Onlar ağılları kəsəndən həftədə-iki həftədə bir dəfə ya o evdə, ya bu evdə- onsuz da bir evliydilər- eyni sağlığı eşitmişdilər:

- Allah bizi daha da mehriban eləsin!

Onsuz da mehribanıydılar, aralarından su da keçməzdi, yaxşı tikəni tək yeməzdilər, pis gündə bir-birinə hayan olardılar, əl tutardılar- ataları dar günün dostlarıydılar. Allah onları daha nə cür mehriban edəcəkdi? O sağlıqların- biri də azca bundan qabaq deyilmiş- mənasını indi qanırdılar, bəlkə vaxtından tez anlamışdılar, bəlkə də vaxtından gec duyuq düşmüşdülər, hər nə isə Allahın atalarını, ailələrini daha da mehriban eləmək yetkisinin fərqinə qatarda gedə-gedə varırdılar. Qismət o günəymiş.

Düz dörd il küsülü qaldılar. Heç kim onların küsülü qalmağından xəbər tutmadı. Rayona bir gəldilər, rayondan bir qayıtdılar, pay-püşlərini böldülər, bayramlarda yüngülvari hədiyyələrlə təbrikləşdilər, arada teatra da getdilər. Dindirmədilər bir-birini. Bıçaq sümüyə dirənəndə ortalığa danışdılar. Son dəfə- Gülşən diplomunu alıb rayona qayıdan gün BDU-nun qabağından düz "Bakı Soveti" metrosunacan piyada düşdülər. "Nostalji" kafesində şam işığında yemək yedilər. Sükut pozulmadı. Allahdan olan kimi şampanın qapağı da partlamadı, qədəhlərin də cınqırı çıxmadı. Sabir bağından İçərişəhərə keçdilər. Qız qalasına qalxdılar. Maddım-maddım dənizə baxdılar. Gəmiyə mindilər. Gəmidən qaçan balıqlar kimi lal-dinməz oldular. Balıqtutanların yanına gedib səkinin qırağında oturdular. Gülşən onun qoluna girərək başını çiyninə qoydu. Əhmədliyə baxdı. Kirayədə

qaldığı evi tapmağa çalışırdı. Yanaqlarından yaş axırdı. Eldənizin dili tutulmuşdu. Dörd ildir hər gecə öz-özünə deyərək əzbərlədiyi sözlər qağayıların dimdiyindən dənizə düşmüşdü və qağayılar onu heç cür tapa bilmirdilər.

Dəmir yolu vağzalında dayanmışdılar. Dispetçer qadın tez-tez elan edirdi: "Bakıdan- Xankəndinə gedən qatara minik başlayıb!!!"

- Harada qaldılar?- Eldəniz valideynlərini və bacısını qəsd edirdi, Gülşən rayona onlarla gedəcəkdi.

- Sən o yaşıl gözlü qızı sevirdin???

"Bakıdan- Xankəndinə gedən qatara minik başlayıb!!!"

- Gəldilər!!!- Gülşən yüyürüb əmisinin qoluna girdi.

- Mənim qızım yüz oğula dəyər!-əmisi Gülşəni təriflədi.

Vağzalın tualetinə girdi. Yaşlı rus qadın barmağını arasına qoyub əlindəki kitabı qatladı, eynəyinin altından baxa-baxa onun cibini eşələyib qəpik çıxartmasını gözlədi. Eldəniz qəpiyi Vladimir Nabukovun "Lolita"sına sarı itələyib əl-üz yuyanın qabağında növbəyə dayandı. Nə ağır işi vardı, nə yüngül! Güzgüdə üzünə baxmaq istəyirdi. Atası, anası, bacısı gethagetdə onunla öpüşüb-görüşmüşdülər.

- Gəl mən də öpüm səni!- Gülşən bir az utana-utana, amma ərklə demişdi.

Gülşənin pomadası üzündə qalmışdı. Əlini isladıb başına çəkdi. Qulaqlarını yudu. Qarqara elədi. Gülşənin dodaqlarının izini yumadı.

Metroda hamı ona baxırdı. Qızlar altdan-altdan gülürdülər, oğlanlar izi qalmış dodaqları təsəvvür eləməyə çalışırdılar, qocalar başlarını bulayırdılar. "Elmlər Akademiyası"ndan çıxanda keçmiş tələbə yoldaşı ilə rastlaşdı.

- Bazlıqdan gəlirsən? Babat şeyiydi barı?

Qolunu boş qoyub qulağının dibinə birini ilişdirdi. Köhnə qrup yoldaşı yerə yıxıldı. Bu il ölmüsən, bildir

ölmüsən? Soruşmadı. Yerə yıxılana heç baxmadı. Mini marketə girib araq aldı.

- Xahiş edirəm, otağı tərk edin! Saşa, incimə, səndə bir yana get, axşam gəlib yatarsan!

Hırraxananı dağıtdı. Saşa- onun neçə illik otaq yoldaşı- bir az ləng tərpəndi:

- Nəsə olub?

Eldəniz  cavab vermədi. Otağın başındakı pəncərəni açıb siqaret dumanını çölə qovdu. Butulkanı başına çəkdi. İçə bildikcə içdi və dibində nə qədər qaldığına baxmadan onu yataqxananın dördüncü qatından yerə tulladı. Saşa qapını daldan bağlayanda gəlib güzgüdə daha bir dəfə üzünə baxdı. Özünü narıncı örtüklü çarpayısana atıb hönkürdü...

Diplomu bir il gec almışdı və o bir ildə atasından, anasından, kəndindən-kəsəyindən olmuşdu, Gülşəni itirmişdi. Diplomunu alıb atasını qaytarmışdı, anasını qaytarmışdı, kəndini-kəsəyini qaytarmışdı, Gülşəni qaytara bilməmişdi. Bərdəyə Gülşəni qaytarmağa getmişdi.

Müəllimə uşaqları tənəffüsə üç-beş dəqiqə tez buraxdı. Keçib onun qabağında şagird kimi oturdu.

- Barışmışıq?

- Üzündən öpdüm axırıncı dəfə!- onun da yadından çıxmamışdı.

- Gedək?

- Hara?

- "Biz olmayan yerə"!

- Biz olmayan yer var ki?

- Danimarka!

- Xeyirdimi?

- Nə deyim yerinə düşsün?

- ...

- Deyəcəm ailə qurmağa, sən artıq anasan... "Gəl, başımızı götürüb qaçaq" deyəcəm, səni qovan yoxdur!

- Sən canını qoymağa niyə yer tapmadın bu ölkədə?

- Gedirsən?

- Mən ikinci uşağa hamiləyəm!

- Olsun!

- Olmasın!!!

Zəng çalındı. Eldəniz ayağa durdu. Tənəffüsü səbirsizliklə gözləyən nadinc şagirdlər kimi qapıya cumdu.

- Eliş!
- ...
- Onu aparacaqsan?
- Kimi?
- O yaşıl gözlü qızı?!

Qarşısında yaşıl gözlü bir qız oturmuşdu. Adı və soyadı masanın üzərinə qoyulsa da, özünü təqdim etdi:

- Mən Ovia Corqensenəm. Ümid edirəm ki, bizim Kopenhagenin Vesterbro prospektini süpürməyə işçi axtardığımızı bilirsiniz. Vesterbro bizim şəhərin gözüdür və burada çalışmaq böyük şərəfdir.

- Adım Eldənizdir. Azərbaycandanam. Siyasi mühacirəm. Mənə verilən müavinətlə dolanmaq istəmirəm, boğazınıza şərik olmaq şəstimə toxunur, sadə vətəndaşların ödədiyi vergilərin hesabına yaşamaq ürəyimcə deyil. Süpürgəçilik eləmək, çalışa-çalışa dil öyrənmək, daha sonra münasib bir işin qulpundan yapışmaq niyyətindəyəm.

- Təhsiliniz var?

- Bəli, müxalifətçi olduğum, mitinq və piketlərdə fəal iştirak etdiyim üçün Bakı Dövlət Universitetindən qovulsam da, ali təhsilimi başa vurmaq mənə qismət oldu. Politoloqam. Qırmızı diplomla bitirmişəm. Tələbəykən "Pragma" İctimai Siyasət Mərkəzinin layihələrində iştirak etmişəm.

- Əminəm ki, siz əla politoloqsunuz- onun sözünü kəsməyən Ovia Corqensen xalis Avropa etikası sərgilədi-

ancaq bizə peşəkar süpürgəçi lazımdır. Siz bu ixtisasa yiyələnmək üçün hər hansı kurs bitirmisiniz?

- Xüsusi kurs bitirməmişəm, amma həyat mənə hər şey öyrədib. Yataqxanada yaşamışam, otağı bir gün Saşa, - mənim tələbə yoldaşım idi,- təmizləyəndə, bir gün də mən süpürmüşəm. Nə var ey yer süpürməyə? İnanırsınız, küçələrinizə bir süpürgə çəkərəm ki, yağ töküb yalayarsınız! Özü də oxuya-oxuya:

*Küçələrə su səpmişəm,*
*Yar gələndə toz olmasın!*

Ovia ona dörd gözlə baxdı. Qarayanız oğlanın şirin səsi vardı. Səsi uzaqlardan, çox uzaqlardan gəlirdi. "Bu dünyanın ən uzaq yeri bizim "biz" olduğumuz yerdir"- Ovianın ağlına həyatda ilk dəfə fəlsəfi fikir gəldi, o, çox praktik adam idi.

- Biz süpürgəçilik təhsili olmayan şəxsləri işə götürmürük. Lakin bu cür ürəklə işləsəniz bizim şirkətin ən nümunəvi işçilərindən olarsınız. Sizi əldən buraxmaq olmaz. Görüm, nə isə edə bilərəmmi?

Telefonla kiməsə zəng elədi və danca nə isə qırıldadı.

- Sabahdan işə başlaya bilərəm?- dəstəyi yerə qoyanda Eldəniz onun gülən gözlərinə baxdı.

- Yox, sabahdan yox, mən indi rəhbərliklə danışdım və razılıq aldım. Sizi üç aylıq süpürgəçilik kursuna göndərəcəyik. Narahat olma, kursun pulunu biz veririk, amma xəbərin olsun, işləyəndə aybaay maaşınızdan çıxacağıq.

- Əla olar!

- Səsiniz çox gözəldir, musiqiniz ürəyimə yatdı, yoxsa bu işin altına girməzdim, bilirsiniz, bir işi görəndə ürəklə görmək lazımdır. Sizin işə yanaşmanız xoşuma gəldi. Lakin çətinlik ondadır ki, siz dan dilini bilmirsiniz, təlimi ingiliscə keçməlisiniz. Əlbəttə, belə kurslar bahadır və ona görə də oxutsaq, sizinlə daha uzun müddətə müqavilə imzalamalıyıq.

Bakı Dövlət Universitetinin diplomunu cırıb zibil qabına tullamadı. Əziyyətinə heyfi gəldimi, onu süpürgəçilik sertifikatının yanında iki parça eləmək arına gəldimi, ürəyi gəlmədimi?- özü də başa düşmədi. Diplomu yenidən anasının yaylığının arasına qoydu, yaylığın uclarını bərk-bərk düyünlədi və süpürgəçilik sertifikatını götürüb evdən çıxdı.

- Möhtəşəm!!!

- Xoşuna gəldi??? Dünən yazmışam! Sərdar Ortacın "Yarpaqlar"ına qulaq asa-asa...

- Hansı imzayla çap edəcəksən hekayəni? Fateh? Nəsir? Barses? Feofob?

- FFNB!

- Uç!

- ...

- Adı nədir?

- "Diplom" qoymaq istəyirəm!

- "Süpürgəçi" də qoya bilərsən!

- Onu da fikirləşmişəm. Baxacam!

- Yaxşı edəcəksən!..

- ...

- Ay geridəqalmış, "məndən xəbərsiz getdi" demə!

- Yenə hara gedirsən?

- Laçına səfər edəcəm.

- Kimin layihəsidir? Hansı fond pul buraxır?

- QHT tədbiri deyil, tək gedəcəm!

Azin mətbəxdən əlində iki fincan çayla qayıtdı. Ayrı vaxt olsaydı, ABŞ-da çaya həsrət qaldığımız günləri xatırlayardım. İndi köhnə palan içi tökməyin vaxtı deyildi. Onun qərarı məni səksəkəyə salmışdı.

- Sən yaxşısan?

- Ə, geridəqalmış, səncə başım xarab olub? Bəlkə sarı evə göndərəsən məni?

- Bunu başa düşürsənsə tam yox, azca... lap çıqqılı...

Ayağa qalxıb üzünü yellədim:

- 18 may 1992-ci ildə ermənilər rusların köməyi ilə Laçını işğal ediblər. İndi ora qondarma Dağlıq Qarabağ Respublikasının ərazisi sayılır. Adını da Berdzor qoyublar, necə gedə bilərsən? Tutalım getdin, sağ qayıdacaqsanmı?

- Bilirəm,- qənddandan götürdüyü konfeti soydu- çayını soyutma, mən ora Elof Quintus adıyla gedəcəm! Tanıyırsan?

- Tanış gəlmir, qağa.

- Yaxşı fikirləş!

- Yadıma salammadım!

- Pasportu məndədir!

- Kimdir axı?

- Danimarka vətəndaşı! Qurdla qiyamətə qalmayacaq, Azin Kürəçi də öləcək, Elof Quintus adıyla canlanacaq!

- Məzən olsun, ta denən, Loviza saxta pasport düzəldib.

- Lovizalıq bir iş yoxdur, Danimarkanın xüsusu xidmət orqanından- PET-dən gəlmişdilər.

- Nə deyirdilər?

- Azərbaycanı tərk eləməyimi məsləhət gördülər... Məsələ qəlizdir.

- Şişirtmə...

- Dilə-dişə düşmüsən- duyuq saldılar- bütün kəşfiyyatlar izinə düşüb. MOSSAD və CİA-dan xətər gəlməz, ETTELAT-ın öldürməyə ağzı çatmaz, uzaqbaşı fitva verdirəcək, qorxduqları bizimkilərdir. Bəd ayaqda ölkədən Danimarka pasportu ilə çıxmağımı istəyirlər.

- Gedirsən?

- Gürcüstana, oradan Ermənistana, oradan da Laçına!

- Nə zaman?

- Növbəti Tiflis qatarı ilə...

***

Yağılar yağmalamış olsa da əzəmətini saxlamışdı Bəz qalası. Min illərin lənətinə, lərzəsinə mətinliklə sinə gərmişdi, şax tutmuşdu özünü. Ayaqda qala bilmişdi. Ayağına gətirə bilmişdi. Ayağa qaldıra bilmişdi. Lap uzaqdan salırdı adamı öz cazibəsinə. Lap uzaqdan qışqırmaq, hay vermək istəyirdin səsinə. Nələr yoxuydu canında qalamın. Sehirli, ovsunlu, mistik yanı varıydı. Dip-diriydi, canı varıydı qalamın. Hızır dadına çatmışdı, içinə girib yatmışdı, yarasını sağaltmışdı. Qanı varıydı qalamın. Qanım qaynayırdı Bəzə. Ruhu varıydı qalamın. Doğma, sıcaq, təzə. O cəngavərlik ruhuydu, yüz il qala, min il keçə ölməzdi. Qorxu nədir, hürkü nədir, yarınmaq, yaltaqlanmaq nədi, bilməzdi. Yeri qəlb idi, qəlbi idi, ucaydı; anlamaq olmurdu, cavanıydı, ya qocaydı. O nifrətin, o lənətin, o zülmün qabağında gərək çoxdan uçaydı. Yerlə bir olaydı. O sevginin, o qutsallığın, o həsrətin qarşısında gərək çoxdan uçaydı. Göylə bir olaydı. Bəz nə yerlə bir olmuşdu, nə göylə. Bəzənməsə də, düzənməsə də, özənməsə də, dildən-dilə düşmüşdü. Qulağımda ecazkar musiqi səslənirdi. "Manowar" qrupunun yaratdığı "Ölməz cəngavərin himni" çalınırdı. Görmüşdüm buraları, addım-addım gəzmişdim, qarış-qarış qorumuşdum. Tanıyırdı Bəz qalasının daşı, torpağı, kolu, kolunun yarpağı məni. Arxamı qalanın möhkəm, möhtəşəm, möcüzəli divarlarına söykəyərək, özümü heç zaman olmadığım qədər azad sanırdım. Bütün xırda olayları, xırda qayğıları, xırda sorunları unudurdum onda. O anda qara bayraqlı, qara paltarlı, qara enerjili adamlar basırdı qalamı. Qaragüruh dəstələr içlərindəki kiçikliyi, sınıqlığı, yarımçıqlığı, qorxaqlığı, köləliyi qara bayraq edib asmaq istəyirdilər Bəzdən. Birdən özümü dərədə görürdüm. Yan-yörəm qara paltarlı, qara saqqalı, qara xislətli qaramat adamlarla dolurdu. Məni qara ata mindirirdilər, qara paltar geyindirirdilər, aylı gecədə Bəz qalasının qaraltısına

uzaqdan baxmağa gətirirdilər. Bəz qalası yanırdı, başından qara tüstülər çıxırdı.

- Azin, az fikirləş, əlin sıyrılıb - Yürüş xəbərdar etdi.

Saatlar qanamışdı. Qan qalanı qızardırdı. Bəz öz rənginə, öz aurasına qayıdırdı, qıp-qirmızı olurdu. Daha Bəzi qara basmayacaqdı. Daha bizi qara basmayacaqdı...

Qaladan qalan qalıqlarıydı. Qalanın qalanını gəzdim. Adama dilini uzadan yazı, işarə yoxuydu. Burada sirr olacağını heç gözləmirdim. O yazını yazan, o işarəni qoyan adamın yerinə mən olsaydım, belə etməzdimmi? Gizimə gici-bici yaxın buraxardımmı? Özümü onun yerinə, onun gününə qoyub düşünürdüm. Bu qalaya kim çıxar, niyə çıxar? Mən olsam, sirri elə yerə yazaram, qalanı uçurtmağa çıxanlar ona xətər yetirə bilməsinlər. Mən olsam, elə yerdə saxlayaram, sirr maraq xatirinə qalaya baxmağa gələnlərin, mal-heyvan otaran çobanların, xarabalıqlarında gizlənən qaçaq-quldurun əlinə keçməsin. Mən olsam, sirri elə yerdə gizlədərəm, yalnız onu axtaran adam tapa bilsin. O sirri axtaran, o sirrin burada olduğunu bilən hər tərəfi ələk-vələk edəcək, əli ətəyində çıxmayacaqdı qaladan. Mən olsam, sirrin dalınca gələn adamı çətinə salardım: "hansı tərəfi axtarmalı?" Belə məqamlarda sirri gizlədənlərin tarixini, inamlarını, məqsədlərini bilmək yarayır işə. Xürrəmlərin devizi "qaranlıqdan aydınlığa" idi, belə çıxır, günəşin əksinə getmək lazım!

Qalanın qərbi sıldırımıydı. Gözünü qan örtməyən adam ora enməzdi. O sıldırımı Baş Bəy tacir libasında qalanı tərk edəndə enmişdi. Qorxmağa dəyməzdi. Qoşun qovalamırdı məni, oranı sağ-salamat axtaracağıma, sirri tapacağıma arxayın idim. Məni qalanın sehri qoruyacaqdı. Tələsmədən təpədən aşağı yendim. Diqqətimi dik sarp qaya çəkdi. Dabanımı asta basa-basa qayanın qabağında bitdim. Xınasını tələsik təmizləyib, təsvirə yaxşı-yaxşı baxdım. Qaranquş şəstlə qərbdən şərqə uçur, gedəcəyim istiqaməti göstərirdi.

İrəlilədim. Yenə qaya parçası, yenə şərqə doğru uçan qaranquş. Quşun quyruğunun bir ucunda şimşək çaxırdı. Qırdı-qaçdılıq eləməməliydim, sirr yaxındaydı. Sirrin ətrafında düzaq qurulmuşdu, tələsib təndirə düşə bilərdim. Təhlükədən qorunmalı, diqqətli olmalı, ayağımın altına baxmalı, hər addımımı ölçüb-biçməliydim. Şimşəyin şiş ucunun yerə doğru çizilməsi düzağın torpaqda qurulduğunu göstərirdi. Qaranquş inadın, inamın rəmzidir həm də. Hansı axmaq axtarışı yarımçıq saxlayar belə vəziyyətdə? Aşağıda yumru, yumağa oxşayan bir qaya vardı. Qaranquş qanadlarını qayaya sallamışdı, uçmurdu. Torpağa oturmuş qayanı qaranquşa qatıb uçurtmaq lazımıydı, yoxsa düzağa düşərdim. Cəhdim cərimə oldu. Qaranəfəs, qan tər içində gəldiyimi geri qayıdıb Yürüşü köməyə çağırdım. Aşa-aşa aşağı düşdük təzədən. Yürüşün çantasındakı balaca balta ilə qayanın dibini yumşaltdıq. Kolluğa diyirlənən qaya qapaz kimi şappıldadı. Aram-aram arxasınca endik.

Yumaladığımız yumru qaya kolu yarmış, sal daşa toxunmağa lap az qalmış düzağa düşmüşdü. Düzaq basməmmədi basdırılmış, zamanca torpağı qalınlaşmış xəndək idi. Adam ağırlığına tab gətirməzdi, gürzələr qaynaşırdı, qarıxıb içinə düşən sağ çıxmazdı. İlanlardan qorxan Yürüşə sakit, sayıq olmağı tapşırıb, kolları qırdım. Qayanın döşünə baxdım. Qaranquş yuvasına girmişdi. Yuva oyuğun Xorasan suvağıyla hörülmüş qalın qapağına çəkilmişdi. Xorasan suvağı düzəltmək üçün təbaşir, kirəc, mərmər, mədən qumları yumurta ağında yoğrulur, içinə boya qatılır. Onu adi baxışla təyin eləmək olmur, qopmur, zədələnmir, zərbəylə aralanmır. Xorasan suvağı ilə hörülmüş qapağın canı spirtdir, ağzına tök, iki saat gözlə...

Yürüş qalada yeməyə yuxa, yumurta, pendir, soyutma ət götürmüş, bel çantasına atdığı primusu əldəqayırma araqla doldurmuşdu- İranda spirtli içkilər içmək qadağan

olunduğundan, cavanlar belə yöntəmlərə tez-tez əl atırlar. Primusdakı araqla suvağı suladım.

Qapağı qaldırdıq. Oyuqda ağ daşdan yonulmuş kiçik kişi heykəli gizlətmişdilər. Heykəli görəndə gözləri bərələ qaldı Yürüşün:

- Bu ağ oğlan kimdir belə? Bütdür?

- Bu ağ oğlan bələdçidir! Bütün boynunda xaç olar?

- Bu bələdçidir, deyirsən?

- Bu ağlığı iki yerə yozmaq olar. O, üsyankardır, üzə ağ olandır. Eyni zamanda, pak, təmiz adamdır, üzü ağ olandır. Ağ oğlanla bizi bura gətirən qaranquş arasında oxşar cəhət var, hər ikisi müjdə verəndir.

- Ağ oğlanın verdiyi müjdə nədir, bəs?

- "Ağ kitab" yazılacaq!

***

**Stokholm şəhəri. "Küknar ağacları" küçəsi. Nordic Light Otel. Ağ otaq. Divarları tamamilə bəyaz rənglənmiş ağ mebelli odada yeddi qadın iclas keçirirdi. Üzlərinə ağ niqab salmış ağ geyimli qadınlar ayaq üstdə danışan gənc qızı dinləyirdilər:**

- Atam onun gəlişini gözləyirdi. Qurd ürəyi yeyən gələcəyini e-maillə qabaqcadan yazmışdı. Həmin gün kilsəyə getmədi, məbədi gənc keşişlərə tapşırıb evdə qonağın gəlişini gözlədi. Anama və mənə onu yalnız Elof çağırmağı, səhv etməməyi tapşırmışdı. "İnternational Alert"in layihəsi çərçivəsində ötən il kəndimizə gəldiyindən üzü yadda qala bilərdi. Elof yorğun-arğın gəldi, yemək yeyib yerə girdi. Atam onu alatoranda oyatdı. Elof, atam və mən, atam ingiliscə bilmədiyindən başqa adamların yanında onlara tərcüməçilik edəcəkdim, "Niva"ya oturub Gorus yolunu tutduq. Kənddən çıxanda atam həm yola körpü salmaq, həm də yolu ona başa salmaq istədi:

- Ara, çətini Gorusa çatanacandır. Gorusdan Berdzora gedən yol Tsitsernavank kəndinin yaxınlığından keçir.

- Berdzorda, Tsitsernavankda nə işim var, keşiş baba? Mən Laçına gedirəm, "Ağ oğlan" kilsəsinə.

- Ara, səni çox istəyirəm, qurd ürəyi yemisən, eynən Babansan, mən də Səhl Sumbatın torunuyam. Səni keçi qiymətinə sataram, ara, denən görüm, Berdzor...

Zəhmi atamı basdı.

Çaya düşdük. Bizdən aralanıb çay yuxarı getdi. Nə fikirləşdiyini, nə edəcəyini bilmirdik. Onu səsləmədik. Atam yerdən əlinə xırda daş götürüb o taya atdı. Qolunu sınayırdımı, cavanlığını yada salırdımı, pərtliyini qolazlayırdımı, başımı yormadım. Çayın kökünü yuduğu ağacdan qurumuş bir şax qopardıb qıjıltını döyəclədim. Elof uzaqlaşmışdı. Dizini çırmalayırdı. Göyərmiş çay daşını sığallayıb suya girdi. Suyu yardıqca günəşin qabağını kəsmiş buludlar parçalanırdı. Günəş çayın üzünə axan göz yaşına dönürdü. O, ağlayırdı. Əlimi sallayıb dağların arasından gözümə şığıyan çayın qıjıltısına qatışmış hıçqırığı dayandırmaq istəyirdim. Elof hər iki ovcuyla çayın coşğunluğunu, tələskənliyini havada parıldadırdı. Ayağını suya qoyub alqış edirdi aydınlığa.

Zəhmini yumuşdu. Gözlərində işığa uzanan bir sevgi vardı. Zabux çayının sol tayındakı Tsitsernavank kilsəsində onun gözünə nur başdakı əlçatmaz pəncərədən gəlirdi, bəlkə də pəncərədə ağappaq vərəqə dönmüş işıq onun gözlərindəki səmimiyyətə ayna tuturdu. Kimiydi o? Mənim gözlədiyim ağ atlı oğlanmı, yoxsa adını o kilsəyə vermiş ağ oğlanmı? Gəlişi ilə hər şeyi dəyişmişdi, suların sinəsindən itələdəyi daşların başını sığallamışdı, aydınlığı alqışlamışdı, ərkəsöyün çayı kövrəltmişdi, basdaladığımız torpağın tərs üzünü atama göstərmişdi, bir kilsə qalmışdı, onun da xaçını sinəsinə çəkirdi. Yox, dünya bu qədər sevgiyə tab gətirməzdi, ya o

içindəki Tanrıya bir şey qurban verməliydi, ya da içindəki Tanrı ona. Möcüzə baş verəcəkdi, mütləq baş verəcəkdi. Onun əllərini yana açıb gərnəşməkdən özünü saxlaya bilməməsi göz görə-gərə çarmıxa dönməsiydi, bu dəqiqə ruhunun o çarmıxdan ayrılacağını, məbədin əlçatmaz pəncərəsindəki işığa qovuşacağını gözləyirdim. Mat qalmışdım, onun ruhunun əlçatmaz pəncərədən necə çıxmasını görməkdən başqa əlimdən heç nə gəlməzdi. Gözüm işığa düşmüşdü, qəfil pəncərədə görünən əl boyda qaranlığın ona çarpılması dəqiqələrcə qaşlarımın altında donub qaldı.

Kilsənin içində bir qaranquş uçurdu. O qaranquş hər iki xalqın ortaq inancıydı. Rəvayətə görə, kilsənin tikildiyi yerdə rahiblər qazan asıb, məclis qurublarmış. Qazana qaranquş düşür. Təbləri yeməyi çəkməyən rahiblər qazanı aşırırlar. Qabdan ilan çıxır. Zəhərlənməkdən qurtulmuş rahiblər qaranquşu ehtiramla basdırır və ona tapınaq tikirlər. Biz "Qaranquş məbədi"ndəydik.

Qaranquş ölənləri başına yığmışdı. Qədim qəbiristanlıqda hər növ məzar vardı- at və qoç heykəllər, xaçdaşlar, sandıqlar... Atam maşındakı səhvini düzəltmək istədi:

- Hamını torpaq birləşdirir ara, bütpərəstini də, lütpərəstini də.

Axtardığını sandıqda tapdı. Sandığın sağ yanına əl-ələ tutmuş qadın və kişi şəkilləri oyulmuşdu. Baxırsan,- atama dedi- ikisinə bir ağız çəkiblər.

- İki nəfərə bir ağız, ağız birliyi, söz birliyi, əhd, peyman, ilqar, sülh... Nə olsun?- atam qəbirə məna verə bilmədi.

- Yox, dəqiq budur!- inamla danışdı.

- Özünə inanmağın yaxşı cəhətdir, amma biz gərək vaxt itirməyək.

- Vaxt nisbi şeydir, ona bənd olma, sən bura bax, görürsən, kilsədə sütuna oyulmuş naxışla sandığımızın haşiyəsi eynidir? Əlimizdən tutmağa dilli-dilavər bir oğul lazımdır indi.

- Hardan gətirim sənə bir laçınlı???

- Laçınlı yoxsa berdzorlu?

- Sən qabaqlar Berdzorda olmusan?- atam atmacanın altından çıxdı.

- Laçında olmamışam, Qarıqışlaq kəndindən əsgərim varıiydı. O kənd çoxmu uzaqdır?

- Yox, yaxındadır, üç-dörd kənd o tərəfdədir.

- Ona nə ad qoymusunuz?

- Hələ fikirləşirik...

- Keşişcan, Qarıqışlaqdan köçkün düşmüş dostumun toyuna gedəndə mənə bir mağara haqqında danışmışdılar. Demişdilər kəndimizin başının üstündə "Ağzıbir" var. O kahada daşdan taxt və pəncərə yonulub. İki adama bir ağız çəkilməsi bəlkə bizi o kahaya yollamaq üçündür?

****

Bura Temirin bulağıdır, o özünü çəkıb dağın başına qoyan Çinar qayadır, çayın zilə qalxmağının qabağını alan Hacılar yalıdır, yandırılmış bina istifadəyə veriləsi məktəbiymiş, hə, ora da Göy düzdür- "Babalı" Muxtarın bağı! Toydan o gələn gəldim, soraq tutmadım qoruqçudan... Görəsən, durturmu? Ölübsə də, qalıbsa da sərinlədəcəm kişini, onun ağzıyla qurudacam Temirin bulağını.

Qayane sudan gələn axçilərdən kəndin yaxınlığında bir ağızlı kaha olub-olmamasını soruşdu. Sənəklərini çəkdilər. Keşiş mənimlə məzələndi:

- Qəribə ad qoymağınız var, ara, hansı kahanın iki ağzı olur? Sözə bax, "yuxarı tərəflər"... İndi yuxarı tüpürəcəm bığ

olacaq, aşağı tüpürəcəm saqqal, sonra da gəl Babanın əlində sağ qal...

Keşiş qarnımı cırdı.

- Hələ konsert qabaqdadır, gedək kluba- keşiş məni təmiz dolamışdı.

Qabırğaları qalmış kəndin arada-bərədə his iyi verən evlərində Gəncədən, Şəmkirdən, Şamaxıdan didərgin düşmüş ermənilər məskunlaşmışdılar. Klub hələ də kino verirdi, işğaldan sonrakı səhnə tamaşaçıların xahişi ilə dondurulmuşdu.

-Bu dəqiqə bu kəndi ən yaxşı tanıyan budur, tanış ol, kənddə ən savadlı adamdır- keşiş Leninin heykəlini çimdiklədi:

- Bizim Artsax qaziləri çox istədiklərindən başına daraq vurdular, kəlləsinə dəyən dəqiqə keçəli deşildi, savad qıcqıranda çıxmağa yer axtarır...

Keşiş heykəldən soruşdu:

- Yoldaş Lenin, bilsən ancaq sən biləcəksən, bu yanlarda səndən başqa kimin bir ağzı var?

- Lenin yoldaş ağzını açsa, vay sənin halına!- dinsizin ruhaniyə verəcəyi cavabı mədəni şəkildə keşişin qabağına qoydum.

Qayane uzaqdakı qaraltını göstərdi. Keşış qızıyla fəxr elədi:

- Əhsən Qayaneye, ağzını açmasa, Leninin başına oturan quşu ağzımla tutacaqdım.

Yarıyolda qaldıq. Selin gətirdiyi daşlar dərəni bağlamışdı. Kahaya piyada qalxdıq. Çöldə ortası oyulmuş nəhəng daş vardı. “Babalı” Muxtarın söz açdığı dəyirmandaşı olmalıydı. Təbii şərait buralarda külək və ya su dəyirmanı işləməsinə əl vermirdi. Daş göydən düşmüşdü. Göydən düşənə ağız açmışdılar. Kahanın baş tərəfdə taxt cilalanmışdı, taxtın sağ və sol yanlarında, babalı Muxtarın boynuna, vəzir-

vəkilə oturacaq düzəldilmişdi. İki pəncərəsi vardı. Kahada nə şah oturmuşdu, nə vəzir. "Ağzıbir" qədim tapınaq idi. Burada qurbanlar kəsilər, diləklər dilənərmiş. Dəyirman daşına çıxdım. Dünyanın göbəyindən ətrafa baxdım. Meşəliyin ortasından dik qalxan ağ, sıldırım qayalıq məni ovsunladı.

- Ora haradır?

- Gavur qalası!

- Kafir kimdir?

- Kim olacaq, mən deyiləm, sən deyilsən, yəqin skandinaviyalılardır!

- Üstümü unlu bilib, məni dəyirmançı bilmə, keşiş!- əlimlə çiyinlərimi təmizləyib ona gözünü döydürdüm.

Kahadan nəfəs dərib Ağ qayaya yollandıq. Qalaya bircə dar cığır çıxırdı. Tək adam tutan o cığırla yuxarı qalxan piyadanı qaladan atılan ox, daş, kötük şil-küt edərdi, azuqə qurtarmasa, almaq olmazdı qalanı, hər oğulun dizinə görə deyildi. Keşiş əldən düşmüşdü. Şalvarında taqət qalmadığından qalxa bilmədi. Qayanenin qabağına düşdüm.

Cığırı zirinc, həmərsün, moruq kolları basmışdı. Kol-kos üz-gözümü, əllərimi cırmışdı, cinsim yırtılmışdı. Qayanenin donu cırıq-cırıq idi. Cığırı qalxanda ətəyini qaldırır, tikan baldırlarını qanadırdı. Bəzən əllərindən, yaxud belindən tuturdum...

***

O zaman ağrılarını unudurdu. Tellərini bərkitdiyi sancağı yolda salmışdı, saçı dağılmışdı. O, Qayaneni belə görəndə "əsl cadugərsən" dedi. Dağılmış uzun saçları, yuxarı dartdığı donu, açılan sinəsi, çılpaq qolları, öpülməmiş dodaqları, kişi əli dəyəndə bədənini bürüyən ehtiras, qan və toz-torpaq içində cadugərə bənzəyirdi Qayane. Elof getdikcə ovsuna düşürdü. Ağ qayanın başına çatanda çevrilib əlini qıza

uzatdı. Cadugərin döşləri qalxıb-yenirdi. Baxışlarını yuxarı qaldırıb biləyindən yapışdı:

- Qurban sənə!..
- "Sən... "- Elof onun dilini yeyirdi.

Aşağıda işğal olunmuş torpaqlar, dağlar, çaylar vardı... Aşağıda köçmüş ellər, talan edilmiş yurdlar, boş qalmış yuvalar vardı... Aşağıda ata vardı, qorxu vardı, yuxu vardı... Aşağıda buludlar yaranırdı. Buludların üzərində Elofun sinəsinə bir erməni qız sıxılıb "canım sənə qurban" deyirdi. Yumruqlarını ovcuna sıxmışdı, canını dişinə sıxmışdı, o qayanın təpəsində sıxılası daha nə vardı?

Əli qoynuna necə girdi, sinəsini necə gözəl sıxdısa, Qayane bildiyi bütün dilləri, bütün sözləri bir anlıq unutdu: "ah..." Bütün dilləri, bütün sözləri bir anlıq unudanda Qayanenin canından qopan "ah" qadının ən şiddətli həzzini və ən dərin iztirabını eyni güclə ifadə edə bilən tək nida idi, o nidanı son min ildə qarğış eşitmiş dağlar-daşlar birdən-birə düz başa düşmədi, geri qaytardı, silkələndi... İş-işdən keçmişdi. Qayanenin qızlığından qan damcıları qalmışdı.

- Sən burada olmusan?
- Olmuşam!
- Kiminlə?
- Səninlə!
- Mənimlə?
- Yadına gəlmir?
- Yoo...
- Atam səni köməyə çağırmışdı ha...
- Atan kimdir?
- Knyaz II Vasaq...
- Bu dili sənə kim öyrədib? Keşiş? Yepiskop?
- Yox, onlar öyrətməyiblər...
- Bəs haradan bilirsən?
- Bilmirəm...

- Necə bilmirsən, xalis danışırsan...

- Bilmirəm, əlini uzadanda hiss elədim ki, məni bir dəfə xilas etmisən!

- Mən səni harada xilas eləmişəm?

- Bataqlıqda...

- Hansı bataqlıqda?

- Bizi təqib edirdilər, bataqlığa qaçmışdıq. Ətraf meşəlik idi, üfunətdən nəfəs ala bilmirdik, bayquşlar da ulamaqdan qorxurdu o gecə. Göz-gözü görmürdü. Ayağım batdı. Mən getdim. Qorxudan dilim tutulmuşdu, qışqıra bilmirdim, yaxına gəlsən, sənin də ayağın gedəcəkdi, qorxmadın, əlindən yapışanda "qurban sənə" dedim.

- Nə deyim, bəlkə də səni çıxartmaq yox, batmaq istəmişəm o gecə...

- Yox, batmaq istəmirdin, çatmaq istəyirdin, alçaldılmışları yüksəltmək arzuna qovuşmaq istəyirdin, vaxt udmaq, güc toplamaq, qayıtmaq niyyətində idin. Sən qayıtmağa gedirdin.

- Başqa nə xatırlayırsan?

- Sənə namə gətirən adamı öldürməyini. Anan və qardaşın dedi ki, nahaq öldürdün onu. Birini sağ buraxdın, amma salamat yerini qoymadın, söyüb-buladın, sənə məktub yazan oğlundan imtina etdin, anasına fahişə dedin.

- Kimiydi anası? Cavidanın arvadımı?

- Yox, o deyildi, Banu qabaqca ölmüşdü.

- Bəs kim idi?

- Onun anası sənin əsirin olmuşdu, götürüb özünə arvad eləmişdin. Anan həmişə deyərdi ki, ondan sənə haray olmaz.

- Anamı və qardaşımı necə xatırlayırsan?

- Gözümün qabağına gəlirlər. Təkgöz bir qarıydı anan, firiştə idi.

- Firiştə?

- Hə, firiştəydi, ərəblər deyirdilər fitnəni o ifritə salıb.

- Bəs qardaşım?

- Bir qarından çıxmışdınız, sənin kimi qorxmazıydı, amma ciddilikdə sənə oxşamamışdı, lağlağıydı, yatanda da gülərdi, başı Bağdadda körpüdən asılanda da dişləri ağarırmış. Sənin qardaşından çox istədiyin adam varıydı.

- Kimiydi?

- Azin! Son döyüşdə öldü. Onun ölüm xəbərini eşidəndə qardaşına vəsiyyət elədin ki, xürrəmlərə de, bir də dünyaya gələndə adımı Azin qoysunlar.

- Qardaşım vəsiyyətimi xürrəmlərə necə çatdırdı?

- Lağlağıya salıb bir dehqana salam göndərdi.

- Dehqan kim idi?

- Tarkanın atası.

- O indi haradadır?

- Baş Bəyin kəfənini qoruyur!

- Goru varıydımı, kəfəni də ola?

***

Ölülər xəcalətindən yerə girmişdi, ağzıgünə qalan otlar dizəcən uzanmışdı. Ağ qayanın şərqindəki qədim qəbiristanlıqda Qayane basdırıldığı məzarı xəlvətcə Elofa işarə etdi. Elof abidənin şəbəkəsini keşişə göstərib “bu olacaq” dedi. Keşiş xaçdaşı duzdan betər yaladı.

- Ara, xəzinəni ara, eş goru, görək nə çıxır!

- Yox, olmaz, qəbri açmaq olmaz. Bu iş burada bitər! Məzar açılsa, yatanın ruhu bir də qayıtmaz dünyaya.

- Əşi, sən nə qoyub, nə axtarırsan, qayıtmır cəhənnəmdən qayıtmasın, gordan qayıtmasın, özün fikirləş, ara, Səhl Sumbat Afşinə xəbər göndərdi, ov adıyla Babanı ələ verməyə apardı. Buzbar, Əbu Səid, Sacın dəstələri Baş Bəyi araya aldılar. Əmr etdilər: “atdan düş!” Baban Buzbardan soruşdu:

- Siz kimsiniz?

Buzbar Afşinin sərkərdələrindən olduğunu dedi. Baban əlindəki qızılquşu havaya buraxdı, onun pərvazlanmasına, göy üzündə süzməsinə baxdı, atdan düşdü. Səhl Sumbatın sifətinə tüpürdü:

- Sən məni çox ucuz satdın, istəsəydin, özümü səndən daha baha qiymətə alardım.

Babam tələsdiyini onda anladı. Başına-dizinə döydü. Babanın öz xəzinəsini Bəzdən ayrı yerdə gizlədəcəyini ağlına gətirməmişdi. Yadına düşdü ki, Baban onun çobanından satın aldığı qoyunun pulunu artıqlaması ilə ödəyib. Xoruzun quyruğunu babam onda gördü, Baban pula pul demirdi, Bizansa getməyə, orada bəy kefində dolanmağa, qayıdıb qoşun toplamağa, qala tikməyə parası vardı. Arvadlarını Afşinin düşərgəsindən qaçırtmağa verdiyi pullar kisəsinin dibindəkilər deyilmiş. Babam Babandan aldığı o pulların, bəxşişlərin yarısını Afşinin hərəm ağasına vermiş, onun əsir qız-gəlinlərinin çoxunu azad eləmişdi. Baban Sirounu- II Vasağın qızını dərhal dədəsinin xarabasına göndərmişdi, babamın boğazı əldə qalmışdı- Afşin Samirəyə qayıtmağa hazırlaşanda onu öldürmək istəmişdi.

- Səhldən çıxmaz iş, nə yaxşı Sirounun qəsrini yağmalamadı?

- Ortada Feofob vardı, Bizansda hörmət-izzət sahibiydi, Ağ qayanı Siroundan alsa, Konstantinopol ipini kəsərdi, bədəbəddə imperatora sığınmağa əl yeri saxlayırdı. Feofob kükürd küpünü göndərəndə babamın iştahı şirəyə batmış dişinin altından sıçradı, damağı qanıxmışdı, qandallayıb babanın buynuzlarının altından keçirməsəydilər mütləq tapıb yeyər, üstündən də su içərdi, nə bilmişdin, babamın babana borcu yoxdur ki, küpünə qaravul çəkə? Ölmüşdü Xankişi! Xəzinənin yerini bilmirik, yerini. Mən ölü, sən diri, kələfin ucu külçələrə gedib çıxacaq, qaz bu qəbri!

Elofu inad edir, keşiş onun damarını yumşaltmağa çalışırdı. Babanın törəməsi iki ayağını bir başmağa dirəmişdi. Daşı ətəyindən töksə, Xorenyan qayıdıb, həm maşına baxar, həm də yemək-içmək və külüng gətirərdi- goru qazmağa əlləri boşuydu. Yüz fikir bir borcu ödəmirdi. Ona hədə-qorxu kar eləməzdi, qaş qayırdığı yerdə göz tökərdi. Sirounu qızıla tutmamışdılar, uzaqbaşı xəndəkdən xəzinənin yolunu göstərəcək bir işarə çıxacaqdı, o işarənin Berdzordakı yol göstəricilərindən fərqini Elofun varlığı və xəzinəni tapmaq istəyi yaradırdı. O da bildiyindən qalmırdı. Vasağın qızını bəxtəvərçilik basmışdı, Baban doşab almışdı, bal çıxmışdı, sürmə olmuş sümüklər lələ qiymət oxuyurdu. Qızına baxdı. Cındırından cin ürkürdü, əyin-başı cırılmışdı, hər yeri çöldəydi. O gələnə qədər yeyərdi Babanın başını. Qızına ermənicə "mən maşına tərəf gedirəm, bunu razı sal" dedi, cavabı xaçdaşın dalından, atasının səsiylə eşitdi:

- Sən həmişə zırrama olmusan!

Keşiş səksəndi. Yepiskopun əlindəki daş yanındakı dazbaş dığanın qoltuğundan sallanan "Kalaşnikov"dan çox gözünü qorxutdu. Elofun dünya vecinə deyildi. Süzən qızılquşlara baxırdı.

-Ona denən qazsın!- Qayaneyə kaftar əmr elədi.

Yepiskop əmri oğluna türkcə verdirməməklə əliavtomatlını Elofun milliyətindən duyuq salmaq istəmirdi.

Qayane babasının əmrini tərcümə etdi. Elof yepiskopa kankanlığa lazım olduğunu başa düşdü. Saymazyana dazbaş dığanın tulladığı əsgər belini ayağıyla külüngə sarı itələdi.

Dazbaş dığa avtomatı ayağa verib yepiskopa baxdı. Yepiskop əlindəki daşı xaçdaşın ortasına çırpdı:

- Küçüyə denən ayağa dursun!

Qayane ingiliscə:

- Hansı küçüyə?- soruşaraq dazbaşın ingiliscə bilmədiyinə arxayın oldu. Elofa sakit-sakit başa saldı:

- Dur, qaz, qəbir boşdur! Mən evin tək qızıyam, burnum qanasa nəslini kəsərlər o dazbaşın. Onu qəzəbləndir və yaxına gətirməyə çalış, mən boynuna atılanda avtomatı əlindən al!

Elof külüngü götürdü. Külüng torpaqdan Elofun gözlədiyi səsi çıxartmadı. Dazbaş dığa dala qatlandı. Xorenyan lüləsinə səsboğucu taxılmış silahını Elofun qabağına tulladı:

- Qazmaq istəmirsənsə, qazma!

Yepiskop ürəyini soyutmağa söz tapmırdı. Ot yolurdu. Oğlu bic-bic Elofa baxırdı. Onu tələyə salmaq istəmişdi, tapançanı verib, avtomat götürmüşdü. Dığanı "uf" demədən öldürən gözünü qırpmadan darağı dədəsinin də qarnına boşaldardı. Elof şirəyə gəlmədi. Keşişin ağlının indiki məqamda iti işlədiyini başa düşürdü, eyni zamanda, yepiskopun xəfiflədiyinə də inanmırdı. İşlərin bu yerə gəlib çıxacağını hesablamamışdılarsa, yaxud kələyi ata-bala birlikdə qurmamışdılarsa, yepiskopa silah çəkdirən nə isə olmuşdu, keşişin Elofu lazımsız edən hadisədən xəbəri yoxuydu. Əlini saxlamadı. Külünglə yeri yumşadır, daşları çıxardır, bellə torpağı kənara atırdı.

Keşiş umsuq olmuşdu. Məzardan qara muncuq da çıxmamışdı. Yepiskop tərs-tərs oğluna baxırdı. Elof onların arasında gedən söhbəti başa düşmürdü, öz dillərində danışırdılar:

- Dəlləkliyə gedib pülüksüz qayıdandan aldığımız kriptoqramı oxudum. Alban əlifbası ilə, kilit dilində yazılmışdı.

- Hansı dildə???

- Hər yola əl atıblar köpəkuşağı, Kilit Ordubadda balaca kənddir, dillərini iki yüz adam bilə, ya bilməyə. Sirr qorumaq asan gəlməsin sənə.

- Nə yazılmışdı?

- Yazılmışdı ki, səfeh oğulun boynunu yerə soxum!

Xorenyan cavab qaytarmadı.

- Babanı burada basdırıblar, zırrama, Babanı!

- Babamı? Hansı babamı?

- Babanı yox, Babanı! Onun babasını! Sürsümüyünü də yox, qılınc-qalxanını.

Keşiş məsələni anladı. Xürrəmlər gorsuz adamın canlanmayacağına inandıqlarından Babana kenatof qəbir düzəltmiş, qalxanını, qılıncını, dirsəkliyini, zirehini, atının üzəngisini dəfn etmişdilər.

- Bu gədə bizə lazım deyil daha!

- Niyə?

- Yaraq-yurağın yanına tısbağa çanağı da basdırıblar. O çanağa Babanın möhürünün yeri həkk olunub.

Qayanenin ürəyi düşdü. Tısbağa çanağına xəritə çəkdirdiyini xatırlayırdı, möhürün yeri isə yadına gəlmirdi.

- Tutaq ki, çanağı tapdıq, möhürü saxlayana nə verəcəyik?

- Möhür sənin arvadındadır!

- Tsitsernavanklı Asyada??? Ola bilməz!

-Az sorğu-sual elə, biqeyrəti görəndə ətim ürpəşir, başını ək, tez rədd elə onu gözümün qabağından, ASALA başına pul qoyub.

Keşiş sağ əlini yerə basıb qalxmaq istədi, ağzını doldurub açdı, açdığını yuma bilmədi. Qan keşişi boğdu. Özünü oğluna atan yepiskop səndələyib yıxıldı. Qayane qışqırdı. Ora-bura baxdı. Elofun tükü də tərpənmirdi. Ölülər qorxusundan yerə girmişdi, ağzıgünə qalan otlar dizəcən uzanmışdı. Keşişi ilan vurmuşdu.

- Baban mənə yaxşı olmuşdu!- Qayane yerdə zarıyan babasına dedi- təkcə ərlik eləmədi mənə, atamdan, qardaşımdan irəli oldu!

Yepiskop onu didmək istədi. Donu əlinə gəldi. Qayane Elofu Baş Bəyin kenatof məzarına dartdı: "Bu xaçdaş sənindir, Elof!"

Elof bazalt daşdan kəsilmiş xaçdaşa baxdı. Xaç ortasınacan torpağa batmışdı. Üst-başını sarı mamır basmışdı. Əbədiyyəti əks etdirən günəş simvolunu mamırdan təmizlədi.

- Niyə soruşmursan hanı sənin Sirounun?

- Hanı Sirounum???

- "Sari siroun yar.... "- Qayane həzin bir erməni nəğməsi oxudu.

***

Anasının gətirdiyi mavi paltar Qayanenin rənginə düşürdü. Tsitsernevanklı Asya əlinə keçəni xurcuna yığmışdı, Əli bulağının başında dürmək düzəldib yedilər. Asya da Qayane kimi keşişin və yepiskopun ölümünü soyuqqanlı qarşılayırdı.

- Mən Sizinlə getməyəcəm, qalıb meyitləri aparacam!

- Belə olmasını istəməzdim, Qayane atasız, Siz dul qaldınız ucbatımdan.

- "Su sənəyi suda sınar!"

- Həyatın davam eləməyə həmişə səbəbi var, "su axır, çuxurunu tapır"- verdiyi cavabla Elof Tsitsernevanklı Asyanın Qadın Azadlıq Yolçuları Andlılarından olub-olmadığını dəqiqləşdirmək istəyirdi, keşişin arvadı atalar sözünü təsadüfən də işlədə bilərdi.

Qadın əlini hulqumuna çəkdi:

- Qadın Azadlıq Yolçuları Andlıları adından sənə bəzi şeylər deməliyəm.

- Buyurun, dinləyirəm!

- Təşkilat Babanın möhürü olan üzüyü günümüzəcən qoruya bilməyib. Buna görə Sizdən dönə-dönə üzr istəyirik, üzüklə bağlı qərarımızı düz başa düşəcəyinizə ümid edirik.

Tsitsernevanklı Asya çox mədəni danışırdı, görüb-götürmüş qadın olduğu şəksiziydi.

- Qadın Azadlıq Yolçuları Andlıları Babanın üzüyünü Şah Abbasa göndərərək ondan Ağ Qayanı qorumağı xahiş etdilər. Tapdığın çanağa çəkilən yerdə möhür-zad yoxdur, özünü yorma. O möhürü başında oturduğun bulağın novu əvəz edir.

Elofun yadına "Babalı" Muxtarın danışdığı rəvayət düşdü. Həzrət Əli Qaragöldən Ağ qayaya daş atmış, daşın düşdüyü yerdən su axmışdı. Həzrət Əli Azərbaycanda olmamışdı, Babək isə məmləkəti qarış-qarış gəzmişdi, Sünikin dadına çatmışdı. Xalq Babəki Əlinin adıyla yaşatmışdı.

- Mən Babəkin kəfənini almağa nə aparmalıyam? Bu novumu?

- Yox, Babəkin doğranmış cəsədinin doldurulduğu öküz dərisini almağa "Ağ kitab"ı aparacaqsan! Amma bəribaşdan sənə deyirəm, öküz dərisinə xəzinə yeri-zad çəkilməyib!

- Bəs nə yazılıb?

- Sadəcə, "T" hərfi!

- ...

- Xahiş edirəm onu yazana deyəsən, buralar nə Berdzor deyil, nə də Laçın! Alban torpağıdır! O albanların yarısı türkləşib, yarısı erməniləşib, iki millətə qaynayıb-qarışmışıq, iki milləti qaynadıb-qarışdırmışıq. İndi nə fərqi var kim türkdür, kim erməni, kim alban. Dəyərlərimiz eynidir, abidələrimiz şərikdir, hətta qanımız birdir. Ermənilər albanların bütün mədəni irsini öz adına çıxırlar, sanki bu torpaqlarda biz yaşamamışıq. O zaman türklər də öz keçmişini yada salmağa başlayırlar, bağışla məni, siz də son vaxtar ermənilərə oxşamağa başlamısınız. Onların bütün tarixini ya öz adınıza, ya da albanların adına yazırsınız. Guya ermənilər yad planetdən gəliblər. Sözüm onda yox, kim

haradan gəlir-gəlsin, dünya bizim hamımızındır, dəfələrlə gələcəyik bu dünyaya, elə yaşamalıyıq ki, yenidən doğulanda daha firavan dünyaya açaq gözümüzü, ruh girdiyi bədənin nə dərisinə baxır, nə gerisinə... Gör nə deyirəm oğlum, Baş Bəyin kəfənini saxlayana çatdır ki, bu yerlərin tarixini təzədən yazsın və yazmağa gördüyün o təpənin dalından- Girdiman dərəsindən başlasın.

- Sizə bir sual verə bilərəm?

- Məmnuniyyətlə cavablandıraram!

- Qayane olmasaydı, Baş Bəyin və Sirounun məzarını tapa bilməzdim, arada boşluq buraxılıb...

-Yepiskop Vasağın xəzinəsi ələ keçirmək üçün Ağ qayanı hələ sovet hökumətinin vaxtında partlatmışdı...

***

Mətin Axış, ay Mətin Axış, adımı dübarə söyləməkdən həzz aldım, gör haralara gəlib çıxmısan? Gəncədə küçəbaşındakı eviniz hara, Kopenhagenin pəncərələri meşə və dəniz mənzərələrinə açılan Quality Marina Hoteli hara? Dörd ulduzlu oteldən çıxıb limana gələn gəmilərin fit səsini qarşılamağa gedirdim. Fit səsi gəmilərdən, gəmilərin gətirdiyi adamlardan qabaq çatır limanlara, əzizlərini qarşılamağa gələnləri xəyaldan, söhbətdən ayırır, tələsdirir, hətta sahilə niyə gəldiyini unudanların yadına salır sərnişin gözlədiyini və canlanan vağzalda məhz onu qarşılamağa dayanmış quruca çöp də tapmır. Çoxdan arzulayırdım limanda qoca gəmiçidən eşitməyi:

- Mən ömrümü gəmiyə qoymuşam, hərdən gəlib keçmişimin lövbər atmağına baxıram. Sən kimi gözləyirsən, valideynlərini, ya dostunu? Məndən gizlətməyə bilərsən, axı ay xatakar, mən də cavan olmuşam, mənim də sevgilim olub, mənə də sovqat göndəriblər...

- Yox, üzr istəyirəm, mən nə gəmi gözləyirəm, nə adam, nə də sovqat...

- Bəs nə işin var burada?

- Mən gəmilərin fit səsini qarşılamağa gəlmişəm....

- Mən ömrümdə gəmilərin fit səsini qarşılayan adam görməmişəm! – kişi inanmaz və məni cibgir zənn edib aralanar...

Vədbeyk limanında irəlilədikcə yadıma Fateh Mirzə düşürdü. Ölsəm də yadımdan çıxmaz, Fateh Mirzəydi, Azin Kürəçiydi, Məti Naxışıydı, məniydim, Cahandar Bayoğlunun ofisindən çıxıb Fəvvarələr meydanına düşürdük, cibimizdə pulumuz, getməyə yerimiz, axşama yeməyimiz, səhərə gümanımız, fikrimiz-zikrimiz, ümumiyyətlə, heç nəyimiz yox... Qabağımıza meyarlarını bəlli olmayan Ədalət Basarkeçərli çıxdı. Soruşmadı necəsiniz, hara gedirsiniz, əlimizi sıxdı: "bu dünyada dörd nəfər var ki, **HEÇ HARAYA GEDİRLƏR**..."

Heç haradan Kopenhagenə gəlib çıxmışdım. Kopenhagendə Əsl Yolçulardan "Axınçı" dərəcəsi alacam, **QƏM ŞAMININ SÖNDÜRÜLMƏSİ** mərasiminə qatılacaqdım. Hə, Mətin Axış, **v**axt varıydı Fateh Mirzə sənə "Qan və Üz" cəmiyyətindən danışanda ağzın ayrıq qalmışdı, indi lojanın rəhbərliyinə seçilirsən- bilmirdim fərəhlənim, ya kədərlənim:

- Yox, gərək belə olmayaydı, Fateh o qəzada ölməyə layiq deyildi!

Həmin gün Aynanın yanında görüşüb "Büllur"a tərəf getdik. Qəzetimizin manşeti xoşuna gəlmişdi, ona Ədalət Basarkeçərlinin sözünü xatırlatmışdı. İdeya Məti Naxışdan gəlmişdi.

Məti Naxış tələbə yoldaşımızıydı, dostum, rəqibim, düşmənim olduğu bilinməzdi. BDU-nun jurnalistika fakültəsində bir qrupda oxumuş, "Çağırış" qəzetində bir

gündə işə düzəlmiş, eyni əmrlə redaktor təyin olunmuşduq. Belə baxanda taleyimiz bir idi, günümüz-güzəranımız eyni idi, di gəl, fikirlərimiz üst-üstə düşmürdü. Siyasi icmallar yazardıq. İqtidarın əleyhinə mən yumşaq yazanda, o sərtləşərdi; mən qeyzə gələndə, o muma dönərdi. Mən Müsavat Partiyasını dəstəkləyərdim, o AXCP-ni. Partiyasının parçalanması onun imicini korlamışdı, Xalq Cəbhəsi dəstə-dəstə müşrüklərə, münafiqlərə, əxilərə, sufilərə, cəfərilərə bölünmüşdü, məlami təkcə o çıxmışdı. Məlami çevrilməyi bacarırdı, yeri gələndə, öz əleyhinə də çıxırdı. Özünü kəskin tənqid edən yazılar yazardı, qəzetdə kollajını verərdi, qorxmazdı belə şeylərdən. Fateh bizə "iki üzlü Yanus" deyərdi. Siyasi prosesləri birlikdə təhlil etməyimizi, oxunaqlı materiallar hazırlamağımızı, altından "İKİ ÜZLÜ YANUS" imzası qoymağımızı çox istəyirdi. Onun arzusunu gerçəkləşdirə bilmədik. Ölkədə bizim fikirlərimizi üst-üstə salan proseslər getmirdimi, biz proseslərə eyni açıdan baxa bilmirdikmi? Bu məsələdə də düşüncələrimiz fərqlənirdi. "Fərqlənməyi yaxşıdır, fikri üst-üstə düşən iki nəfərdən biri artıqdır dünyada"- Fateh Mirzə bizi ələ salardı.

Səhər toplantısında Baş redaktorumuz Jet xanım- gülməli adı vardı- dedi ki, adını söyləməyən həriflər redaksiyaya zəng vurublar, başımızın bədənimizə ağırlıq etdiyini söyləyiblər və bizi qələmi yerə qoymağa çağırıblar. Hədəsiz günümüz yox idi, öyrəncəliydik, metroda qatarları xəttdən uzaqda gözləyir, avtobusda hamının üzünə baxır, tanımadığımız adamlarla ünsiyyətə girmirdik. Baş redaktorumuz "Çağırış"ın son sayını hazırlamağı tapşırdı. Kərəmi ağlamaq tutdu. Mən oxuculara "Meydana axırıncı çağırış" başlıqlı bir müraciət yazmağı təklif etdim, Məti razılaşmadı:

- Özünü yorma, meydana çıxan olmayacaq.

- Nə təklif edirsən?

- Üzeyir Hacıbəyovun "Heç nə" pamfleti yadındadır?

- Əlbəttə, yadımdadır, yazır Avropada qəzet bağlansa, dünya dağılar, Azərbaycanda isə heç nə olmaz.

- Gəl, onu verək.

***

Həmişə "Gənclik" parkında qoşa gəzişir, "Büllür" kafesində sərin havalarda çay, isti günlərdə pivə içərdik. İşsiz qalandan hər axşamüstü orada görüşür, çıxacaq axtarırdıq. Hər ikimizin qərarı ölkədən çıxmaq idi. İsveçə getmək istəyirdik. Sənədlərimizi vizaya verdik. Məti Naxışın sənədləri qaydasında olmadığından götürmədilər. Pasportunun müddəti bitmişdi, Dövlət Təhlükəsizlik Nazirliyinin əməkdaşları redaksiyanı boşaldanda şəxsiyyət vəsiqəsi yoxa çıxmışdı. On gündür rayonda şəxsiyyət vəsiqəsi düzəldirdi, Bakıya dünən gecə qayıtmışdı. Mən Fateh Mirzəylə Aynanın yanında görüşüb parka girəndə "Büllur"un qabağına çoxdan çatmışdı, dalbadal çağrı verib bizi tələsdirirdi.

Qaş-qabağı yerlə gedirdi, üsyana qalxmışdı, qırıb-tökürdü məmurları ürəyində. "Dilim-dodağım quruyub, gedək pivələyək"- salamsız-kəlamsız dönüb getdi-susuzluğunu yatırmaqdan çox, deyəsən, dərdini danışmağa adam axtarırdı. Zeytun ağacının altındakı masada oturduq. Ofisant sərin pivə və isti noxud gətirdi. Məti pivəni başına birnəfəsə çəkdi. Tanış ofisanta sifariş verdi:

- Eyvaz, sən o arpa tarlalarının- sağımızda oturmuş gözəlləri göstərdi- bərəkəti birini də gətir.

- Sən mənim ölmüşüm "Demeter" pivəsi içməyək-Fatehə ilişdim, Eyvaz başa düşmədi:

- Dəmirdən istəmirsinizsə, beş litrlik taxta çəlləkdə yaxşı pivəmiz var, gətirim.

- Bakıda pivəyə su qatıb verirlər, rayonda suya pivə!-Məti Naxış rayondan çıxa bilmirdi, qəfildən coşdu:

- Xəbəriniz olmadı, yığdılar ey məni boğaza, almadığım arayış, ödəmədiyim cərimə qalmadı, hansı qapını açdımsa, şirinlik istədilər, axırda hərbi komissarlıqda baş leytenanta dedim ki, uşaq vaxtı nənən səni parçabiçdiyə aparıb? Dedi "hə", soruşdum: ay yoldaş baş leytenant, gör mən oradakı nəmər yazan arvada oxşayıram sənə şirinlik verim?

Pivə parçı gülməkdən qırıldı. Ofisant Fatehə təzə pivə gətirəsi oldu.

- Hamısına şükür... Min dəfə şükür... Pasport masada çalışan mayor öz rəisini gözləyir, onsuz mənə vəsiqəsi verə bilməyəcəyinə and içirdi. Rəis gəldi və mənə daha öz yanından əlli manat cərimə kəsdi. Qələt eləyib cəriməni hansı banka keçirəcəyimi soruşdum. Rəis başladı, nə başladı:

- Sən göydən gəlmisən, ə? Hər həftə rəis çağırıb hesab istəyir, dədəmdən alım verim, ə? "İç xəbər"də göstəriblər heç dədəmin qapısında neft fontan vurduğunu? İstəmirdinsə xərcin çıxa, canın çıxaydı, pasportunu möhkəm yerə qoyaydın. Ə, yoldaş mayor, bına niyə əməlli cərimə yazmırdın, ə? İki yüz manat cərimə ödəsəydi, mən də bırda çənəmi yormazdım.

Yoldaş mayor "Ə" jurnalist olduğumu və guya qələmimə hörmət edərək yuxarı həddə cərimə yazmadığına and-aman elədi. Rəis duruxdu. Hansı qəzetdə işlədiyimi soruşdu. "Çağırış" qəzetinin redaktoru olduğumu biləndə xoruzlandı:

- Ə, o böyüklükdə şəxsiyyətlərə hörmət etmirsiniz,- divardakı portretlərə baxdı- möhtərəm Prezidentimizin uğurlu daxili və xarici siyasətinə rişxənd edirsiniz, əleyhinə gündə min cür şər-böhtan yazırsınız, ölkədə gedən quruculuq və abadlıq işlərini görmürsünüz, dövlətçiliymizə zərbə vurursunuz, dinəndə halallıqdan, təmizlikdən, dürüstlükdən danışırsınız, maa rüşvət təhlif edirsən? Rüşvət təhlif edirsən ki, sənə qanunla müəyyən edilmiş müddətdən tez vəsiqə

verim? Sizin hamınızı dama basmasaq, Azərbaycan düzələn deyil. Siz ölkəni xaosa sürükləyirsiniz!

Qəzetin bağlanmasından xəbəri olmayan rəis “dama basmaq” məsələsində ciddiləşə bilərdi. Onların əlindən saxta protokol yazmaq, insanlara şər atmaq, məsum vətəndaşların cibindən nəşə tapmaqdan yaxşı nə gəlir?

Rəis pulu alıb siyirməyə atdı. Oradan haqq-hesab dəftərini çıxardı, ayın o günkü gününə adımı yazdı, qabağıma üstəgəl qoydu. Siyahıda adının qarşısına çıxaq işarəsi qoyulanlar da vardı, **ONLAR AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞININ ŞƏXSIYYƏT VƏSİQƏSİNİ NİSYƏ ALANLAR İDİ.** Bəzilərinin önünə toyuq, hinduşka, qaz şəkli çəkilmişdi. Rəis məni qazlamağından məmnun qalmışdı, gözü gülürdü:

- Qaqa, hamımız sizin cəsarətinizə, əqidənizə, vətənpərvərliyinizə pərəstiş edirik. Ə, hərdən bizdən də yazın dana. İnanın, biz də rahat nəfəs almırıq bu paqonların altında. Əcir çəkirik hamımız, əcir. Ə, havax yıxassınız bınnarı?- əliylə divardan asılan portretləri göstərdi- canın hakkı, sənin dəstəklədiyin o müxalifət lideri var ha, adını çəkmirəm, özün bilirsən hansını deyirəm, bax o, prezident olan gün qağan saa ürəyin istəyən qonaxlıx verəjək. Saa qonaxlıx deyirəm ey... Bazdıxnan aran nətərdi, ə? Qağan saa Mingəçöyürdən mamılı-matanlar gətizdirsin, qukla! Ə, mən gərək indi rəis olaydım, əlimin altında yekə rayon olaydı. Kimdi ə, məni rəis qoyan bınnarın vaxtında? “İç xəbər”də göstəriblər heç dədəmin qapısında neft fontan vurduğunu? Ömrüm boyu paspırt istol işləsəm, rəis keşməyə pul düzəldəmmərəm. Umud yenə sizə qalıf, ə, bir tərpənin dana, qırmıyın bir-birinizi, yıxın bunnarı!- əli ilə divardakı portreti göstərdi...

- Gərək ona deyərdin ki, qaqa, əlli manat xərci var yıxmağın!..- Fateh Mirzə replika tulladı və mənim işlərimlə maraqlandı:

- Axış, səndə nə var, nə yox?

- Yaxşı deyil, -olanı dedim- İsveç səfirliyi viza verməkdən imtina elədi.

- Nə dedilər?- Fateh soruşdu.

- NO VİZA!

- Bəs Loviza?

- Əgər adına ev yox, maşın yox, bankda pul yoxdursa NO VİZA, səni Avropaya buraxmaq olmaz.

- Bu da güvəndiyimiz dağlar!- Məti Naxış əlini dizinə vurdu.

- Sən bizim günümüzə bax, qağa, qaçmaq istədiyimiz dövlət pasport vermir, getmək istədiyimiz viza.

***

Yığışıb Fatehin yerinə getdik. Molla yasa gələnləri mərhumun günahlarını cavanlığına bağışlaması üçün Allaha dua etməyə çağırırdı. "Cızzz" pyesinin ilk hərfini yazandan mərhumun qır qazanlarının altını qalayıblarmış. Mən dua eləmədim, Fatehin cənnətə düşməkdən qorxduğunu bilirdim, mollanın arxasına asılmış rəsminə baxıb biləyimi üzümə çəkdim, nəbzimi öpüb, bayıra çıxdım. Yuliya Timoşenkonu ağlaşma otağına bir addımlığımdan apardılar. "Azadlıq"la "Inqilab"ın- Bakının iki mühüm prospektinin- kəsişdiyi yerdə taksiləri Ukraynanın Baş naziri Yuliya Timoşenkonun maşını ilə toqquşmuşdu. Fateh Mirzə hadisə yerində, Məti Naxış xəstəxanada ölmüşdü. Narıncı inqilabın simvolu Bakıya səfərini üç gün uzatmış, yasa gəlmişdi, Küt kəndi dünyanın gündəmindəydi, Fateh dünyanın ən dəbdə olan ölüsüydü.

Əcəl onları doyunca pivə içməyə qoymadı- qəfildən söz çıxdı ki, "Çağırış" qəzetinin Baş redaktorunu qaçırdıblar. Telefonunun cavab verməməsindən narahat olan valideynləri polisə və hüquq müdafiəçilərinə xəbər vermişdilər. Baş redaktoru çox arayıb-axtarmış və sorağını Bakının Kürdəxanı

kəndindən almışdılar. Qızı qaçırdıblarmış. Jet xanımı Süleymanovların nümayəndəsi qaçırtmışdı. Süleymanovlar Azərbaycanın məşhur feodal tayfalarından idi, "SÜ" seriyası ilə sürülən maşınların hamısı onlarınkıydı. Qəribə adətləri vardı, aldıqları qıza öz familiyalarını verməklə yanaşı, adının qabağına maşınlarının seriyasını da artırırdılar. Hüquq müdafiəçisi Novella Cəfəroğlu cəmiyyəti Jet xanımın qaçırılmasında siyasi motiv olmadığına arxayın etmək üçün İçərişəhərdəki ofisində mətbuat konfransı keçirirdi, ora gedirdilər, internetdə işim olduğundan mən onlara qoşulmamışdım. Fləş xəbərlər yayan www.canlan.ma saytının paparatsiləri qırmızı xalatda külafrəngidən ərinə əl edən Süjet xanımın şəklini çəkmişdilər, "Azadlıq"la "Inqilab"ın kəsişməsindəki qəzanın xəbərini də mən elə o portaldan oxumuşdum.

"Şadlıqlarda görüşək, Reyhan"- qrup yoldaşımla salamlaşdım. Məni görər-görməz ağladı. Qadın bəzən elə yerdə ağlayır ki, atası onu bağrına basmağa, kiritməyə qadir olmur. Qadın bəzən elə yerdə ağlayır ki, qardaşı onu bağrına basmağa, kiritməyə qadir olmur. Qadın bəzən elə şeyə ağlayır ki, əri onu bağrına basmağa, kiritməyə qadir olmur. Qadın bəzən elə vaxtda ağlayır ki, sən onu bağrına basmağa, kiritməyə qadir olmursan. Həmin an ona atasından, ərindən, qardaşından yaxın olsan da...

Fateh, Reyhan, Məti və mən BDU-nun jurnalistika fakültəsində oxumuşduq. Reyhan Ağdaşın Kükəl kəndindən idi. Atası Fərhad müəllim Bərdədəki texniki peşə məktəbində kürəçi-çilingər sənəti öyrənirmiş, yataqxana olmadığından sinif yoldaşı Nadirgildə qalırmış. Kolxozda işləyəndə, bəxtinə gün doğmuşdu, ali təhsil almış, babat vəzifələrdə işləmişdi, Nadiri unutmamışdı, onu uşaqlarına kirvə tutmuşdu. Reyhan qardaşı və əriylə birgə Küm kəndinə, kirvəsigilə gedirdi. Biz də Nadir kişiyə baş çəkmək istəyirdik. Televiziyalar

dayanmadan Azinin əleyhinə təbliğat aparır, onu gözdən salmağa çalışırdılar. Zahid adlı qonşularını polisə aparmış, barmağını qapı arasında qoymuş, televiziyaya çıxmağa, sarıqlı barmağı ilə Kürəçini hədələməyə məcbur etmişdilər.

Çala-çuxur kənd yolu bizi xeyli atıb-tutdu. Çathaçatda Nadir kişini gördük. Çardağın altında oturduq. Çay gəldi. Reyhan içmədi. Çardağın qırağındakı qızılgüllərdən bir qom yığdı. Azindən həmişə qızılgül gözləmişdi Reyhan. Universitet illərində onu bezdirən eşq elanlarını qardaşından gizləyər, Azinin ovcuna qoyardı. Liberalizmin gələcək müdafiəçisi ağına-bozuna baxmazdı o vaxtlar, davaya gedərdi. O, Reyhanı sevirdi, hamıdan, rastına çıxan bütün qızlardan çox sevirdi. Onun fərqini anlayır, zərifliyinə pərəstiş edir, ruhunu özünə doğma sayırdı. Bunu etiraf edə, özünə etiraf edə bilmirdi, arada kirvəlik səddi vardı, bəlkə o sədd bəhanəydi, Azin yaşayacağı təlatümlü həyatı görür, Reyhanı xoşbəxt edə bilməməkdən qorxurdu.

Bir gün, daha dəqiq desək, universitetdə buraxılış imtahanı ərəfəsində Reyhan onun təzəcə yaratdığı "Kürəsəl haqlar" Mərkəzinin balaca ofisinə təşrif buyurmuşdu. Bir az söhbət eləmişdilər. Söhbətlərinin şirin yerində Azini tədbirə çağırmışdılar. O gedən getmişdi, qayıdacağına söz versə də, gəlib çıxmamışdı. Reyhan gələn elçilərdən Azini xəbərdar edə bilməmişdi. O vaxtlar Məti Naxış Reyhana vurulmuşdu. Onu Azinə qısqanırdı. Qızla "okançatelni" söhbət eləmişdi, Reyhan könlünün Azində olduğunu boynuna almışdı.

Reyhan qızılgülü burnuna çəkirdi, sevginin iyini Azinin əkdiyi güllərdən alırdı. Azinlə danışmadan ərə getdiyinə peşman olmuşdu. Ağadadaş Ağayevə oxşayan, "Lexus" sürən ərində Azindəki buntarlıq yox idi. Belə baxanda, Reyhan həyatından narazı deyildi, sakit, hörmətli ömür sürürdü, intəhası, qəlbinin dərinliklərində həmişə Azinə ehtiyac duyardı. Onda bu ehtiyacı yaradan əri Zülfüqarın

dincliyi idi. Azin Zülfüqar olub icra hakimiyyətində işləməzdi, işləyə bilməzdi, "ümummilli lider" deməzdi, yaltaq tostlara ayağa qalxmazdı. Reyhan yaxşı bilirdi ki, Zülfüqar ürəyində kütləvi qorxaqlığa nifrət edir, bəlkə ailəsi, uşaqları olmasa dözməz, baş alıb Rusiyaya gedər, adamları alçaldan rejimə baş əyməzdi, hər halda ərinin özünə görə savadı, vicdanı varıydı. İcra başçısına cavab qaytara bilməyib bir dəfə səhərəcən Reyhanın dizində ağlamışdı. O gün ərini oxşamışdı, ilk dəfə əzizləmişdi Reyhan. O gün Azini ürəyindən çıxmağa qoymayan səbəbi bulmuşdu, üsyankarların liderlikdən, öndə getməkdən zövq aldıqlarını, inqilabçıların azadlıq adlı həzzə can atdıqlarını düşünmüşdü. Pianonun arxasına keçib "Ölməz cəngavərin himni"ni çalmışdı. Ölməz cəngavərlərin adi kişilərdən fərqli erkəkliyə, cinsi enerjiyə sahib olduqlarını anlamışdı. Kişiləri protestə, üsyana, azadlığa sövq edən ehtirasa dişi canavar ehtiyacı duymuşdu. O, Azinin zəhmini həmişə hiss etmişdi, onu yaşamaq istəmişdi. Reyhanın tükənməz dişisəlliyi onun lider kişiyə ehtiyacını həmişə ödənməz saxlamışdı. Zülfüqar lider olmaq iddiasına heç zaman düşməmişdi. Görəsən, kasıb ailədə doğulsaydı, atası rüşvət verib işə düzəltməsəydi, evini-eşiyini, altındakı maşınını əlindən alsaydılar kim olardı Zülfüqar? Xarakteri üsyan qaldırmağa, iddialarını cəmiyyətə təlqin etməyə, başqalarını ideyalarının arxasınca aparmağa yol vermirdi, Təhlükələrdən qorxurdu Zülfüqar. Həmid Herisçi ilə İlhamiyyə Rzayevanın sunduğu "Gecə kanalı"nda Azinin çıxışına qulas asan Reyhan azadlığın nə olduğunu kəşf eləmişdi. Azin Fridrix Hayekdən sitat gətirmiş, azadlığın təhlükəsizliyin ən yüksək forması olduğunu söyləmişdi, qorxudan sevənlərlə qorxmazlığı sevənlərin fərqini açmışdı:

- Qorxudan sevənlər azadlığı təhlükəyə qurban verir, qorxmadan sevənlər hər cür təhlükəni dəf etməyə, azadlığa-

bütün həzzlərin mənbəyinə, həzzləri şiddətləndirən, onu doyumsuz edən ana can atırlar.

Azinin yanında heç nədən qorxmazdı Reyhan. Həmişə tək qalanda, gözlərini yumanda, ehtirası qımıldayanda eyni xəyala dalardı. Şimşəklərin durmadan çaxdığı, yağışın dayanmadan süzdüyü, selin dərələri vəhşicəsinə ağuşuna aldığı anlarda uca dağ başında, zil qaranlıq kahada Azinlə tək qalmaq, gündüz çobanların yığdığı çır-çırpı ilə tonqal qalamaq və unudulmuş bir yapıncının üstündə sevişmək istəyirdi onunla. Qorxunu canından qovmaq, azadlığa can atan sevgisini Azinə vermək istəyirdi...

Bütün bunlar Reyhanın ürəyindəydi, nə dil-bilirdi, nə ağız. Onda heç kim bilmirdi ki, Azin Kürəçi gizli xürrəm cəmiyyətinin- "Qan və üz" adlanan konspirativ təşkilatın lideri seçiləcək, Baş Bəy titulu daşıyacaq. Onda heç kim ağlına gətirməzdi ki, Azin Kürəçi həbs ediləcək, yeddi il iş alacaq, Reyhan onun ziyarətinə gedəcək, qayıdıb ərindən boşanacaq, siyasi məhbusla kəbin kəsdirəcək, həbsdən çıxmağa şansı olmayan adama- özü də kirvəsinin oğluna getməklə bütün cəmiyyəti mat qoyacaq. Hamının əli üzündə qalanda o dişi canavar mənə e-maillə türmədə Azinə danışdığı əfsanəni yazmışdı:

- Qaranquş vurulduğu gənc oğlanın pəncərəsinə qonur və ondan evində yuva qurmağa izn istəyir. Oğlan qaranquşu qovur. Qaranquş gələn il bir də gəlir, oğlan yenə quşcığaza əhəmiyyət vermir. Ay dolanır, il keçir, təzədən peyda olan qaranquş sevgisini izah etməyə çalışır. Deyir ey insan, başa düş, sənə xoşbəxtlik, şans gətirəcəm... İnsan inanmır. Dördüncü il qaranquş xəbərdarlıq edir: "bu mənim son gəlişimdir, məni evinə burax!" Ev sahibi pəncərəni açmır. Qaranquş uçub gedir və qayıtmır. Oğlan quşcığazı soraqlayır və öldüyündən xəbər tutur. Özünə sual verir: "mən neçə

şansımı əldən vermişəm?!" O sualı mən Azinə verdim: "BİZ NƏ QƏDƏR ŞANSIMIZI ƏLDƏN VERMIŞIK?"

***

Əsl Yolçuların Kopenhagen toplantısının gündəliyində dörd məsələ vardı. Feofob yad olunacaq, ruhunun hansı canlıya keçəcəyi təxmin ediləcək, mənə "axıncı" dərəcəsi veriləcək, Baş Bəy seçiləcək, nəhayət, Qəm Şamı söndürüləcəkdi. Tədbir 21.21 dəqiqədə Kristianiya şəhərciyində təşkil olunacaqdı, mən dünəndən hazır idim.

Şəhərciyin girəcəyindəki bayrağın qırmızı ipəyi üç sarı nöqtəni dalğalandırırdı. Taxta lövhəyə "Christiania" yazılmışdı. Əsl Yolçular diskotekanı təsadüfən seçməmişdilər, ümumiyyətlə, xürrəm aləmində təsadüflər olmur, Kristianiya dövlətsizləşmiş muxtar rayon idi, ərazidə qanunlar işləmir, qaydalar yoxdur, polis mövcud deyil, insanlar bir-birinin azadlığına xor baxmırlar, istədiyin qədər içə, keflənə, əylənə, öz aramızda qalsın, rahatca aşağı dozalı nəşə alıb çəkə bilərsən, dükanlar doludur. Sxemə baxıb rəngbərəng evlərin arasından gedəcəyim küçəni tapdım. Dəvətnaməmi qapıda duranlara göstərib "Q-21" diskotekasına keçdim. İkisindən biri Karlsberq pivəsi və yüngül dozalı narkotik uzatdı. Pivəni aldım, nəşəni rədd etdim.

Sevda Ələkbərzadə "Şəbi-hicran" oxuyurdu. Ortalığa yekə bir şam qoyulmuşdu. Azin və Qayane gələnləri qarşılayırdılar. Qayane Stokholmda bir zamanlar Feofobun arvadı Yelenanın yaratdığı gizli qadın lojasına- Qadın Azadlıq Yolçuları Andlılarına rəhbər seçilmişdi. Əsl Yolçular tək-tək içəri girirdilər. Hamısı pivə götürmüş, xaşxaşdan imtina eləmişdilər.

Toplantı "Koroğlu uvertura"sı ilə açıldı. Tarkan qısa çıxış elədi:

- Bu gün QƏM ŞAMININ SÖNDÜRÜLƏCƏYİ GÜNDÜR! Hələlik o şamın işığında daha bir neçə vacib məsələ həll edəcəyik.

Mən "Axınçı" oldum. Alqışladılar. Azin Kürəçi Baş Bəy seçildi. "Manovar" qrupu "Ölməz cəngavərin himni"ni çaldı.

***

Dörd ulduzlu Quality Marino Otelin dördüncü qatındaydım. Dörd gündür birgə yaşadığım Güneylə dənizə baxırdım. Dəniz kükrəyirdi. Yadıma Dübəndi düşürdü. Bir qış Fateh, Azin, Məti və mən yığışıb dimdiyin ucundan dənizə baxmağa getmişdik. Yeməyə götürdüyümüz kolbasanı şaxtanın qılıncı ilə doğramışdıq. Şər qarışmışdı. Yarğanın başından Xəzərə baxırdıq. Yarğanın dibi görünmürdü. Dəniz kükrəyirdi. Dənizin harada qurtardığı, səmanın haradan başlandığı bilinmirdi. Göyün üzü qaraydı, dənizin üzü qaraydı, torpağın üzü qaraydı. Göy yox idi, qaraltısı varıydı. Dəniz yox idi, qaraltısı varıydı. Torpaq yox idi, qaraltısı varıydı. Bu dünyanın qaraltısı varıydı. Heç biz də yox idik, qaraltılarımız varıydı. Qaraltılarımızın əlindən tutduq. Ağız-ağıza verdik. Qışqırdıq: XƏZƏƏƏƏR! XƏZƏƏƏƏR! XƏZƏƏƏƏR! Xəzər ən iri qaraltısını göndərdi bizə...

Xəzər göl idi. Onun okeanla, dənizlə əlaqəsi yoxuydu, ətrafındakı ölkələrə okeandakı sunamilər, dənizdəki dalğalar gəlib çıxmırdı. Çıxsaydı Kristianiyanı tərk edərkən lövhəyə istehza ilə yazılmış "buradan çıxıb Avropa Birliyinə daxil olacaqsınız" bildirişi mənə respublikadan qaçıb krallıqdan sığınacaq almaqdan betər söyüş olmazdı.

Güneyə bacısı Quzeyi tələsdirməyi xahiş etdim. Quzey Qəm Şamı sönəndə Noğtayı seçmişdi. Noğtay islamdan imtina edib Baş Bəyə qoşulan türk sərkərdəsiydi. Həmişə saatdan geri qalırdılar. İşlərimiz çoxuydu, polisə getməli, Danimarka Krallığından siyasi sığınacaq istəməliydik.

Respublikadan qaçıb krallıqdan sığınacaq almağa getdiyimiz dar macalda Quzeyin güzgünün qabağında üzünə bir saat qara çəkməyini gözləməyə səbrim çatmadı, internetdə www.canlan.ma saytını açdım. Ölkə xaraba qalmışdı. Azin Kürəçi həbs edilmişdi! Dövlət Təhlükəsizlik Nazirliyi onun evində xəzinə xəritəsi axtarmışdı. İsveç diplomatı Loviza əxlaqsızlıqda suçlanaraq "persona-non-qrata" elan edilmişdi. Saytın rəsmən təsdiqlənməyən ehtimalına görə, o irəli Kopenhagendən Bakıya uçan təyyarənin gecikməsinə səbəb hava limanında PET-in Azin Kürəçini Bakıya qayıtmaq qərarından daşındırmağa çalışması olmuşdu. O, məhbəsi seçmişdi.

Mən kompüteri söndürmək istəyəndə sayt qaynar xəbər yayınladı: "QHT sədrinin həbsinə etiraz edən siyasi partiyalar, media orqanları və ictimai təşkilatlar hüquq müdafiəçisi Novella xanımın təşəbbüsü ilə Kütləvi İnformasiya Vasitələri Evində toplanaraq birgə bəyanat imzalayıblar.

Səhər www.canlan.ma saytını internetdə görmədim, hakerlər onu dağıtmışdılar, "Dördüncü alma" qəzeti bu tələblə çıxmışdı:

**AZİN KÜRƏÇİYƏ AZADLIQ!**

**"Araz" nəşriyyatında 19.03.2009-cu ildə çapa imzalanıb və "YEK PRODİCTION" mətbəəsində çap olunub. Kitab pulsuz paylanıb.**

**49112346789**

**T ----------------------- QRİFLİ NƏŞR**

**050-2009**

***Əsərlə bağlı rəy və təkliflərinizi bu ünvana göndərə bilərsiniz:***

***azin_kureci@yahoo.com***